Abşeron iqtisadi rayonu

(*Abşeron, Xızı rayonları, Sumqayıt şəhəri*)

- **Abşeron**
- **Xızı**
- **Sumqayıt**

Abşeron

2014, 3 oktyabr

- Prezident İlham Əliyevin Abşeron rayonuna səfəri: Ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət
- Prezident İlham Əliyev Xırdalanda Heydər Əliyev Mərkəzinin açılışında iştirak edib
- Xırdalanda Heydər Əliyev adına mədəniyyət və istirahət parkında aparılan yenidənqurma işləri ilə tanışlıq
- Prezident İlham Əliyev Xırdalanda Bayraq Meydanında olub
- Xırdalandakı "Park Abşeron" əyləncə mərkəzi ilə tanışlıq
- Xırdalanda musiqi məktəbinin açılışı olub
- Prezident İlham Əliyev Xırdalanda şahmat məktəbinin açılışında iştirak edib
- Masazır qəsəbəsində yeni stadion istifadəyə verilib

2015, 28 oktyabr

- Prezident İlham Əliyev Ceyranbatan Ultrasüzgəcli Sutəmizləyici Qurğular Kompleksinin açılışında iştirak edib: Prezident İlham Əliyevin çıxışı

2017, 16 noyabr

- Prezident İlham Əliyev Xırdalan şəhərində ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edib
- Prezident İlham Əliyev Abşeron Olimpiya İdman Kompleksinin açılışında iştirak edib: Prezident İlham Əliyevin çıxışı
- Azərbaycan Prezidenti İlham Əliyev Abşeron rayonunda "Zəhmət-Ruzi" MMC-nin fəaliyyəti ilə tanış olub
- Abşeron rayonunun Masazır qəsəbəsində 5 nömrəli tam orta məktəbin açılışı olub: Prezident İlham Əliyev tədbirdə iştirak edib

2018, 13 avqust

- Prezident İlham Əliyev Abşeron Logistika Mərkəzinin açılışında iştirak edib

2018, 24 dekabr

- Abşeron rayonunda məcburi köçkün ailələri üçün salınmış yaşayış kompleksi istifadəyə verilib: Prezident İlham Əliyev mərasimdə iştirak edib: Prezident İlham Əliyevin çıxışı

Prezident İlham Əliyevin Abşeron rayonuna səfəri
Ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət
(3 oktyabr 2014-cü il)

Oktyabrın 3-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Xırdalan şəhərinə gəldi.

Dövlətimizin başçısı xalqımızın ümummilli lideri Heydər Əliyevin Xırdalan şəhərindəki abidəsini ziyarət etdi, önünə gül dəstəsi qoydu.

Abşeron Rayon İcra Hakimiyyətinin başçısı Zakir Fərəcov Prezident İlham Əliyevə rayonda görülən işlər barədə məlumat verdi.

AZƏRTAC
2014, 3 oktyabr

Prezident İlham Əliyev Xırdalanda Heydər Əliyev Mərkəzinin açılışında iştirak edib
(3 oktyabr 2014-cü il)

Oktyabrın 3-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Xırdalan şəhərində Heydər Əliyev Mərkəzinin açılışında iştirak edib.

Azərbaycan dövlətçiliyinin möhkəm əsaslar üzərində qurulmasında, respublikanın hərtərəfli inkişafında, ölkədə bütün sahələrin canlandırılmasında müstəsna xidmətləri olan ümummilli lider Heydər Əliyevin xatirəsinin əbədiləşdirilməsi məqsədilə mühüm layihələr reallaşdırılır. Bu tədbirlər sırasında dahi şəxsiyyətin adını daşıyan, onun siyasi irsinin öyrənilməsində xüsusi əhəmiyyət kəsb edən mərkəzlərin rolu böyükdür. Bu cür mərkəzlərdən biri də Abşeron rayonunda inşa olunub. Orijinal layihə əsasında tikilən Heydər Əliyev Mərkəzi Ümummilli Liderin xatirəsinə dərin ehtiramın parlaq nümunəsidir.

Mərkəzdə Ulu Öndərin həyat və fəaliyyətinin müxtəlif dövrlərini əks etdirən fotolar və eksponatlar yer alıb. Burada dünyanın nüfuzlu siyasətçilərindən olan ulu öndər Heydər Əliyevin Azərbaycanın beynəlxalq aləmdə nüfuzunun möhkəmləndirilməsi, bu böyük şəxsiyyətin həyata keçirdiyi məqsədyönlü siyasət nəticəsində müstəqilliyinin ilk illərində ölkəmizdə vətəndaş müharibəsinin qarşısının alınması, iqtisadiyyatın ağır böhrandan inkişaf yoluna çıxarılması, güclü ordu quruculuğu istiqamətində həyata keçirilən mühüm tədbirləri əks etdirən foto, kitab və digər vəsaitlərə geniş yer verilib. Ümummilli Liderin azərbaycançılıq fəlsəfəsinin təbliği, gələcəkdə Azərbaycan vətəndaşlarının dünyada gedən müasir proseslər çərçivəsində öz Vətəni, milləti və xalqının taleyi ilə bağlı genişmiqyaslı layihələrdə iştirakının təmin olunması, onların arzu və niyyətlərini gerçəkləşdirmək əzminin reallaşması baxımından mühüm əhəmiyyət daşıyan Heydər Əliyev Mərkəzinin inşası Azərbaycanın müasir reallıqlarını əks etdirir.

Prezident İlham Əliyev Mərkəzin rəmzi açılışını bildirən lenti kəsdi.

Dövlətimizin başçısı Ulu Öndərin həyatının və fəaliyyətinin müxtəlif dövrlərinin əks olunduğu fotolara baxdı.

Məlumat verildi ki, mərkəzin özəlliyini artıran mühüm amillərdən biri də burada interaktiv məlumat tablolarına geniş yer verilməsidir. Mərkəzdə Ümummilli Liderin xatirəsinin əbədiləşdirildiyi muzey də yaradılıb. Ekspozisiya zallarının hamısı zəruri avadanlıqla təchiz olunub. Mərkəzin funksionallığını artırmaq məqsədilə burada gənclər üçün müzakirə və diskussiya zalları qurulub, elektron kitabxana yaradılıb. Sərgi zalından əlavə, mərkəzdə linqafon, internet və rəssamlıq otaqları, fotostudiya və rəqs zalı da var. Yaradılan bu şərait gənclərin müxtəlif sənətlərin sirlərinə yiyələnməsinə, onların asudə vaxtının səmərəli təşkil edilməsinə geniş imkanlar açır.

Son illərdə respublikamızda fəaliyyət göstərən Heydər Əliyev mərkəzlərində yeni ailə quran gənclərin nikah mərasimlərinin təşkili kimi xoşməramlı tədbirlərə də başlanıb. Qeyd edildi ki, bu mərkəzdə də vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyatı və bununla bağlı mərasimlərin təşkili nəzərdə tutulur. 280 yerlik böyük akt zalı istifadəyə verilib ki, burada da rayonla bağlı bir çox tədbirlərin keçirilməsi üçün böyük imkanlar var. Bir sözlə, Ulu Öndərin zəngin siyasi irsinin öyrənilməsi üçün burada hər cür şərait yaradılıb.

Sonra dövlətimizin başçısı Abşeron rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdü.

Prezident İlham ƏLİYEV çıxış edərək dedi:

- İlk növbədə, sizi qarşıdan gələn Qurban bayramı münasibətilə ürəkdən təbrik etmək istəyirəm. Sizə, Abşeron rayonunun bütün sakinlərinə, bütün Azərbaycan xalqına xoşbəxtlik, yeni uğurlar arzulayıram. Bu gözəl bayram ərəfəsində bu gün bu möhtəşəm mərkəzi biz birlikdə açırıq. Heydər Əliyev Mərkəzi doğrudan da, həm xarici görünüşü, həm də daxili dizaynı baxımından zövq oxşayır. Gözəl binadır, burada Ulu Öndərin həyat və fəaliyyətini əks etdirən videomateriallar, fotoşəkillər, interaktiv lövhələr var. Müasir səviyyədə tikilmiş çox gözəl bir mərkəzdir. Mərkəzin yerləşdiyi meydan da abadlaşıb, gözəlləşib.

Mən əvvəllər də burada olmağımı xatırlayıram və görürəm ki, Abşeron rayonunda, Xırdalan şəhərində çoxlu işlər görülüb. Xırdalana şəhər statusu veriləndən sonra burada inkişaf daha da sürətli olmuşdur. İndi Xırdalan gözəl, abad şəhərdir və burada binalar tikilir, bərpa edilir, eyni zamanda, yollar salınır, sosial obyektlər inşa olunur, artıq Bayraq Meydanı yaradılıbdır. Bir sözlə, son illərdə Xırdalanın inkişafı çox sürətli olmuşdur və rayonda çox böyük işlər görülmüşdür. Yollar çəkilir, məktəblər, xəstəxanalar tikilir. Bir daha demək istəyirəm ki, bütün bunlar məni çox sevindirir. Çünki bizim əsas inkişaf istiqamətimiz sosial sahənin inkişafı ilə bağlıdır.

Bütün bölgələrdə, rayonlarda quruculuq işləri aparılır, şəhərlər abadlaşır və insanların yaşayış səviyyəsi yaxşılaşır. Bizim əsas məqsədimiz ondan ibarətdir ki, ölkəmiz daha da güclənsin, beynəlxalq mövqelərimiz daha da möhkəm olsun, insanlar daha da yaxşı yaşasınlar.

Bizim uğurlu inkişafımızın təməlini məhz ulu öndər Heydər Əliyev qoymuşdur. 1993-cü ildən bu günə qədər biz ancaq inkişaf yolu ilə gedirik. Ona görə Ulu Öndərin xatirəsini bu əziz bayram ərəfəsində biz böyük ehtiramla yad edirik. Biz Abşeron rayonunun timsalında Azərbaycanda aparılan iqtisadi, sosial islahatları görürük. Ümumiyyətlə, ölkəmizin sürətli inkişafı hər bir yerdə özünü göstərir. Əminəm ki, gələcək illərdə də Abşeron rayonunun inkişafı sürətlə gedəcək, burada bütün məsələlər öz həllini tapacaq, sosial problemlər bundan sonra da həll olunacaq.

Abşeron rayonu artıq böyük rayondur, 400 minə yaxın əhalisi var. Xırdalan şəhəri də böyük şəhərdir, 150 min əhalisi var. Əlbəttə ki, şəhərin gələcək inkişafı da diqqət mərkəzində olmalıdır. Çünki Azərbaycanda demoqrafik vəziyyət çox yaxşıdır, əhali artır, şəhərlər böyüyür. Şəhərlərin gələcək inkişafı ilə bağlı xüsusi plan tərtib edilməlidir ki, şəhərlər bundan sonra hansı istiqamətdə inkişaf etsin.

Əlbəttə ki, bizim bütün uğurlarımızın təməlində düşünülmüş siyasətimiz dayanır. İki həftə bundan əvvəl biz "Əsrin kontraktı"nın 20-ci ildönümünü qeyd etmişik. Əgər o vaxt "Əsrin kontraktı" imzalanmasaydı, bu gün bu uğurlardan söhbət açmaq mümkün olmazdı. Neft-qaz sektorumuzun inkişafı, gəlirlərin düzgün bölüşdürülməsi bizi bu vəziyyətə gətirib çıxarıbdır. Mötəbər beynəlxalq təşkilatların hesablamalarında Azərbaycanda bu sahədə görülən işlər yüksək qiymətləndirilir.

Dünən Bakıda IV Beynəlxalq Humanitar Forumu öz işinə başlamışdır. Forumda iştirak edən qonaqlar, beynəlxalq təşkilatların nümayəndələri, dövlət xadimləri Azərbaycanda gedən inkişafı yüksək qiymətləndirmişlər. Onlar öz çıxışlarında Azərbaycanda sosial sahədə, xüsusilə yoxsulluğun azaldılmasında görülən işlərə yüksək qiymət vermiş və Azərbaycanı nümunə kimi göstərmişlər. Həqiqətən bu, belədir. Çünki son 10 il ərzində iqtisadi inkişaf templərinə görə bizim ölkəmiz qədər inkişaf edən ölkə olmamışdır. Bütün bunlar xalqın rifahı üçün edilir.

Ölkəmizin həm beynəlxalq mövqeləri möhkəmlənir, həm sosial sahədə böyük işlər görülür. Dünən işə başlamış Forum artıq dünya miqyasında nadir bir müzakirə meydanına çevrilibdir. Bunu biz etmişik. Çünki bu gün Azərbaycan bu bölgənin həm iqtisadi, həm mədəni mərkəzidir və bütün bunları biz özümüz yaratmışıq. Bütün bunlar Azərbaycan xalqının zəhməti hesabına yaradılıb. Biz bunu qiymətləndiririk və gələcəyimiz də çox uğurlu olacaqdır. Çünki hazırda icra edilən infrastruktur layihələri, regionların sosial-iqtisadi inkişafına dair üçüncü Dövlət Proqramının icrası bizə əlavə imkanlar yaradacaq ki, - bu proqram 2018-ci ilədək başa çatacaq, - o vaxta qədər Azərbaycanda bir dənə də olsun icra edilməmiş infrastruktur layihəsi qalmasın.

O ki qaldı Abşeron rayonuna, burada işlər, qeyd etdiyim kimi, sürətlə gedir – həm sosial sahədə, eyni zamanda, abadlıqla bağlı böyük işlər görülür. Xırdalan şəhərinin siması tamamilə dəyişmişdir, indi gözəl, müasir şəhərdir və belə də olmalıdır. Çünki bizim bütün şəhərlərimiz gözəl olmalıdır. Azərbaycan xalqı buna layiqdir, biz də öz işimizlə çalışırıq ki, hər sahədə daha da yaxşı nəticələr olsun. Bu gün bir neçə obyektin açılışı gözlənilir. Onlar da çox önəmlidir. Xırdalan üçün yeni imkanlar açılır və əminəm ki, həm Abşeron rayonunun, həm də ümumiyyətlə, ölkəmizin sürətli inkişafı bundan da güclü olmalıdır və olacaq.

Bir daha qeyd etmək istəyirəm ki, Azərbaycanın əldə etdiyi uğurlar bu gün ən mötəbər beynəlxalq təşkilatlar tərəfindən yüksək qiymətləndirilir və bizim təcrübəmiz indi başqa ölkələrdə də öyrənilir. Bunu biz etmişik, biz yaratmışıq.

Bu gün mənim Abşeron rayonuna səfərimin məqsədi həm sizlərlə görüşmək, həm də yeni obyektlərin açılışında iştirak etməkdir. Biz möhtəşəm mərkəzin açılışını qeyd edirik. Əlbəttə, gələcək inkişafla bağlı əlavə tədbirlər görüləcək. Bu məqsədlər üçün həm rayon səviyyəsində xərclərdən, həm də dövlət büdcəsinin xərclərindən istifadə olunacaq.

Bir sözlə, biz çox sürətli temp götürmüşük və çalışacağıq ki, gələcək illərdə də bu tempi saxlayaq. Çünki hələ görüləsi işlər çoxdur. Sizi, Abşeron rayonunun bütün sakinlərini bir daha qarşıdan gələn gözəl Qurban bayramı münasibətilə təbrik edirəm. Sağ olun.

X X X

Saray qəsəbəsindəki 3 nömrəli orta məktəbin direktoru, əməkdar müəllim Təyyibə HÜSEYNOVA çıxış edərək dedi:

- Möhtərəm cənab Prezident.

İcazə verin, bu xoş gündə, bu əziz gündə Sizi Abşeron rayonunun bütün ictimaiyyəti adından ürəkdən salamlayım, Sizin Qurban bayramınızı təbrik edim. Qurban bayramı xalqımızın ən müqəddəs bayramlarındandır. Bu bayram bizim bərabərliyimizin, xeyirxahlığımızın simvoludur. O dövrün çətinliklərinə baxmayaraq, ümummilli liderimiz Heydər Əliyev bizim bütün milli mənəvi dəyərlərimizi, bütün milli bayramlarımızı qorudu, saxladı. Hətta milli bayramlarımızın dövlət səviyyəsində qeyd olunmasını təmin etdi. Azərbaycan xalqının əsrlərdən bəri ürəyində olan arzularını həmişəki kimi yerinə yetirdi.

Möhtərəm cənab Prezident. Çox gözəl bir gündə, çox gözəl bir ovqatda biz Sizinlə birlikdə möhtəşəm bir mərkəzin və gözəl parkın açılışına toplaşmışıq. Bu park, bu gözəl, möhtəşəm mərkəz gənclərimizin üz tutduğu, toplaşdığı bir məkana çevriləcək. Gənclərimiz burada yaradılmış bu gözəl şəraitdən istifadə edərək öz maraqlarına uyğun məşğuliyyətlərini tapacaqlar. Burada onlar ümummilli liderimiz, dahi azərbaycanlı, böyük insan Heydər Əliyevin yaratdığı o şanlı, şərəfli Azərbaycan tarixinin səhifələrini vərəqləyəcək, Vətəni, xalqı, ailəni sevməyin əsl nümunəsi olan Ulu Öndərimizin həyat və fəaliyyətini öyrənəcəklər.

Möhtərəm cənab Prezident. Bugünkü Azərbaycan Ümummilli Liderimizin arzu etdiyi Azərbaycandır. Bu gün uzaqgörən, yaradıcı, qurucu Prezidentimiz İlham Əliyevin sayəsində Azərbaycanın adı dünya kürsülərindən çox ucadan səslənir. Dünya Azərbaycanla hesablaşır. Bu gün Azərbaycan dünyanın o nadir ölkələrindəndir ki, özü öz gələcəyini müəyyən edir və müstəqil siyasət yeridir. Mən dünən Sizin Forumdakı nitqinizə qulaq asarkən aforizmə çevrilmiş bir sözünüzü çox sevdim. Siz söylədiniz ki, Azərbaycan həm Avropa ailəsinin, həm də müsəlman ailəsinin üzvüdür. Bunu Siz etdiniz. Bunu Siz dünyaya sübut etdiniz ki, bu standart mümkündür. Buna görə Sizə ürəkdən təşəkkür edirəm, möhtərəm Prezident.

Biz hamımız gözəl bilirik ki, Azərbaycan sürətlə inkişaf edir. Bu inkişafın ən gözəl nümunələrindən biri də Xırdalan şəhəridir. Sizin dövlət rəhbəri kimi Xırdalana ilk gəlişiniz 2006-cı ildə olmuşdu. Onda Xırdalan qəsəbə idi və mən deyərdim ki, yaddan çıxmış, unudulmuş qəsəbə idi. Siz həmin gəlişinizlə bugünkü Xırdalanın tərəqqisinin əsasını qoydunuz. Siz Xırdalana şəhər statusu verdiniz. Bu gün Xırdalan şəhəri göz qabağındadır, inkişaf edir, çiçəklənir, gözəlləşir. Bu gün nəinki Xırdalan şəhəri, Abşeronun elə bir kəndi, elə bir qəsəbəsi yoxdur ki, orada abadlıq-quruculuq işləri görülməsin. Bu gün rayonumuzda yeni-yeni məktəblərin, uşaq bağçalarının, səhiyyə ocaqlarının, sosial və mədəni obyektlərin tikilib xalqın istifadəsinə verilməsi bir ənənə halı alıb. Buna görə abşeronlular Sizə ürəkdən təşəkkür edirlər. Abşeronlular Sizi çox sevirlər, möhtərəm Prezident. Abşerona tez-tez gəlin. Sizin hər gəlişinizə biz öz fədakar əməyimizlə cavab verəcəyik.

Möhtərəm cənab Prezident. Biz hamımız gözəl bilirik ki, Azərbaycanın gələcəyi bundan da işıqlı, bundan da gözəl olacaqdır. Çünki Azərbaycanın inkişaf sükanı əmin əllərdədir. Çünki Azərbaycanın inkişaf sükanı Sizin əlinizdədir. Sizin yolunuz isə haqq, həqiqət yoludur. Qoy, bu həqiqət yolunuz həmişə açıq olsun. Qoy, bu həqiqət yolu Siz başda olmaqla bütün xalqımızı haqqa, ədalətə, sülhə, firavanlığa qovuşdursun.

Hörmətli cənab Prezident. Uca tanrıdan ən böyük arzumuz odur ki, Sizi və ailənizi hifz edib qorusun. Mən müqəddəs Qurban bayramı münasibətilə bir daha Sizi və ailənizi ürəkdən təbrik edirəm. Sizə cansağlığı, yorulmaz fəaliyyət və müvəffəqiyyət dolu bir ömür arzu edirəm. Çox sağ olun!

X X X

Sonda xatirə şəkli çəkdirildi.

AzərTAc
3 oktyabr 2014-cü il

Xırdalanda Heydər Əliyev adına mədəniyyət və istirahət parkında aparılan yenidənqurma işləri ilə tanışlıq

(3 oktyabr 2014-cü il)

Oktyabrın 3-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Xırdalan şəhərində Heydər Əliyev adına mədəniyyət və istirahət parkında aparılan yenidənqurma işləri ilə tanış olub.

Son illərdə Abşeron rayonunda həyata keçirilən abadlıq işləri sırasında Xırdalan şəhərindəki Heydər Əliyev adına mədəniyyət və istirahət parkının yenidən qurulması mühüm əhəmiyyət daşıyır. Bu da ölkədə həyata keçirilən sosial-iqtisadi inkişaf strategiyasının tərkib hissəsi olmaqla bölgələrimizin daha da gözəlləşməsinə xidmət edir. Bu, bir daha təsdiqləyir ki, şəhər və rayonlarımızda aparılan quruculuq işləri çərçivəsində park və xiyabanların salınması, mövcud olanlarının isə yenidən qurulması diqqətdən kənarda qalmır. Xırdalan şəhərinin mərkəzində yerləşən bu mədəniyyət və istirahət parkında yenidənqurma işləri ən yüksək səviyyədə görülüb, parkın ərazisi tamamilə yenidən qurulub.

Dövlətimizin başçısına məlumat verildi ki, ərazisi 12 hektar olan parkda sakinlərin mənalı istirahəti və asudə vaxtlarının səmərəli təşkili üçün hər cür şərait yaradılıb. Yenidənqurma işləri zamanı milli memarlıq üslubu ilə müasirlik tam uzlaşdırılıb, orijinal elementlər və formalarla zənginləşdirilib. Parkın ərazisində çoxlu ağac və dekorativ gül kolları əkilib, çəmənlik salınıb.

Xırdalan şəhərindəki Heydər Əliyev adına parkda aparılan yenidənqurma işləri ölkədə əhalinin istirahətinin yüksək səviyyədə təşkil olunmasının davamlı və kompleks xarakter daşıdığını təsdiqləyir.

AZƏRTAC
2014, 3 oktyabr

Prezident İlham Əliyev Xırdalanda Bayraq Meydanında olub
(3 oktyabr 2014-cü il)

Oktyabrın 3-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Xırdalan şəhərindəki Bayraq Meydanında olub.

Dövlətimizin başçısına məlumat verildi ki, bayraq dirəyinin hündürlüyü 65 metrdir. Burada müxtəlif videogörüntülərin nümayiş etdirilməsi üçün böyük monitor da quraşdırılıb.

Bütün bunlar Azərbaycan Xalq Cümhuriyyətinin yadigarı olan, bu gün müstəqil ölkəmizin başı üzərində dalğalanan üçrəngli, ay-ulduzlu bayrağımıza dövlət səviyyəsində olan ehtiramın göstəricisidir. Təsadüfi deyil ki, indi hər bir azərbaycanlı dövlət bayrağını özünün qürur mənbəyi hesab edir. Dövlət atributlarına xüsusi ehtiramla yanaşan Prezident İlham Əliyev bu məsələdə hər zaman həssas münasibəti ilə seçilib. Odur ki, paytaxtla yanaşı, bölgələrimizdə də Bayraq meydanları salınıb. Abşeron rayonundakı Bayraq Meydanı da öz möhtəşəmliyi ilə diqqəti cəlb edir.

AZƏRTAC
2014, 3 oktyabr

Xırdalandakı "Park Abşeron" əyləncə mərkəzi ilə tanışlıq
(3 oktyabr 2014-cü il)

Oktyabrın 3-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Xırdalan şəhərində yaradılan "Park Abşeron" əyləncə mərkəzində yaradılan şəraitlə tanış olub.

Artıq ölkəmizin regionlarında da əhalinin istirahətinin təşkili istiqamətində mühüm layihələr həyata keçirilir. Xırdalanda yaradılan yeni "Park Abşeron" əyləncə mərkəzi də öz dizaynına, memarlıq quruluşuna görə şəhərin simasına xüsusi yaraşıq verir. İndi Xırdalan şəhərinin mənzərəsinin maraqlı elementinə çevrilən bu modern əyləncə mərkəzində yaradılan şəraitdən məqsəd ilk növbədə, insanların mənalı istirahətini təşkil etmək, onlara mənəvi zövq yaşatmaqdır. Beləliklə, Xırdalan şəhərində daha bir maraqlı ticarət və istirahət məkanı bundan sonra sakinlərin istifadəsində olacaq.

Dövlətimizin başçısına məlumat verildi ki, 1400 kvadratmetr ərazisi olan əyləncə mərkəzində buz meydançası yaradılıb. Bu da həm uşaqlar, həm də gənclər üçün maraqlı istirahət imkanı yaradır. Bundan əlavə, mərkəzdə 3D sinema, kafe, 3D tir otağı, boulinq zalı fəaliyyət göstərir. Yay kafesinin də olduğu mərkəzdə yerli əhalinin və qonaqların istirahətinin təşkili üçün bütün imkanlar var.

AZƏRTAC
2014, 3 oktyabr

Xırdalanda musiqi məktəbinin açılışı olub
(3 oktyabr 2014-cü il)

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 3-də Xırdalan şəhərində musiqi məktəbinin açılışında iştirak edib.

Dövlətimizin başçısı məktəbin rəmzi açılışını bildirən lenti kəsdi.

Prezident İlham Əliyev musiqi məktəbi ilə tanış oldu.

Son illərdə ölkədə mədəniyyətin inkişafına göstərilən diqqət və qayğı artıq öz bəhrəsini verməkdədir. Bu da ondan irəli gəlir ki, mədəniyyətin inkişafına göstərilən qayğı dövlət siyasətinin prioritet istiqamətlərindən biridir. Həm Prezident İlham Əliyev, həm də Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva bu məsələyə xüsusi diqqət və qayğı göstərirlər. Ölkəmizdə mədəniyyət xadimlərinə diqqət getdikcə artır, onların sosial rifahının yaxşılaşdırılması istiqamətində mühüm tədbirlər görülür. Bundan əlavə, zəngin Azərbaycan mədəniyyətinin dünyada tanıdılması və təbliği ilə bağlı layihələr icra olunur və bu prosesin önündə Heydər Əliyev Fondu gedir. Son illərdə paytaxtla yanaşı, bölgələrdə yaradılan mədəniyyət ocaqları da bu sırada xüsusi yer tutur.

Yüksək zövqlə və xüsusi memarlıq üslubunda inşa edilən məktəbin foyesində ulu öndər Heydər Əliyevin və Prezident İlham Əliyevin ölkədə mədəniyyətin inkişafı istiqamətində xidmətlərinin əks olunduğu fotolar nümayiş etdirilir. Geniş sinif otaqlarının yaradıldığı məktəbdə şagirdlərin musiqi biliklərinə yiyələnmələri üçün hər cür şərait var. Bütün siniflər musiqi alətləri ilə təchiz olunub. Müəllimlər üçün də yüksək iş şəraiti yaradılıb. Kitabxana zəruri musiqi ədəbiyyatı ilə təchiz olunub. 82 nəfərlik akt zalında müxtəlif tədbirlərin, konsert proqramlarının keçirilməsi üçün bütün imkanlar var. Bir sözlə, son illərdə ölkəmizdə mədəniyyət sahəsində həyata keçirilən irimiqyaslı işlərin tərkib hissəsi olan bu musiqi məktəbi gənclərdə musiqi zövqünün formalaşmasında xüsusi rol oynayacaq.

AZƏRTAC
2014, 3 oktyabr

Prezident İlham Əliyev Xırdalanda şahmat məktəbinin açılışında iştirak edib
(3 oktyabr 2014-cü il)

Oktyabrın 3-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Xırdalan şəhərində şahmat məktəbinin açılışında iştirak edib.

Dövlətimizin başçısı məktəbin rəmzi açılışını bildirən lenti kəsdi.

Son vaxtlarda Xırdalanda tikilən sosial təyinatlı obyektlərdən biri də şahmat məktəbidir. Bu məktəbdə də yüksək şərait yaradılıb, balacaların şahmatın sirlərinə yiyələnmələri üçün bütün tələblər nəzərə alınıb. Bütün bunlar Prezident İlham Əliyevin "Azərbaycanda şahmatın inkişaf etdirilməsi haqqında" Sərəncamı və "2009-2014-cü illərdə Azərbaycanda şahmatın inkişaf etdirilməsinə dair Dövlət Proqramı"na uyğun olaraq həyata keçirilib. Yaradılan şərait şahmatçılarımızın beynəlxalq yarışlarda möhtəşəm qələbələr qazanmasına, yüksək nəticələr əldə etməsinə imkan verib. Şübhəsiz ki, bu məsələdə Xırdalanda inşa olunan şahmat məktəbinin öz yeri olacaq.

Məktəbdə ümummilli lider Heydər Əliyevin və Prezident İlham Əliyevin ölkəmizdə idmanın, o cümlədən şahmatın inkişafı ilə bağlı xidmətlərinə həsr olunan fotoguşə yaradılıb.

Şahmat məktəbində yaradılan şəraitlə tanış olan dövlətimizin başçısına məlumat verildi ki, burada məşq otaqları və digər əlavə otaqlar var. Otaqlardakı kompyuterlər xüsusi şahmat proqramları ilə yüklənib. Şahmat məktəbi müasir maddi-texniki baza ilə təchiz edilib. Məktəbdə yarış zalı da var. Burada şahmatla peşəkar səviyyədə məşğul olmaq məqsədilə bütün zəruri əyani vəsaitlər mövcuddur.

Prezident İlham Əliyevə məlumat verildi ki, məktəbin əsas vəzifəsi idmanın bu intellektual növünün kütləviliyini, şagirdlərin asudə vaxtlarının səmərəli təşkilini təmin etməkdir.

AZƏRTAC
2014, 3 oktyabr

Masazır qəsəbəsində yeni stadion istifadəyə verilib
(3 oktyabr 2014-cü il)

Oktyabrın 3-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Abşeron rayonunun Masazır qəsəbəsində inşa olunan stadionun açılışında iştirak edib.

Bu gün idmançılarımızın beynəlxalq yarışlarda fəal iştirakının təmin olunması Prezident İlham Əliyevin Azərbaycan idmanına verdiyi töhfələrin təməl prinsipini təşkil edir. Ölkəmizdə nəhəng idman infrastrukturunun yaradılması istiqamətində mühüm addımlar atılır. Bu işə Azərbaycanın bütün regionları cəlb olunub. Ölkəmizin hər yerində Olimpiya idman kompleksləri, sağlamlıq mərkəzləri tikilib istifadəyə verilir. Bu idman obyektləri dünya standartlarına cavab verməklə, həm də ölkəmizdə yaradılan idman infrastrukturunun güclü əsaslara söykəndiyini təsdiqləyir. Bir sözlə, Azərbaycan dünya idman aləminə nəhəng mərkəzlərdən biri kimi daxil olub. Bu məsələdə Prezident İlham Əliyevin göstərdiyi səylər ölkəmizin idman aləmində də yetərincə nüfuz qazanması ilə nəticələnib.

Dövlətimizin başçısına məlumat verildi ki, Masazır qəsəbəsindəki stadion beynəlxalq standartlar nəzərə alınaraq inşa olunub və tikinti işləri ən yüksək səviyyədə həyata keçirilib. 13 min tamaşaçı yeri olan bu idman qurğusunda mətbuat, məşqçi, tibb və dopinq-test otaqları var.

Bütün bunlar bir daha təsdiqləyir ki, nəinki paytaxt Bakıda, regionlarda da müasir görkəmi ilə seçilən Olimpiya idman kompleksləri və digər idman qurğularının inşası həm də bölgələrdə beynəlxalq tədbirlərin keçirilməsinə şərait yaradır.

AZƏRTAC
2014, 3 oktyabr

Prezident İlham Əliyev Ceyranbatan Ultrasüzgəcli Sutəmizləyici Qurğular Kompleksinin açılışında iştirak edib

(28 oktyabr 2015-ci il)

Oktyabrın 28-də Ceyranbatan Ultrasüzgəcli Sutəmizləyici Qurğular Kompleksinin açılışı olub. Azərbaycan Prezidenti İlham Əliyev mərasimdə iştirak edib.

"Azərsu" Açıq Səhmdar Cəmiyyətinin sədri Qorxmaz Hüseynov dövlətimizin başçısına layihə üzrə görülən işlərlə bağlı məlumat verdi. Bildirildi ki, Ceyranbatan Ultrasüzgəcli Sutəmizləyici Qurğular Kompleksi Ceyranbatan gölündən suyun götürülməsi məqsədilə tikilən hidrotexniki qurğular, sutəmizləyici qurğunun özü və onun köməkçi infrastrukturu, emal olunan suyun optimal paylanması məqsədilə relyef baxımından hündürlükdə yerləşən anbarlardan və qurğudan anbara qədər magistral kəmərdən ibarətdir.

Qeyd olundu ki, əhalinin daha keyfiyyətli içməli su ilə təmin edilməsi, Bakıətrafı qəsəbə və yeni yaşayış massivlərinin içməli suya tələbatının ödənilməsi, Kür sutəmizləyici qurğusunda emal olunan suyun bir hissəsinin Aran və Muğan bölgəsinə yönəldilməsi, eyni zamanda, Ceyranbatan sutəmizləyici qurğusunun üçüncü növbəsinin köhnəlməsi yeni qurğunun inşasını zəruri edirdi. Bununla yanaşı, Taxtakörpü su anbarının və Taxtakörpü-Ceyranbatan su kanalının tikintisi nəticəsində Ceyranbatan gölündə kifayət həcmdə su ehtiyatının yaranması yeni qurğunun xam su ilə təminatına imkan verirdi. Bu məsələ "Abşeron yarımadasının içməli su təchizatı, kanalizasiya və yağış suları sisteminin Master Planı" layihəsində əsas vəzifə kimi qarşıya qoyulmuşdu. Master Planda 1-ci və 2-ci Bakı, Kür, Ceyranbatan, Oğuz-Qəbələ-Bakı su kəmərlərinin qidalandırdığı ərazilərin şəbəkə sistemlərini əlaqələndirəcək və yeni texnologiyaya əsaslanacaq qurğunun tikilməsi də əksini tapmışdı. Kompleks layihələndirilərkən onun mövcud mənbələrlə əlaqələndirilməsi, hazırda istismar olunan magistral xətlərin təmiri və ya qəzalar zamanı su təchizatında dayanıqlığın təmin edilməsi əsas götürüldü. Mütəxəssislərin apardığı layihə-axtarış və texniki-iqtisadi əsaslandırmalar nəticəsində Ceyranbatan gölünün ehtiyatlarından istifadə etməklə ən son - ultrasüzgəc texnologiyasına əsaslanan təmizləyici qurğunun tikintisi qərara alındı. Layihə-axtarış işləri çərçivəsində Ceyranbatan gölünün bütün göstəriciləri ətraflı təhlil edilərək, gölün dibinin batimetriyası işlənib hazırlandı. 2011-ci il sentyabrın 8-də isə Prezident İlham Əliyevin iştirakı ilə Ceyranbatan su təchizatı idarəsinin ərazisində məhsuldarlığı saniyədə 6,6 kubmetr və ya sutkada 570 min kubmetr olan ultrasüzgəcli sutəmizləyici qurğunun təməli qoyuldu. Bu da onu göstərir ki, ölkədə su təchizatı infrastrukturunun yaradılması istiqamətində ulu öndər Heydər Əliyevin başladığı işlər Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Hazırda dövlətimizin başçısının tapşırıqlarına uyğun olaraq Bakı şəhəri və onun qəsəbələrinin sosial-iqtisadi inkişafı Dövlət Proqramı çərçivəsində Abşeron yarımadasının hər bir yaşayış massivinin fasiləsiz su ilə təmin olunması istiqamətində mühüm tədbirlər görülür.

Kompleksin ən mürəkkəb hissələrindən biri Ceyranbatan gölündən suyun götürülməsini təmin edən suqəbuledici qurğuların tikintisi olub. Layihəyə əsasən sugötürücü qurğu və boru xətlərinin bir hissəsi gölün dibində quraşdırılmalı idi. Gölün dibində suyun bulanıqlığının qarşısının alınması üçün xüsusi layihə hazırlandı və sugötürücü boruların qapalı, yəni mikrotunel üsulu ilə quraşdırılmasına qərar verildi. Tikinti-quraşdırma işlərinin etibarlı və təhlükəsiz aparılmasını təmin etmək üçün gölə 400 tonluq xüsusi təyinatlı, həmçinin yedəkçi gəmiləri buraxıldı. Xüsusi təyinatlı gəmi vasitəsilə suyun altında mürəkkəb hidrotexniki qurğuların qısa müddətdə və keyfiyyətlə quraşdırılması təmin edildi. Layihədə göldən lazımi həcmdə suyun götürülməsini təmin edəcək üç iri diametrli kəmər, sugötürücü başlıqlar və bölüşdürücü kamera inşa olundu. Gölün içərisinə doğru hər birinin uzunluğu 454 metr olan üç kəmər çəkildi. Mikrotunel üsulu ilə quraşdırılan xətlərin tikintisində dəmir-beton borulardan istifadə edildi. Sonra əraziyə hazır dəmir-beton özül piltə yerləşdirilərək suqəbuledici başlıqlar onun üzərində quraşdırıldı. Suqəbuledici başlıqlar göldə hər hansı lillənmə baş vermədən quraşdırılıb və 1960-cı illərdə tikilən mövcud sugötürücü qurğunun işinə heç bir maneə yaranmayıb. Burada tikilən subölüşdürücü kamerada toplanan su ultrasüzgəcli qurğuya hər birinin uzunluğu 913 metr olan dörd kəmərlə ötürülür. Bu xətlərin 245 metrlik hissəsi Ceyranbatan gölünü qidalandıran kanalın və mövcud boru xətlərinin altından keçməklə inşa edilib.

Təmizləyici qurğuya ötürülən suyun ilkin təmizlənməsi və onun həcminin müəyyən edilməsi mexaniki süzgəc binasında aparılır. Burada quraşdırılan avtomatik yuyulan torşəkilli süzgəclər suyun tərkibindəki iri hissəcikləri tutmaqla, ilkin təmizləmə prosesini həyata keçirir. Subölüşdürücü kameradan təmizləyici qurğuya çəkilən kəmərlərin hər birinin üzərində ultrasəs prinsipinə əsaslanan sayğaclar quraşdırılıb və onlar emala yönəldilən xam suyun həcmini dəqiq ölçməyə imkan verir. Mexaniki süzgəclərdə ilkin təmizləmədən keçən su 10 min kubmetr tutumu olan xam su anbarına toplanır. Burada

quraşdırılmış səviyyəölçən və siyirtmələr daxil olan, eləcə də emala ötürülən suyun həcmini onlayn rejimdə tənzimləyir.

Yeni kompleksin əsas obyekti ultrasüzgəcli sutəmizləyici qurğudur. 5,6 hektar ərazidə yerləşən bu qurğu mürəkkəb geoloji ərazidə inşa olunub. Qruntun xarakteri nəzərə alınaraq burada əvvəlcə bərkitmə işləri aparılıb, sonra dəmir-beton və metal konstruksiyadan ibarət əsas bina inşa edilib.

Dövlətimizin başçısı kompleksdə yaradılan şəraitlə tanış oldu. Burada ümummilli lider Heydər Əliyevin və Prezident İlham Əliyevin Azərbaycanın su təchizatı sistemlərinin yaxşılaşdırılması istiqamətində gördükləri işləri əks etdirən fotoguşələr yaradılıb.

Məlumat verildi ki, xam su anbarından suyun süzgəclərə sabit təzyiqlə ötürülməsini 16 nasos təmin edir. Emal prosesinə verilən su əvvəlcə 200 mikronluq süzgəclərdən keçir, sonra qurğunun əsas təmizləyici modullarında süzülür. Süzgəclərə 4,5 atmosfer təzyiqlə ötürülən su modulların içərisində quraşdırılan 0,02 mikronluq xüsusi süzgəclərdən keçməklə, cəmi 20 saniyədə təmizlənir. Hazırda dünyada az bulanıqlı suların emalı üçün ən səmərəli texnologiya məhz ultrasüzgəcli qurğular sayılır. Membran texnologiyasına əsaslanan belə qurğularda su heç bir kimyəvi təmizlənmə aparılmadan mexaniki üsulla emal olunur. Belə qurğuların ən böyük üstünlüyü suyun təbii mineral tərkibini saxlamaqla, onu asılı hissəciklərdən - bakteriya, virus, bəzi həll olunmamış duzlar və ağır metallardan təmizləməsi, bulanıqlıq, xoşagəlməz iy və dadın aradan qaldırılmasıdır. Tam qapalı, avtomatik rejimdə təmizlənən suda bulanıqlıq həddi bir litrdə maksimum 0,03 milliqram təşkil edir. Beləliklə, ultrasüzgəclərdə emal edilən su Dünya Səhiyyə Təşkilatının, digər beynəlxalq qurumların qəbul etdiyi standartlara tam cavab verir.

Qurğuda emal prosesinin fasiləsizliyini təmin etmək üçün süzgəclər müəyyən müddətdən bir yuyularaq asılı maddələr və lildən təmizlənir. Süzgəclərin təmizlənməsi geriyuma və kimyəvi dozalama nasoslarının köməyi ilə həyata keçirilir. Proses növbəli rejimdə aparılır, yəni qurğunun bir hissəsində geriyuma və kimyəvi dozalama aparılarkən, digər hissələrdə suyun emalı davam edir. Bu da öz növbəsində, emal prosesinin fasiləsizliyini təmin edir. Qurğuda quraşdırılan 5280 modulun məhsuldarlığı saniyədə 6,6 kubmetrdir. Gələcəkdə əlavə modulların quraşdırılması, eləcə də elektromexaniki sistemin köməyi ilə emal gücünün artırılaraq saniyədə 7,5 kubmetrə çatdırılması mümkündür. Süzgəclərdən çıxan içməli suyun keyfiyyətinə onlayn rejimdə nəzarət olunur. Bu məqsədlə xüsusi analiz panelləri quraşdırılıb ki, onlar suyun keyfiyyət parametrləri barədə siqnalları birbaşa SCADA otağına ötürür. Bununla yanaşı, burada yaradılmış laboratoriyada istər xam suyun, istərsə də emal olunmuş təmiz suyun vacib parametrləri daha dəqiq şəkildə öyrənilir və keyfiyyət göstəriciləri tam nəzarətdə saxlanılır.

Qeyd olundu ki, kompleksdə qurğunu idarə edəcək personal üçün işçi otaqları, tədbirlərin keçirilməsi üçün konfrans zalı da yaradılıb.

SCADA otağında yaradılan şəraitlə tanış olan Prezident İlham Əliyevə məlumat verildi ki, qurğuda bütün texnoloji proseslər - suyun həcmi, təzyiqi, emalı, hər bir mərhələdə keyfiyyət göstəricilərinin nəzarətdə saxlanılması tam avtomatlaşdırılıb və bütövlükdə proses kiçik işçi heyəti ilə SCADA idarəetmə mərkəzindən idarə olunur.

Ultrasüzgəcli təmizləyici qurğuda emal olunan təmiz suyun nisbətən hündürlükdə yerləşən anbara qaldırılması üçün nasos stansiyası tikilib. Suyun optimal paylanması və elektrik enerjisindən asılılığın aradan qaldırılması məqsədilə dəniz səviyyəsindən 118 metr hündürlükdə 50 min kubmetr həcmində anbar kompleksi inşa olunub. Qurğudan anbara qədər 11 kilometr uzunluğunda kəmər çəkilib. Anbar layihələndirilərkən onun Oğuz-Qəbələ-Bakı su kəmərinin bölüşdürücü kamerası ilə əlaqəsinin yaradılması üçün yeni qaldırıcı nasos stansiyası quraşdırılıb. Bu işlər Ceyranbatan və Oğuz-Qəbələ-Bakı su mənbələrinin alternativ istismarına şərait yaratmaqla, Abşeron yarımadasının içməli su təchizatında etibarlılığın təmin olunmasını şərtləndirib.

Kompleksdə emal olunan su istehlakçılara Ceyranbatan-Zirə magistral kəməri ilə ötürülür. Kəmərin 61 kilometrlik Ceyranbatan-Balaxanı-Ramana-Qala hissəsinin tikintisi 2013-cü ildə, 22,5 kilometrlik Qala-Zirə hissəsinin tikintisi isə 2014-cü ildə başa çatdırılıb. Əsasən Abşeron yarımadasının qəsəbə və kəndlərinin su təchizatına hesablanan Ceyranbatan-Balaxanı-Ramana-Qala-Zirə kəməri ilə ötürülən suyun səmərəli paylanması, bu ərazilərdə əhalinin fasiləsiz su təminatına nail olunması üçün kəmərin marşrutu boyunca tutumu 90 min kubmetr olan Saray, Balaxanı, Ramana, Qala və Zirə anbarları tikilib. Gələcəkdə Masazır və Binəqədidə yeni anbarların tikilməsi, eləcə də mövcud anbarların genişləndirilməsi nəzərdə tutulur ki, bunun nəticəsində 200 min kubmetrdən artıq su ehtiyatı yaradılacaq. Bu da magistral kəmərdə və paylayıcı şəbəkələrdə sabit, dayanıqlı hidravlik rejimin təmin olunmasına, həmçinin qəza və planlı dayanmalar zamanı fasiləsiz su təchizatının aparılmasına imkan verəcək.

Ceyranbatan Ultrasüzgəcli Sutəmizləyici Qurğular Kompleksi və Ceyranbatan-Zirə magistral su kəməri layihəsi Pirallahı qəsəbəsi də daxil olmaqla, Bakı şəhəri və Abşeron yarımadasının digər yaşayış məntəqələrini dayanıqlı və keyfiyyətli içməli su ilə təmin edəcək.

Ceyranbatan Ultrasüzgəcli Sutəmizləyici Qurğular Kompleksinin yaradılması layihəsi çərçivəsində, ümumilikdə, 30 kilometr uzunluğunda müxtəlif diametrli boru, 116 nasos, 6 transformator quraşdırılıb, ərazidə yaşıllaşdırma işləri görülüb, 150 minə yaxın ağac və kol əkilib. Kompleksin ayrı-ayrı hissələrinin tikintisi və quraşdırılmasına dünyanın bu sahədə məşhur ixtisaslaşmış şirkətləri, həmçinin 30-dək yerli podratçı təşkilat cəlb olunub.

Prezident İlham Əliyev Ceyranbatan Ultrasüzgəcli Sutəmizləyici Qurğular Kompleksini işə saldı.

Dövlətimizin başçısı mərasimdə çıxış etdi.

X X X

Prezident İlham Əliyevin
çıxışı

- Bu gün şəhərimizin həyatında çox əlamətdar və tarixi bir gündür. Biz Ceyranbatan Ultrasüzgəcli Sutəmizləyici Qurğular Kompleksinin açılışını qeyd edirik. Bu, doğrudan da böyük və tarixi hadisədir. Bundan sonra Bakı şəhərinin, Abşeron rayonunun sakinlərinə veriləcək su Dünya Səhiyyə Təşkilatının standartlarına tam cavab verəcək.

Mən xatırlayıram ki, dörd il bundan əvvəl biz burada bu kompleksin təməl daşını qoyduq. Şadam ki, artıq bu nəhəng infrastruktur obyekti istismara verilir.

Bu sutəmizləyici qurğular kompleksi dünyanın ən böyük təmizləyici infrastruktur obyektidir. Biz fəxr edirik ki, bu, Azərbaycanda, Bakıda yaradılıb. Bu kompleksin tikintisi üçün böyük həcmdə dövlət vəsaiti ayrılıb. Əlbəttə ki, bu günə qədər infrastruktur layihələrinin icrası da bu kompleksin işinə öz dəstəyini verir. İlk növbədə, Taxtakörpü su anbarı, Taxtakörpü-Ceyranbatan su kəmərinin tikintisi bu kompleksin fəaliyyətinə, əlbəttə ki, çox müsbət təsir göstərir.

Burada ən müasir texnologiyalar tətbiq olunur. Dünyanın aparıcı şirkətləri burada öz təcrübəsini bizimlə bölüşüblər. Kompleksin istismarı işində də əminəm ki, heç bir problem olmayacaq və beləliklə, biz bu böyük sosial layihəni artıq başa çatdırırıq.

Ümumiyyətlə, Azərbaycanda infrastruktur layihələrinin icrası prioritet məsələdir. Regionların sosial-iqtisadi inkişafı Dövlət proqramlarının əsas məqsədi də Bakıda və bütün bölgələrdə müasir infrastrukturun yaradılmasıdır. Bu istiqamətdə son illər ərzində çox böyük işlər görülmüşdür. Demək olar ki, elektrik enerjisi ilə bağlı bütün problemlər öz həllini tapmışdır. Biz əvvəlki illərdə xaricdən elektrik enerjisi alırdıqsa, bu gün nəinki öz tələbatımızı ödəyirik, eyni zamanda, xaricə də ixrac edirik. Vaxt var idi ki, biz qaz idxalı ilə məşğul idik, bizə qaz çatmırdı. Hazırda görülən işlər nəticəsində Azərbaycan nəinki regionda, dünyada qaz ixrac edən ölkəyə çevrilir. Biz bütün bunları son illər ərzində əldə etmişik. Kənd yollarının tikintisi, sosial infrastrukturun yaradılması həm Bakıda, həm bölgələrdə geniş vüsət almışdır.

Bu infrastruktur layihələrinin içində, əlbəttə ki, içməli su layihələri xüsusi əhəmiyyət daşıyır. Çünki içməli su insanların həyatına birbaşa təsir edən amildir. Şadam ki, bu gün Bakıda və bütün bölgələrdə içməli su layihələri icra edilir. Biz artıq bir çox şəhərlərimizdə mənim iştirakımla bu layihələrin açılışlarını etmişik. Hələ ki bəzi rayonlarda işlər davam edir və qarşıya məqsəd qoyulmuşdur ki, Azərbaycanın bütün şəhərlərində təmiz içməli su fasiləsiz və bütün əhaliyə verilsin.

Biz bu məqsədə çatmaq üçün artıq çox önəmli addımlar atırıq. Bununla bərabər, hər il mənim Sərəncamımla Prezidentin ehtiyat fondundan vəsait ayrılır və ən azı 300 subartezian quyusunun qazılması təmin edilir. Çaylar boyu yerləşən kəndlərdə modul tipli təmizləyici qurğular quraşdırılır. Yəni, biz bu məsələlərə kompleks şəkildə yanaşırıq və əlbəttə ki, burada əsas rolu "Azərsu" icra edir. Şadam ki, son illər ərzində bu sahədə görülən işlər əhali tərəfindən də yüksək qiymətləndirilir. Eyni zamanda, biz görürük ki, məsələlər öz həllini tapmaqdadır.

Əsrlər boyu Azərbaycan və xüsusilə Bakı şəhəri içməli su problemi ilə üz-üzə qalmışdır. Bunun təbii səbəbləri vardır. Əlbəttə, sovet dövründə böyük işlər görülmüşdür, Kür su kəməri çəkilmişdir. Ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə böyük infrastruktur layihələri icra edilmişdir. Ancaq müstəqillik illərinin ağır şəraiti, xüsusilə 90-cı illərin əvvəllərində yaranmış çox ağır sosial, iqtisadi və siyasi vəziyyət imkan vermirdi ki, biz müasir texnologiyaları Azərbaycana cəlb edək.

Bu məqsədlə çox böyük işlər görülmüşdür. Bəzi layihələr xaricdən götürülmüş kreditlər hesabına icra edilmişdir. Ancaq iqtisadi gücümüz artdıqca biz bu vəsaiti, ilk növbədə, insanları ən çox narahat edən problemlərin həllinə yönəldə bilmişik və bu gün belə gözəl, nəhəng qurğuların istismara verilməsini qeyd edirik. Bir daha demək istəyirəm ki, bu kompleksdə ən müasir texnologiyalar tətbiq edilir, dünyanın ən böyük sutəmizləyici kompleksidir və Bakı şəhərinin, Abşeron rayonunun sakinlərinə xidmət edəcək. Bax, bu gün xəritədəki mənzərə onu göstərir ki, uzun illər içməli sudan korluq çəkən Bakı qəsəbələri bundan sonra bu təmiz suyu alacaq. Bir daha qeyd etmək istəyirəm ki, bu, Dünya Səhiyyə Təşkilatının standartlarına cavab verən içməli sudur.

Əlbəttə, Bakı şəhərinin su təsərrüfatı daha da sürətlə yeniləşməlidir. Şəbəkə sistemi hələ ki, bizim standartlarımıza tam uyğun deyil. Ancaq bu istiqamətdə də işlər aparılır və əlbəttə, biz hamımız istəyirik ki, tezliklə bütün şəhərimizdə hər bir vətəndaş kranı açıb oradan suyu birbaşa içə bilsin. Artıq biz buna yaxınlaşırıq və bu qurğunun xüsusi əhəmiyyəti ondan ibarətdir ki, bizə bu imkanı yaradacaq.

Son illər ərzində görülmüş işlər nəticəsində Bakıda fasiləsiz içməli suyun verilməsi təxminən 80 faizə çatmışdır. Bu, əvvəlki dövrlə müqayisədə çox böyük nailiyyətdir, ancaq əlbəttə, bizi tam qane edə bilməz. Bakı kimi müasir, gözəl, inkişafda olan şəhərdə əhalinin 100 faizi 24 saat fasiləsiz təmiz içməli su ilə təmin edilməlidir. Əminəm ki, biz buna da nail olacağıq. Buna nail olmaq üçün isə iqtisadi potensial lazımdır və biz son illər ərzində apardığımız iqtisadi islahatlar, düşünülmüş siyasət nəticəsində iqtisadi imkanlarımızı böyük dərəcədə artıra bilmişik. Bu gün Azərbaycan iqtisadiyyatı dünya miqyasında bir nümunə kimi göstərilir, hətta böhranlı illərdə bizim iqtisadiyyatımız artır, bu il də artacaqdır. Bizim kifayət qədər böyük maliyyə resurslarımız vardır, onlardan qənaətlə istifadə edirik, ölkəyə, xalqa lazım olan bu kimi layihələrə yönəldirik. Əlbəttə, iqtisadi inkişaf gələcəkdə də bizə imkan verəcək ki, bu günə qədər həllini tapmamış layihələr icra edilsin. Onların içində əlbəttə ki, ilk növbədə, içməli su layihələridir. Çünki qeyd etdiyim kimi, elektrik enerjisi ilə bağlı problemlər demək olar ki, həll olunub. Generasiya gücümüz tələbatdan artıqdır. İndi şəbəkələrdə işlər gedir, yeni qurğular quraşdırılır. Bakıda, bütün şəhərlərdə qazlaşdırma 100 faizdir. İndi kəndlərdə də, - kəndlərin haradasa 50 faizi qazlaşdırılıb, - bu istiqamətdə hələ işlər görüləcək. Azərbaycanda ümumi qazlaşdırma 90 faizə yaxınlaşır.

Belə olan halda növbəti illərdə içməli su, kanalizasiya layihələrinin davam etdirilməsi, başa çatdırılması əsas prioritet məsələ olacaqdır və gələn ilin investisiya proqramında da bu məqsədlər üçün kifayət qədər böyük vəsait nəzərdə tutulmalıdır. Çünki nəinki Bakıda və böyük şəhərlərdə, hər bir yaşayış məntəqəsində təmiz içməli su olmalıdır. Təmiz içməli su sağlam həyat deməkdir.

Bizim siyasətimizin təməlində Azərbaycan vətəndaşı dayanır. Azərbaycanın çox güclü düşünülmüş sosial siyasəti vardır və insan amili bu siyasətin mərkəzində dayanır.

İnsan sağlamlığı üçün əsas şərt təmiz içməli sudur. Biz bunu həll edirik. İkinci əsas şərt təmiz havadır. Bunu da həll edirik. Bakıda görülmüş işlər nəticəsində ekoloji vəziyyət böyük dərəcədə yaxşılaşıb. Vaxtilə Balaxanı zibilxanasından qalxan tüstü şəhərin böyük hissəsini əhatə edirdi. İndi nəhəng, müasir zibilyandırma zavodunun inşasından sonra artıq bu problem aradan götürülüb. Artıq Balaxanı zibilxanası adlı yer yoxdur. Orada indi texnopark yaradılır, ərazi abadlaşdırılır, bax, bu ərazidəki kimi ağaclar əkilib. Dörd il bundan əvvəl mən burada olanda heç bir ağac yox idi. İndi böyük bir meşə salınıb. Böyükşor gölü ekoloji təhlükə mənbəyi idi. Onun yanında dayanmaq mümkün deyildi. Adam üfunətdən boğulurdu. İkinci Dünya müharibəsi zamanı hətta ondan açıq neft anbarı kimi istifadə edirdilər. Ondan sonra, lay, kanalizasiya suları, bütün axıntılar oraya tökülürdü. Böyükşor gölünün reabilitasiyası, abadlaşdırılması layihəsinin birinci hissəsini biz cəmi bir il ərzində həll etdik. Gölün 300 hektarı indi tam təmizlənib, bir kilometrdən də çox uzunluğu olan böyük bulvar salınıb, bənd tikilib və işlər davam etdirilir. Bir daha demək istəyirəm, vaxtilə onun yanında dayanmaq mümkün deyildi. İndi isə gölün üzərinə köçəri quşlar qonur. Bax, budur bizim yanaşmamız. Biz bunu nə üçün edirik, niyə bu qədər vəsait xərcləyirik? Ona görə ki, Bakıda ekoloji vəziyyət yaxşılaşsın, insanlar daha da rahat yaşasınlar, çoxlu ictimai yerlər yaradılsın, ekoloji problem yaradan yaranı sağalda bilək.

Böyükşor gölünün reabilitasiyasının ikinci mərhələsi həyata keçiriləcək və beləliklə, Bakıda çox gözəl, böyük, haradasa 700-800 hektar sahədə göl yaradılacaqdır. Gələcəkdə o gölün ətrafında yaşayış yerləri, yeni parklar da salınacaq. Yəni, o ölü bir yeri biz insanlar üçün diriltdik və dirildirik. Zığ gölü də yaxın zamanlarda təmizlənəcək. O ərazini də tamamilə yaşıllaşdıracağıq və əhalinin sərəncamına verəcəyik. Bir daha deyirəm, biz bunları ona görə edirik ki, buna ehtiyac var. Bizim böyük problemlərimiz ondan ibarətdir ki, 100 ildən artıqdır Bakıda neft sənayesinin yaratdığı fəsadları aradan götürməliyik. Bibiheybət neft mədənləri – o bir ekoloji fəlakət mənzərəsi idi. Adam ona baxanda dəhşətə gəlirdi. İndi ora

baxanda adam gözəl, abad mənzərə, ağaclar, parklar görür. Orada su idmanı kompleksi tikilib, birinci Avropa Oyunlarının yarışlarının bir hissəsi orada keçirilib, bulvar, qazonlar, parklar salınıb. Hətta indi buruqlara o qədər gözəl xidmət göstərirlər ki, onlar da artıq gözəl mənzərənin bir elementlərinə çevrilib.

Bakıda vaxtilə fəaliyyət göstərən yod zavodu böyük bir təhlükə mənbəyi idi. Artıq bu zavod oradan köçürüldü, bütün lazımi tədbirlər görüldü və bu təhlükə mənbəyindən də insanların canını qurtara bildik. Ona görə, içməli su layihəsi bax, bu istiqamətdə görülən işlərin tərkib hissəsidir və bilavasitə insanların sağlamlığına təsir göstərən amildir.

Yenə də deyirəm, Azərbaycanda son vaxtlar ərzində güclü sosial siyasət sayəsində insanların ömrünün uzunluğu artır. Bu, gözəl göstəricidir. Diaqnostika aparılır, hər il dispanserizasiya keçirilir, milyonlarla insan bütün ölkə üzrə pulsuz müayinədən keçir və onlar müalicə edilir. İçməli su, təmiz hava, sağlam ərzaq məhsulları, sağlam qida - bizim prioritetlərimiz bax bunlardır. Ona görə, bu, çox böyük sosial layihədir, çox böyük infrastruktur layihəsidir və biz bunu icra edirik. Mən çox şadam ki, bu gün Azərbaycan bu istiqamətdə də dünyada birincidir.

Son illər ərzində iqtisadi inkişaf templərinə görə dünyada bizə bərabər ikinci ölkə yoxdur. Vaxtilə paxıllar, bəzi dairələr, bizim işimizə kölgə salmaq istəyənlər uğurlarımızı neftlə bağlayırdılar. İndi neftin qiyməti iki dəfədən də aşağı düşüb, amma biz yenə də inkişaf edirik, yenə də nümunə göstəririk. Bu ilin 9 ayında Azərbaycanda qeyri-neft sənayesi 10 faizdən çox artmışdır. Ümumi daxili məhsul təxminən 4 faiz, qeyri-neft sektoru təxminən 6 faiz artmışdır. Bu qurğunun istifadəyə verilməsində də biz liderlik göstərmişik. Heç bir başqa ölkədə bu böyüklükdə və bu səviyyədə təmizləyici qurğu yoxdur. Bunu ancaq müstəqil Azərbaycan edə bilər və edir. Gələcəkdə bütün lazım olan infrastruktur layihələrini icra edəcəyik və əminəm ki, 2018-ci ildə başa çatması gözlənilən üçüncü regional inkişaf proqramının icrası nəticəsində Azərbaycanda bütün əsas infrastruktur layihələri icra ediləcək. İnsanlar daha da yaxşı, daha rahat, təhlükəsizlik, əmin-amanlıq, rifah içində yaşayacaqlar.

Mən bir daha sizi bu gözəl hadisə münasibətilə təbrik etmək istəyirəm. "Azərsu"nun işçilərini təbrik etmək, öz minnətdarlığımı bildirmək istəyirəm ki, onlar bu böyük işləri görürlər. Bakının və Abşeron rayonunun bütün sakinlərini təbrik edirəm ki, nəhayət, bu məsələ də öz həllini tapdı. Sizi bir daha təbrik edirəm, yeni uğurlar arzulayıram.

X X X

Sonda xatirə şəkli çəkdirildi.

AZƏRTAC
28 oktyabr 2015-ci il

Prezident İlham Əliyev Xırdalan şəhərində ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edib
(16 noyabr 2017-ci il)

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 16-da Abşeron rayonuna səfərə gəlib.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı əvvəlcə Xırdalan şəhərinin mərkəzində ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edərək önünə gül dəstəsi qoydu.

Abşeron Rayon İcra Hakimiyyətinin başçısı İradə Gülməmmədova Prezident İlham Əliyevə Heydər Əliyev parkında aparılan yenidənqurma tədbirləri, rayonda görülən abadlıq-quruculuq işləri və həyata keçirilən layihələr barədə ətraflı məlumat verdi.

AZƏRTAC
2017, 16 noyabr

Prezident İlham Əliyev Abşeron Olimpiya İdman Kompleksinin açılışında iştirak edib
(16 noyabr 2017-ci il)

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 16-da Abşeron Olimpiya İdman Kompleksinin açılışında iştirak edib.

Abşeron Olimpiya İdman Kompleksi Prezident İlham Əliyevin "Abşeron və Ağcabədi rayonlarında Olimpiya İdman komplekslərinin tikintisi ilə bağlı tədbirlər haqqında" 2011-ci il 27 may tarixli Sərəncamı əsasında inşa edilib. Bu, ölkəmizdə sayca 42-ci Olimpiya İdman Kompleksidir.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı kompleksin rəmzi açılışını bildirən lenti kəsdi.

Gənclər və idman naziri Azad Rəhimov görülən işlərlə bağlı dövlətimizin başçısına ətraflı məlumat verdi.

Bildirildi ki, kompleksdə inşaat işləri ən yüksək səviyyədə aparılıb və bu ilin oktyabrında başa çatdırılıb. Buradakı üzgüçülük hovuzu ən müasir standartlara cavab verir. Hovuzun uzunluğu 25 metr, eni isə 12,5 metrdir. İdmanın bu növünə də ölkəmizdə yeniyetmə və gənclərin marağı ilbəil artır. Bu zalda üzgüçülük yarışlarını 150 nəfər izləyə biləcək. Güləş zalı Beynəlxalq Güləş Federasiyasının standartlarına uyğun tikilib. Bu zalda 150 tamaşaçı yeri var. Güləşçilərin məşqlərinin yüksək səviyyədə keçirilməsi üçün ən xırda incəliklər belə nəzərə alınıb. Ağır atletika və trenajor salonunda idmançılar üçün hərtərəfli şərait yaradılıb. Məşqçilərin otaqları da məhsuldar fəaliyyət üçün hər cür imkana malikdir.

Diqqətə çatdırıldı ki, 975 tamaşaçı yerlik universal idman salonunda idmanın müxtəlif növləri üzrə yarışlar təşkil etmək mümkündür. Boks zalında məşqlərin keçirilməsi və yarışların təşkili üçün hərtərəfli imkan yaradılıb. Burada aerobika məşqləri üçün də xüsusi şərait var. İdmançılara həkim nəzarəti də yüksək səviyyədə təşkil olunub. Kompleksə daxil olan mehmanxanada idmançılar, məşqçilər, qonaqlar mənalı istirahət edə biləcəklər. Burada internet klub da fəaliyyət göstərir. Yetmiş nəfərlik konfrans salonu müxtəlif tədbirlərin təşkili üçün nəzərdə tutulub. Atıcılıq tiri, silah və tədris otaqları da müasir səviyyədə qurulub. Kompleksin nəzdindəki şahmat klubu müasirliyi ilə diqqəti çəkir. Son illər ölkəmizdə şahmat üzrə mötəbər beynəlxalq yarışların təşkili, eləcə də Azərbaycan şahmatçılarının ən nüfuzlu turnirlərdə parlaq qələbələri ölkəmizin hər yerində olduğu kimi, Abşeronda da idmanın bu qədim növünə marağı artırıb.

Qeyd edildi ki, Abşeron Olimpiya İdman Kompleksinə daxil olan restoran və mətbəxdə də xidmətin müasir səviyyədə təşkili üçün hər cür şərait yaradılıb.

Müasir standartlara cavab verən futbol meydançasında keçiriləcək yarışları tribunalardan 1600-ə qədər tamaşaçı izləyə biləcək. Burada mini futbol meydançası da idmançıların ixtiyarına verilib. Basketbol və voleybol meydançaları, tennis kortu idmansevərlərə dəyərli töhfədir. Kompleksin həyətində geniş abadlıq-quruculuq işləri görülüb, yaşıllıqlar salınıb, istirahət guşələri yaradılıb.

Komplekslə tanışlıqdan sonra Prezident İlham Əliyev Abşeron rayon ictimaiyyətinin nümayəndələri və ölkəmizin tanınmış idmançıları ilə görüşdü.

Dövlətimizin başçısı görüşdə çıxış etdi.

Prezident İlham Əliyevin
çıxışı

- Mən burada bizim görkəmli idmançılarımızı görürəm, sizi xüsusilə salamlayıram. Bu gün Abşeron rayonunun həyatında çox əlamətdar bir gündür. Biz Abşeron Olimpiya İdman Kompleksinin açılışını birlikdə qeyd edirik. Bu gözəl hadisə münasibətilə idmançıları, Abşeron rayonunun sakinlərini ürəkdən təbrik edirəm.

Bu, bölgələrdə inşa edilmiş sayca 42-ci Olimpiya İdman Kompleksidir. Bu rəqəm özlüyündə bir göstəricidir. İndi bizim əksər rayonlarımızda ən müasir idman komplekslərı fəaliyyət göstərir. Əlbəttə, biz növbəti illərdə də yeni komplekslərin tikintisi ilə məşğul olacağıq. Ağcabədi Olimpiya İdman Kompleksi artıq açılışa hazırdır. Bu kompleks yaxın zamanlarda açılacaq. Gələn il də yeni komplekslərin açılışı nəzərdə tutulur.

Bu idman obyekti Abşeron rayonu üçün çox böyük əhəmiyyət kəsb edir. Burada 1000 nəfərlik gözəl idman zalı, 1600 nəfərlik stadion, məşq zalları, boks, şahmat bölmələri, açıq idman meydançaları, kort var. Bir sözlə, burada idmanın əksər növləri ilə məşğul olmaq mümkündür. Bu, Abşeron rayonu üçün, idmançılar üçün gözəl bir hədiyyədir. Əminəm ki, həm rayon sakinləri, uşaqlar, yeniyetmələr, eyni

zamanda, idmançılar da bu kompleksin imkanlarından istifadə edəcəklər. Beləliklə, bütün bölgələrdə müasir idman infrastrukturunun yaradılması istiqamətində növbəti önəmli addım atılır.

Bu kompleksin açılışında bizim Olimpiya, dünya çempionlarımız iştirak edirlər. Mən sizi xüsusilə salamlayıram. Əminəm ki, sizin gələcək fəaliyyətiniz də Azərbaycan idmanına xidmət edəcək. Bu gün Azərbaycan dünya miqyasında idman dövləti kimi tanınır. Bizim uğurlarımız indi bütün dünya idman ictimaiyyəti tərəfindən qəbul edilir. Bizim idmançılar Azərbaycanı bütün beynəlxalq yarışlarda ləyaqətlə təmsil edirlər, bir çox Olimpiya, dünya, Avropa çempionlarımız var. Bu il bizim iki idmançımız - burada iştirak edən Hacı Əliyev və Məhəmmədrəsul Məcidov üçqat dünya çempionu olublar. Bu, doğrudan da böyük idman nailiyyətidir. Yəni, onlar artıq üçüncü dəfə təsdiqlədilər ki, dünyada birincidirlər. Əlbəttə ki, bizim olimpiyaçılarımızın, üçqat dünya çempionlarımızın qələbələri uşaqları da idman bölmələrinə cəlb edir. Əminəm ki, uşaqlar, yeniyetmələr bu idman kompleksindəki bölmələrdə məşq edəcəklər və gələcəkdə sizin yerinizi tutacaqlar. Çünki idmanın dayanıqlı inkişafı gənc nəslin yetişməsindən başlayır. Gənc nəslin yetişdirilməsi, hazırlıq prosesinin düzgün qurulması üçün şərait olmalıdır. Eyni zamanda, onların qarşısında gözəl nümunələr olmalıdır. Onlar da sizin kimi Olimpiya, dünya çempionları olmaq istəyirlər. Beləliklə, bu gün Azərbaycanda idmanın kütləviliyi də təmin edilir. Biz əlbəttə ki, idmançılarımızın uğurları ilə fəxr edirik. Bu, ölkəmizin şöhrətini daha da yüksəklərə qaldırır. Ancaq bununla bərabər, bundan az əhəmiyyət daşımayan məsələ idmanın kütləviliyidir, vətəndaşlarımızın sağlamlığıdır. İdman insan sağlamlığı üçün bəlkə də əsas vasitədir.

Bu gün idman ölkəmizin müxtəlif yerlərində artıq kütləvi xarakter alıb. Mən həmişə tövsiyə edirəm, bu gün də demək istəyirəm, hər bir insan hər gün, hər gün olmasa da, həftədə heç olmasa üç dəfə idmanla fəal məşğul olsun. Bu, insanların sağlamlığı, ümumiyyətlə, ovqatı üçün çox böyük əhəmiyyət daşıyan məsələdir.

Əlbəttə, biz idmanla bağlı siyasətimizi növbəti illərdə davam etdirəcəyik. Bu gün idmançılarımız bütün beynəlxalq yarışlarda ən yüksək nəticələr göstərirlər. Azərbaycanda keçirilmiş Avropa və İslam Həmrəyliyi oyunlarında biz ən qabaqcıl yerlərdəyik. Bu il İslam Həmrəyliyi Oyunları ən yüksək səviyyədə keçirilmişdir və bütün müsəlman aləmində Azərbaycan idmançıları birinci yerə layiq görüldülər. Avropa məkanında isə biz ikinciyik. Bu, gənc müstəqil dövlət üçün tarixi nailiyyətdir və bu nailiyyəti bizə bəxş edən idmançılardır. Mən çox şadam ki, bu gün burada bir neçə Olimpiya çempionu - Nazim Hüseynov, Elnur Məmmədli, Namiq Abdullayev, Radik İsayev, Toğrul Əsgərov, Zemfira Meftahətdinova və dünya çempionları iştirak edirlər. Onların sayı kifayət qədər çoxdur. Bir sözlə, bax, budur, bizim idmanımızın qələbələri, qalibləri, hər bir ölkə belə idmançılarla fəxr edə bilər.

O ki qaldı Abşeron rayonunun inkişafına, bu rayonda da işlər çox yaxşı gedir. Son illər ərzində böyük quruculuq, abadlıq işləri görülüb, infrastruktur layihələri icra edilir. Rayonda əsas infrastrukturla bağlı problemlər öz həllini tapıbdır. Rayonda 16 yaşayış məntəqəsini əhatə edən 7 yol layihəsi icra edilibdir, qazlaşdırma 100 faizdir, elektrik təchizatı ilə heç bir problem yoxdur. İçməli su problemi də tədricən həll olunur. Mənə verilən məlumata görə, Xırdalan şəhərinin su problemi həll olunubdur. Digər qəsəbələrdə də məsələ öz həllini tapacaq. İş yerləri yaradılır. Abşeron rayonunda 100-dən çox sənaye müəssisəsi fəaliyyət göstərir ki, o müəssisələrdə minlərlə insan işləyir. Sosial infrastruktur yaradılır, bu gözəl Olimpiya Kompleksi, 10-dan çox məktəb tikilib və təmir olunub. Bir sözlə, rayonun hərtərəfli inkişafı üçün çox böyük işlər görülür, yeni parklar, ictimai yerlər yaradılır, binalar təmir olunur. Növbəti sərəncamda təmirə ehtiyacı olan binaların da bərpası nəzərdə tutulur. Bir sözlə, Abşeron rayonu hərtərəfli inkişaf edir, gözəlləşir, abadlaşır. Növbəti illərdə rayonun sosial-iqtisadi inkişafı ilə bağlı əlavə tədbirlər görüləcək.

Biz 2017-ci ili bütövlükdə iqtisadi, sosial, beynəlxalq siyasət sahələrində yaxşı nəticələrlə, uğurlarla başa vururuq. Bir daha göstəririk ki, Azərbaycanda inkişaf dayanıqlıdır və uğurludur. Növbəti illərdə Azərbaycan ancaq və ancaq yüksək sürətlə, böyük uğurlarla irəliyə gedəcək. Qarşıda duran vəzifələr hələ çoxdur. Biz bütün problemləri, insanları narahat edən məsələləri həll etməliyik. Həm Bakının, həm böyük şəhərlərin, ən xırda kəndin də problemi diqqət mərkəzində olmalıdır.

Mən sizi bu gözəl hadisə münasibətilə bir daha təbrik edirəm və idmançılara yeni uğurlar arzulayıram. Rayon sakinlərinə isə yeni nailiyyətlər, cansağlığı, əmin-amanlıq diləyirəm. Əminəm ki, Abşeron rayonunda belə gözəl hadisələr çox olacaq.

X X X

Sərbəst güləş üzrə üçqat dünya çempionu, Rio Olimpiadasının mükafatçısı Hacı ƏLİYEV çıxış edərək dedi:

- Möhtərəm cənab Prezident.

Sizi Abşeron gəncləri və idmançıları adından salamlayıram.

Bu gün bizim istifadəmizə verdiyiniz bu möhtəşəm Olimpiya İdman Kompleksi üçün Sizə bütün idmançılarımız adından təşəkkür edirəm.

Cənab Prezident, Azərbaycanda idmana və idmançılara göstərdiyiniz diqqət və qayğının nəticəsidir ki, bu gün idmançılarımız dünya və Avropa çempionatlarında, beynəlxalq yarışlarda uğurlu nəticələr qazanır və Vətənimizi layiqincə təmsil edirlər. Azərbaycan dünyada artıq idman ölkəsi kimi tanınır. Ölkəmizdə keçirilən birinci Avropa Oyunları, IV İslam Həmrəyliyi Oyunları da bir daha bunu sübut etdi ki, Azərbaycanda idmana və idmançılara yüksək diqqət və qayğı vardır, hər bir şərait yaradılmışdır. Cənab Prezident, bu oyunların ölkəmizdə yüksək səviyyədə keçirilməsinə görə Sizə və birinci xanım Mehriban Əliyevaya bütün idmançılar adından təşəkkürümü bildirirəm.

Möhtərəm Prezident, icazənizlə, özüm haqqında da qısa məlumat verim. Mən Abşeron Uşaq-Gənclər İdman Məktəbinin yetirməsiyəm. Bildiyiniz kimi, mən Avropa çempionu və üçqat dünya çempionuyam. IV İslam Həmrəyliyi Oyunlarının qalibi, Braziliyada keçirilən Yay Olimpiya Oyunlarının bürünc mükafatçısıyam. Sizin sərəncamlarınızla mən 2015-ci ildə "Tərəqqi" medalına, bu yaxınlarda isə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünə layiq görülmüşəm. Mənə və bütün idmançılara göstərdiyiniz bu qayğıya görə Sizə bir daha dərin təşəkkürümü bildirirəm.

Cənab Prezident, bizi qarşıda böyük yarışlar gözləyir və əsas hədəfimiz də Yaponiyada keçiriləcək Olimpiya Oyunlarıdır. Biz, inşallah, əlimizdən gələni edəcəyik ki, bu Olimpiya Oyunlarında ölkəmizi layiqincə təmsil edək, qızıl medalların sayını çoxaldaq.

Gələcək işlərinizdə Sizə uğurlar arzulayıram, cənab Prezident. Allahdan Sizə uzun ömür, cansağlığı arzu edirəm. Bizə və bütün idmançılara göstərdiyiniz diqqət və qayğıya görə bir daha təşəkkür edirəm. Çox sağ olun.

Prezident İlham ƏLİYEV: Sağ olun. Üçqat dünya çempionu olmaq Olimpiya çempionu olmağa bərabərdir. Fərdi təqaüdün verilməsi o məqsədi güdürdü ki, bu, doğrudan da böyük nailiyyətdir. Olimpiya çempionu olmaq əlbəttə ki, hər bir idmançının böyük arzusudur. Amma üç dəfə dünya çempionu olmaq ondan az əhəmiyyət daşıyan məsələ deyil. Bu, doğrudan da böyük tarixi hadisədir. Sənin adın tarixdədir, həmişə olacaq. Dünya güləş tarixində sənin adın əbədi qalacaq. Necə ki, bizim digər Olimpiya çempionlarımızın, Olimpiya mükafatçılarının adları tarixdə qalır. Mən bunu çox yüksək qiymətləndirirəm.

Çox şadam ki, bizim görkəmli idmançılarımız bu gün buradadır. Onların bir çoxu hələ yarışlarda iştirak edir. Veteranlar da idmandan uzaqlaşmayıblar, idmandadırlar, öz təcrübələrini bölüşürlər. Yəni, işlər belə ardıcıl şəkildə gedir. Veteranlara hörmət etməli, fəaliyyətdə olan idmançılara daim dəstək verməliyik. Uşaqlara isə tövsiyə etməliyik ki, bölmələrə gəlin, Namiq, Zemfira, Hacı və digər idmançılar kimi olun. Dövlət sizi həmişə dəstəkləyəcək və siz həyatda öz yerinizi tutacaqsınız. Azərbaycan xalqı sizə həmişə hörmət edəcək.

X X X

Sonda xatirə şəkli çəkdirildi.

Xalq qəzeti.- 2017.- 17 noyabr.- № 253.- S.1-2.

Azərbaycan Prezidenti İlham Əliyev Abşeron rayonunda "Zəhmət-Ruzi" MMC-nin fəaliyyəti ilə tanış olub

(16 noyabr 2017-ci il)

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 16-da Abşeron rayonunda "Zəhmət-Ruzi" MMC-nin fəaliyyəti ilə tanış olub.

AZƏRTAC xəbər verir ki, iqtisadiyyat naziri Şahin Mustafayev Sahibkarlığa Kömək Milli Fondu tərəfindən Abşeron rayonu üzrə maliyyələşdirilmiş investisiya layihələri, o cümlədən müasir texnologiyalara əsaslanan investisiya layihələrinə ayrılan güzəştli kreditlər, istifadəyə verilən, tikilməkdə olan və inşası nəzərdə tutulan istehsal və emal müəssisələri barədə dövlətimizin başçısına məlumat verdi.

Qeyd olundu ki, son illərdə İqtisadiyyat Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondunun xəttilə Abşeron rayonu üzrə ümumi dəyəri 360 milyon manat olan 602 investisiya layihəsinin maliyyələşdirilməsinə 200 milyon manat güzəştli kredit verilib. Maliyyələşdirilmiş layihələr hesabına 8700 yeni iş yeri açılıb. Müasir texnologiyalara əsaslanan, ümumi dəyəri 261 milyon manat olan 39 investisiya layihəsinə isə 140,5 milyon manat güzəştli kredit ayrılıb. Nəticədə 3 logistik mərkəz, 7 quşçuluq təsərrüfatı, 14 istixana kompleksi, iki süd emalı zavodu, bir çörək zavodu, bir ət emalı, iki ət kəsimi müəssisəsi, bir mebel fabriki, bir kərpic zavodu və müasir texnologiyalara əsaslanan digər müəssisələr yaradılıb.

Bildirildi ki, "Zəhmət-Ruzi" MMC-nin dəyəri 42 milyon manat olan logistika mərkəzindən, ət kəsimi, ət və süd emalı fabrikindən ibarət aqrar-sənaye kompleksinin ərsəyə gəlməsinə Sahibkarlığa Kömək Milli Fondunun xəttilə 8,3 milyon manat güzəştli kredit ayrılıb. Götürülən kredit artıq tam qaytarılıb.

Prezident İlham Əliyevə müəssisədə istehsal edilən və "SAB" -"Made in Azerbaijan" brendi altında bazara çıxarılan 60 çeşiddə ət və 40 çeşiddə süd məhsullarının nümunələri təqdim olundu.

Diqqətə çatdırıldı ki, "Zəhmət-Ruzi" MMC-nin ət və süd məhsulları AZS – keyfiyyət idarəetmə standartlarının sertifikatına və keyfiyyətə nəzarət sisteminin ISO 9001:2000 sertifikatına layiq görülən "SAB" brendi altında bazara çıxarılır.

Dövlətimizin başçısı müəssisədə ət məhsullarının istehsalı prosesi ilə tanış oldu. Bildirildi ki, 7 min tonluq logistika mərkəzi ən müasir avadanlıqla təchiz edilib. Burada illik kəsim gücü 1,8 min ton olan fabrik də fəaliyyət göstərəcək.

Qeyd edildi ki, bundan başqa, saatda 2500 quş kəsimi gücünə malik olan fabrik üçün də avadanlıq gətirilib və ilin sonunadək quraşdırılması nəzərdə tutulub. İllik istehsal gücü 10 min tona çatan ət emalı sahəsində 60 çeşiddə məhsul istehsal edilir. Ət məhsullarının saxlanma şəraiti ən müasir standartlara uyğundur.

Azərbaycan Prezidentinə məlumat verildi ki, illik istehsal gücü 7 min ton olan süd emalı sahəsində 40 çeşiddə süd məhsulları, o cümlədən pasterizə edilmiş süd, pendir, xama, kəsmik, qatıq, dovğa, ayran və digər məhsullar hazırlanır. Tezliklə bu aqrar-sənaye kompleksində dondurma da istehsal olunacaq. Kompleksin xammala olan tələbatı Abşeron və digər rayonlarda fəaliyyət göstərən fermerlərin təsərrüfatlarında tədarük edilmiş məhsul hesabına təmin ediləcək. "Zəhmət-Ruzi" MMC-nin həyata keçirdiyi layihələr hesabına 150 yeni iş yeri yaradılıb və orta aylıq əməkhaqqı 500 manatdır. Burada istehsal edilən məhsulların Rusiyaya, Qazaxıstana və Asiya ölkələrinə ixracı ilə bağlı müvafiq tədbirlər görülür.

Prezident İlham Əliyev tərəfindən həyata keçirilən sosial-iqtisadi inkişaf strategiyası nəticəsində ölkəmiz hərtərəfli inkişaf edir. İqtisadiyyatın qeyri-neft sektorunun davamlı inkişafına nail olunub. Buna imkan verən əsas amillərdən biri özəl sektorun diqqət mərkəzində saxlanılmasıdır. Təsadüfi deyil ki, dövlətin iqtisadi siyasətinin başlıca istiqamətlərindən biri məhz özəl sektorun hərtərəfli dəstəklənməsi, onun daha da genişlənməsi üçün əlverişli mühitin yaradılması, bu sahədə müxtəlif yardım və təşviq mexanizmlərinin tətbiq edilməsidir. "Zəhmət-Ruzi" MMC-nin fəaliyyəti də məhz belə bir əlverişli mühitin bəhrəsidir.

Azərbaycan Prezidentinə kompleksdəki süd məhsullarının satışadək saxlanma anbarları da təqdim olundu.

Komplekslə tanışlıqdan sonra xatirə şəkli çəkdirildi.

AZƏRTAC
2017, 16 noyabr

Abşeron rayonunun Masazır qəsəbəsində 5 nömrəli tam orta məktəbin açılışı olub
Prezident İlham Əliyev tədbirdə iştirak edib
(16 noyabr 2017-ci il)

Noyabrın 16-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Abşeron rayonunun Masazır qəsəbəsində yeni inşa olunan 5 nömrəli tam orta məktəbin açılışında iştirak edib.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı məktəbin rəmzi açılışını bildirən lenti kəsdi, burada yaradılan şəraitlə tanış oldu.

Məlumat verildi ki, məktəbin tikintisinə Heydər Əliyev Fondunun təşəbbüsü ilə 2015-ci ildə başlanılıb. Yüksək keyfiyyətlə aparılan inşaat işləri bu ilin oktyabrında başa çatdırılıb. Məktəbin üçmərtəbəli binasının ümumi sahəsi 4600 kvadratmetrdən çoxdur. Bu təhsil ocağının bir hektarlıq həyətyanı ərazisində idman qurğuları quraşdırılıb. Binanın istilik təchizatı üçün qazanxana, transformator yarımstansiyası, nasosxana və su hovuzu inşa olunub. Yeni məktəb 1200 şagird yerlikdir, burada 41 sinif otağı var.

Dövlətimizin başçısına məlumat verildi ki, indiyədək Masazır qəsəbəsində fəaliyyət göstərən dörd məktəbdə şagird sıxlığına görə tədris iki və ya üçnövbəli idi. Bu məktəb fəaliyyətə başladıqdan sonra qəsəbədəki digər məktəblərdə şagird sıxlığı aradan qaldırılacaq.

Ən müasir avadanlıqla təchiz edilən məktəbdə fizika, kimya və biologiya laboratoriyaları, kitabxana, 163 yerlik akt zalı, həmçinin hər cür şəraiti olan yeməkxana yaradılıb. Burada iki emalatxanada da tədrisin yüksək səviyyədə təşkili üçün hərtərəfli şərait var. İdman zalı zəruri avadanlıqla təchiz edilib.

Bu məktəbdə yaradılan şərait təsdiqləyir ki, son illərdə təhsilin maddi-texniki bazasının möhkəmləndirilməsi dövlət siyasətinin prioritet istiqamətlərindən biridir. Artıq ölkədə yeni təhsil konsepsiyası formalaşıb və uğurla həyata keçirilir. Azərbaycanda yüzlərlə yeni məktəb binasının tikilməsi, mövcudlarının əsaslı surətdə yenidən qurulması nəhəng təhsil infrastrukturunun formalaşmasına geniş imkanlar açıb.

AZƏRTAC
2017, 16 noyabr

Prezident İlham Əliyev Abşeron Logistika Mərkəzinin açılışında iştirak edib
(13 avqust 2018-ci il)

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 13-də paytaxtın Qaradağ rayonunun Lökbatan qəsəbəsində inşa olunan Abşeron Logistika Mərkəzinin açılışında iştirak edib.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı mərkəzin rəmzi açılışını bildirən lenti kəsdi.

Prezident İlham Əliyev Abşeron Logistika Mərkəzinin fəaliyyəti ilə tanış oldu.

Abşeron Logistika Mərkəzinin direktoru Ziya Ağayev görülən işlər barədə dövlətimizin başçısına məlumat verdi. Bildirildi ki, mərkəzin inşasına 2017-ci ilin aprelində başlanılıb. Tarixi İpək yolunun üzərində yerləşən Abşeron Logistika Mərkəzinin sutkalıq yükaşırma gücü 30 min ton təşkil edir ki, bu da ildə təqribən 11 milyon ton yükə bərabərdir. Bu mərkəz vasitəsilə Azərbaycanın kənd təsərrüfatı məhsullarının xarici ölkələrə ixracı planlaşdırılır. Abşeron Logistika Mərkəzi bütün xidmətləri təklif etməklə vaxta qənaəti və xərclərin azalmasını təmin edir.

Müəssisə ilk mərhələdə 28 hektar ərazidə dəmir yolu və avtomobil yollarının qarşılıqlı əlaqəsini təmin edərək logistika xidməti göstərməyə başlayacaq. İkinci mərhələdə isə 35 hektar ərazi üçün layihə hazırlanıb. Bu mərhələnin yekunlaşmasından sonra Logistika Mərkəzi həm Azərbaycanın, həm də Qafqazın coğrafi logistik inkişafına, həmçinin ölkəmizin iqtisadi tərəqqisinə böyük töhfə verəcək.

Mərkəz vahid gömrük məntəqəsi kimi qəbul olunub. İdxal, ixrac və tranzit gömrük əməliyyatları ərazidə yerləşən gömrük orqanları tərəfindən həyata keçirilir.

Logistik xidmət tərəfdaşlarının əməkdaşlığı məhsuldarlığı və səmərəliliyi daha da artıracaq. Mərkəzin yaradılmasında əsas məqsəd ən müasir üsullarla müştərilərin istəklərini təmin etməkdir. Bunun üçün bütün xidmətlər "vahid pəncərə" sistemi ilə bir nöqtədən təmin olunur. Müəssisədə ümumilikdə 350 nəfər işlə təmin edilib.

Vurğulandı ki, Abşeron Logistika Mərkəzində 2400 konteyner tutumu olan terminal, tutumu 21 min ton olan iriölçülü yük terminalı, 8100 kvadratmetrlik qapalı anbar sahəsi, açıq yük platforması və ən müasir texnikalar xidmət göstərəcək. Mərkəzdə yük maşınları üçün 200 yerlik park yaradılıb, dəmir yolu körpüsü və avtomobil yolları inşa edilib. Burada üçmərtəbəli gömrük, inzibati və müştəri xidmətləri binası, həmçinin giriş-çıxışa nəzarət, texniki, ictimai obyekt binaları inşa edilib.

Mərkəzdə 6-sı qatar qəbulu, 2-si konteyner, 2-si açıq yük və 2-si anbar sahələrinə boşaltma və yükləmə xətləri olmaqla, ümumilikdə 12 kilometr uzunluğunda dəmir yolu xətti var. Müəssisədə illik yükaşırma qabiliyyəti 3,5 milyon ton olan terminal vasitəsilə idxal, ixrac və tranzit yüklərin daşınması da icra olunacaq.

Abşeron Logistika Mərkəzinin əsrlər boyu mədəniyyətləri və qitələri birləşdirən tarixi İpək yolunun mərkəzində yerləşən paytaxtımızın Lökbatan qəsəbəsi ərazisində inşa edilməsi xüsusilə əhəmiyyətlidir. Mərkəzin ərazisi ticarət, logistika və sənaye zonalarının kəsişməsində və nəqliyyat şəbəkələrinin mərkəzində yerləşir. Bu müəssisənin "Meyvəli" MMC-yə, Bakı Baş Gömrük İdarəsinə, Ələtdəki Bakı Beynəlxalq Dəniz Ticarət Limanına, "Sədərək" və "Binə" ticarət mərkəzlərinə, həmçinin digər biznes strukturlarına yaxınlıqda yaradılması onun iqtisadi əhəmiyyətini daha da artırır. Təxmini hesablamalara görə, gün ərzində 750-800 yük maşını şəhər mərkəzində yerləşən stansiyalardan boşalan yükləri şəhərdaxili anbar və tikinti materialları bazarlarına daşıyır. Bu yüklərin şəhərdəki məntəqələrə, inşaat materialları mağazalarına və bazalarına çatdırılması paytaxtda nəqliyyatın hərəkətində sıxlıq və digər problemlər yaradır. Logistika Mərkəzinin yaradılması bu problemi həll etməklə yanaşı, həm də Bakının ekoloji durumunu daha da sağlamlaşdıracaq. Belə ki, Bakıətrafı dəmir yolu stansiyalarından Abşeron Logistika Mərkəzinə yönəldiləcək yüklərin həcminin 0,8 milyon ton olacağı ehtimal edilir. Beləliklə də Bakıya gələn 2 milyon ton yük şəhərdən kənarda yerləşən Abşeron Logistika Mərkəzinə yönəldiləcək. Bu da orta hesabla 125 min yük avtomobili deməkdir.

Bu mühüm infrastruktur obyektinin Bakı-Tbilisi-Qars, İran-Astara-Bakı, Rusiya-Yalama-Ələt dəmir yolu marşrutları ilə əlaqəsi var. Bakı-Tbilisi-Qars dəmir yolu tam gücü ilə fəaliyyətə başladıqdan sonra bu mərkəz vasitəsilə qonşu ölkələrlə idxal-ixrac əməliyyatlarını, eləcə də Azərbaycan ərazisindən multimodal yük daşımalarını daha çevik yerinə yetirməyə imkan yaranacaq.

Mərkəzin fəaliyyəti ilə tanış olan dövlətimizin başçısı kollektivə uğurlar arzuladı.

AZƏRTAC
2018, 13 avqust

Abşeron rayonunda məcburi köçkün ailələri üçün salınmış yaşayış kompleksi istifadəyə verilib
Prezident İlham Əliyev mərasimdə iştirak edib
(24 dekabr 2018-ci il)

Dekabrın 24-də Abşeron rayonunun ərazisində 1000 məcburi köçkün ailəsi üçün salınmış yeni yaşayış kompleksi istifadəyə verilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mərasimdə iştirak ediblər.

Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev görülən işlərlə bağlı məlumat verdi. Bildirildi ki, Prezident İlham Əliyevin 2011-ci ildə imzaladığı Sərəncama əsasən, Sumqayıt şəhəri ərazisindəki yataqxanalarda müvəqqəti məskunlaşmış 2900 məcburi köçkün ailəsi üçün çoxmərtəbəli binalardan ibarət yeni yaşayış məhəlləsinin tikilməsi qərara alınıb. Məhəllənin salınması üçün 50 hektar torpaq sahəsi ayrılıb. Birinci mərhələdə 1000 ailənin yerləşdirilməsi üçün 17,5 hektar torpaq sahəsi istifadə edilib. Yeni yaşayış məhəlləsinin layihələndirilməsi və tikintisi Məcburi Köçkünlərin Sosial İnkişaf Fondu tərəfindən həyata keçirilib. Kompleksin inşasına bu ilin martında başlanılıb və tikinti işləri yüksək səviyyədə həyata keçirilib. Layihə üzrə 23-ü 42, biri isə 35 mənzilli olan 7 mərtəbəli yaşayış binası inşa olunub. Məktəb və uşaq bağçasının daxil olduğu yeni yaşayış kompleksində digər zəruri infrastruktur obyektləri - klub-icma mərkəzi, həkim məntəqəsi, ATS binası tikilib, istirahət parkı salınıb, uşaq meydançaları yaradılıb. Ərazidə geniş abadlıq və yaşıllaşdırma işləri görülüb. Kompleks salınarkən elektrik, su, qaz, istilik təchizatı və suvarma sisteminin, rabitə və televiziya şəbəkəsinin qurulmasına xüsusi diqqət göstərilib.

Dövlətimizin başçısına məlumat verildi ki, bu yaşayış kompleksi ölkə üzrə məcburi köçkünlər üçün salınan sayca 101-ci şəhərcikdir.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva yeni kompleksdəki mənzillərdə yaradılan şəraitlə tanış oldular. Qeyd edildi ki, buradakı mənzillərdən 77-si birotaqlı, 420-si ikiotaqlı, 406-sı üçotaqlı, 96-sı isə dördotaqlıdır. Mənzillərin ümumi sahəsi 76 min kvadratmetrdir. Bütün mənzillər təmir edilib və mətbəx mebeli ilə təchiz olunub. Yeni yaşayış kompleksində hazırda Sumqayıt şəhəri və Abşeron rayonu ərazisində yataqxanalarda və digər inzibati binalarda müvəqqəti məskunlaşmış məcburi köçkün ailələri mənzillə təmin olunacaq. Prezident İlham Əliyevin Azərbaycanın ərazi bütövlüyünün təmin olunması istiqamətində həyata keçirdiyi tədbirlər, qaçqın və məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması üçün görülən işlər bu kateqoriyadan olan soydaşlarımızın hər zaman diqqət və qayğı ilə əhatə olunduğunu göstərir. Qaçqın və məcburi köçkünlərin müvəqqəti yaşayış yerləri və çadırlardan müasir tələblər səviyyəsində inşa edilən qəsəbələrə köçürülməsi dövlətin bu insanlara göstərdiyi diqqətin təzahürüdür. İndiyə qədər bu kateqoriyadan olan insanların maddi rifahının yaxşılaşdırılması üçün dövlət proqramları qəbul edilib, sosial müavinətlərin artırılması istiqamətində mühüm tədbirlər görülüb. Bu istiqamətdə atılan mühüm addımlardan biri də 2017-ci il martın 9-da Birinci vitse-prezident Mehriban Əliyevanın sədrliyi ilə Bakı və Sumqayıt şəhərlərinin yataqxanalarında müvəqqəti məskunlaşmış qaçqın və məcburi köçkün ailələrinin köçürülməsinə həsr edilən müşavirənin keçirilməsi oldu. Mehriban Əliyeva müşavirədəki çıxışında ağır vəziyyətdə, qəzalı və yararsız binalarda məskunlaşan məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması ilə bağlı tapşırıqlarını verdi. 2017-ci ilin may ayında Qaradağ rayonunda 1026 məcburi köçkün ailəsi üçün inşa edilən yaşayış kompleksinin təməli qoyuldu. Abşeron rayonunun Masazır, Mehdiabad, həmçinin Sabunçu rayonunun Ramana qəsəbələrində 470 mənzil məcburi köçkünlərə təqdim edildi. Bununla yanaşı, Heydər Əliyev Fondu tərəfindən alınan 465 mənzilə Binəqədi rayonu, 9-cu mikrorayon ərazisindəki Təcili Tibbi Yardım Stansiyasının yarımçıq binasından məcburi köçkün ailələrinin köçürülməsi başa çatdı.

Sonra dövlətimizin başçısı və birinci xanım uşaq bağçasında yaradılan şəraitlə tanış oldular. Qeyd edildi ki, burada balacaların təlim-tərbiyəsi üçün bütün imkanlar var. 140 yerlik bağça uşaqların zövqünə uyğun qurulub, onların rahatlığını, istirahətini və ilkin biliklərə yiyələnməsini təmin edəcək. Otaqlar və dəhlizlər uşaqların sevimli nağıl qəhrəmanlarının şəkilləri ilə bəzədilib. Binada videomüşahidə, yanğınxəbərverici sistemlər quraşdırılıb, uşaq bağçası zəruri mebel-inventar və avadanlıqla təchiz edilib. Bağçanın yerləşdiyi ərazidə genişmiqyaslı abadlıq-quruculuq işləri görülüb, müxtəlif çiçək və gül kolları, ağaclar əkilib. Ətrafda abadlıq və quruculuq işləri görülüb.

Qeyd edək ki, 2007-ci ildə ölkədəki 12 çadır düşərgəsinin ləğv edilməsi ilə başlanan proses nəticəsində qaçqın və məcburi köçkünlər üçün indiyədək 3,5 milyon kvadratmetr yaşayış sahəsi olan müasir

qəsəbələr və çoxmərtəbəli binalardan ibarət yaşayış kompleksləri salınıb. İlin sonuna qədər evlərlə, mənzillərlə təmin edilmiş məcburi köçkünlərin sayı 300 minə çatacaq. Bu da 53 min 500 ailə və ya 300 min qaçqın və məcburi köçkün deməkdir. Ümumilikdə bu kateqoriyadan olan insanların sosial problemlərinin həlli üçün indiyədək 7,1 milyard manat vəsait xərclənib. Məcburi Köçkünlərin Sosial İnkişaf Fondu tərəfindən 24 min məcburi köçkünə 14,8 milyon manat məbləğində mikrokredit, İqtisadiyyat Nazirliyinin Sahibkarlığın İnkişafı Fondu tərəfindən isə 2 min 74 məcburi köçkün sahibkara 44,3 milyon manat güzəştli kredit verilib. Bu mikrokreditlərin əksəriyyəti kənd təsərrüfatı - əkinçilik, heyvandarlıq, bitkiçilik, arıçılıq ilə bağlı layihələrə yönəldilib. Ötən dövrdə 200 min məcburi köçkün büdcə təşkilatlarında və digər sahələrdə daimi işlə təmin edilib. Bununla da məcburi köçkünlər arasında yoxsulluq həddi son 15 ildə 75 faizdən 12 faizədək azalıb.

Daha sonra yaşayış kompleksində tikilən Qubadlı rayonu Mirağa Əliyev adına Hal kənd tam orta məktəbindəki şəraitlə tanış olan Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya məlumat verildi ki, bu təhsil ocağı 792 şagird yerlikdir. Yüksək şəraiti ilə seçilən, müasir təlim avadanlıqları ilə diqqət çəkən bu təhsil ocağında təlim-tədris üçün hər cür şərait yaradılıb. Məktəbin kompüter otağında şagirdlər informasiya texnologiyalarının sirlərinə yiyələnəcək. İdman zalı da zəruri avadanlıqla təchiz edilib və burada şagirdlərin bədən tərbiyəsi ilə məşğul olmaları üçün hər cür imkan var. Akt zalında müxtəlif tədbirlər keçirmək mümkündür. Prezident İlham Əliyevin təhsilin inkişafına göstərdiyi diqqət və qayğı təsdiqləyir ki, bu sahə dövlət siyasətinin mühüm prinsipləri sırasına daxil edilib. Bu proses təkcə paytaxtla məhdudlaşmır, bölgələri də əhatə edir, doğma yurdlarından didərgin düşən soydaşlarımızın təhsilinin yüksək səviyyədə qurulmasına xidmət göstərir. Heydər Əliyev Fondunun dövlət səviyyəsində həyata keçirilən bu fəaliyyət proqramına verdiyi dəstək isə öz əhəmiyyəti ilə seçilir.

Məktəblə tanışlıqdan sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva məcburi köçkünlərlə görüşdülər.

Dövlətimizin başçısı görüşdə çıxış etdi.

Prezident İlham Əliyevin
çıxışı

- Əziz dostlar, bu gün məcburi köçkünlərin problemlərinin həlli işində növbəti önəmli addım atılır. Biz min mənzildən ibarət yeni şəhərciyin istifadəyə verilməsini birlikdə qeyd edirik. Bu münasibətlə sizi ürəkdən təbrik edirəm.

Çox gözəl şəhərcikdir, böyük ərazidə yerləşir. Burada iyirmidən artıq çoxmərtəbəli yaşayış binası inşa edilib. Uşaq bağçası, tibb məntəqəsi, icma mərkəzi, təxminən 800 şagirdlik gözəl məktəb, yəni burada normal yaşamaq üçün bütün imkanlar, bütün şərait var. Bu şəhərciyin istifadəyə verilməsi bir daha onu göstərir ki, köçkünlərin problemləri daim diqqət mərkəzindədir. Bizim üçün bu, prioritet məsələdir.

Son illərdə məcburi köçkünlərin problemlərinin həlli işində çox böyük addımlar atılmışdır. Üç yüz minə yaxın köçkün yeni mənzillərlə, fərdi evlərlə təmin edilib. Bu məqsədlər üçün dövlət çox böyük vəsait xərcləyib və bu da təbiidir. Çünki mən həmişə demişəm ki, məcburi köçkünlərin problemləri sosial məsələlər arasında ön plandadır.

Bu il bu istiqamətdə çox böyük işlər görülüb. Bu il 5800 köçkün ailəsi üçün fərdi evlər, mənzillər tikilib və istifadəyə verilib. Artıq köçkünlərin bu evlərə, mənzillərə yerləşməsi prosesinə start verilmişdir. Bu, rekord göstəricidir. Biz hər il minlərlə köçkün ailəsini yeni evlərlə, mənzillərlə təmin edirik. Bir daha demək istəyirəm ki, bu il bu, ən yüksək səviyyədə öz həllini tapıb. Bizim vəzifəmiz ondan ibarətdir ki, bütün köçkün ailələri normal şəraitlə təmin olunsunlar. Bu istiqamətdə böyük işlər görülür, həm Bakı şəhərində, Abşeron rayonunda, Sumqayıt şəhərində, həm də digər şəhər və rayonlarımızda. Son illərdə yüzdən çox köçkün şəhərciyi tikilib istifadəyə verilmişdir. Ancaq o da həqiqətdir ki, hələ də çətin vəziyyətdə yaşayan köçkünlərimiz var. Onların problemləri də öz həllini tapacaq. Hazırda Dövlətqaçqınkom bu istiqamətdə öz işini davam etdirir, siyahılar dəqiqləşdirilir və növbəti ildə görüləcək işlərlə bağlı indi hazırlıq tədbirləri aparılır. Gələn ilin dövlət xərclərimizdə köçkünlərin problemlərinin həlli üçün kifayət qədər böyük vəsait nəzərdə tutulub.

Onu da bildirməliyəm ki, bu il, eyni zamanda, köçkünlərin məişət problemlərinin həlli işində bir yenilik də olub. O da ondan ibarətdir ki, özəl sektor köçkünlər üçün mənzillərin tikintisinə başlamışdır. Bu il "Qobu Park" köçkün şəhərciyinin açılışı bunun bariz nümunəsi idi. Orada da mindən çox ailə üçün yeni

binalar, evlər tikilib, bütün infrastruktur yaradılıb. O layihə özəl sektor tərəfindən təmin edilib, tikilib və maliyyələşdirilib.

Bu, onu deməyə əsas verir ki, biznesin sosial məsuliyyəti də artır. Ümid edirəm ki, növbəti illərdə bizim böyük biznes strukturlarımız bu işlərdə köçkünlərə kömək göstərəcəklər. Əlbəttə, əsas işi dövlət öz üzərinə götürüb. Köçkünlərin problemlərinin həlli, onların məşğulluğunun artırılması üçün son illərdə milyardlarla manat vəsait xərclənmişdir. Ancaq imkanı olan şirkətlər əlbəttə ki, bu sahədə öz sözünü deməlidirlər və biz bunu görürük. Ümid edirəm ki, gələn il də biznes strukturları bu istiqamətdə öz sözünü deyəcəklər.

Bu il bir neçə yerdə köçkünlər üçün yeni şəhərciklər salınıb. Onların arasında iki layihəni xüsusilə qeyd etmək istərdim. Bu il Cocuq Mərcanlı qəsəbəsində işlərin ikinci mərhələsi başa çatmışdır. Bildiyiniz kimi, keçən il mənim iştirakımla Cocuq Mərcanlıda köçkün qəsəbəsinin açılışı olmuşdur. O vaxt biz 50 evin açılışını qeyd etdik. Qarşıya vəzifə qoyulmuşdu ki, evlərin sayı daha da artmalıdır. Əlavə 100 evin tikilməsi də bu il təmin edildi. Bu, əlbəttə ki, tarixi hadisədir. Çünki uzun fasilədən sonra Cocuq Mərcanlıda həyat yenidən qurulur, vətəndaşlar öz doğma torpağında yaşayırlar, qururlar, yaradırlar. Bilirsiniz ki, orada bütün infrastruktur yaradılıb, yollar, elektrik xətləri, məktəb, ermənilər tərəfindən dağıdılmış Şuşa məscidinin bənzəri olan məscid tikilib. Biznes üçün də çox gözəl şərait yaradılıb. Hazırda 150 evdən ibarət qəsəbə bizim iradəmizin rəmzinə çevrilibdir. Bu qəsəbənin yaşaması, yenidən qurulması onu göstərir ki, Azərbaycan xalqı işğalla heç vaxt barışmayacaq. Hər bir köçkün bir arzu ilə, bir amalla yaşayır ki, tezliklə öz doğma torpağına qayıtsın. Biz bunu Cocuq Mərcanlı qəsəbəsinin timsalında görürük. Çünki uzun illər başqa yerlərdə yaşamış Cocuq Mərcanlı sakinləri imkan olan kimi, əlbəttə, öz doğma kəndinə üz tutdular. Hətta Cocuq Mərcanlını görməyən uşaqlar, yeniyetmələr böyük həvəslə o kəndə üz tutub, orada - doğma torpağında öz həyatlarını qururlar.

Digər layihə Tərtər rayonunun Şıxarx qəsəbəsində tikilmiş şəhərcikdir. O şəhərcik təxminən 1200 mənzildən ibarətdir. Hündürmərtəbəli binalar tikilib. O layihənin də əhəmiyyəti ondadır ki, vaxtilə işğal edilmiş və işğaldan azad olunmuş torpaqlarda belə böyük, gözəl şəhərcik tikilib. Əlbəttə, hər bir köçkün şəhərciyinin istifadəyə verilməsi önəmli hadisədir və bizi, köçkünləri sevindirir. Ancaq bu iki layihəni xüsusilə qeyd etmək istəyirəm. Çünki məhz işğalçılardan azad edilmiş torpaqlarda biz bu gözəl şəhərcikləri qurmuşuq. Bu, bir daha onu göstərir ki, torpaqlarımız işğaldan azad olunandan sonra biz ermənilər tərəfindən dağıdılmış bütün şəhər və rayonlarımızı, kəndlərimizi bərpa edəcəyik. Buna bizim gücümüz də çatacaq, iradəmiz də var. Bizim siyasətimiz, bir daha demək istəyirəm ki, məcburi köçkünlərin problemlərinin həlli işinə dəstək verməkdən ibarətdir. Mən əminəm ki, bu gün hələ də işğal altında olan bütün torpaqlar azad ediləndən sonra o torpaqlarda gözəl şəhərlər, kəndlər yenidən qurulacaq. Azərbaycan xalqı işğalla barışmayacaq.

Ermənistanın işğalçılıq siyasəti onları ağır vəziyyətdə qoyub. Bu gün bunu həm dünya görür, həm də regionda baş verən hadisələr bunu göstərir. Ermənistanda uzun illər ərzində – iyirmi il ərzində hakimiyyəti zəbt etmiş kriminal rejim çökdü. Bunun başlıca səbəbi onların işğalçılıq siyasətidir. Çünki biz qarşıya vəzifə qoymuşduq ki, bu kriminal rejim çökməlidir və buna nail olduq. Bütün vasitələrdən istifadə edərək buna nail olduq. Mən dəfələrlə demişəm, bu gün də demək istəyirəm ki, Ermənistanda kriminal, rüşvətxor xunta rejiminin çökməsində bizim də payımız var. Nə qədər ki, torpaqlarımız işğal altındadır, ilk növbədə, biz onları təcrid vəziyyətində saxlayırıq və saxlayacağıq. Digər tərəfdən, Ermənistan iqtisadiyyatı üçün heç bir əsas yoxdur. Biz onları bütün regional layihələrdən təcrid etmişik və bu proses davam etdirilir. Ermənistanda iqtisadi vəziyyət çox ağırdır və bu il orada baş vermiş hadisələrin əsas səbəbi də səfalət, yoxsulluq, ədalətsizlik və özbaşınalıqdır. Demoqrafik baxımdan Ermənistan çox ağır vəziyyətdədir. Bizdə olan məlumata görə, yenə də işğalçılıq siyasəti nəticəsində ölkədən ən azı bir milyondan artıq vətəndaş gedibdir, həmişəlik ölkəni tərk edibdir.

Ümid edirəm, Ermənistan cəmiyyəti və Ermənistanın yeni rəhbərliyi başa düşəcək ki, ancaq Azərbaycan ilə münasibətləri normallaşdırandan sonra Ermənistanda hər hansı bir iqtisadi inkişaf ola bilər. Normallaşma torpaqlarımızın azad edilməsindən asılıdır və bunun əsas şərtidir.

Biz isə öz gücümüzü, qüdrətimizi artırırıq. Onu da bildirməliyəm ki, Ermənistanın kriminal rejiminin süquta uğramasında bizim hərbi qələbələrimiz də önəmli rol oynayıb. Xüsusilə, Aprel döyüşləri və ondan sonra bizim digər uğurlu əməliyyatlarımız nəticəsində Ermənistanın əvvəlki rəhbərliyi tərəfindən öz ordusu haqqında yaradılan mif tamamilə darmadağın edildi. Azərbaycan Ordusu, Azərbaycan əsgəri göstərdi ki, biz döyüş meydanında da qalib gəlirik. Bizim hərbi qələbələrimiz Ermənistanın kriminal rejiminin çökməsində xüsusi rol oynamışdır.

Biz 2019-cu ilə qədəm qoyuruq və ümid edirik ki, bu il Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli üçün önəmli il ola bilər. Amma baxacağıq ki, vəziyyət necə inkişaf edir. Bizim prinsipial mövqeyimiz dəyişməz olaraq qalır. Ölkəmizin ərazi bütövlüyü qeyd-şərtsiz təmin olunmalıdır, bərpa edilməlidir, işğalçı qüvvələr torpaqlarımızdan qeyd-şərtsiz çıxarılmalıdır. Bunu ədalət, tarix tələb edir, bunu beynəlxalq hüquq tələb edir. BMT Təhlükəsizlik Şurasının qətnamələrində məhz dediyim sözlər öz əksini tapıb ki, işğalçı qüvvələr işğal edilmiş torpaqlardan qeyd-şərtsiz çıxarılmalıdır. Biz əlbəttə ki, xarici müstəvidə öz səylərimizi bu istiqamətdə artıracağıq. Bu il həm ikitərəfli təmaslar əsasında mən bir çox ölkələrin dövlət və hökumət başçıları ilə apardığım danışıqlarda və imzalanmış sənədlərdə ölkəmizin ərazi bütövlüyünə, suverenliyinə hörmət göstərilir və münaqişənin bu prinsiplər əsasında həll olunması tələb edilir. Eyni zamanda, Avropa İttifaqı ilə imzalanmış sənəddə ölkəmizin ərazi bütövlüyü, suverenliyi, sərhədlərimizin toxunulmazlığı haqqında çox ciddi bəyanatlar var. Yəni, həm tarixi, həm hüquqi əsaslar bizim mövqeyimizi dəstəkləyir. Əlbəttə ki, bu gün Ermənistan və Azərbaycan iqtisadi və hərbi cəhətdən fərqli kateqoriyalarda olan ölkələrdir. Eyni zamanda, bölgədə gedən proseslər, bizim qonşu ölkələrlə münasibətlərimizin möhkəmləndirilməsi regionda vəziyyəti bizim xeyrimizə dəyişdirir. Yəni, bütün bu amillər deməyə əsas verir ki, 2019-cu ildə münaqişə ilə bağlı müəyyən addımlar atılacaq. Hələ ki, bir şey demək tezdir, ancaq bir şey tam aydındır: biz prinsipial mövqeyimizdən çəkilməyəcəyik, öz ərazi bütövlüyümüzün istənilən yolla bərpası bizim suveren hüququmuzdur. Dağlıq Qarabağ və onun ətrafında yerləşən digər işğal edilmiş torpaqlar bizim əzəli, tarixi torpaqlarımızdır və bu, bu gün belədir, sabah da belə olacaq. Sadəcə olaraq, 1990-cı illərin əvvəllərində o vaxt Azərbaycanda hakimiyyəti zəbt etmiş AXC-Müsavat cütlüyünün yarıtmaz və xəyanətkar fəaliyyəti nəticəsində torpaqlarımız işğal altına düşmüşdür. Biz bütün imkanlardan istifadə edirik ki, bu məsələ öz həllini tapsın. Ölkəmizin artan qüdrəti o günü yaxınlaşdırır ki, belə gözəl şəhərciklər bu gün işğal altında olan torpaqlarda tikilsin.

Sizin üçün bu, müvəqqəti yaşayış yeridir. Əlbəttə ki, burada gözəl şəraitin yaradılması bizim borcumuzdur. Mən bilirəm ki, burada yaşayacaq vətəndaşlar çox ağır şəraitdə yaşamışlar. İndi burada gözəl şərait yaradılır. Ancaq yenə də bu, müvəqqəti yaşayış yeridir, gün gələcək belə gözəl şəhərciklər bu gün işğal altında olan torpaqlarda açılacaqdır.

Mən sizi bu gözəl hadisə münasibətilə təbrik etmək istəyirəm. Sizi qarşıdan gələn Yeni il bayramı, Dünya Azərbaycanlılarının Həmrəylik Günü münasibətilə təbrik edirəm. Sağ olun.

X X X

Məcburi köçkün, Milli Qəhrəman atası Nəriman HƏMİDOV çıxış edərək dedi:

-Cənab Prezident, bu gün bizim sevincimizin həddi-hüdudu yoxdur, Siz bizimləsiniz. Sizin məcburi köçkünlərə göstərdiyiniz qayğı bizim nəzərimizdən heç vaxt qaçmaz. Sizin göstərdiyiniz diqqət və qayğı həmişə bizim nəzərimizdədir. Biz görürük ki, məcburi köçkünlər məsələsi həm dövlətimizin, həm də Prezidentimizin diqqətindədir. Çox şadıq ki, bu gün Sizin ad gününüzdür. Bu münasibətlə Sizi təbrik edirəm. Sizə uzun ömür, cansağlığı arzulayıram.

Möhtərəm Prezident, ölkəmiz tərəqqidədir. Bu, hamımızın gözü qarşısındadır. Ölkəmiz çiçəklənir, inkişaf edir. Bunlar hamısı Sizin daxili və xarici siyasətinizin bariz nümunəsidir. Bütün bunların hamısı dünya miqyaslı siyasi xadim, türk aləminin lideri, ulu öndərimiz Heydər Əliyevin dövlətçilik siyasətini uğurla həyata keçirməyinizin bariz nümunəsidir. Bu siyasət nəticəsində ölkəmiz gündən-günə inkişaf edir, xalqımızın güzəranı, maddi rifah halı yaxşılaşır. Onu da qeyd edim ki, bütün Azərbaycan xalqı, bütün dünya azərbaycanlıları Sizi çox istəyir. Siz Ulu Öndərin siyasi xəttini cəsarətlə davam etdirirsiniz.

Cənab Prezident, Siz çox qayğıkeş, hər bir sahənin inkişafına diqqət yetirən rəhbərsiniz. Ölkəmizdə çoxlu alimlər, yazıçılar, şairlər, mədəniyyət işçiləri, idmançılar var. Siz onların hamısının əməyini yüksək qiymətləndirirsiniz, hamısının öz payını, qismətini özünə çatdırırsınız. Bu qismətdən mənə də pay düşübdür. Ermənilərin həmləsinin qarşısını almaq üçün bizim ordumuz Sizin rəhbərliyiniz altında ayağa qalxdı. O vaxt mənim oğlum da cəbhədə idi. Lələtəpənin alınmasında göstərdiyi şücaətə görə Siz ona Azərbaycanın Milli Qəhrəmanı adı verdiniz. Çox şadam, bu gün Allah-Təala mənə bu fürsəti verib ki, mən Sizə öz minnətdarlığımı üzbəüz bildirim. Sizə öz adımdan, bütün ailəmiz adından minnətdarlıq edirəm. Çox sağ olun, polkovnik Şükür Həmidov Sizin Sərəncamınızla Milli Qəhrəman adına layiq görülüb. Minnətdarlığımı bildirirəm.

Cənab Prezident, bu, tək mənim valideynlik qürurum, sevincim deyil. Bu, bizim ordumuzun Sizin rəhbərliyinizlə qələbəsinin nəticəsidir. Eyni zamanda, Siz özünüz də qeyd etdiyiniz kimi, Cocuq Mərcanlıda görülən işlər qayıdışımızın ilk addımıdır. Biz Sizin rəhbərliyinizlə o addımı davam etdirəcəyik.

Bizim bir el misalı var: Ad günü olana hədiyyə verərlər. Amma Siz bunun əksinə hərəkət etdiniz, bu şad gündə, Sizin ad gününüzdə bu gözəl, hər şəraiti olan qəsəbəni Siz bizə hədiyyə etdiniz. Çox sağ olun, çox var olun. Sizə uzun ömür, işinizdə müvəffəqiyyət arzulayıram.

Hörmətli Mehriban xanım, mənim yaxşı yadımdadır, Siz Birinci vitse-prezident olanda ilk yığıncağınızı qaçqınların və məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması ilə əlaqədar keçirdiniz. Mən o yığıncaqdakı çıxışınızı dəfələrlə dinləmişəm. Siz Azərbaycan xalqının sevimli qızısınız. Bütün Azərbaycan xalqı Sizi sevir, Sizi alqışlayır. Ölkəmizin daxilində və xaricdə gördüyünüz işlərin hamısı bizə yaxşı məlumdur. Çox sağ olun, bunlar heç vaxt bizim yadımızdan çıxmaz.

Mən bütün qubadlılılar, bütün məcburi köçkünlər adından, möhtərəm Prezidentimiz, Sizi ad gününüz münasibətilə təbrik edirəm, Sizə cansağlığı arzulayıram. Arzu edirəm ki, Sizin rəhbərliyinizlə torpaqlarımız yaxın vaxtlarda işğaldan azad olunsun, biz gedək öz ata-baba torpaqlarımızı ziyarət edək, beş gün də yaşamalı olsaq, o torpaqda yaşayaq. Çox sağ olun, çox var olun. Onu da arzu edirəm ki, Sizin fərmanları imzaladığınız o qələm həmişə Sizin əlinizdə olsun.

Prezident İlham Əliyev: Çox sağ olun.

X X X

Qubadlı rayonundan məcburi köçkün Aqil QULİYEV dedi:

-Möhtərəm cənab Prezident.

Sizi doğum gününüz münasibətilə bütün gənclər adından ürəkdən təbrik edir, Sizə möhkəm cansağlığı, dövlətimizin daha da güclənməsi naminə fəaliyyətinizdə uğurlar arzulayıram.

Cənab Prezident, bu əziz gündə Sizin qarşınızda çıxış etmək hər bir Azərbaycan gənci kimi, mənim üçün də böyük şərəfdir və həyatımda tarixi əlamətdar gündür.

Möhtərəm cənab Prezident, Azərbaycan gəncliyi Sizinlə fəxr edir. Ona görə ki, ümummilli liderimiz, Azərbaycanın, dünyanın dahi siyasi xadimi Heydər Əliyevin 1990-cı illərin əvvəllərində tələtümlərdən, məhv olmaq təhlükəsindən xilas etdiyi, inkişafının əsasını qoyduğu Azərbaycanı bu gün Siz dünyada və beynəlxalq aləmdə, regionda gedən çətin vəziyyətdə, dünyada ikili standartların hökm sürdüyü bir zamanda daha da inkişaf etdirib, uğurdan-uğura aparırsınız.

Möhtərəm cənab Prezident, Siz bu gün Azərbaycanı idman ölkəsinə, mühüm beynəlxalq yarışların, humanitar forumların keçirildiyi multikultural məkana çevirmisiniz. Bu gün Azərbaycanı dünyaya multikulturalizm nümunəsi göstərən bir ölkəyə çevirmisiniz. Bu gün dünya Azərbaycan multikulturalizmindən bəhs edir və ondan öyrənir.

Möhtərəm cənab Prezident, ulu öndər Heydər Əliyevin əsasını qoyduğu böyük strateji layihələrin - Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, Bakı-Tbilisi-Qars kimi layihələrin Sizin rəhbərliyinizlə reallaşdırılması, Sizin müəllifi olduğunuz TANAP, TAP kimi mühüm layihələrin həyata keçirilməsi Azərbaycanı regionun lider dövlətinə, Avropanın enerji təhlükəsizliyində mühüm rol oynayan dövlətə çevirmişdir. Bütün bunlar məhz Sizin böyük siyasi fəaliyyətinizin nəticəsidir. Bu gün biz ona görə fəxr edirik ki, yaşadığımız müstəqil Azərbaycanı dünyanın azsaylı ölkələrindən olan kosmik ölkəyə çevirmisiniz. Bütün bunlar, həmçinin ulu öndərimiz Heydər Əliyevin əsasını qoyduğu gənclər siyasətinin davam etdirilməsi gənclərimizi hər zaman Sizin siyasətinizi qətiyyətlə müdafiə edən cəmiyyətimizin fəal bir zümrəsinə çevirib. Gənclərimiz hər zaman həyatda öz yerlərini tutmaqda Sizə güvənmiş, Sizdən ilham almışlar.

Hörmətli Mehriban xanıma dünyanın diqqətini Azərbaycana yönəltmiş birinci Avropa Oyunlarının, IV İslam Həmrəyliyi Oyunlarının böyük müvəffəqiyyətlə keçməsi üçün göstərdiyi səylərə görə bütün gənclər adından, məcburi köçkünlər adından dərin minnətdarlığımızı bildiririk.

Möhtərəm cənab Prezident, bu gün Azərbaycanımız gündən-günə inkişaf edir. Biz Sizin bütün istiqamətlərdə, o cümlədən Ali Baş Komandan kimi ordu quruculuğu sahəsində apardığınız məqsədyönlü siyasət nəticəsində doğma torpaqlarımızın tezliklə azad olunacağına inanırıq. Biz gənclər Ali Baş Komandanımızın əmrinizi səbirsizliklə gözləyən müsəlləh əsgərlərik.

Möhtərəm cənab Prezident, icazə verin, bu gün bu sevinci bizə bəxş etdiyinizə, öz ad gününüzü bizimlə qeyd etdiyinizə, hər cür şəraitlə təmin olunmuş şəhərciyi köçkünlərə hədiyyə etdiyinizə görə gənclərin Sizə sonsuz minnətdarlığını çatdırım.

Möhtərəm cənab Prezident, bir daha Sizi ad gününüz münasibətilə səmimi qəlbdən təbrik edir, Sizə dövlətimizin daha da inkişafı naminə fəaliyyətinizdə uğurlar arzulayıram.

Prezident İlham Əliyev: Çox sağ olun.

X X X

Sonda xatirə şəkli çəkdirildi.

AZƏRTAC
2018, 24 dekabr

Xızı

2014, 22 iyul

- Azərbaycan Prezidenti İlham Əliyevin Xızı rayonuna səfəri: Ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət
- Prezident İlham Əliyev Xızıdakı Heydər Əliyev Parkında aparılan yenidənqurma işləri ilə tanış olub
- Xızıda Heydər Əliyev Mərkəzi açılıb
- Xızı Rayon İcra Hakimiyyətinin yeni binası istifadəyə verilib
- Cəfər Cabbarlı parkında yenidənqurma işlərindən sonra yaradılan şəraitlə tanışlıq
- Prezident İlham Əliyev Xızı şəhərində inşa edilmiş 25 fərdi evdə yaradılan şəraitlə tanış olub
- Taxtakörpü-Ceyranbatan kanalından suyun yeni suvarılan torpaqlara verilməsi üçün suburaxıcı qurğunun təməli qoyulub

2015, 4 sentyabr

- Azərbaycan Prezidenti İlham Əliyevin Xızı və Siyəzən rayonlarına səfəri: Xızı rayonunda yeni suvarılacaq torpaqlara Taxtakörpü-Ceyranbatan kanalından suvarma suyunun verilməsi mərasimi olub

2018, 4 may

- Azərbaycan Prezidenti İlham Əliyev Xızı rayonuna səfərə gəlib
- Giləzi-Xızı avtomagistralını Fındığan kəndi ilə birləşdirən yolun açılışı olub
- Prezident İlham Əliyev Xızı şəhərinə və Altıağac qəsəbəsinə içməli suyun verilməsi mərasimində iştirak edib: Prezident İlham Əliyevin çıxışı

2018, 11 oktyabr

- Xızı rayonunda “Yeni Yaşma” Külək Elektrik Parkı istifadəyə verilib

Azərbaycan Prezidenti İlham Əliyevin Xızı rayonuna səfəri
Ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət
(22 iyul 2014-cü il)

İyulun 22-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Xızı rayonunda səfərdə olub.

Dövlətimizin başçısı əvvəlcə Xızı şəhərinin mərkəzində salınan Heydər Əliyev parkında Ümummilli Liderin yeni ucaldılmış abidəsi önünə gül dəstəsi qoydu.

AZƏRTAC
2014, 22 iyul

Prezident İlham Əliyev Xızıdakı Heydər Əliyev Parkında aparılan yenidənqurma işləri ilə tanış olub

(22 iyul 2014-cü il)

İyulun 22-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Xızı rayonuna səfəri çərçivəsində Heydər Əliyev Parkında aparılan yenidənqurma işləri ilə tanış olub.

Ölkədə həyata keçirilən sosial-iqtisadi inkişaf strategiyası bölgələrin daha da gözəlləşməsi, regionların simasına yeni elementlərin əlavə edilməsi ilə müşayiət olunur. Şəhər və rayonlarımızda aparılan quruculuq işləri çərçivəsində park və xiyabanların salınması və ya yenidən qurulması da diqqətdən kənarda qalmır. Bu sahədə həyata keçirilən işlər çərçivəsində Xızı rayonundakı Heydər Əliyev Parkının yenidən qurulması da xüsusi əhəmiyyət kəsb edir. Rayon mərkəzində yerləşən bu mədəniyyət və istirahət parkının ərazisi tamamilə yenidən qurulub. Xızının mərkəzi hissəsinə xüsusi yaraşıq verən bu park rayon sakinlərinin istirahətinin yüksək səviyyədə təşkilinə xidmət edir.

Xızı Rayon İcra Hakimiyyətinin başçısı Xəzər Aslanov parkda görülən abadlıq və quruculuq işləri barədə dövlətimizin başçısına məlumat verdi.

Bildirildi ki, rayon sakinlərinin mənalı istirahəti və asudə vaxtlarının səmərəli təşkili üçün 3,6 hektar ərazidə salınmış parkda ardıcıl olaraq yenidənqurma və tikinti-quraşdırma işləri aparılır. Yenidənqurma işləri zamanı milli memarlıq üslubu ilə müasirlik tam uzlaşdırılıb, orijinal elementlər və formalarla zənginləşdirilib. Parkın ərazisində çoxlu ağac və dekorativ gül kolları əkilib, çəmənlik salınıb.

Ölkəmizdə aparılan abadlıq-quruculuq işləri əhalinin istirahətinin təşkilində ciddi dəyişikliklərə səbəb olub. Şəhər və rayonlarımızın simasını daha da gözəlləşdirən yeni parkların salınması, həmçinin mövcud parkların yenidən qurulması diqqət mərkəzində saxlanılır. Bu da regionlarda həyata keçirilən quruculuq işlərinin davamlı və kompleks xarakter daşımasına əyani sübutdur.

Prezident İlham Əliyevə Xızı şəhərinin mərkəzi hissəsinin yenidən qurulması layihəsi barədə ətraflı məlumat verildi.

Bildirildi ki, layihədə nəzərdə tutulan "Xızı Grand Hotel" ən yüksək standartlar səviyyəsində inşa olunacaqdır.

AZƏRTAC
2014, 22 iyul

Xızıda Heydər Əliyev Mərkəzi açılıb
(22 iyul 2014-cü il)

İyulun 22-də Xızıda Heydər Əliyev Mərkəzi açılıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev açılışda iştirak edib.

Azərbaycan dövlətçiliyinin möhkəm əsaslar üzərində qurulmasında, respublikamızın hərtərəfli inkişafında müstəsna xidmətləri olan ümummilli lider Heydər Əliyevin xatirəsinin əbədiləşdirilməsi məqsədilə ölkəmizin bütün bölgələrində, o cümlədən Xızıda mühüm işlər görülür və vacib layihələr reallaşdırılır. Rayonun mərkəzində yeni tikilən Heydər Əliyev Mərkəzi Ümummilli Liderin xatirəsinə dərin ehtiramın nümunəsidir. Mərkəzdə Ulu Öndərin həyat və fəaliyyətinin müxtəlif dövrlərini əks etdirən fotolar və eksponatlar toplanıb. Burada Heydər Əliyevin Azərbaycanın beynəlxalq aləmdə nüfuzunun möhkəmləndirilməsi, bu böyük şəxsiyyətin həyata keçirdiyi məqsədyönlü siyasət nəticəsində müstəqilliyin ilk illərində ölkəmizdə vətəndaş müharibəsinin qarşısının alınması, iqtisadiyyatın ağır böhran vəziyyətindən çıxarılaraq inkişaf yoluna qədəm qoyması, qüdrətli ordu quruculuğu istiqamətində həyata keçirilən mühüm tədbirləri əks etdirən foto, kitab və digər vəsaitlərə geniş yer verilib. Ümummilli lider Heydər Əliyevin azərbaycançılıq fəlsəfəsinin təbliği, Azərbaycan vətəndaşlarının dünyada gedən müasir proseslər çərçivəsində öz vətəni, milləti və xalqının taleyi ilə bağlı genişmiqyaslı layihələrdə iştirakının təmin olunması, onların arzu və niyyətlərini gerçəkləşdirmək əzminin reallaşması baxımından mühüm əhəmiyyət daşıyan Heydər Əliyev Mərkəzi həm də Azərbaycanın müasir reallıqlarını əks etdirir.

Dövlətimizin başçısı Heydər Əliyev Mərkəzinin rəmzi açılışını bildirən lenti kəsdi.

Məlumat verildi ki, Mərkəzin tikintisinə 2013-cü ilin aprelində başlanıb. Binanın ətrafında geniş abadlıq-quruculuq işləri görülüb. Müasir interyeri ilə diqqəti cəlb edən Mərkəzin foyesində Ümummilli Liderin büstü qoyulub. Mərkəzdə ulu öndər Heydər Əliyevin həyat və fəaliyyətinə dair tarixi sənədlərə geniş yer verilib. Burada Ümummilli Liderin həyatının uşaqlıq, gənclik və tələbəlik illəri, həmçinin sovet və müstəqillik dövrünə aid müxtəlif fotoları maraqla qarşılanır. Bu fotolarda Ümummilli Liderin istər sovet hakimiyyəti illərində, istərsə də müstəqillik dövründə Azərbaycana rəhbərliyinin müxtəlif məqamları əks olunub. Bundan başqa, Mərkəzdə Ümummilli Liderlə bağlı kitablar, sənədlər və digər maraqlı eksponatlar sərgilənir. Binada, həmçinin Prezident İlham Əliyevin Xızıya səfərlərini əks etdirən fotolardan ibarət stend də maraq doğurur. Son illərdə respublikamızda fəaliyyət göstərən Heydər Əliyev mərkəzlərində yeni ailə quran gənclərin nikah mərasimlərinin təşkili kimi xoşməramlı tədbirlərə də başlanıb. Qeyd edildi ki, bu Mərkəzdə də vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyatı və bununla bağlı mərasimlərin təşkili də nəzərdə tutulur.

Mərkəzin tikintisində şəhərsalma memarlığının son nailiyyətlərindən istifadə olunub. Burada sərgi salonu, kafe, istirahət və digər yardımçı otaqlar var. Açıq sərgi salonunda maraqlı rəsm nümunələri sərgilənir. Mərkəzdə elektron kitabxana, kulinariya, xalq sənətkarlığı emalatxanası, musiqi və heykəltəraşlıq dərnəkləri fəaliyyət göstərəcək. Bu dərnəklər gənclərin müxtəlif sənətlərin sirlərinə yiyələnməsinə, onların asudə vaxtının səmərəli təşkilinə geniş imkanlar yaradır. Mərkəzdəki kompyuter otağı, rəsm və dizayn studiyaları, virtual sinif də müasirliyi ilə diqqəti cəlb edir. Burada rayonun ictimai-siyasi həyatında baş verən mühüm hadisələr və əlamətdar günlərlə bağlı tədbirləri yüksək səviyyədə keçirmək üçün hərtərəfli imkan yaradılıb. Mərkəzdəki 230 yerlik akt və kiçik konfrans zallarında ictimai-siyasi və mədəni-kütləvi tədbirlərin, o cümlədən ulu öndər Heydər Əliyevin zəngin irsinin geniş təbliği məqsədilə açıq dərslərin keçirilməsi nəzərdə tutulub. Buraya gələnlər 3D kino zalından, pnevmatik tir zallarından istifadə edə bilərlər.

Heydər Əliyev Mərkəzi ilə tanışlıqdan sonra dövlətimizin başçısı rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdü.

Rayon ictimaiyyətinin nümayəndələrini salamlayan Prezident İlham ƏLİYEV dedi:

- Sizi ürəkdən salamlayıram. Yenidən Xızıda olmağımdan çox şadam. Bu, Xızıya mənim üçüncü səfərimdir. Yadımdadır, keçən dəfə xəstəxananın açılışını qeyd etmişik.

Bu gün də bu möhtəşəm Heydər Əliyev Mərkəzinin açılışında bir yerdəyik. Bu gözəl hadisə münasibətilə sizi ürəkdən təbrik edirəm. Bu, çox gözəl Mərkəzdir, çox gözəl binadır. Həm xarici görünüşü, həm daxili tərtibatı ən yüksək səviyyədədir. Çox böyük zövqlə tikilibdir. Əminəm ki, Xızı rayonunun sakinləri bu Mərkəzdən səmərəli şəkildə istifadə edəcəklər. Çünki bu Mərkəzdən gənclər, yeniyetmələr, yaşlı nəslin nümayəndələri müxtəlif istiqamətlər üzrə istifadə edə bilərlər. Həm funksional, həm memarlıq

baxımından çox gözəl bir yerdir. Burada fəaliyyət göstərəcək dərnəklərdə gərək gənclər iştirak etsinlər və bu Mərkəz yaşamalıdır. Çünki belə gözəl bina tikilib və əlbəttə ki, bunun funksional tərəfi də yüksək səviyyədə təşkil edilməlidir.

Mərkəz Ulu Öndərin adını daşıyır və bu da təbiidir. Çünki Heydər Əliyev müstəqilliyimizin banisidir. Məhz onun fəaliyyəti nəticəsində bu gün Azərbaycan müstəqil dövlət kimi yaşayır, güclənir. Ölkəmiz üçün ən ağır dövrdə xalqın tələbi ilə rəhbərliyə gəlmiş Heydər Əliyev müstəqilliyi təmin edib, vətəndaş müharibəsinə son qoyub, ölkəmizi inkişaf yoluna çıxarıb. Bu gün biz bu siyasətə bütün istiqamətlər üzrə sadiqik və ölkəmizin uğurlu inkişafı bu siyasətin nəticəsidir. Bu inkişafı biz Xızı rayonunun timsalında da görürük. Çünki bildiyiniz kimi, Xızı o qədər də böyük rayon deyil, əhali də 15 min civarındadır.

Buna baxmayaraq, Xızının sosial-iqtisadi inkişafı üçün bütün lazımi tədbirlər görülür. Biz bu tədbirləri ardıcıllıqla görürük ki, bütün insanları narahat edən məsələlər öz həllini tapsın. Magistral yoldan Xızıya gözəl bir yol çəkilib. Bu yol əvvəlki dövrdə o qədər də yaxşı vəziyyətdə deyildi. İndi ən gözəl standartlara uyğundur. Burada digər yol layihələri icra edilir. Bu yaxınlarda kənd yollarının tikintisi üçün əlavə vəsait ayrılmışdır. Altıağac kəndinə qədər gedən yol əsaslı şəkildə tikiləcəkdir. Digər yol layihələri indi həllini gözləyir və o məsələlər də həll olunacaqdır. Şurabad kənd yolu da tikilməlidir. Bu məqsədlər üçün də vəsait ayrılacaq. Yəni, yol infrastrukturu əsasdır və indi ölkəmizin bütün yerlərində kənd yolları prioritet kimi gündəlikdədir. Yol olanda əlbəttə ki, rahatlıq da, inkişaf da olur. Xızının turizm potensialı çox böyükdür. Burada çox gözəl təbii şərait var - gözəl dağlar, təmiz hava. Bu gün mənə yeni layihə təqdim olundu. Gözəl otelin tikintisi nəzərdə tutulur. Yəni, bu sahədə əlavə tədbirlərin görülməsi əlbəttə ki, rayonun iqtisadi potensialını artıracaqdır. Çünki ilk növbədə yol olmalıdır, infrastruktur layihələri icra edilməlidir. Hər rayon üçün onun spesifikasına uyğun olaraq iqtisadi inkişaf planı da nəzərdə tutulur, o cümlədən Xızı üçün. Bildiyiniz kimi, üçüncü regional inkişaf proqramında Xızı rayonunun inkişafı üçün bütün lazımi tədbirlər nəzərə alınıb.

Keçən dəfə burada olarkən biz xəstəxananın açılışını qeyd etmişik. Bu, çox gözəl tibb ocağıdır. Həm gözəldir, həm də ki, orada quraşdırılan bütün avadanlıq dünya klinikalarından geri qalmır. Hesab edirəm ki, bu da insanların sağlamlığına çox böyük töhfədir.

Xızı rayonunda kənd təsərrüfatının inkişafı üçün çox önəmli addım atılmışdır. Suvarma layihəsinə start verildi və bu layihənin reallaşması Taxtakörpü su anbarının tikintisindən sonra mümkün olmuşdur. Taxtakörpü su anbarının tikintisi ölkədə son vaxtlar qeyri-neft sektorunda infrastruktur layihələri arasında bəlkə də ən böyüyüdür, kənd təsərrüfatının inkişafı üçün xüsusi əhəmiyyətə malikdir. Samur-Abşeron kanalı, Taxtakörpü su anbarı, elektrik stansiyası, Taxtakörpü-Ceyranbatan kanalı - bu layihələr artıq icra edilibdir. Beləliklə, biz Samur çayının sularından istənilən həcmdə istifadə edirik. İndi isə biz artıq bu kanal üzərində yerləşən rayonların kənd təsərrüfatına da ciddi diqqət göstəririk.

Siyəzən, Şabran və Xızı rayonlarında böyük həcmdə yeni torpaq sahələri dövriyyəyə buraxılacaqdır. Xızı rayonunda isə doqquz min hektar torpaq su ilə təmin ediləcəkdir. Hazırda Xızı rayonunda suvarılan torpaqların sahəsi üç min hektardır. Yəni, indikindən üç dəfə çox torpaq suvarılacaqdır. Beləliklə, fermerlər üçün əlavə imkanlar yaranacaqdır. Fermerlər gərək o torpaqlardan səmərəli şəkildə istifadə etsinlər. Kənd Təsərrüfatı Nazirliyi, İqtisadiyyat və Sənaye Nazirliyi, yerli icra hakimiyyəti birlikdə bu işlərlə məşğul olmalıdırlar ki, biz bu torpaqlarda əkiləcək məhsulların nomenklaturasını müəyyən edək.

Yəni, bu, kənd təsərrüfatının inkişafı üçün çox böyük layihədir, böyük töhfədir. Əminəm ki, yaxın vaxtlarda artıq bütün lazımi şəbəkə qurulacaqdır. İndi boru xətləri və kanallar tikilməlidir ki, hazırda səhraya bənzəyən o torpaqlar artıq gülüstana çevrilsin.

Bax, budur bizim konkret gördüyümüz işlər. Xızı rayonunun gələcək inkişafı ilə bağlı, əlbəttə ki, əlavə tədbirlər görüləcəkdir. Mən bilirəm ki, problemlər də vardır. Onların arasında birinci problem içməli su problemidir. Bildiyiniz kimi, indi ölkə üzrə bu problem tədricən öz həllini tapır. Əminəm ki, üçüncü regional inkişaf proqramının icrası nəticəsində bizim bütün şəhərlərimizdə içməli su layihələri təmin ediləcəkdir, o cümlədən Xızı rayonunda.

Bilirəm ki, mənbənin müəyyən edilməsi ilə bağlı müxtəlif çətinliklər vardır. O məsələ də öz həllini tapacaqdır. Yəni, Xızı rayonuna da təmiz içməli su gətiriləcəkdir. Çünki biz indi bu layihələrə böyük diqqət göstəririk. Artıq son vaxtlar bir neçə şəhərə təmiz içməli su gətirilibdir. Eyni zamanda, kanalizasiya layihələri də bərabər aparılır, o cümlədən Xızıda da bu məsələ öz həllini tapacaqdır. Yəni, son vaxtlar aparılan işlər onu göstərir ki, biz bütün problemləri ardıcıllıqla həll edirik və həll edəcəyik.

Misal üçün, bu gün Xızıda qazlaşma doxsan faiz təşkil edir. Amma vaxtilə burada qaz yox idi, yollar yox idi. Yollar tikilibdir. Xəstəxana yox idi, xəstəxana tikilibdir. İndi içməli su layihəsi də icra ediləndən sonra demək olar ki, əsas infrastruktur məsələləri həll olunacaqdır.

Suvarma layihəsinə start verildi. Fermerlərə güzəştli şərtlərlə kreditlər verilir. Təkcə o qalıb ki, insanlar bu imkanlardan səmərəli şəkildə istifadə etsinlər, işləsinlər və öz əməyi ilə ölkəmizi daha da möhkəmləndirsinlər. Bizim ümumi inkişafımız göz qabağındadır. Azərbaycan öz sürətli inkişaf dövrünü yaşayır və ölkədə böyük quruculuq işləri aparılır.

İqtisadiyyatımız artır, sosial məsələlər həll olunur. Ölkədə sabitlik və vətəndaş həmrəyliyi hökm sürür. Bir sözlə, bu gün Azərbaycan məhz görülən işlərə görə dünya miqyasında diqqət mərkəzinə çevrilib. Biz bu işləri ardıcıllıqla görürük. Hər bir istiqamət üzrə bu işlər konkret proqram əsasında aparılır, o cümlədən rayonların inkişafı və Xızı rayonunun gələcək inkişafı ilə bağlı bizdə heç bir şübhə yoxdur. Daha da böyük işlər görüləcəkdir, insanlar daha da yaxşı yaşayacaqlar.

Əminəm ki, dediyim məsələlərin reallaşması nəticəsində biz hələ sizinlə çox görüşəcəyik. Çünki gələcəkdə burada yenə də böyük açılışlar olacaqdır.

Sizi bir daha salamlayıram. Sizə ən xoş arzularımı çatdırıram.

X X X

Azərbaycan Prezidenti İlham Əliyevə rayon sakinlərinin təşəkkürünü çatdıran Əməkdar Müəllim Xatirə ŞAHGƏLDİYEVA dedi:

- Möhtərəm cənab Prezident, Sizi xızılılar adından salamlayıram. Xızı torpağına xoş gəlmisiniz. Biz müstəqil Azərbaycan dövlətinin bugünkü inkişafına görə hər birimizin borclu olduğu dahi şəxsiyyətin

- Heydər Əliyevin adını daşıyan möhtəşəm Mərkəzin açılışına toplaşmışıq. Hər bir azərbaycanlı çox gözəl bilir ki, Heydər Əliyev Vətənimizin, insanlarımızın gələcəyi naminə çalışıb, ömrünü Vətəninə, xalqına həsr edib. Heydər Əliyevin cəsarəti, uzaqgörənliyi, müdrikliyi nəticəsində Azərbaycan ayağa qalxdı, möhkəmləndi, müstəqil bir dövlət kimi özünü qoruyub saxlaya bildi, iqtisadiyyatını gücləndirdi. Elə o dövrdən bu günədək Azərbaycan bu yolla sürətlə inkişaf edir, irəliləyir.

Qarşımızdakı bu əzəmətli Mərkəzdə müxtəlif dərnəklər yaradılmışdır. Biz inanırıq ki, gənclərimiz bu dərnəklərdə müsbət yönümdə təhsil, tərbiyə alacaqlar. Onlar maraq və istəklərinə uyğun məşğuliyyət tapacaq, bir-biriləri ilə informasiya, fikir mübadiləsi edəcəklər.

Yaratdığınız bu şəraitə görə Sizə ictimaiyyətimiz adından minnətdarlığımızı bildiririk. Ən başlıcası isə bu Mərkəzdə gənclərimiz Heydər Əliyevin nümunəsində Vətəni sevməyi, ona sədaqətlə xidmət etməyi öyrənəcəklər. Biz fəxr edirik ki, Ulu Öndərimizin qurub yaratdığı müstəqil Azərbaycan dövlətinin sükanı bu gün etibarlı əllərdə - Sizin əllərinizdədir. Sizin rəhbərliyinizlə ölkəmiz bu gün çox güclü, özü-özünü hər cəhətdən təmin edə bilən qüdrətli dövlətə çevrilib. Onun səsi mötəbər beynəlxalq kürsülərdən gəlir. O öz sözünü hər bir məqamda, hər bir şəraitdə açıq deyə bilir. Dünyanın aparıcı dövlətləri onunla - bizim dövlətimizlə hesablaşır. Bu, bir həqiqətdir. Biz bununla qürur duyuruq. İnanırıq ki, gələcəkdə də Sizin rəhbərliyiniz altında ölkəmiz yeni-yeni zirvələr fəth edəcəkdir.

Heydər Əliyev Fondunun prezidenti Mehriban xanımla birgə Sizin çiyin-çiyinə gördüyünüz işləri sözlə ifadə etmək qeyri-mümkündür. Cəmiyyətimiz, insanlarımız, xüsusilə gənclərimizin sağlam, savadlı, istedadlı olmaları, hərtərəfli inkişaf etmələri üçün çox önəmli layihələr həyata keçirir, çox gözəl şərait yaradırsınız. Ulu Öndər, Siz, Mehriban xanım, övladınız Leyla xanım da dövlətə sədaqətin, dövləti sevməyin nümunəsisiniz. Cənab Prezident, Siz həm gənclərimizə, həm də bütün dünyaya Vətənə sədaqətli olmağı nümayiş etdirirsiniz.

Möhtərəm cənab Prezident, heç bir şübhə yoxdur ki, Sizin bəyan etdiyiniz kimi, bizim gözəl Vətənimizin ərazi bütövlüyü bərpa olunacaq, işğaldan əzab çəkən soydaşlarımız öz ata-baba torpaqlarına qayıdacaqlar. Sizin kimi mərd, cəsarətli, rəşadətli Prezidentimizlə biz buna mütləq nail olacağıq. O müqəddəs günü biz Sizinlə səbirsizliklə gözləyirik.

Möhtərəm cənab Prezident, məktəbimdə, evimdə, ailəmdə, rayonumda baş verən dəyişikliklərin canlı şahidiyəm. Bakıya yaxın olsa da ucqar sayılan Xızı bu gün belə gözəl, müasir, abad bir şəhərə çevrilib. Mənim doğma rayonum gündən-günə sürətlə inkişaf edir, yollar, parklar salınır, yeni evlər tikilir, misli görülməmiş quruculuq, abadlıq işləri aparılır.

Cənab Prezident, bu gün hər bir azərbaycanlı öz qüdrətli ölkəsində rahat yaşayır. Gələcəyimizə isə möhkəm bir əminlik vardır. Çünki Siz həmişə Azərbaycanı irəliyə, yeni-yeni zirvələrə aparırsınız. Xalq Sizə inanır, arxanızca gedir və hər zaman gedəcəkdir. Allah Sizi qorusun!

X X X

Sonda xatirə şəkli çəkdirildi.

AzərTAc
22 iyul 2014-cü il

Xızı Rayon İcra Hakimiyyətinin yeni binası istifadəyə verilib
(22 iyul 2014-cü il)

İyulun 22-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Xızı Rayon İcra Hakimiyyətinin yeni binasında yaradılan şəraitlə tanış olub.

Prezident İlham Əliyevin sərəncamları və tapşırıqları əsasında regionlarda həyata keçirilən quruculuq işləri hər bir bölgənin inkişaf strategiyasına uyğun aparılır. Yeni tikilən binalar bölgələrin simasını daha da gözəlləşdirir. İndi bütün regionlarda səngiməyən abadlıq-quruculuq işləri ölkəmizin kompleks inkişafını təmin edir. Bu sırada Xızı rayonunda görülən işlər də diqqəti cəlb edir. Rayon icra hakimiyyəti üçün yeni tikilən binada yaradılan şərait ölkədə dövlət idarəçiliyi sisteminin təkmilləşdirilməsinin daim diqqət mərkəzində olduğunu təsdiqləyir. Bundan başqa, müasir memarlıq üslubunda inşa olunan həmin bina rayonun görkəminə də xüsusi gözəllik verir. Bina bütün lazımi avadanlıq və sistemlərlə təchiz edilib.

Dövlətimizin başçısına məlumat verildi ki, binanın inşasına 2013-cü ilin aprelində başlanılıb və bu ilin iyulunda başa çatdırılıb. Foyedə ümummilli lider Heydər Əliyevin büstü qoyulub. Binada ulu öndər Heydər Əliyevin və Prezident İlham Əliyevin ölkəmizin tərəqqisi naminə çoxşaxəli fəaliyyətlərini əks etdirən fotoguşələr yaradılıb. Fotoguşələrdə, həmçinin Prezident İlham Əliyevin müxtəlif illərdə Xızı rayonunda keçirilən tədbirlərdə iştirakını əks etdirən şəkillər böyük maraq doğurur.

Dövlətimizin başçısı otaqlarda yaradılan şəraitlə də tanış oldu. Otaqların hamısı müasir tələblər səviyyəsində qurulub. Burada müasir idarəetmə metodlarından istifadə etmək üçün bütün texniki imkanlar yaradılıb. Bu da icra strukturunun işinin daha mükəmməl qurulmasına, rayon icra hakimiyyəti əməkdaşlarının səmərəli fəaliyyətinə geniş imkan yaradır. Operativ idarəetmə otağı vasitəsilə sakinlər inzibati binaya gəlmədən onları narahat edən problemlərlə əlaqədar icra hakimiyyətinin məsul şəxsləri ilə birbaşa videoəlaqə yarada biləcəklər. Artıq rayonun bütün icra nümayəndəlikləri şəbəkəyə qoşulub. Akt zalında tədbirləri yüksək səviyyədə keçirmək üçün hər cür şərait yaradılıb. Binada kitabxana, iclas və konfrans zalları, inzibati və digər otaqlar vardır. İcra hakimiyyətinin binası, eyni zamanda, şəhərin simasına yeni görkəm verir. Binanın yerləşdiyi ərazidə geniş yaşıllaşdırma işləri aparılıb, müasir işıqlandırma sistemi quraşdırılıb.

Prezident İlham Əliyev əhaliyə yüksək xidmət göstərilməsi ilə bağlı tapşırıq və tövsiyələrini verdi.

AZƏRTAC
2014, 22 iyul

Cəfər Cabbarlı parkında yenidənqurma işlərindən sonra yaradılan şəraitlə tanışlıq
(22 iyul 2014-cü il)

İyulun 22-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Xızıya səfəri çərçivəsində Cəfər Cabbarlı parkında yenidənqurma işlərindən sonra yaradılan şəraitlə tanış olub.

İqtisadiyyatın güclənməsi nəticəsində əldə edilən gəlirlər hesabına regionların sosial-iqtisadi tərəqqisinə yönəldilən tədbirlərin sayı xeyli artıb. Bu tədbirlər sırasında yeni park, xiyaban və istirahət mərkəzlərinin salınmasına və ya günün tələbləri səviyyəsində yenidən qurulmasına xüsusi diqqət yetirilir. Müasir səviyyədə yenidən qurulan parklardan biri də Xızıdakı Cəfər Cabbarlı parkıdır. Bu istirahət məkanının yenidən qurulması sosial məna daşımaqla yanaşı, həm də mənəvi əhəmiyyətə malikdir. Bu park həm də Xızıda doğulmuş Azərbaycanın görkəmli dramaturqu Cəfər Cabbarlının xatirəsinə olan ehtiramı nümayiş etdirir.

Dövlətimizin başçısı Cəfər Cabbarlının parkda ucaldılmış abidəsi önünə gül dəstəsi qoydu.

Azərbaycan Prezidentinə parkda aparılan abadlıq-quruculuq işləri barədə ətraflı məlumat verildi. Bildirildi ki, ümumi sahəsi 5800 kvadratmetr olan parkda sakinlərin istirahəti üçün hərtərəfli şərait yaradılıb, geniş yaşıllıq zolağı salınıb. Parkda aparılan yenidənqurma işləri zamanı ən xırda detallar da nəzərə alınıb. Bunun nəticəsidir ki, park Xızının ən gözəl və görkəmli yerlərindən birinə çevrilib. Burada yaradılan şərait həm də ümumilikdə rayonda aparılan abadlıq-quruculuq işlərinin həcmini aydın göstərir. Azərbaycan teatr sənətinin inkişafında böyük xidmətləri olmuş, görkəmli dramaturq Cəfər Cabbarlının adını daşıyan bu parkda yaradılan şərait istər rayon sakinlərinin, istərsə də Xızıya gələn qonaqların istirahətinin mənalı təşkili üçün geniş imkanlar açır.

AZƏRTAC
2014, 22 iyul

Prezident İlham Əliyev Xızı şəhərində inşa edilmiş 25 fərdi evdə yaradılan şəraitlə tanış olub
(22 iyul 2014-cü il)

İyulun 22-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Xızı şəhərində inşa edilmiş 25 fərdi evdə yaradılan şəraitlə tanış olub.

Azərbaycan yeganə ölkələrdəndir ki, təbii fəlakətlər zamanı evləri dağılmış insanlara dövlət vəsaiti hesabına yeni mənzillər tikilir. Xızı şəhərində də müxtəlif təbii proseslər zamanı 25 fərdi ev qəzalı vəziyyətə düşmüşdü. Dövlətimizin başçısının göstərişinə əsasən həmin evlərin sahibləri üçün dövlət vəsaiti hesabına yeni evlər inşa olunub. Bu işlər qısa zamanda, həm də yüksək keyfiyyətlə həyata keçirilib. Belə tədbirlər Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan dövlətinin həyata keçirdiyi siyasətin mərkəzində insan amilinin durduğuna daha bir əyani misal, "Mən hər bir azərbaycanlının prezidenti olacağam", - deyən dövlətimizin başçısının fəaliyyətinin real nəticələridir. Həyata keçirilən bu layihələr Azərbaycan dövlətinin ilk növbədə vətəndaşların sosial-rifah halının və mənzil-məişət şəraitinin yaxşılaşdırılması naminə gördüyü işlər sırasındandır. Bu, həm də Azərbaycanın iqtisadi gücünü və potensialını nümayiş etdirir.

Bildirildi ki, bu yeni massivin sakinlərinin əvvəlki evləri rayonda müxtəlif illərdə baş vermiş ekzogen proseslər, o cümlədən qeyri-normal yağıntı, torpaq sürüşməsi, çökmə nəticəsində yaşayış üçün yararsız vəziyyətə düşüb. İkimərtəbəli evlərdə hər cür şərait yaradılıb. Dördotaqlı evlərin hər birinin 7 sot həyətyanı torpaq sahəsi var. Yeni massiv bütün infrastrukturla təchiz edilib. Ərazidə geniş abadlıq işləri görülüb, istirahət guşəsi və uşaq əyləncə meydançası yaradılıb.

AZƏRTAC
2014, 22 iyul

Taxtakörpü-Ceyranbatan kanalından suyun yeni suvarılan torpaqlara verilməsi üçün suburaxıcı qurğunun təməli qoyulub

(22 iyul 2014-cü il)

İyulun 22-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Xızı rayonuna səfəri çərçivəsində Taxtakörpü-Ceyranbatan kanalından suyun yeni suvarılan torpaqlara verilməsi üçün suburaxıcı qurğunun təməlinin qoyulması mərasimində iştirak edib.

Başlanğıcını Azərbaycan ilə Rusiya sərhədində Samur çayından götürən və uzunluğu 182 kilometr olan Samur-Abşeron kanalı hazırda respublikanın şimal bölgəsi rayonlarının 150 min hektara yaxın torpaq sahəsini suvarma suyu və Bakı, Sumqayıt şəhərlərini, habelə Abşeron yarımadasını içməli, suvarma və texniki su ilə təmin edən irimiqyaslı kompleks su təsərrüfatı obyektidir.

"Samur-Abşeron suvarma sisteminin yenidən qurulması" layihəsinə daxil olan Vəlvələçay-Taxtakörpü və Taxtakörpü-Ceyranbatan kanallarının, Taxtakörpü su anbarının Su Elektrik Stansiyası ilə birlikdə tikintilərinin beynəlxalq maliyyə qurumlarının krediti və Dövlət Neft Fondunun vəsaiti hesabına 2013-cü ildə başa çatdırılması respublikamızın şimal bölgəsi rayonlarında və Abşeron yarımadasında 150 min hektara yaxın mövcud əkin sahəsinin su təminatının yaxşılaşdırılmasına və 30 min hektar yeni torpaq sahəsini suvarma suyu ilə təmin etməklə onların kənd təsərrüfatı dövriyyəsinə cəlb olunmasına şərait yaradıb. Buna görə də Prezident İlham Əliyevin tapşırığına əsasən həmin layihənin icrası davam etdirilir.

Dövlətimizin başçısı Samur-Abşeron kanalını qidalandırmaq üçün şimal çaylarında sugötürücü və nəqletmə qurğularının tikintisi, Şabran, Siyəzən, Xızı rayonları üzrə suvarılacaq torpaq sahələrinin planı, Samur-Abşeron suvarma sistemi zonasında həmin rayonlardakı mövcud suvarılan torpaqlarda su təminatının yaxşılaşdırılması və yeni suvarılan torpaqların istifadəyə verilməsi, həmçinin Samur-Abşeron kanalı sistemi üzrə mövcud və yeni suvarılan torpaqların planı ilə tanış oldu.

"Meliorasiya və Su Təsərrüfatı" Açıq Səhmdar Cəmiyyətinin sədri Əhməd Əhmədzadə Prezident İlham Əliyevə məlumat verdi ki, Taxtakörpü su anbarının istifadəyə verilməsi ilə əlaqədar layihə zonasında yerləşən rayonlarda yeni suvarılan torpaqların müəyyənləşdirilməsi ilə bağlı dövlətimizin başçısının verdiyi tapşırıqların icrasına əsasən aparılan araşdırmalar nəticəsində "Samur-Abşeron suvarma sisteminin yenidən qurulması" layihəsi zonasında 30 min 153 hektar, o cümlədən Şabran rayonunda 13 min 678, Siyəzən rayonunda 7 min 962 və Xızı rayonunda 8 min 513 hektar yeni suvarılan torpaq sahələri müəyyən edilib.

Beynəlxalq məsləhətçilər tərəfindən "Samur-Abşeron suvarma sisteminin yenidən qurulması" layihəsinin davamı olaraq Xızı, Siyəzən və Şabran rayonlarında yeni suvarılan torpaqların istifadəyə verilməsi üçün mütərəqqi suvarma texnikasının tətbiqi ilə meliorativ tədbirlərin, eləcə də mövcud suvarılan torpaqların su təminatının yaxşılaşdırılmasının layihə sənədləri hazırlanıb. Birinci növbədə Xızı rayonunun inzibati ərazisi üzrə yeni suvarılan torpaqların istifadəyə verilməsi üçün meliorativ tədbirlərin layihə sənədləri tamamlanaraq tikintiyə hazırlıq işlərinə başlanılıb. Siyəzən rayonu üzrə layihə sənədlərinin hazırlanması başa çatmaq ərəfəsindədir. Şabran rayonunda isə bu işlər davam etdirilir.

Layihəyə əsasən Xızı rayonu üzrə yeni suvarılan torpaq sahələri dəqiqləşdirilərək, onun 9609 hektar və su təminatı yaxşılaşdırılacaq mövcud əkin sahələri 2970 hektar olmaqla cəmi 12 min 579 hektar müəyyən edilib. Layihədə yeni inşa olunmuş Taxtakörpü-Ceyranbatan kanalından suvarma suyunun mövcud və yeni suvarılan torpaq sahələrinə verilməsi üçün ümumi uzunluğu 261,4 kilometr, o cümlədən 194,5 kilometr qapalı və 66,9 kilometr açıq suvarma şəbəkələrinin tikintisi nəzərdə tutulur. Torpaqların meliorativ vəziyyətinin yaxşılaşdırılması məqsədilə 630 hektar sahədə qapalı drenaj şəbəkəsi layihələndirilib.

Bildirildi ki, cari ildə Dövlət Neft Fondundan "Samur-Abşeron suvarma sisteminin yenidən qurulması" layihəsinə ayrılmış vəsait hesabına Xızı və Siyəzən rayonlarında yeni suvarılan torpaqlarda meliorativ tədbirlərin aparılmasına başlanılıb. Birinci mərhələdə Xızı rayonunun 3396 hektar yeni suvarılacaq torpaq sahələrində bu işlərin tamamlanması nəzərdə tutulur.

Eyni zamanda, Dövlət Neft Fondunun vəsaiti hesabına Samur-Abşeron kanalının 50-ci kilometrliyində yerləşən Qusarçay, Qudyalçay, Quruçay, Ağçay, Qaraçay və Caqacuqçay şimal çaylarından sugötürücü və nəqledici kanalların tikintisinin layihə sənədləri hazırlanaraq cari ildə Qusarçay və digər iki çayda tikinti işlərinə başlanıb. Bu tədbirin başa çatması ilə Samur-Abşeron kanalına orta sulu illərdə əlavə 322 milyon kubmetrdən çox suyun verilməsinə, bununla da bu çayların zonasında yerləşən mövcud suvarılan torpaqların su təminatının yaxşılaşdırılmasına imkan yaranacaq.

Prezident İlham Əliyev Taxtakörpü-Ceyranbatan kanalından suvarma suyunun yeni suvarılan torpaqlara verilməsi üçün suburaxıcı qurğunun təməlini qoydu.

Dövlətimizin başçısı bölgə üçün çox mühüm əhəmiyyət kəsb edən layihənin yüksək səviyyədə icrası ilə bağlı tapşırıq və tövsiyələrini verdi.

AZƏRTAC
2014, 22 iyul

Azərbaycan Prezidenti İlham Əliyevin Xızı və Siyəzən rayonlarına səfəri
Xızı rayonunda yeni suvarılacaq torpaqlara Taxtakörpü-Ceyranbatan kanalından suvarma suyunun verilməsi mərasimi olub
(4 sentyabr 2015-ci il)

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 4-də Xızı rayonunda suvarılacaq torpaqlarda meliorativ tədbirlərin başa çatdırılaraq yeni inşa olunan Taxtakörpü-Ceyranbatan kanalından suvarma suyunun verilməsi mərasimində iştirak edib.

Dövlət Neft Fondunun vəsaiti hesabına 2013-cü ildə "Samur-Abşeron suvarma sisteminin yenidən qurulması" layihəsi çərçivəsində mühüm əhəmiyyət kəsb edən su elektrik stansiyası ilə birlikdə ümumi su tutumu 268 milyon kubmetr olan Taxtakörpü su anbarının, Taxtakörpü-Ceyranbatan və Vəlvələçay-Taxtakörpü kanallarının tikintisi müvəffəqiyyətlə başa çatdırılıb. 2014-cü il fevralın 5-də regionların sosial-iqtisadi inkişafı Dövlət proqramlarının icrasına həsr olunan konfransda Prezident İlham Əliyev Taxtakörpü su anbarının istifadəyə verilməsi ilə əlaqədar layihə zonasında yerləşən rayonlarda yeni suvarılan torpaqların müəyyən edilməsi üzrə tapşırıq verib. Həmin tapşırığın icrası ilə əlaqədar "Meliorasiya və Su Təsərrüfatı" Açıq Səhmdar Cəmiyyətinin (ASC) sifarişi ilə Türkiyənin "Təməlsu" məsləhətçi şirkətinin hazırladığı, "Evrascon" ASC və "Körpü-Bina-Tikinti" MMC tərəfindən icra olunan layihələrə əsasən "Samur-Abşeron suvarma sisteminin yenidən qurulması" layihəsi zonasında yerləşən Şabran rayonunda 14 min 38 hektar, Siyəzən rayonunda 6 min 972 hektar, Xızı rayonunda isə 9 min 609 hektar olmaqla cəmi 30 min 619 hektar yeni suvarılan torpaq sahələri müəyyən edilib. "Samur-Abşeron suvarma sisteminin yenidən qurulması" layihəsi zonasında yerləşən yeni suvarılan torpaqlarda aparılacaq meliorativ tədbirlər Dövlət Neft Fondunun vəsaiti hesabına həyata keçirilir.

"Meliorasiya və Su Təsərrüfatı" Açıq Səhmdar Cəmiyyətinin sədri Əhməd Əhmədzadə dövlətimizin başçısına layihə haqqında ətraflı məlumat verdi. Bildirdi ki, "Şabran, Siyəzən və Xızı rayonlarında mövcud suvarılan torpaqların su təminatının yaxşılaşdırılması və yeni suvarılan torpaqların istifadəyə verilməsi" layihəsinə daxil olan Xızı rayonu üzrə hazırlanan layihədə cəmi 12 min 579 hektar sahənin 9 min 609 hektarında meliorativ tədbirlər aparılmaqla yeni suvarılacaq torpaqların istifadəyə verilməsi və 2 min 970 hektarında mövcud əkin sahələrinin su təminatının yaxşılaşdırılması nəzərdə tutulur.

Azərbaycan Prezidenti İlham Əliyev Taxtakörpü-Ceyranbatan kanalından Xızı rayonunda yeni suvarılan torpaqlara suyun verilməsi qurğusunu işə saldı.

Dövlətimizin başçısına "Samur–Abşeron suvarma sisteminin yenidən qurulması" layihəsinə daxil olan "Şabran, Siyəzən və Xızı rayonlarında mövcud suvarılan torpaqların su təminatının yaxşılaşdırılması və yeni suvarılan torpaqların istifadəyə verilməsi" layihəsi barədə ətraflı məlumat verildi. Diqqətə çatdırıldı ki, Xızı rayonu üzrə yeni suvarılacaq torpaq sahələrinə dövlət, bələdiyyə və xüsusi mülkiyyətdə olan torpaqlar daxildir. Su yeni inşa olunan Taxtakörpü-Ceyranbatan və Samur-Abşeron kanallarından götürüləcək. Layihədə ümumi uzunluğu 269,7 kilometr, o cümlədən 200,3 kilometr qapalı və 69,4 kilometr açıq suvarma şəbəkələrinin tikintisi nəzərdə tutulur. Torpaqların meliorativ vəziyyətinin yaxşılaşdırılması məqsədilə 1150 hektar sahədə kollektor-drenaj şəbəkəsi layihələndirilib. Layihə 2014-cü ildə Fövqəladə Hallar Nazirliyi tərəfindən dövlət ekspertizasının rəyi ilə təsdiq edilib.

Qeyd edək ki, Prezident İlham Əliyev 2014-cü ilin iyul ayının 22-də Xızı rayonuna səfəri zamanı yeni inşa olunan Taxtakörpü-Ceyranbatan kanalından rayonun yeni suvarılan torpaq sahələrinə suyun verilməsi və mövcud suvarılan torpaqların su təminatının yaxşılaşdırılması üçün suburaxıcı qurğunun təməlinin qoyulması mərasimində iştirak edib və bu işlərin vacibliyini nəzərə alaraq, onların sürətləndirilməsi üçün müvafiq tapşırıqlarını verib. "Meliorasiya və Su Təsərrüfatı" Açıq Səhmdar Cəmiyyəti tərəfindən bu tapşırıqların vaxtında icrasının təmin edilməsi üçün Dövlət Neft Fondunun vəsaiti hesabına 2014-cü ildən 3 min 396 hektar torpaq sahələrində kompleks meliorativ tədbirlərin həyata keçirilməsinə başlanılıb və işlər bu ilin avqust ayında tamamlanıb. Yeni istifadəyə veriləcək 3 min 84 hektar torpaq sahəsinin 514 hektarı dövlət, 1715 hektarı bələdiyyə və 855 hektarı xüsusi mülkiyyətdədir. Bu torpaqların 170 hektarında ən son texnologiyalara əsaslanan yağış üsulu ilə suvarma sistemi quraşdırılıb. Bu sistem respublikada təbii təzyiq hesabına çiləmə aparan yeganə sistemdir.

Bildirildi ki, Xızı rayonunda bu ilin sonunadək əlavə olaraq 3 min 715 hektar, o cümlədən 2 min 315 hektar yeni suvarılan torpaqların istifadəyə verilməsi və 1400 hektar mövcud suvarılan torpaqların su təminatının yaxşılaşdırılması məqsədilə meliorativ tədbirlərin başa çatdırılması nəzərdə tutulur. Bununla da 2015-ci ildə Xızı rayonu üzrə 7 min 111 hektar, o cümlədən 5 min 399 hektar yeni suvarılan torpaqların

istifadəyə verilməsi və 1712 hektar mövcud suvarılan torpaqların su təminatının yaxşılaşdırılması təmin ediləcək. 2016-cı ildə isə layihənin başa çatdırılması üçün Xızı rayonunda 5 min 468 hektar ərazinin su təminatının yaxşılaşdırılması işləri həyata keçiriləcək. Yeni suvarılacaq torpaqların meliorativ vəziyyətinin yaxşılaşdırılması üçün 1150 hektarda kollektor-drenaj şəbəkəsinin tikintisi nəzərdə tutulub.

Prezident İlham Əliyev yaradılmış imkanlardan səmərəli istifadə edilməsi, növbəti layihələrin vaxtında və uğurla icra olunması ilə bağlı müvafiq nazirliklərin və qurumların rəhbərlərinə tapşırıq və tövsiyələrini verdi.

Azərbaycan Prezidenti İlham ƏLİYEV dedi: Burada bir neçə böyük təsərrüfat yaradılmalıdır. Çünki biz bu sahəni gərək tam şəkildə işə salaq. Buna nail olmaq üçün əlbəttə, böyük investisiyalar lazımdır. Artıq bütün bu sahə həm kreditləşdirmə yolu ilə, həm də sahibkarların öz vəsaiti hesabına gərək məhsul versin.

Kənd təsərrüfat naziri Heydər ƏSƏDOV: Cənab Prezident, ayırdığınız vəsait təsərrüfatları yeni cins inəklərlə də təmin etməyə imkan verir. Fermerləri beş min başadək inəklə təmin edə bilərik.

Prezident İlham ƏLİYEV: Yerlər dəqiq seçilməlidir. Hansı sahədə hansı işlər görüləcək və bu işlərin əlaqələndirilməsi də aparılmalıdır.

Heydər ƏSƏDOV: Bir də direnaj işləri görülməlidir.

"Meliorasiya və Su Təsərrüfatı" ASC-nin sədri Əhməd ƏHMƏDZADƏ: Kənd Təsərrüfatı, İqtisadiyyat və Sənaye nazirlikləri ilə birlikdə bu torpaqların hamısı analiz olunub, baxılıb ki, haradan necə istifadə etmək olar.

İqtisadiyyat və sənaye naziri Şahin MUSTAFAYEV: Bütün ərazi üzrə ümumi layihə hazırlanıb. Heydər Əsədovun dediyi kimi, torpaqların münbitliyindən asılı olaraq, harada nə əkmək məsləhətdir, - bağçılıq, taxılçılıq və sair sahələr üzrə xüsusi layihələr hazırlanır. Bu layihələr sahibkarlara təqdim olunacaq. Burada deyildiyi kimi, taxılçılıq, heyvandarlıq, bağçılıq, istixanaların yaradılması üçün də şərait var. Çünki tapşırığınıza əsasən burada tam infrastruktur yaradılıb, qaz, su, torpaqlar var.

Prezident İlham ƏLİYEV: Əlbəttə, siz sıx əlaqəli şəkildə işləməlisiniz. Çünki suyun verilməsinin ardıcıllığı da gərək razılaşdırılsın ki, biz bu yeni suvarılan 30 min hektar torpağın hamısından istifadə edək. Beləliklə bu, kənd təsərrüfatının inkişafına böyük təkan verəcək. Xüsusilə bu il kənd təsərrüfatı ilidir. Bir neçə fərman imzalanıb. İl ərzində nəticələr də yaxşıdır. Artım kifayət qədər böyükdür. Bütün bu layihələrin icrası nəticəsində daha da böyük artım olacaq.

Şahin MUSTAFAYEV: Cənab Prezident, tapşırdığınız kimi, iri fermer təsərrüfatlarının yaradılması da əsas məqsədimizdir. Çalışırıq ki, burada iri layihələr olsun. Bu il iri təsərrüfatların göstəriciləri də çox gözəldir, hektardan 60 sentner.

Heydər ƏSƏDOV: 20 hektardan artıq sahəsi olan 21 təsərrüfatda hər hektardan 55-60 sentner arasında məhsul yığılır.

Prezident İlham ƏLİYEV: Ümumi məhsuldarlıq 30 sentnerə qalxıb?

Heydər ƏSƏDOV: Cənab Prezident, 31 sentnerə çatıb. İndi qarğıdalı biçini gedir. Sizin ikinci əkinin aparılması barədə fərmanınıza əsasən bu il artıq indiyədək 14 min hektara qədər sahədə ikinci əkin aparılıb. Artıq təsərrüfatların yem bazası ilə bağlı problem demək olar ki, aradan qalxıb.

Prezident İlham ƏLİYEV: Yəni, bu, böyük müasir bir layihə olmalıdır. Hər şey nəzərdə tutulmalıdır. Məncə bunu etmək çətin olmayacaq. Çünki biz sıfırdan başlayırıq. Bunun əsas mənbəyi Taxtakörpü su anbarıdır. Burada qalan işləri planlı şəkildə etməliyik.

Bu xəritədə torpaqların ümumi görüntüləri əks olunub. Növbəti mərhələdə siz xəritəni ya biznes-plan, ya da maket şəklində tərtib edin. Biz torpaqları artıq təsərrüfatlar üzrə bölməliyik, bilək ki, harada hansı təsərrüfat yaradılacaq, onun sahəsi nə qədər olacaq, orada hansı işlər görüləcək. Biznes-planlar, investisiya layihələri hazırlanmalıdır. Əlbəttə dövlət də kömək edəcək, lakin əsas yük sahibkarların üzərinə düşəcək. Onlar da buna hazırdırlar.

Taxtakörpü su anbarının tikintisi tarixi hadisə idi. Bu layihənin icrasına təxminən 1 milyard manata yaxın vəsait xərclənib. Bu vəsait sahibkarlar üçün xərclənib ki, onlar istifadə etsinlər. Amma dövlət orqanları əlbəttə nəzarət etməlidirlər, istiqamət verməlidirlər. Bu layihə çox ciddi nəzarət altında olmalıdır. Gələcəkdə bundan özəl mülkiyyətçilər də istifadə edəcəklər. Amma indi mövcud torpaq sahibləri üçün böyük imkanlar açılır. Elə planlaşdırın ki, görülən işlər gələcəkdə bu zonanın turizm imkanlarına maneçilik törətməsin. Əminəm ki, turizmin inkişafı buralara da gəlib çatacaq. Gələcəkdə yollar salınacaq. İndi Siyəzən rayonunda sahilboyu yol çəkilir. Bu da gələcəkdə bu zonanın inkişafına xidmət göstərəcək.

Biz bütün işləri kompleks şəkildə görməliyik. Siz bütün təklifləri, biznes-planları hazırlayın. Çünki öz təşəbbüsləri ilə bu işləri görmək sahibkarlar üçün bir qədər çətin olacaq. Amma gərək biznes-planda hər şey dəqiq göstərilsin. İnvestisiya qoyuluşu nə qədərdir? Bunun iqtisadi səmərəsi nə olacaq? Ondan sonra əlbəttə bütün infrastruktur məsələlərini dövlət öz üzərinə götürməlidir. Bu layihə çərçivəsində Azərbaycanda kənd təsərrüfatı məhsullarının istehsalı böyük dərəcədə artacaq. Gələn ilin də dövlət büdcəsində sahibkarlığın inkişafına dövlət tərəfindən kifayət qədər böyük vəsait nəzərdə tutulmalıdır. Çünki bu, həm sahibkarlığın inkişafına xidmət göstərir, həm də iqtisadiyyatın real sektoruna bilavasitə bir dəstəkdir.

Bir də bu layihənin üstünlüyü ondan ibarətdir ki, bu ərazi bizim ixrac bazarlarına da çox yaxındır. Bizim əsas ixrac bazarımız Rusiyadır. Bu il ərzində Rusiyaya bizim ixrac etdiyimiz məhsullar artıb. Burada yetişdirilən məhsulları həm daxili, həm də xarici bazarlara çıxarmaq üçün çox gözəl imkanlar olacaq. Dəmir yolu, avtomobil yolu ilə Rusiya sərhədinə yüz kilometrdən bir qədər çoxdur.

Eyni yanaşma qərb zonasında da olmalıdır. Şəmkirçay su anbarı istifadəyə veriləndən sonra artıq orada aqropark tikilir. Orada da bir neçə böyük təsərrüfat yaradılmalıdır. Yəni, eyni layihələri o bölgə üçün də hazırlayın. Düzdür orada bir layihə artıq başlayır - Şəmkir aqroparkı. Ancaq orada bir çox layihələr icra edilməlidir.

Əhməd ƏHMƏDZADƏ: Orada kanalların tikintisinə başlamışıq.

Prezident İlham ƏLIYEV: Bilirəm, başlamısınız. Vəsait də nəzərdə tutulub.

Əhməd ƏHMƏDZADƏ: Vəsait də verirsiniz, nəzarətdə də saxlayırsınız, gəlib yoxlayırsınız. Daha bundan yaxşı nə ola bilər?

Prezident İlham ƏLİYEV: Keçən il biz sizinlə burada dayananda mən demişdim ki, mən gələn il gələcəm, görsəm ki, burada iş görülməyib, onda siz özünüzdən küsün. Əsas bunlardır. Biz Taxtakörpü su anbarını, Samur-Abşeron kanalını buna görə yaratmışıq. Onlar olmasa, bu işləri görmək mümkün deyil.

Əhməd ƏHMƏDZADƏ: Cənab Prezident, ilin axırında bu iki rayonda yeni suvarılan sahələr səkkiz min hektara çatacaq.

Prezident İlham ƏLİYEV: Çox yaxşı. Bax, bu, görülən işlərin bariz nəticəsidir.

AzərTAc
4 sentyabr 2015-ci il

Azərbaycan Prezidenti İlham Əliyev Xızı rayonuna səfərə gəlib
(4 may 2018-ci il)

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 4-də Xızı rayonuna səfərə gəlib.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı əvvəlcə Xızı şəhərinin mərkəzindəki Heydər Əliyev Parkında Ümummilli Liderin abidəsini ziyarət etdi, önünə gül dəstəsi qoydu.

Xızı Rayon İcra Hakimiyyətinin başçısı Xəzər Aslanov parkda görülən işlər, həmçinin rayonda həyata keçirilən abadlıq və quruculuq tədbirləri barədə Prezident İlham Əliyevə məlumat verdi.

AZƏRTAC
2018, 4 may

Giləzi-Xızı avtomagistralını Fındığan kəndi ilə birləşdirən yolun açılışı olub
(4 may 2018-ci il)

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 4-də Xızı rayonuna səfəri çərçivəsində başlanğıcını Giləzi-Xızı yolunun 34-cü kilometrliyindən götürən və əsaslı şəkildə yenidən qurulan Fındığan kəndinədək olan yolun açılışını edib.

Son illərdə Azərbaycanda əsas magistral yollarla yanaşı, kənd yollarının salınması, mövcudlarının isə müasir səviyyədə yenidən qurulması ilə bağlı layihələr geniş vüsət alıb. Bu layihələr Xızı rayonunu da əhatə edib. Giləzi-Xızı avtomagistralını Fındığan kəndi ilə birləşdirən yol da son illərdə kənd yollarının əsaslı şəkildə yenidən qurulması istiqamətində həyata keçirilən layihələrin ardıcıl xarakter aldığını nümayiş etdirir. Belə yollar rayonlarımızda turizmin inkişafı baxımından da mühüm əhəmiyyətə malikdir.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi İdarə Heyətinin sədri Saleh Məmmədov əsaslı şəkildə yenidən qurulan yolun texniki göstəriciləri barədə dövlətimizin başçısına məlumat verdi. Bu yolun tikintisi Prezident İlham Əliyevin 2018-ci ilin fevralında imzaladığı Sərəncama əsasən həyata keçirilib. 600 nəfər əhalinin yaşadığı Fındığan kəndini Giləzi-Xızı avtomagistralının 34-cü kilometrliyi ilə birləşdirən yolun ümumi uzunluğu 5 kilometrdir. Yol 4-cü texniki dərəcəyə aiddir. Hərəkət hissəsinin eni 6 metr olan yol ikizolaqlıdır. Yolun yenidən qurulması zamanı genişmiqyaslı torpaq və asfalt-beton işləri görülüb. Yol boyunca 226 metr müxtəlif diametrli suötürücü borular tikilib, zəruri yerlərdə yol nişanları və göstərici lövhələr quraşdırılıb, cizgi xətləri çəkilib. Bu yolun istifadəyə verilməsi Fındığan kənd sakinlərinin Giləzi-Xızı avtomobil yoluna və Bakı-Quba-Rusiya Federasiyası ilə dövlət sərhədi avtomagistralına çıxışını təmin edir. Bu yolun yenidən qurulması bir daha sübut edir ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən siyasətin mərkəzində Azərbaycan vətəndaşının maraqları dayanır.

Sonra dövlətimizin başçısına tikintisi başa çatmış Xızı-Altıağac avtomobil yolunda görülmüş işlər barədə məlumat verildi. Qeyd olundu ki, uzunluğu 20,8 kilometr olan üçüncü dərəcəli bu yol hər birinin eni 3,5 metr olmaqla 2 hərəkət zolağından ibarətdir. Yolboyu 1 körpü keçidi təmir olunub, müxtəlif diametrli 48 ədəd su ötürücü boru, 14 kilometrə yaxın açıq və qapalı su ötürücü kanal tikilib. Xızı-Altıağac avtomobil yolunun istifadəyə verilməsi nəticəsində sakinlərin gediş-gəlişində, xüsusən də payız-qış mövsümündə yaranan çətinliklər tamamilə aradan qalxıb. Bu yol rayonda dörd min nəfər əhalinin yaşadığı 11 məntəqəni birləşdirir.

Daha sonra Prezident İlham Əliyevə Bakı-Quba Rusiya Federasiyası ilə dövlət sərhədi avtomobil yolunun 56-cı kilometrliyindən ayrılan Yeni Yaşma kənd yolunda aparılmış əsaslı təmir işləri barədə məlumat verildi. Bu avtomobil yolu uzun illər əsaslı təmir olunmadan istismar edildiyindən tamamilə yararsız hala düşmüşdü. Nəqliyyat vasitələrinin normal hərəkəti üçün çətinliklər yarandığından, yolun əsaslı təmir olunmasına zərurət yaranmışdır. Uzunluğu 6 kilometr olan bu yol dövlətimizin başçısının tapşırığı ilə əsaslı şəkildə təmir edilib, bütün infrastruktur müasir tələblər səviyyəsində qurulub. Bu yol 2200 nəfər əhalinin yaşadığı Yeni Yaşma kəndini Bakı-Quba-Rusiya Federasiyası ilə dövlət sərhədi avtomobil yoluna birləşdirməklə yük və sərnişin daşınmasını xeyli yaxşılaşdırmağa imkan verəcək.

Dövlətimizin başçısı Fındığan kənd yolunun rəmzi açılışını bildirən lenti kəsdi.

Sonda xatirə şəkli çəkdirildi.

AZƏRTAC
2018, 4 may

Prezident İlham Əliyev Xızı şəhərinə və Altıağac qəsəbəsinə içməli suyun verilməsi mərasimində iştirak edib:

(4 may 2018-ci il)

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 4-də "Xızı şəhərində və Altıağac qəsəbəsində içməli su təchizatı sistemlərinin yenidən qurulması və kanalizasiya şəbəkəsinin yaradılması" layihəsinin yekunlaşması ilə bağlı keçirilən mərasimdə iştirak edib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Prezidenti əvvəlcə rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdü.

Dövlətimizin başçısı görüşdə çıxış etdi.

Prezident İlham Əliyevin
çıxışı

-Bu gün Xızı rayonunda çox əlamətdar bir gündür. Biz Xızı şəhərinə içməli suyun verilməsini qeyd edirik. Bu gözəl hadisə münasibətilə sizi ürəkdən təbrik edirəm. Eyni zamanda, Altıağac qəsəbəsinin su problemi də həll olunub. Çox gözəl layihələrdir. Bu layihələr bir daha onu göstərir ki, bizim sosial siyasətimiz gözəl nəticələr verir və sosialyönümlü addımlar bundan sonra da atılacaqdır.

Xızı şəhərində içməli su problemi həmişə insanları narahat edirdi. Artıq bu məsələ öz həllini tapıbdır. Xızıda içməli su layihəsinin başa çatması ilə biz demək olar ki, şimal zonasının bütün şəhərlərinin içməli su problemini həll etmiş oluruq. Əvvəlki dövrlərdə Qusar, Quba, Şabran, Siyəzən şəhərlərinin, bu gün isə biz Xaçmaz şəhərinin içməli su layihəsinin açılışını qeyd etdik. Yəni, şimal zonasının şəhərlərinin içməli su ilə bağlı problemləri öz həllini tapıbdır. Bu gözəl hadisə münasibətilə sizi bir daha təbrik etmək istəyirəm.

Ümumiyyətlə, bildirmək istəyirəm ki, ölkəmizdə bütün sosial layihələr uğurla icra edilir. Heç bir sosial layihədə heç bir yubanma yoxdur. Hətta bizim üçün o qədər də asan olmayan, əvvəlki böhranlı illərdə də sosial layihələr tam miqyasda icra edilmişdir, Xızıda da həmçinin. Mənim əvvəlki gəlişimdə burada mərkəzi rayon xəstəxanası açılmışdır, gözəl, müasir binadır. Rayonda 10-na yaxın məktəb tikilmişdir, infrastrukturla bağlı olan digər layihələr icra edilir, qazlaşdırma 90 faizdən çoxdur. Demək olar ki, artıq bütün yaşayış məntəqələri qazla təmin olunub. Əminəm ki, gələcək dövrdə Xızıda qazlaşdırma 100 faizə çatacaq. Elektrik enerjisi ilə bağlı heç bir problem yoxdur. Əksinə, indi Xızı rayonu bizim ümumi enerji sistemimizi böyük həcmdə elektrik enerjisi ilə təmin edəcək. Yeni Yaşma Külək Elektrik Stansiyası artıq fəaliyyətə başlayır, yoldan keçəndə də bunu görmək mümkündür. Kənd yolları salınır. Bu gün bir yolun açılışını qeyd edəcəyik. Mənə verilən məlumata görə, kənd yollarının 50 faizi yenidən qurulub və ya əsaslı təmir olunub.

Bir sözlə, Xızı rayonunun sosial-iqtisadi inkişafı uğurla gedir. Ümid edirəm ki, gələcək illərdə kənd təsərrüfatı sürətlə inkişaf edəcək. Çünki Taxtakörpü su anbarının tikintisi və Samur-Abşeron suvarma sisteminin yenidən qurulması nəticəsində bütövlükdə bu bölgədə 30 min hektar torpaq sahəsi su ilə təmin ediləcəkdir. Bunun 12 min hektarı Xızı rayonunun payına düşür - 9 min hektar yeni suvarılan sahələr olacaq, 3 min hektar isə su verilmiş, ancaq kifayət qədər olmamış sahələrdir. Son məlumata görə, bu 9 min hektar yeni suvarılacaq torpaqlardan 3 min hektarı artıq suvarma suyu ilə təmin edilib. Əlbəttə, biz gözləyirik ki, Xızı rayonunda kənd təsərrüfatı sürətlə inkişaf etsin. İndi yol ilə gələndə gördüm ki, müasir suvarma sistemləri də qurulur, sahələr pivot suvarma üsulu ilə suvarılır. Beləliklə, həm məhsuldarlıq artacaq, həm də yeni sahələrin dövriyyəyə cəlb edilməsi nəticəsində yeni iş yerləri yaradılacaq. Buna görə mən Xızı rayonunun gələcək inkişafını çox müsbət görürəm, böyük nikbinliklə baxıram. Rayonun inkişafı üçün bütün lazımi tədbirlər görülüb. Yollar, elektrik enerjisi, qaz xətləri, indi içməli su, xəstəxana. Bildiyiniz kimi, bir neçə ildir ki, ölkəmizdə kütləvi müayinədən keçmə kampaniyası aparılır, hər il 5 milyondan çox insan dövlət hesabına müayinədən keçir və belə gözəl xəstəxanalarda bunu etmək mümkün olur.

Ölkəmizin ümumi sosial-iqtisadi inkişafı da çox müsbətdir. Üç ayın göstəriciləri bizi çox sevindirir. İndi bir neçə gündən sonra dörd ayın yekunları da veriləcək. Əminəm ki, biz dinamikanı nəinki saxlayacağıq, həm də artıracağıq. Ölkə qarşısında duran bütün vəzifələr uğurla icra edilir. Sosial məsələlərin həllinə gəldikdə, bu günə qədər bir çox sosialyönümlü layihələr həyata keçirilibdir. Bu

layihələrin həyata keçirilməsi davam etdiriləcək, eyni zamanda, bütün sosial sahədə tam şəffaflıq yaradılmalıdır. Bu, yeni dövrün tələbidir. Əvvəlki dövrlərdə də mən qarşıya bu vəzifəni qoymuşam və bu gün bir daha çox ciddi tapşırıq verirəm ki, sosial sahədə maksimum şəffaflıq təmin edilməlidir. Əminəm ki, ediləcək və sosial ədalət tam bərqərar olmalıdır.

Azərbaycan dövləti möhkəm əsaslar üzərində qurulub. Biz iqtisadiyyatımızı bazar iqtisadiyyatı prinsipləri əsasında inkişaf etdiririk. Ancaq bununla bərabər, sosial məsələlərin həllinə çox böyük diqqət göstəririk. Bunun nəticəsində ölkəmiz uğurla inkişaf edir. Bunun nəticəsində ölkəmizdə sabitlik, əmin-amanlıq hökm sürür, xalq-iqtidar birliyi gündən-günə möhkəmlənir. Bu gün Azərbaycan inkişaf, sabitlik, xalq-iqtidar birliyi baxımından dünya miqyasında nümunəvi ölkəyə çevrilibdir.

İndi dünyada, bölgədə, qonşuluqda baş verən hadisələri izləyərkən bir daha görürük ki, sosial sahədə pozuntular, bu sahəyə diqqətin göstərilməməsi və xoşagəlməz halların kütləvi xarakter alması böyük çətinliklərə, problemlərə, toqquşmalara gətirib çıxarır. Bizim siyasətimiz həmişə birmənalı olub: güclü dövlət, güclü iqtisadiyyat və sosial rifah. Bax, bu prinsiplərin vəhdəti bu gün Azərbaycanı dünyada seçilmiş ölkələrin sırasına daxil edibdir. Bunun nəticəsində biz uğurla inkişaf edirik. Bu gün Azərbaycanda ictimai-siyasi proseslər müsbət istiqamətdə gedir, iqtisadi inkişaf tam təmin edilir və bir çox sosial layihələr icra olunur. Vəzifə isə çox sadədir, onu biz bir neçə il əvvəl qarşımıza qoymuşuq ki, insanları narahat edən bir dənə də problem qalmasın. Məktəblərin, xəstəxanaların, sosial obyektlərin tikintisi, insanların maddi vəziyyətinin yaxşılaşdırılması və infrastrukturla bağlı olan layihələr. Hər bir yerdə, hər bir rayonda və hər bir kənddə bu məsələlərə xüsusi diqqət göstərilir. Əldə edilmiş nəticələr və bu ilin gözəl göstəriciləri tam deməyə əsas verir ki, biz bu düzgün yolla gedəcəyik və bu günə qədər həllini tapmayan məsələlər də yaxın gələcəkdə öz həllini tapacaq. Bu gözəl hadisə münasibətilə sizi bir daha ürəkdən təbrik edirəm.

X X X

Rayon ictimaiyyəti adından Prezident İlham Əliyevə minnətdarlığını bildirən Könül FEYZİYEVA dedi:

-Bugünkü tədbir Xızı sakinləri üçün böyük əhəmiyyət kəsb edir. Bu, tarixi bir hadisədir. Kimin ağlına gələ bilərdi ki, Xızımızda mərkəzləşdirilmiş su və kanalizasiya sistemi yaradılacaq. İllərlə həsrətində olduğumuz içməli su veriləcək. Sakinlərimiz içməli su baxımından çox əziyyət çəkiblər. Onlar uzaq məsafələr qət edərək su daşımaq məcburiyyətində olublar. Artıq Xızı və dörd yaşayış məntəqəmiz içməli su ilə 24 saat müddətində təmin edilibdir. Bu da Sizin diqqətinizin və qayğınızın sayəsində mümkün olub.

Ümumiyyətlə, Sizin rəhbərliyinizlə həyata keçirilən bütün layihələr xalqımıza uğur, rifah gətirir. Mən bir Xızı sakini və xızılı həkim kimi deyə bilərəm ki, suyun insan həyatında rolu əvəzolunmazdır. Belə layihələriniz Sizə və Sizinlə bərabər çalışan çox hörmətli Mehriban xanıma sevgimizi daha da artırır. Bu il keçirilən prezident seçkilərində xalqımız böyük sevgi ilə, coşqu ilə iştirak etdi, onlar Sizə səs verdi, öz Prezidentimizi seçdik. Xalqımız Sizə səs verməklə öz rifahına, təhlükəsizliyinə, xoş günlərinə səs vermiş oldu. Sizi bir daha bu münasibətlə ürəkdən təbrik edir, işlərinizdə müvəffəqiyyətlər arzulayırıq. Azərbaycanın uğurlarında Sizinlə bərabər çiyin-çiyinə çalışan sevimlimiz Mehriban xanıma da salamlarımızı çatdırmağı xahiş edirik. Tanrı Sizi və ailə üzvlərinizi qorusun.

X X X

Sonra "Azərsu" Açıq Səhmdar Cəmiyyətinin sədri Qorxmaz Hüseynov dövlətimizin başçısına layihə barədə məlumat verdi.

Azərbaycan Hökuməti və Yaponiya Beynəlxalq Əməkdaşlıq Agentliyi tərəfindən birgə maliyyələşdirilən Xızı şəhəri və Altıağac qəsəbəsinin içməli su təchizatı sistemlərinin yenidən qurulması və ilk dəfə olaraq kanalizasiya şəbəkəsinin yaradılması layihəsi 2030-cu ilə qədər perspektiv inkişaf nəzərə alınmaqla Xızı şəhərində 3300, Altıağac qəsəbəsində isə 1500 nəfərin içməli su və kanalizasiya xidmətlərindən istifadəsinin yaxşılaşdırılmasına hesablanıb. Rayonun 3 kəndi də daxil olmaqla layihədən cəmi 6,3 min nəfər faydalanacaq. Xızı rayonunda yüksək məhsuldarlığa malik su mənbələri olmadığından yaşayış məntəqələrinin su təchizatının müxtəlif mənbələr hesabına təmin olunması layihələndirilib. Layihəyə əsasən Xızı şəhərinin və Altıağac qəsəbəsinin əsas su mənbəyi sayılan Dahardibidə məhsuldarlığı gündə 864 kubmetr, Qarsda məhsuldarlığı gündə 430 kubmetr, Şəfada məhsuldarlığı gündə 240 kubmetr və Yeddibulaqda məhsuldarlığı gündə 40 kubmetr olan sugötürücü qurğular inşa olunub. Ümumi tutumu

1400 kubmetr olan 4 anbar tikilib, mənbələrdən götürülən suyun anbar kompleksinə nəqli məqsədilə, ümumilikdə, 18 kilometr magistral su xətti çəkilib. Layihə çərçivəsində Xızı şəhərində və Altıağac qəsəbəsində 52,4 kilometr içməli su və 32,4 kilometr kanalizasiya şəbəkələrinin, həmçinin şəbəkə üzərində 1513 baxış quyusunun inşası başa çatdırılıb, hər bir evin və obyektin kanalizasiya şəbəkəsinə qoşulması təmin edilib.

Layihənin icrası zamanı yeni yaradılmış infrastruktur, mənbədən tutmuş sonuncu istifadəçiyə qədər "Azərsu" ASC-nin Coğrafi İnformasiya Sisteminə işlənilib və bu məlumatlar rəqəmsal xəritədə öz əksini tapıb. Coğrafi İnformasiya Sisteminin bir elementi olan Bina-kimlik layihəsi isə abonent haqqında bütün məlumatların xəritə üzərindən alınmasına və çeşidli təhlillərin aparılmasına imkan verir. Buraya abonentin yaşadığı ünvan, əlaqə vasitələri, istifadə etdiyi suyun həcmi, ödənişləri və təhlil üçün lazım olan digər informasiyalar daxildir. Layihə baş vermiş qəza yerinə vaxtında müdaxilə etmək imkanı yaradır ki, bu da istismar prosesini asanlaşdırmaqla su itkilərinin minimuma endirilməsinə gətirib çıxarır. Eyni zamanda, baş verə biləcək fasilələr barədə abonentləri əvvəlcədən məlumatlandırmaq imkanları yaradır.

Hazırda Xızı şəhərində məhsuldarlığı sutkada 1500 kubmetr, Altıağac qəsəbəsində isə məhsuldarlığı sutkada 350 kubmetr olan tullantı sutəmizləyici qurğuların tikintisi üzrə tender prosesi yekunlaşmaq üzrədir. Yeni layihənin icrasına qədər Xızı şəhərində 1985-1991-ci illərdə yaradılmış su təchizatı sistemləri istismar edilirdi. Şəhərdə mövcud 29 kilometr su şəbəkəsi istismara yararsız vəziyyətə düşdüyündən su təchizatı normal həyata keçirilmirdi. Altıağac qəsəbəsində 1980-ci illərin əvvəllərində yaradılmış içməli su təchizatı sistemi də istismar tələblərinə cavab vermirdi. Qəsəbə sakinlərinin 60 faizi mərkəzləşdirilmiş qaydada içməli su ilə təchiz edilirdi. Xızı şəhərində və Altıağac qəsəbələrində kanalizasiya sistemləri isə, ümumiyyətlə, mövcud olmayıb.

Sonra Prezident İlham Əliyev Xızı şəhərinə və Altıağac qəsəbəsinə içməli suyun verilməsini bildirən düyməni basdı.

Layihə çərçivəsində Xızı Sukanal İdarəsi üçün müasir tipli inzibati bina inşa olunub. Binanın foyesində Ulu Öndərin büstü qoyulub. Burada müştəri xidmətləri və istehsalat şöbəsi fəaliyyət göstərəcək. Binada, həmçinin texnoloq, mühəndis, mühasibat otaqları, arxiv, anbar da yaradılıb. Binadakı iclas zalında qurumun fəaliyyəti ilə bağlı müxtəlif toplantılar keçirmək mümkündür.

Sonda xatirə şəkli çəkdirildi.

AZƏRTAC
2018, 4 may

Xızı rayonunda "Yeni Yaşma" Külək Elektrik Parkı istifadəyə verilib
(11 oktyabr 2018-ci il)

Oktyabrın 11-də Xızı rayonunun Yeni Yaşma və Şurabad qəsəbələrinin ərazisindəki 50 MVt-lıq "Yeni Yaşma" Külək Elektrik Parkının açılışı olub.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Quba rayonuna səfər çərçivəsində açılışda iştirak ediblər.

Dövlətimizin başçısı və xanımı Külək Elektrik Parkının rəmzi açılışını bildirən lenti kəsdilər.

"Azərenerji" ASC-nin prezidenti Baba Rzayev məlumat verdi ki, "Yeni Yaşma" Külək Elektrik Parkı bu il yenidən qurulub. Xızı rayonunun Yeni Yaşma və Şuraabad qəsəbələrində yerləşən Külək Elektrik Stansiyasında yenidənqurma işlərini Almaniyanın "Berlin Wind" şirkəti aparıb. Yanvar ayında ilk turbin işə salınmaqla ay üzrə cəmi 200 min kVt/saat elektrik enerjisi istehsal olunurdusa, hazırda 20 külək turbini tam gücü ilə işləyir və elektrik enerjisinin istehsalı ay üzrə 9 milyon kVt/saata yaxındır. Parkın ərazisində inzibati bina inşa edilib, burada idarəetmə mərkəzi, işçi heyəti üçün xidməti otaqlar, habelə elektrik avadanlığının-yuvaların quraşdırılması üçün 20 kV-luq bölmə və Təlim-Tədris Mərkəzi yaradılıb. İdarəetmə mərkəzində turbinlərin iş rejimləri, istismar vəziyyəti, texniki parametrləri, küləyin sürəti, növbəti günlər üçün külək proqnozu və enerji istehsalı onlayn izlənilir. Stansiyanın səmərəli fəaliyyətini təmin etmək üçün müasir tipli rele mühafizəsi, avtomatika və SCADA sistemi yaradılıb. İstehsal olunan elektrik enerjisinin ümumi enerji sisteminə ötürülməsi üçün "Yaşma" hava xəttinə qoşulmaqla "Sitalçay" yarımstansiyasına 110 kV-luq hava xətti çəkilib. Bir sıra xarici şirkətlər tərəfindən yerli mütəxəssislər üçün treninqlər təşkil edilib, həmçinin xarici ölkələrdə keçirilən müxtəlif sertifikatlaşdırılmış kurslarda yerli mütəxəssislərin iştirakı təmin olunub.

Hazırda stansiyanın idarə edilməsi, servis və istismar işləri tamamilə yerli mütəxəssislər tərəfindən icra olunur. Parkda alternativ və bərpaolunan enerji mənbələri üzrə kadr hazırlığı məqsədilə xüsusi Təlim-Tədris Mərkəzi fəaliyyət göstərir. Parkın ümumi ərazisi 540 hektardır. Burada 9800 poqonmetr uzunluğunda qəfəsli çəpər çəkilib, ümumi sahəsi 571 kvadratmetr olan anbar binası tikilib, gübrə və yağ depoları, zəhərli maddələrin saxlanılması üçün xüsusi otaq və xidməti bölmələr yaradılıb. Ərazidən səmərəli istifadə olunması üçün torpaq nümunələri İtaliyada laborator müayinədən keçirilib və nəticələrə əsasən 450 hektar sahədə zeytun və badam bağları salınıb. Bağların suvarılması məqsədilə Taxtakörpü-Ceyranbatan su kanalının 72-ci kilometrliyində suqəbuledici baş qurğu tikilib, 23 kilometrlik su xətti çəkilib, su anbarı və nasos stansiyası inşa edilib. Bakı-Quba-Rusiya Federasiyası ilə dövlət sərhədi avtomobil yolunun 55-ci kilometrliyindən 1,8 kilometrlik yeni avtomobil yolu çəkilib.

"Yeni Yaşma" Külək Elektrik Parkı Cənubi Qafqazın ən böyük külək elektrik parkıdır. Stansiyanın istismara verilməsi nəticəsində Azərbaycanda alternativ enerjinin ümumi istehsalda payı 0,7 faizdən 1,8 faizədək artacaq.

Dövlətimizin başçısına 3,6 MVt gücündə Yaşma Bağları Külək Elektrik Parkı və 1,7 MVt gücündə Şuraabad Külək Elektrik Parkı barədə də məlumat verildi. Prezident İlham Əliyevin Sərəncamına uyğun olaraq Bakı-Quba yolunun digər tərəfində yerləşən Yaşma Bağları ərazisindəki 4 turbin təmir olunaraq, istismara hazır vəziyyətə gətirilib. Elektrik enerjisinin şəbəkəyə ötürülməsi üçün 35 kV-luq yarımstansiya inşa edilib və 3,8 kilometr uzunluğunda hava xətti çəkilib. Şuraabad Külək Elektrik Parkında da 1,7 MVt gücündə 2 turbinlə bağlı təftiş işləri aparılıb, stansiyaya məxsus 35 kV-luq yarımstansiya elektrik enerjisinin şəbəkəyə ötürülməsi üçün yenidən qurularaq istismara verilib. Turbinlərin idarə edilməsi SCADA sisteminə inteqrasiya olunub.

Sonda Külək Elektrik Parkının kollektivi ilə xatirə şəkli çəkdirildi.

AZƏRTAC
2018, 11 oktyabr

Sumqayıt şəhəri

2015, 13 yanvar

- Azərbaycan Prezidenti İlham Əliyevin Sumqayıt şəhərinə səfəri, Ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət
- Nəsimi adına şəhər mədəniyyət və istirahət parkında aparılan yenidənqurma işləri ilə tanışlıq
- Sumqayıtda "Alyans Tekstil" tikiş fabriki fəaliyyətə başlayıb
- Sumqayıtda Gənclər Evi istifadəyə verilib
- Sumqayıtın sənaye xəritəsində yeni ünvan - beton məmulatı zavodu

2015, 25 oktyabr

- Prezident İlham Əliyev Sumqayıtda texniki avadanlıqlar zavodunun açılışında iştirak edib
- Sumqayıtda yüksək sıxlıqlı polietilen zavodunun təməli qoyulub
- Prezident İlham Əliyev Sumqayıtda etilen-polietilen zavodunda yeni qurğuları işə salıb

2016, 27 sentyabr

- Azərbaycan Prezidenti İlham Əliyev Sumqayıt şəhərinə səfərə gəlib
- Sumqayıtdakı Sülh küçəsi əsaslı təmir və yenidənqurmadan sonra istifadəyə verilib
- Sumqayıtda yeni sərnişin avtobusları ilə tanışlıq
- Sumqayıt Dövlət Dram Teatrının binası yenidən qurulub
- Prezident İlham Əliyev Sumqayıtda Dənizkənarı bulvarın və şəhər çimərliyinin açılışında iştirak edib
- Sahil küçəsində yenidənqurmadan sonra görülən işlərlə tanışlıq
- Yenidən qurulan Heydər Əliyev parkı sumqayıtlıların sevimli istirahət məkanıdır
- Sumqayıtda Uşaq İncəsənət Məktəbinin açılışı olub
- Sumqayıtda Şahmat Məktəbi istifadəyə verilib
- Sumqayıtda Heydər Əliyev Mərkəzinin yeni binasında şəhər ictimaiyyətinin nümayəndələri ilə görüş: Azərbaycan Prezident İlham Əliyevin çıxışı

2017, 15 dekabr

- Prezident İlham Əliyev Sumqayıt şəhərinə səfərə gəlib
- Prezident İlham Əliyev Sumqayıt Kimya Sənaye Parkında olub: Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı
- Sumqayıtda Bayraq Muzeyinin açılışı olub
- Prezident İlham Əliyev Yeni Azərbaycan Partiyası Sumqayıt şəhər təşkilatının inzibati binasının açılışında iştirak edib
- Prezident İlham Əliyev Sumqayıtda "Kimyaçı" Mədəniyyət Sarayında əsaslı təmirdən sonra yaradılan şəraitlə tanış olub
- Sumqayıtda Lüdviqshafen parkında əsaslı təmirdən sonra yaradılan şəraitlə tanışlıq
- Prezident İlham Əliyev "Baku Steel Company" MMC-nin Sumqayıt boruyayma zavodunun yenidənqurmadan sonra açılışında iştirak edib

2018, 18 iyul

- Sumqayıt Kimya Sənaye Parkında "SOCAR Polymer" layihəsi çərçivəsində inşa edilən polipropilen zavodunun açılışı olub: Azərbaycan Prezidenti İlham Əliyev və İtaliya Prezidenti Sercio Mattarella açılışda iştirak ediblər: Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı

2018, 16 noyabr

- Prezident İlham Əliyev Sumqayıt şəhərinə səfərə gəlib
- Prezident İlham Əliyev Sumqayıt Kimya Sənaye Parkında inşaat kimyəviləri zavodunun açılışında iştirak edib
- Sumqayıt Kimya Sənaye Parkında əlvan metallar və ferroərintilər zavodunun açılışı olub
- Prezident İlham Əliyev Sumqayıt Dəmir Yolu Vağzalı Kompleksinin açılışında iştirak edib
- Sumqayıt Kimya Sənaye Parkında tütün məmulatları istehsalı fabriki istifadəyə verilib: Prezident İlham Əliyevin çıxışı

2019, 16 yanvar

- Prezident İlham Əliyev Sumqayıtda “SOCAR karbamid” zavodunun açılışında iştirak edib

Azərbaycan Prezidenti İlham Əliyevin Sumqayıt şəhərinə səfəri
Ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət
(13 yanvar 2015-ci il)

Yanvarın 13-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Sumqayıt şəhərinə gəlib.

Dövlətimizin başçısı xalqımızın ümummilli lideri Heydər Əliyevin Sumqayıt şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək önünə gül dəstəsi qoydu.

Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov son vaxtlar abidənin ətrafında aparılan abadlıq-quruculuq işləri barədə Prezident İlham Əliyevə məlumat verdi.

AZƏRTAC
2015, 13 yanvar

Nəsimi adına şəhər mədəniyyət və istirahət parkında aparılan yenidənqurma işləri ilə tanışlıq
(13 yanvar 2015-ci il)

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 13-də Sumqayıta səfəri çərçivəsində Nəsimi adına şəhər mədəniyyət və istirahət parkında aparılan yenidənqurma işləri ilə tanış olub.

Son illərdə ölkəmizdə həyata keçirilən sosial-iqtisadi inkişaf strategiyası bölgələrin daha da gözəlləşməsi, regionların simasına yeni elementlərin əlavə olunması ilə müşayiət edilir. Şəhər və rayonlarımızda aparılan quruculuq işləri çərçivəsində park və xiyabanların salınması, mövcud olanların isə yenidən qurulması diqqətdən kənarda qalmır. Bu sahədə həyata keçirilən işlər çərçivəsində Sumqayıtdakı Nəsimi adına şəhər mədəniyyət və istirahət parkının yenidən qurulması da xüsusi əhəmiyyət kəsb edir.

Prezident İlham Əliyevin park və xiyabanların əsaslı təmiri və yenidən qurulması ilə bağlı tapşırıqlarına əsasən yenilənən bu park, ilk növbədə, şəhər sakinlərinin istirahətinin yüksək səviyyədə təşkilinə xidmət edir. Müasir tələblər səviyyəsində qurulan bu park Sumqayıtın gözəlliyini daha da artırır.

Dövlətimizin başçısına parkda görülən abadlıq-quruculuq işləri barədə məlumat verildi. Bildirildi ki, "Şəhidlər xiyabanı"nın yaxınlığındakı 10 hektarlıq ərazidə geniş abadlıq işləri aparılıb. Burada 10 metr hündürlüyündə "20 Yanvar" abidəsi ucaldılıb. Bu da 25 illiyini qeyd etməyə hazırlaşdığımız 20 Yanvar hadisələri zamanı şəhid olan soydaşlarımızın xatirəsinin hər zaman dövlətimiz tərəfindən əziz tutulduğunu göstərir.

Parkda Xocalı soyqırımı qurbanlarının xatirəsinə də abidə qoyulub. Qranit abidə kompleksi soyqırımı qurbanlarının heç zaman unudulmadığını, onların daim xalqımızın qəlbində yaşadığını göstərir.

Qeyd edildi ki, şəhər sakinlərinin mənalı istirahəti və asudə vaxtlarının səmərəli təşkili üçün salınan parkda ardıcıl olaraq yenidənqurma və tikinti-quraşdırma işləri aparılır. Yenidənqurma işləri zamanı milli memarlıq üslubu ilə müasirlik tam uzlaşdırılıb, maraqlı elementlər və formalardan istifadə edilib. Ərazidə çoxlu ağac və dekorativ gül kolları əkilib, yaşıllıq salınıb. Park müasir işıqlandırma sistemi ilə təchiz edilib.

Prezident İlham Əliyev Nəsimi parkının digər hissələrində aparılan abadlıq-quruculuq işləri ilə də tanış oldu. Sumqayıtın əsas magistral yolu olan Səməd Vurğun küçəsindən başlayaraq Xəzər dənizinin sahilinədək uzanan parkın ümumi sahəsi hazırda 80 hektardır. Nazirlər Kabinetinin qərarına əsasən, 2001-ci ildən Nəsimi adına şəhər mədəniyyət və istirahət parkı ölkə əhəmiyyətli tarix və mədəniyyət abidələri siyahısına daxil edilib.

Prezident İlham Əliyev Nəsimi parkında yeni inşa olunan "Yaşıl teatr"da yaradılan şəraitlə də tanış oldu.

Bildirildi ki, həm respublika, həm də şəhər səviyyəli mədəni-kütləvi tədbirlərin keçirilməsi məqsədilə tikilən, 350 tamaşaçı yeri olan bu teatr ən müasir standartlar səviyyəsindədir. Ümumi sahəsi min kvadratmetrə yaxın olan "Yaşıl teatr"da ən son texnologiyaya əsaslanan səs və işıq sistemləri qurulub.

AZƏRTAC
2015, 13 yanvar

Sumqayıtda "Alyans Tekstil" tikiş fabriki fəaliyyətə başlayıb
(13 yanvar 2015-ci il)

Yanvarın 13-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Sumqayıt şəhərində "Alyans Tekstil" tikiş fabrikinin açılışında iştirak edib.

Ulu öndər Heydər Əliyevin əsasını qoyduğu sosial-iqtisadi inkişaf strategiyasının Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində iqtisadiyyatın neft sektoru ilə bərabər, qeyri-neft sahələrinin də davamlı inkişafına nail olunur. Qeyri-neft sektorunun inkişaf etdirilməsində isə sahibkarlığın rolu böyükdür. Təsadüfi deyil ki, dövlətin iqtisadi siyasətinin başlıca istiqamətlərindən biri məhz özəl sektorun hərtərəfli dəstəklənməsi, onun daha da genişlənməsi üçün əlverişli mühitin yaradılması, bu sahədə müxtəlif yardım və təşviq mexanizmlərinin tətbiq edilməsidir. Bu baxımdan dövlət tərəfindən ayrılan kreditlər və İqtisadiyyat və Sənaye Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondunun xətti ilə görülən işlər xüsusi önəm kəsb edir. Güzəştli kreditlər hesabına son illər bölgələrdə iri istehsal, emal və infrastruktur müəssisələri istifadəyə verilib. 2014-cü ildə bu proses davam etdirilib. Fond tərəfindən indiyədək ümumi dəyəri 60 milyon manat olan 7 tekstil fabrikinin yaradılmasına və ən müasir texnologiya və avadanlıqla təchiz edilməsinə 28,4 milyon manat güzəştli kredit ayrılıb. Almaniya, Belçika, İsveçrə, Avstriya, İtaliya, İspaniya, Yaponiya və Türkiyənin müasir texnologiya və avadanlıqları əsasında qurulan 5 fabrik artıq istifadəyə verilib. Bu fabriklərin fəaliyyətə başlaması istehlakçıların tələbata uyğun yüksək keyfiyyətli müxtəlif tekstil və trikotaj məhsulları ilə təmin edilməsinə imkan yaradıb. Belə iri layihələrdən biri də Sumqayıt şəhərində "Alyans Tekstil" tikiş fabrikidir. Bu layihənin həyata keçirilməsinə də Sahibkarlığa Kömək Milli Fondu tərəfindən güzəştli kredit ayrılıb.

İqtisadiyyat və sənaye naziri Şahin Mustafayev Prezident İlham Əliyevə məlumat verdi ki, regionların sosial-iqtisadi inkişafı Dövlət proqramlarına uyğun olaraq inşa edilmiş fabrikin sahəsi 2,4 hektardır. Ümumi dəyəri 6,1 milyon manat olan fabrikin tikintisinə Sahibkarlığa Kömək Milli Fondundan 1 milyon manat güzəştli kredit ayrılıb.

Prezident İlham Əliyevə indiyədək Sumqayıt şəhəri üzrə ayrılan güzəştli kreditlər barədə də məlumat verildi. Bildirildi ki, indiyədək Sumqayıt şəhərində 354 sahibkarlıq subyektinin ümumi dəyəri 320 milyon manat olan investisiya layihələrinin maliyyələşdirilməsinə dövlət tərəfindən 120,6 milyon manat, o cümlədən müasir texnologiyaların tətbiqinə əsaslanan, ümumi dəyəri 268,2 milyon manat olan 18 investisiya layihəsinin maliyyələşdirilməsinə 104,2 milyon manat güzəştli kreditlər verilib. Bu kreditlər hesabına 5900-dən çox yeni iş yeri yaradılıb. Kreditlərin 219-u kiçik həcmlidir və bu layihələrin maliyyələşdirilməsinə 1,6 milyon manat güzəştli kredit verilib. Həmin kreditlər hesabına isə 560-dan çox sakin işlə təmin olunub.

Prezident İlham Əliyev "Alyans Tekstil" tikiş fabrikini işə saldı.

Məlumat verildi ki, tekstil fabriki 2 əsas istehsal və 4 köməkçi sahədən ibarətdir.

Dövlətimizin başçısı fabrikin dünyanın ən qabaqcıl şirkətlərinin müasir avadanlığı ilə təchiz edilmiş tikiş sahəsində istehsal prosesi ilə tanış oldu.

Bildirildi ki, fabrik ildə 100 min dəst müxtəlif işçi geyimləri -gödəkçələr, kombinezonlar, kostyum və dəstlər istehsal etmək gücünə malikdir. Dövlətin maliyyə dəstəyi ilə fabrikin yeni tikilmiş istehsal binasında tamamlama işləri aparılıb və avtomatik parça sərim xətti, alt və üst transportlu iplik kəsməli tikiş maşınları, qurutma konveyerləri, loqotip və yazı vurulması üçün boya avadanlığı, naxış və universal tikiş maşınları quraşdırılıb. Toxunan parça texnologiyaya əsasən sərmə, qatlama və kəsmə proseslərindən sonra tikiş sahəsinə verilir. İstehsal olunan məhsulun üzərinə hörmə və ya boya ilə sifarişçinin istəyinə uyğun olaraq onun loqosu və adı vurulur.

Dövlətimizin başçısı burada istehsal olunan məhsulların nümunələrinə baxdı. Fabrikin əsas xammalı olan parça Sahibkarlığa Kömək Milli Fondu tərəfindən maliyyə dəstəyi göstərilən "Gilan" Tekstil Parkından alınır. Müəssisədə ən müasir texnologiyanın tətbiqi beynəlxalq standartlara cavab verən yüksək keyfiyyətli tekstil məmulatları istehsalına və hazır məhsulun maya dəyərinin aşağı düşməsinə səbəb olur. Belə müasir kompleksin Sumqayıtda inşa olunması respublikamızda gedən uğurlu sənayeləşmə siyasətinin bir nümunəsidir. Layihələrin icrası nəticəsində fabrikdə 200 iş yeri yaradılıb. Müəssisədə işçilərin məhsuldar çalışmaları üçün hər cür şərait var.

Prezident İlham Əliyev fabrikin kollektivi ilə görüşdü.

X X X

Fabrikin kollektivini salamlayan dövlətimizin başçısı İlham ƏLİYEV dedi:

- Sizi ürəkdən təbrik edirəm. Bu gün Sumqayıtda yeni gözəl sənaye müəssisəsi, tekstil fabriki açılır. Bu, gözəl hadisədir. Şadam ki, fabrikdə bütün işlər yüksək səviyyədə qurulub. Çox gözəl iş şəraiti var, avadanlıq quraşdırılıb, ən yüksək standartlar tətbiq olunub. Ən sevindirici hal ondan ibarətdir ki, fabrikdə çalışanların mütləq əksəriyyəti qadınlardır. Yəni, bu, yeni iş yerlərinin açılması deməkdir. Burada 200 insan işlə təmin olunub. Maaş da yaxşıdır. Yəqin ki, gələcəkdə daha da artacaq. Çünki fabrikin uğurlu fəaliyyəti bunu təmin edəcəkdir.

Sumqayıtda bu gün başqa bir istehsalat sahəsi açılır - beton zavodu. Oraya da gedib baxacağam. Yəni, hər il Sumqayıtda çox gözəl yeni sənaye müəssisələri açılır ki, bu, həm insanları işlə təmin edir, eyni zamanda, ölkəmizin inkişafını təmin edir. Keçən il Azərbaycanda "Sənaye ili" elan edilmişdi. Bu fabrik də əslində keçən il tikilmişdir. Ümumilikdə keçən il 200-dən çox iri sənaye müəssisəsi açılmışdır ki, bu da ölkəmizin inkişafına xidmət göstərir.

Sumqayıt ənənəvi olaraq sənaye şəhəri kimi salınmışdır. Bu gün isə Sumqayıt müasir sənaye şəhəridir. Burada yaradılan istehsalat sahələri, böyük elektrik stansiyası, aparılan abadlıq işləri məni çox sevindirir. Mən Sumqayıta hər il səfər edirəm, bəzi hallarda ildə iki dəfə. Hər dəfə burada vəziyyətlə tanış oluram və yeni böyük müəssisələrin açılışlarında iştirak edirəm.

Sumqayıtda Texnologiya Parkı neçə ildir ki, fəaliyyət göstərir. Kimya Parkı, digər istehsalat zonaları. Yəni, Sumqayıt əslində nəinki Azərbaycanın, Cənubi Qafqazın ikinci böyük sənaye mərkəzidir. Biz insanları işlə təmin etmək üçün böyük işlər görürük. Biz bunu Sumqayıtın timsalında əyani şəkildə görürük. Çünki Sumqayıtda işsizlik demək olar ki, aradan qaldırılıb. Qadınlar da işlə təmin edilir. Əgər ailənin hər iki üzvü işləsə əlbəttə ki, bu, ailə büdcəsinə də əlavə dəstək olacaq. Uşaq bağçaları da tikilməlidir ki, qadınların vaxtı olsun, gəlib işləsinlər. Biz bu işlərlə də məşğul oluruq. Yəni, ölkəmizdə həm sosial, həm iqtisadi və sənaye ilə bağlı məsələlər ardıcıl şəkildə həll edilir.

Ölkəmiz inkişaf edir. Keçən ili də uğurla başa vurmuşuq. Bu ili də uğurla başa vuracağıq. Baxmayaraq ki, dünyada indi müxtəlif proseslər gedir. Bölgədə iqtisadi vəziyyət o qədər də ürəkaçan deyil. Azərbaycanda heç bir çətinlik gözlənilmir. Yeni sənaye müəssisələri açılacaq, insanlar işlə təmin olunacaqlar. Bizim iqtisadi inkişafımız təmin ediləcək və xalqımızın rifah halı yaxşılaşacaq.

Mən sizi ürəkdən salamlayıram. Bildiyiniz kimi, mən hər il dəfələrlə bölgələrdə oluram, vəziyyətlə tanış oluram. Bu il isə ilk səfərimi Sumqayıta edirəm. Əminəm ki, Sumqayıtda bütün işlər bundan sonra da yüksək səviyyədə təşkil ediləcək. Sizi bir daha bu gözəl hadisə münasibətilə təbrik edirəm.

Kollektivin adından dövlətimizin başçısına minnətdarlıq edən fabrikin əməkdaşı Səbirə CAMAYEVA dedi:

- Xoş gəlmisiniz, cənab Prezident.

Şəhərimizdə açılan bu gözəl müəssisəyə görə Sizə minnətdarıq. Gördüyünüz bu müəssisədə bizim üçün hər cür şərait yaradılıb. Bu gün dünyanın bir çox ölkələrində böhran olmasına baxmayaraq, Azərbaycanımızda yeni müəssisələr açılır. Biz ölkəmizdə çox rahat, firavan yaşayırıq, sülh və əmin-amanlıqdır. Hər bir sahədə inkişaf var. Balalarımızın gələcəyinə də böyük ümidlə baxırıq. Çünki ölkəmizin Sizin kimi rəhbəri var. Gördüyünüz bütün işlərə görə Sizə minnətdarıq. Biz fəxr edirik ki, bu gün doğrudan da, sözün əsl mənasında, müstəqil dövlətdə yaşayırıq. Qürur hissi duyuruq ki, xalqımızın Sizin kimi müdrik Prezidenti var. Çox sağ olun.

Müəssisənin digər əməkdaşı Naibə MƏMMƏDOVA dedi:

- Cənab Prezident, biz Sizə Sumqayıta göstərdiyiniz diqqət və qayğıya görə minnətdarıq. Sizin sayənizdə şəhərimiz gündən-günə gözəlləşir, abadlaşır. Bu, biz sumqayıtlıları çox sevindirir. Gördüyünüz işlərə görə Sizə "Çox sağ olun" deyirik. Sizə və hörmətli Mehriban xanıma uzun ömür, cansağlığı arzulayırıq.

Prezident İlham ƏLİYEV: Çox sağ olun. Bu fabrikin tikintisində əlbəttə ki, özəl sektor öz sözünü deyib. Əsas vəsaiti sahibkarlar qoyublar. Ancaq dövlət də öz dəstəyini göstərmişdir. Sahibkarlığa Kömək Milli Fondunun xətti ilə bu fabrikin yaradılmasına dəstək verilmişdir. Yəni, dövlət sahibkarları dəstəkləyir, həm siyasi, həm maddi dəstək göstərir, güzəştli şərtlərlə kreditlər verir. Sahibkardan da tələbimiz ondan ibarətdir ki, yeni iş sahələri, istehsalat sahələri yaratsınlar, ölkəmizi gücləndirsinlər. Özləri üçün də imkan yaratsınlar və o müəssisələrdə işləyən insanlara da yaxşı xidmət etsinlər. Çünki siz Azərbaycanın iqtisadi və sənaye potensialını yaradan insanlarsınız. Sahibkar əlbəttə ki, bu müəssisənin sahibidir. Ancaq bu müəssisənin əsas iştirakçısı sizlərsiniz, burada işləyənlər - mütəxəssislər, fəhlələr. Beləliklə, burada hər

müəssisədə çox sağlam bir ab-hava olmalıdır. İnsanlar razı olmalıdırlar, yaxşı maaş almalıdırlar. Onların iş şəraiti yaxşı olmalıdır. Biz buna çalışırıq və bu gün Azərbaycanın müxtəlif yerlərində müəssisələr bax, bu səviyyədə yaradılır. İnsanların əməkhaqqı vaxtında verilməlidir, iş şəraiti yaxşı səviyyədə olmalıdır ki, hər bir ailə normal yaşasın, dolansın və ildən-ilə insanların rifah halı artsın.

Sumqayıtda digər başqa layihələr də icra edilib. Şəhər gözəlləşir, abadlaşır. Sumqayıt indi ekoloji cəhətdən ən təmiz şəhərlərdən biridir. Vaxtilə Sumqayıtı ekoloji fəlakət şəhəri kimi təsvir edirdilər. Əfsuslar olsun ki, bəzi hallarda Azərbaycana qarşı aparılan kampaniya çərçivəsində yenə də Sumqayıt haqqında həqiqəti əks etdirməyən sözlər deyilir. Amma buraya gələn hər bir insan görür ki, indi Sumqayıt parklar şəhəridir. Sənaye müəssisələrində bütün ekoloji standartlar gözlənilir, tətbiq edilir. Havası təmiz, gözəl infrastrukturu olan bir şəhərdir. Son illərdə Sumqayıtda bir neçə park qurulub, yenidən salınıb, əsaslı təmir edilib. Şəhər gözəlləşir, binalar tikilir. Mən dəfələrlə demişəm ki, Sumqayıtda gedən işlər Bakıda gedən işlərin səviyyəsində olmalıdır.

Burada "ASAN xidmət" yaradılıbdır. Yəqin ki, siz də bu imkanlardan istifadə etmisiniz və görmüsünüz ki, bu yenilik insanlara nə qədər rahatlıq gətirir.

Biz çalışmalıyıq ki, Azərbaycanda hər bir sahədə ən müasir təcrübə tətbiq olunsun - sənaye müəssisələrində, məişət məsələlərinin həllində, insanlara göstərilən xidmətlərdə. Biz buna nail oluruq.

Sizi bir daha ürəkdən təbrik edirəm. Sizə uğurlar arzulayıram.

X X X

Sonda xatirə şəkli çəkdirildi.

AzərTAc
13 yanvar 2015-ci il

Sumqayıtda Gənclər Evi istifadəyə verilib
(13 yanvar 2015-ci il)

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 13-də Sumqayıtda Gənclər Evinin açılışında iştirak edib.

Son dövrlərdə digər sahələrdə olduğu kimi, gənclər siyasəti istiqamətində də çox mühüm nailiyyətlər əldə edilib. Bütün bu uğurlar ölkəmizdə gənclər siyasətinin formalaşdırılması üçün həyata keçirilən ardıcıl tədbirlərin nəticəsidir. Bu sahənin inkişafı da ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Ölkədə həyata keçirilən gənclər siyasəti 2003-cü ildən başlayaraq uğurlu nəticələrlə yadda qalıb. 2005-2009-cu illəri əhatə edən Azərbaycan Gəncliyi Dövlət Proqramı bu məsələdə çox mühüm rol oynayıb. Hazırda həyata keçirilən "Azərbaycan Gəncliyi 2011-2015-ci illərdə" Dövlət Proqramı bu tədbirlərin məntiqi davamıdır.

Hazırda ölkə gəncləri vətənpərvərlik, azərbaycançılıq və dövlətçilik prinsiplərinə, həmçinin tarixi keçmişimizə, milli mənəvi dəyərlərimizə rəğbət ruhunda tərbiyə olunurlar. Bu məsələ respublikamızda prioritet istiqamətlərdən biridir. Prezident İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq, gənclərin intellektual və yaradıcı potensialının üzə çıxarılması, xüsusilə regionlarda yaşayan gənclərin fəallığının artırılması istiqamətində məqsədyönlü layihə və proqramlar həyata keçirilir. Bölgələrdə müasir tələblərə cavab verən sosial infrastruktur obyektlərinin və gənclər mərkəzlərinin, gənclər evlərinin istifadəyə verilməsi də məhz həmin məqsədlərə xidmət edir. Belə gənclər evlərindən biri də Sumqayıtda yaradılıb.

Dövlətimizin başçısı Gənclər Evinin rəmzi açılışını bildirən lenti kəsdi.

Gənclər və idman naziri Azad Rəhimov Prezident İlham Əliyevə burada yaradılan şərait barədə məlumat verdi.

Binanın foyesində ümummilli lider Heydər Əliyevin və Prezident İlham Əliyevin Sumqayıta səfərlərini, həmçinin gənclərlə görüşlərini əks etdirən fotolardan ibarət stend yaradılıb. Bu Gənclər Evi Prezidentin 2011-ci ildə imzaladığı Sərəncamla təsdiq edilmiş "Azərbaycan Gəncliyi 2011-2015-ci illərdə" Dövlət Proqramına əsasən Gənclər və İdman Nazirliyinin sifarişi ilə tikilib. Binanın inşası üçün şəhərin 5-ci mikrorayon ərazisində 246 kvadratmetr torpaq sahəsi ayrılıb. Üç mərtəbə və terrasdan ibarət binada caz klub, səhnəsi olan böyük kafe-bar, art-studiya, internet klub yaradılıb. Burada, həmçinin biznes və hüquqi məsləhət mərkəzləri, vətənpərvərlik klubu, gənclər üçün "Qaynar xətt" xidməti, peşəyönümü mərkəzi, bütün müasir və zəruri avadanlıqla təchiz edilmiş videostudiya da gənclərin ixtiyarına veriləcək.

Gənclər Evinin masaüstü oyunlar otağında asudə vaxtın daha səmərəli təşkili üçün hər cür şərait var. Burada, həmçinin istedadların hazırlığı laboratoriyası və xarici dillər üzrə danışıq klubu da fəaliyyət göstərəcək.

Binadakı "dəyirmi masa" zalı da müasirliyi ilə diqqəti cəlb edir. Bir sözlə, burada gənclərin potensialını üzə çıxarmaq və onu inkişaf etdirmək üçün bütün şərait yaradılıb.

Gənclər Evinin 110 yerlik müasir akt zalı da vardır. Burada gənclərlə bağlı müxtəlif tədbirləri ən yüksək səviyyədə təşkil etmək mümkün olacaq. Tədbirlər zamanı regionlardan gələn gənclərin qalmaları üçün bir və iki nəfərlik 10 otaq yaradılıb. Binanın sonuncu mərtəbəsində açıq havada 50 nəfərlik restoran gənclərin ixtiyarına veriləcək. Binanın inzibati bölməsindəki otaqların hamısı zəruri avadanlıqla təmin olunub.

Dövlətimizin başçısı Gənclər Evində Olimpiya Hərəkatı Muzeyi və Beyləqanda inşa edilən Olimpiya kompleksinin eskiz layihəsinə də baxdı.

AZƏRTAC
2015, 13 yanvar

Sumqayıtın sənaye xəritəsində yeni ünvan - beton məmulatı zavodu
(13 yanvar 2015-ci il)

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 13-də Sumqayıt şəhərinə səfəri çərçivəsində beton məmulatı zavodunun açılışında iştirak edib.

Prezident İlham Əliyevin Sərəncamına uyğun olaraq 2014-cü il ölkəmizdə "Sənaye ili" elan edilmişdi. Bununla əlaqədar, ötən il sənayeləşmə siyasəti çərçivəsində iqtisadiyyatın şaxələndirilməsi, mövcud təbii və iqtisadi resursların dövriyyəyə cəlb edilməsi, yeni sənaye məhsulları istehsalı sahələrinin yaradılması, regionlarda sənaye potensialının gücləndirilməsi və sənayenin innovasiyalar əsasında inkişafının təmin edilməsi istiqamətində məqsədyönlü tədbirlər həyata keçirildi.

Belə tədbirlərdən biri də Azərbaycan Prezidentinin tapşırığına uyğun olaraq, dövlətin güzəştli kreditləri hesabına tikinti materialları müəssisələrinin ən müasir texnologiya və avadanlıq əsasında yaradılmasıdır. Bu məqsədlə İqtisadiyyat və Sənaye Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondu tərəfindən ümumi dəyəri 186 milyon manat olan 18 tikinti materialları istehsalı müəssisəsinin yaradılmasına, ən müasir texnologiya və avadanlıqla təchiz edilməsinə 70 milyon manat güzəştli kredit verilib. Xarici ölkələrin müasir texnologiya və avadanlığı əsasında qurulmuş 14 müəssisə artıq fəaliyyət göstərir. Bu müəssisələrin işə salınması istehlakçıların tələbatına uyğun yüksək keyfiyyətli müxtəlif tikinti materialları istehsalına imkan yaradıb. Müasir texnologiyaların tətbiqi, eyni zamanda, tikinti sənayesində maya dəyərinin aşağı düşməsinə, yüksək keyfiyyətə və idxalın əvəz edilməsinə səbəb olur. Respublikada ilk dəfə olaraq ən müasir avadanlıqla təchiz edilmiş və böyük istehsal gücünə malik beton məmulatı zavodu Sumqayıt şəhərində inşa edilib.

İqtisadiyyat və sənaye naziri Şahin Mustafayev dövlətimizin başçısına məlumat verdi ki, 11 min kvadratmetr istehsal sahəsi olan və inzibati binadan ibarət zavodun ümumi dəyəri 17,6 milyon manatdır. Müəssisənin qurulmasına Sahibkarlığa Kömək Milli Fondu tərəfindən 500 min manat güzəştli kredit ayrılıb. Tikinti sənayesinin inkişafı və istehlakçıların keyfiyyətli beton borular və döşəmə daşları ilə təmin edilməsi məqsədilə zavod dünyanın ən aparıcı şirkətlərinin son texnologiyaları əsasında qurulub.

Prezident İlham Əliyev zavodu işə saldı.

Ümumilikdə, 7 istehsal sahəsindən ibarət bu zavod avadanlığın sayına və həcminə görə Şərqi Avropada analoqu olmayan ən böyük müəssisədir. Dəzgahlar 8 saatlıq iş rejimində, diametrindən asılı olaraq 17-32 boru istehsal etmə gücünə malikdir. Bu da ayda 10-12 min metr beton boru istehsalı deməkdir. Boruların qəlibdən çıxarılması üçün 40 tona qədər yük qaldıra bilən 12 körpülü kran quraşdırılıb. Respublikada ilk dəfə bu zavodda termoyağlı boru istehsal xətləri tətbiq edilib.

İstehsal prosesi tam avtomatlaşdırılmış zavodda döşəmə daşları da istehsal olunur. İllik istehsal gücü 140 min metr müxtəlif diametrli beton boru və 500 min kvadratmetr beton döşəmə daşı olan zavodda müasir texnologiyanın tətbiqi enerji məsrəflərinin azalmasına səbəb olur. Bu isə öz növbəsində məhsulun maya dəyərinin daha aşağı olmasına imkan verir. Nəticədə istehlakçılara daha münasib qiymətlərlə onların tələbatına uyğun yüksək keyfiyyətli beton məmulatı təqdim edilməsi mümkündür. Müəssisədə ümumilikdə 200-dək yeni iş yeri yaradılıb. Burada ofis binası, istehsalı idarəetmə mərkəzi, 150 nəfərlik yeməkxana da var.

Zavodda istehsal olunan məhsulların istehlakçılara çatdırılması üçün xüsusi nəqliyyat vasitələri alınıb. Müəssisənin avtotexniki parkında yükünü özüboşaldan 10 avtomaşın, 10 betonqarışdıran, 2 avtoyükləyici və 4 müxtəlif tonnajlı avtokar var.

Müəssisənin fəaliyyəti ilə tanış olan dövlətimizin başçısı kollektivə uğurlar arzuladı.

AZƏRTAC
2015, 13 yanvar

Prezident İlham Əliyev Sumqayıtda texniki avadanlıqlar zavodunun açılışında iştirak edib
(25 oktyabr 2015-ci il)

Oktyabrın 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Sumqayıt Kimya Sənaye Parkının ərazisində "Azertexnolayn" Məhdud Məsuliyyətli Cəmiyyətinin texniki avadanlıqlar zavodunun açılışında iştirak edib.

İqtisadiyyat və sənaye naziri Şahin Mustafayev dövlətimizin başçısına Sumqayıt Kimya Sənaye Parkında görülən işlərlə bağlı məlumat verdi.

Azərbaycanda sənayeləşmə iqtisadi siyasətin prioritetlərindəndir. Ümummilli lider Heydər Əliyevin müəyyənləşdirdiyi sənayeləşmə siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi sayəsində Azərbaycanda sənayeləşmənin tempi yüksəlib, ölkə sənayesi yeni inkişaf mərhələsinə qədəm qoyub. Prezident İlham Əliyevin 2014-cü ili "Sənaye ili" elan etməsi bu sahənin inkişafına yeni təkan verib.

Ölkəmizdə həyata keçirilən genişmiqyaslı sənayeləşmə strategiyasının əsas istiqamətlərindən biri də sənaye mərkəzlərinin yaradılmasıdır. Sənaye parkları yüksək rəqabətqabiliyyətli iqtisadiyyatın müxtəlif sahələrinin daha sürətlə inkişaf etdirilməsinə təkan verir. Bu baxımdan Prezident İlham Əliyevin iştirakı ilə 2013-cü ildə təməli qoyulan Sumqayıt Kimya Sənaye Parkı xüsusi əhəmiyyət kəsb edir. Park Sumqayıt şəhərində əvvəllər ekoloji fəlakət zonası hesab olunan 296 hektar sahədə yaradılıb.

Parkın yaradılmasının əsas məqsədləri ölkədə innovasiyalı və yüksək texnologiyalar əsasında rəqabətqabiliyyətli sənaye istehsalının inkişafı üçün münbit şərait formalaşdırmaq, bu sahə üzrə sahibkarlığı dəstəkləmək, qeyri-neft sektorunun davamlı inkişafını təmin etmək və əhalinin istehsal sahəsində məşğulluğunu artırmaqdır. Sənaye zonasında 40-dək müəssisənin yerləşdirilməsi nəzərdə tutulur. Burada 10 minə qədər daimi yeni iş yerinin açılması gözlənilir. Sumqayıt Kimya Sənaye Parkının investisiya cəlbediciliyinin artırılması məqsədilə parkın rezidentləri 7 il müddətinə mənfəət, torpaq, əmlak vergilərindən, eyni zamanda, buraya gətirilən texnika və texnoloji avadanlıqlar əlavə dəyər vergisindən azad olunub.

Sumqayıt Kimya Sənaye Parkında "bir pəncərə" sistemi tətbiq edilib. Burada artıq dörd rezident qeydiyyata alınıb. Parkın ərazisində ilk sərmayəçi olan "Azertexnolayn" Məhdud Məsuliyyətli Cəmiyyətinin artıq bir neçə zavodu fəaliyyət göstərir. Zavodların keyfiyyət siyasətinin əsasını "müştəri məmnuniyyəti" təşkil edir. Bu hədəfə əsaslanaraq müştərilərə yüksək standartlara uyğun keyfiyyətli məhsullar təqdim edilir. Bunun nəticəsidir ki, ABŞ-ın Neft İnstitutu tərəfindən "Azertexnolayn" Məhdud Məsuliyyətli Cəmiyyətinə beynəlxalq keyfiyyət sertifikatı verilib.

Bildirildi ki, Kimya Sənaye Parkında şirkətin üç zavodu fəaliyyət göstərir. "Azertexnolayn"ın əsas istehsal sahələrindən biri polad borular zavodudur ki, burada təyinatı üzrə beynəlxalq standartlara cavab verən keyfiyyətli spiral tikişli polad borular istehsal olunur. Zavodda polad boru istehsalı üzrə üç xətt qurulub. Bu xətlərin hər birinin illik istehsal gücü 200 min tondur.

Şirkətin digər bir müəssisəsi isə mexaniki məhsullar zavodudur. Bu zavodda əsasən polad armaturlu borular, metal hasar və plastik birləşdirici hissələr istehsal olunur. Artıq "Azertexnolayn" Məhdud Məsuliyyətli Cəmiyyətinin texniki avadanlıqlar zavodu da istehsala tam hazırdır.

Dövlətimizin başçısı zavodu işə saldı.

Prezident İlham Əliyevə müəssisənin iqtisadi-texniki göstəriciləri barədə məlumat verildi.

Azərbaycan Prezidenti istehsal prosesinə baxdı.

Bildirildi ki, zavodda metaltökmə və emal sahələri fəaliyyət göstərir. Metaltökmə sahəsində ən müasir standartlar səviyyəsində qurulan və saatda 10 ton metaləritmə gücünə malik olan iki soba, saatda 50 qəlib hazırlama gücünə malik avtomatik qəlibləmə sistemi və avtomatik qum hazırlama xətti var. Burada beynəlxalq təcrübəyə malik yerli mühəndislər tərəfindən dizayn olunmuş qaz və su siyirtmələri, dairəvi siyirtmə, yanğın hidrantı, təkkürəli və cütkürəli hava təxliyyə vantuzu, menhol sistemi, siyirtmə qovşağı, müxtəlif növ quyu qapaqları kimi məhsulların istehsalı həyata keçiriləcək.

Qeyd edildi ki, zavodda ildə 6500 ton müxtəlif diametrli və yüksək təzyiqə davamlı hidrotexniki avadanlıq istehsal olunacaq. Bu da onu göstərir ki, Azərbaycanda son dövrlərdə neftdən əldə edilən gəlirlərin qeyri-neft sektorunun inkişafına yönəldilməsi istiqamətində çox mühüm və ardıcıl layihələr həyata keçirilib. Dövlətimizin başçısının müvafiq fərmanları ilə texnoparkların yaradılması, bu texnoparklarda müasir istehsal sahələrinin istifadəyə verilməsi ölkə iqtisadiyyatının gücləndirilməsinə, rəqabətədavamlı və keyfiyyətli məhsulların istehsalına geniş imkanlar açıb. Belə müəssisələr həm də

rəqabətədavamlı məhsul istehsal etməklə Azərbaycanda gedən iqtisadi inkişaf proseslərinə mühüm töhfə verir, bununla da son illərdə ölkəmizdə həyata keçirilən iqtisadi islahatların uğurlarına təminat yaradır.

Diqqətə çatdırıldı ki, texniki avadanlıqlar zavodunun laboratoriyasında spektral analiz cihazı ilə analizlər aparılır. Burada, həmçinin qum və mikroquruluş laboratoriyaları var. Mərkəzləşdirilmiş laboratoriyada siyirtmə və hidrotexniki qurğuların istifadəyə tam yararlılığına əmin olmaq üçün onlar dartılma, uzanma və sinifləndirmə testlərindən keçirilir.

Zavodda üçnövbəli iş rejimində 250 nəfər işlə təmin olunacaq. Burada istehsal edilən məhsullar əsasən daxili bazarda olan tələbatın ödənilməsinə yönəldiləcək. Zavodun məhsulları, həmçinin xaricə, o cümlədən Türkiyəyə, MDB dövlətlərinə və digər ölkələrə ixrac olunacaq.

"Azertexnolayn" MMC 2015-ci ildə Türkmənistanın Türkmənbaşı Dəniz Limanının tikintisi tenderində qalib gəlib. Sumqayıt Kimya Sənaye Parkının rezidenti "Azertexnolayn" MMC tərəfindən dəyəri 45 milyon dollar olan 60 min ton boru məhsulunun Türkmənistana ixracı üzrə müqavilə bağlanıb. Eyni zamanda, şirkət Türkmənistanın su təchizatı qovşağı tenderində əsas iştirakçı qismində təmsil olunub.

AZƏRTAC
2015, 25 oktyabr

Sumqayıtda yüksək sıxlıqlı polietilen zavodunun təməli qoyulub
(25 oktyabr 2015-ci il)

Oktyabrın 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Sumqayıtda "SOCAR Polymer" layihəsi çərçivəsində inşa ediləcək yüksək sıxlıqlı polietilen zavodunun təməlqoyma mərasimində iştirak edib.

SOCAR-ın prezidenti Rövnəq Abdullayev dövlətimizin başçısına görüləcək işlər barədə məlumat verdi.

Burada inşa edilmiş inzibati binada ulu öndər Heydər Əliyevin və Prezident İlham Əliyevin həyata keçirdikləri neft siyasətindən, həmçinin ölkəmizin neft tarixindən bəhs edən fotolar sərgilənir.

Azərbaycan Prezidenti gələcəkdə müəssisədə istehsal ediləcək məhsulların nümunələrinə baxdı.

"SOCAR Polymer" layihəsi son 40 ildə öz növünə və miqyasına görə Azərbaycanın neft-kimya sənayesində həyata keçirilən ilk layihədir. Azərbaycanda kimya sənayesinin inkişafını sürətləndirmək üçün 2013-cü ildə təsis edilən "SOCAR Polymer" şirkətinin polipropilen və yüksək sıxlıqlı polietilen qurğuları Prezident İlham Əliyevin Sərəncamı ilə yaradılan Sumqayıt Kimya Sənaye Parkının ərazisində inşa olunur. Şirkətin iki qurğusu hər il 180 min ton polipropilen və 120 min ton yüksək sıxlıqlı polietilen istehsal edəcək. Bu qurğular 2018-ci ildə istismara veriləcək. Hazırda ölkəmiz aşağı sıxlıqlı polietilen ixrac, eyni zamanda, yüksək sıxlıqlı polietileni isə idxal edir. Layihənin əsas məqsədi idxalın əvəz olunması və ölkənin ixrac potensialının artırılmasıdır. İstehsal ediləcək məhsulların 30 faizi yerli bazara, 70 faizi isə Türkiyə və Avropa bazarlarına çıxarılacaq.

Prezident İlham Əliyev yüksək sıxlıqlı polietilen zavodunun təməlini qoydu.

"SOCAR Polymer" şirkətinin məqsədi peşəkar mütəxəssislərdən ibarət işçi heyəti yaratmaqdır. Bu isə həmin işçilərin növbəti mərhələdə ölkədə böyük layihələrin icrasına cəlb olunmasına geniş imkanlar açır. Layihəyə ixtisaslı mütəxəssislərin cəlb edilməsi ilə yanaşı, tələbələrin də zavodlarda təcrübə qazanmalarına imkan yaradacaq. Bu layihənin icrası Azərbaycan iqtisadiyyatının inkişafına töhfə verəcək, çoxlu sayda yeni iş yerinin açılmasına gətirib çıxaracaq. "SOCAR Polymer" şirkəti layihənin ətraf mühit komponentinə də xüsusi əhəmiyyət verir.

Dövlətimizin başçısı layihə üzrə işlərin yüksək keyfiyyətlə görülməsinə dair tapşırıq və tövsiyələrini verdi.

AZƏRTAC
2015, 25 oktyabr

Prezident İlham Əliyev Sumqayıtda etilen-polietilen zavodunda yeni qurğuları işə salıb
(25 oktyabr 2015-ci il)

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 25-də Sumqayıtda "Azərikimya" İstehsalat Birliyinin etilen-polietilen zavodunda yeni qurğuların işə salınması mərasimində iştirak edib.

Bu zavodun ərsəyə gəlməsində ulu öndər Heydər Əliyevin tarixi xidmətləri olub. 1994-cü ildə "EP-300" və "Polimer-120" qurğularının əsasında yaradılmış etilen-polietilen zavodunun adı yeni bir müəssisə kimi ölkəmizin sənaye xəritəsinə yazılıb.

Son beş ildə zavodun enerji sistemində aparılan əsaslı təmir və yenidənqurma işləri nəticəsində istehsalatın elektrik enerjisi ilə fasiləsiz və etibarlı təchizatına imkan yaranıb, elektrik enerjisi, buxar və qaz itkilərinin qarşısı alınıb. Bu isə istehsal edilən əmtəəlik məhsullarda enerji daşıyıcılarının xüsusi çəkisinin əhəmiyyətli dərəcədə azalması və maya dəyərinin minimuma enməsinə səbəb olub. Bu il zavodun istehsalata və keyfiyyətə nəzarət, həmçinin sənaye-sanitar sahələrini özündə birləşdirən və müasir cihazlarla təchiz edilən yeni laboratoriyası da əsaslı təmir olunub.

2013-cü ildə istismara verilən azot-oksigen kompleksi zavodun və təmir-tikinti idarəsinin azot - oksigenə olan tələbatını tam həcmdə ödəməyə imkan yaradıb. 1987-ci ildən istismar olunan köhnə qurğunun əvəzində yeni azot-oksigen kompleksində innovasiyalı texnologiyaların tətbiqi sayəsində minimum enerji sərfiyyatına malik müasir avadanlıq quraşdırılıb. Yeni kompleksin bütün sistemləri avtomatik idarə edilir.

Prezident İlham Əliyevin 2010-cu ildə imzaladığı "Neft-kimya sənayesində idarəetmə mexanizmlərinin təkmilləşdirilməsi haqqında" Sərəncamına əsasən "Azərikimya" Dövlət Şirkəti SOCAR-ın tabeliyinə verildikdən, "Azərikimya" İstehsalat Birliyi yaradıldıqdan sonra əsas hədəflərdən biri də bu sahədə fəaliyyətin gücləndirilməsi, neft-qaz emalı və neft-kimya sənayesinin səmərəliliyinin yüksəldilməsi, məhsulların rəqabət qabiliyyətinin artırılması oldu.

Dövlətimizin başçısına maye qazları kükürdlü birləşmələrdən təmizləyəcək yeni qurğu barədə də məlumat verildi. İllik layihə gücü 87.600 ton olan qurğunun istismara verilməsi nəticəsində məqsədli məhsul olan propilenin digər məhsullara çevrilməsinin qarşısı alınacaq.

2013-cü ildə istismara verilmiş müasir tipli susoyutma qurğusu zavodda innovasiyalı texnologiyalar əsasında yaradılaraq ümumilikdə kompleksin dayanıqlı və səmərəli işini təmin edib. Yeni qurğunun enerji sərfiyyatı köhnə qurğuya nisbətən daha aşağıdır. Bu da zavodun ümumi enerji sərfiyyatının azaldılması prosesinə müsbət töhfəsini verir.

Diqqətə çatdırıldı ki, zavodda istismara verilmiş yeni qurğulardan biri də mütləqləşdirilmiş izopropil spirti sahəsidir. 2010-cu ildən başlayaraq "Azərikimya" İstehsalat Birliyində zəhərli və zərərli, müasir standartlara cavab verməyən, iqtisadi cəhətdən qeyri-səmərəli və əsasən, ətraf mühitin ekologiyasına mənfi təsir göstərən istehsalatlar sökülərək yenidən qurulub. Çirklənmiş ərazilərdən külli miqdarda zəhərli maddə və kimyəvi tullantı utilləşdirilib. Təmizlənmiş ərazilərdə müasir tipli, ekoloji normalara uyğun yeni istehsal sahələrinin tikintisi aparılır.

Ulu öndər Heydər Əliyev 1998-ci ildə Yaponiyaya səfəri zamanı müstəqil Azərbaycanın tarixində ilk dəfə buxar-generator kompleksinin alınmasına nail oldu ki, bu da ölkənin neft-kimya sənayesinin inkişafı tarixinə dahi rəhbərin ən böyük xidmətlərindən biri kimi yazıldı. Ümummilli Lider 1999-cu ildə bu kompleksin təməlqoyma mərasimində, 2001-ci ildə isə açılışında iştirak edib. Bu kompleks nəinki kimya sənayesini tənəzzüldən xilas etdi, hətta "Azərikimya"nın bu günü üçün etibarlı enerji təminatının yaradılmasında mühüm vasitə oldu.

Diqqəti cəlb edən layihələrdən biri də gündəlik gücü 2600 kubmetr olan yeni istehsalat tullantı sularının təmizlənməsi qurğusunun tikintisidir. 2016-cı ildə istifadəyə veriləcək bu qurğunun inşa edilməsinin əsas məqsədi Xəzər dənizinə atılan suların maksimal təmizlik həddinin təmin edilməsi və təmizlənmiş suyun irriqasiya məqsədlərində istifadə olunmasıdır.

Sonra dövlətimizin başçısı zavodun kollektivi ilə görüşdü.

Prezident İlham ƏLİYEV çıxış edərək dedi:

- Mən sizi ürəkdən salamlayıram. Bu gün Sumqayıt şəhərində əlamətdar bir gündür, yeni qurğular istifadəyə verilir. Eyni zamanda, kimyaçıları yubiley münasibətilə təbrik etmək istəyirəm. Biz bu il kimya sənayesinin 70 illik yubileyini qeyd edirik.

Kimya sənayesinin çox böyük ənənələri, böyük tarixi var. Bu gün isə kimya sənayesi yeni dövrə qədəm qoyur. Bu, müasir, yeni texnologiyalar dövrüdür. Çox şadam ki, son vaxtlar bu ərazidə görülən işlər ən yüksək standartlara cavab verir.

Sumqayıt kimyaçılar şəhəri kimi salınmışdır. Bu gün Sumqayıt Azərbaycanın böyük sənaye mərkəzinə çevrilibdir. Bu gün Sumqayıtda yeni müəssisələr, güclü sənaye potensialı yaradılır, iş yerləri açılır. Bu gün bir yeni zavodun açılışında, bir böyük zavodun təməlqoyma mərasimində iştirak etmişəm. Hər iki zavod Azərbaycanın sənaye potensialının inkişafı üçün çox böyük əhəmiyyətə malikdir.

"SOCAR Polymer" zavoduna 750 milyon dollar sərmayə qoyulacaqdır və bu sərmayə öz növbəsində, yeni iş yerlərinin açılmasına, yeni sənaye sahələrinin yaradılmasına gətirib çıxaracaqdır. Bu, çox böyük investisiya layihəsidir və əminəm ki, vaxtında icra ediləcək. Beləliklə, Azərbaycanda çox güclü sənaye potensialının inkişaf etdirilməsində növbəti önəmli addım atılacaqdır.

Eyni zamanda, bu gün hidrotexniki avadanlıqlar zavodunun açılışını qeyd etdik. Bütün bu işlər Sumqayıt Kimya Sənaye Parkında görülür. Bir neçə il bundan əvvəl mənim Sərəncamımla Sumqayıtda Kimya Sənaye Parkının yaradılması haqqında işlər görülməyə başlanmışdır. Bu gün artıq biz bu işlərin birinci nəticələrini görürük. Əminəm ki, Sumqayıt Kimya Sənaye Parkı bir neçə ildən sonra tam gücü ilə işləyəcək.

Parkın ərazisi tamamilə təmizlənib. Parkda artıq ilk müəssisələr yaradılır. Növbəti illərdə həm daxili, həm xarici investisiyalar hesabına milyardlarla dollar həcmində sərmayələr qoyulacaq. Artıq 1 milyard dollardan çox məbləğin qoyuluşu nəzərdə tutulur və bu da ölkəmizin ümumi inkişafını göstərir. Çünki həm xarici, həm yerli investorlar ölkəmizin gələcəyinə inanırlar. İnanırlar ki, Azərbaycan bundan sonra da inkişaf yolu ilə gedəcək.

Kimya sənayesi, müasir texnologiyalar, qeyri-neft sektorunun inkişafı ölkə iqtisadiyyatını irəliyə aparacaq əsas amillərdir. Ölkə iqtisadiyyatı isə ilk növbədə, sənaye istehsalından asılıdır və şadam ki, bu gün Azərbaycanda yaradılan müasir müəssisələr ən yüksək standartlara cavab verir. Bizim siyasətimiz bundan ibarətdir. Sənayeləşmə siyasətinin aparılması üçün bizdə güclü iradə var. Eyni zamanda, burada yaradılan və yaradılacaq şəraitdən özəl qurumlar da istifadə edəcəklər. Çünki biz artıq xammal yox, hazır məhsul ixrac edəcəyik. Kiçik və orta sahibkarlar üçün də çox böyük imkanlar yaradılacaq. O məhsullar ki bu günə qədər idxal edilirdi, artıq Azərbaycanda istehsal olunacaq və bütün bu işləri görmək üçün çox böyük tədbirlər planı icra edilir. İlk növbədə, Azərbaycanda investisiya iqlimi müsbətdir, digər tərəfdən, dövlət vəsaiti qoyulur, özəl sektor da bu işlərdə fəal iştirak edir.

Eyni zamanda, bütün xoşagəlməz hallara qarşı daha da ciddi mübarizə aparılmalıdır. Sahibkarlığın inkişafı Azərbaycanın ümumi inkişafının əsas şərtidir. Ona görə sahibkarlara maksimum sərbəstlik verilməlidir və verilir. Son vaxtlar qəbul edilmiş qərarlar, qanunlar, verilmiş sərəncamlar bu məqsədi güdür ki, sahibkarlara heç kim mane olmasın, süni əngəllər aradan götürülsün, sahibkarlar maksimum dərəcədə sərbəst, rahat şəraitdə işləsinlər, ölkəmizə vəsait qoysunlar, iş yerləri yaratsınlar və Azərbaycanda biznes mühiti daha da yaxşılaşsın.

Bu gün biznes mühitinin yaxşılaşması üçün bütün şərait yaradılır. Siyasi iradə var, qanunvericilikdə düzəlişlər edilibdir, yeni qaydalar tətbiq olunur və əlbəttə ki, ictimai nəzarət daha da güclü olmalıdır. Çünki bəzi hallarda sahibkarlara qarşı ədalətsizliklər göstərilir, onların işinə müdaxilələr olur, onlara qarşı əsassız tələblər irəli sürülür, qanunsuz ödəmələr tələb olunur. Bütün bunlara son qoyulur və son qoyulacaq. Bütün hallarda həm inzibati tədbirlər, həm cəza tədbirləri davam etdiriləcək. Bu gün biznesə mane olmaq istəyən şəxslər Azərbaycana xəyanət edirlər. Çünki ölkəmizin uğurlu inkişafı biznesin inkişafından asılıdır. Dövlət siyasəti, Prezidentin siyasi iradəsi var. Belə olan halda dövlət qurumları burada maneçilik törətməməlidirlər, əskinə, kömək etməlidirlər, şərait, imkan yaratmalıdırlar ki, biznes inkişaf etsin.

Burada işlərin böyük hissəsi dövlətin və Dövlət Neft Şirkətinin vəsaitləri hesabına görülür ki, sənaye potensialımız inkişaf etsin. Özəl qurumlar da gəlib burada iş görəcəklər, bu imkanlardan istifadə edib öz fəaliyyətlərini genişləndirəcəklər, daha çox vəsait əldə edəcəklər və həmin vəsaiti Azərbaycana daha çox investisiya şəklində yatıracaqlar. Bax, bizim siyasətimiz bundan ibarətdir. Bir daha demək istəyirəm ki, Azərbaycanın bu istiqamətdəki siyasəti birmənalıdır. Mən dəfələrlə xəbərdarlıq etmişəm və bir daha deyirəm, kim ki, söz başa düşmür, öz cəzasını alacaq. Bu gün həm ictimaiyyət, həm sahibkarlar görürlər ki, biz artıq konkret addımlar atmağa başlamışıq. Ona görə bu gün dünyada yaşanan böhran zamanı belə nəhəng qurğuların istifadəyə verilməsi, investisiyaların cəlb edilməsi və iqtisadi sahədə inkişafa nail olmağımız Azərbaycanın gücünü göstərir. Heç bir qüvvə bizim yolumuzda dayana bilməz. Çünki bizim yolumuz inkişaf, tərəqqi, sosial rifah, sosial ədalət yoludur.

Korrupsiyaya, rüşvətxorluğa qarşı mübarizə bundan sonra da aparılacaq. İş adamlarının fəaliyyətinə müdaxilə edən dövlət qurumları bundan sonra da cəzalandırılacaq, artıq ictimaiyyət bunu görür və görəcək. Bizim çox güclü siyasi iradəmiz var. Bu iradənin təməlində Azərbaycan xalqının dəstəyi dayanır. Xalq da bizim bütün təşəbbüslərimizi alqışlayır, bəyənir, dəstəkləyir. Əgər bu dəstək olmasa biz heç bir iş görə bilmərik.

Əminəm ki, biz 2015-ci ili də uğurla başa vuracağıq. Bu gün burada təməl daşını qoyduğum "SOCAR Polymer" müəssisəsi nəinki Azərbaycanda, regionda ən böyük investisiya layihələrindən biridir. Əminəm ki, bu gözəl nümunə digər qurumlar tərəfindən də bir nümunə kimi qəbul olunacaq. Mən bir daha bütün iş adamlarını Azərbaycana sərmayə qoymağa dəvət edirəm. Əgər onların işinə müdaxilələr varsa, onlara bir daha müraciət edib deyirəm ki, dərhal məlumat verin, dərhal səsinizi qaldırın. Cəmiyyətdə ictimai nəzarət daha da güclü olmalıdır və hər bir siqnala reaksiya verilir, araşdırılır və əgər təsdiqini tapırsa, onda ölçülər götürülür.

Mən bir daha sizi ürəkdən təbrik etmək istəyirəm. Kimya sənayesi yeni dövrə qədəm qoyubdur. Sumqayıt nəinki Azərbaycanın, Cənubi Qafqazın ikinci böyük sənaye şəhəridir. Bu gün Sumqayıtın potensialı artır, işsizlik aradan qaldırılır, şəhərin abadlaşdırılması üçün, sosial sahədə əlavə tədbirlər görülür. Mən dəfələrlə demişəm, insanları narahat edən bütün məsələlər aradan qaldırılmalıdır. Sumqayıtda dəfələrlə olmuşam və istəyirəm ki, burada heç bir problem olmasın. Nə sosial sahədə, nə infrastruktur, nə idarəetmə sahələrində heç bir problem olmasın, insanlar rahat, rifah, əmin-amanlıq içində yaşasınlar.

Sumqayıt bundan sonra da ölkəmizin sənaye və iqtisadi inkişafı işində öz sözünü deyəcək. Bütün sumqayıtlıları mən bir daha salamlayıram, ən xoş arzularımı çatdırıram. Sizi bir daha təbrik edirəm.

x x x

Azərbaycan Prezidenti butilen-butadien fraksiyasının hidrogenləşməsi və maye qazların kükürdlü birləşmələrdən təmizlənməsi qurğularını işə saldı.

Daha sonra xatirə şəkli çəkdirildi.

Qeyd edək ki, hər iki qurğunun layihəsi "Azərikimya" İstehsalat Birliyinin xüsusi konstruktor bürosu tərəfindən hazırlanıb. İnşası "Azərikimya"nın təmir-tikinti idarəsi tərəfindən icra edilən qurğular avtomatik idarəetmə sistemləri ilə təchiz olunub. Butilen-butadien fraksiyasının hidrogenləşməsi qurğusunun layihə gücü ilkin mərhələdə ildə 120 min tondur. Yaxın perspektivdə isə bu rəqəmin ildə 250 min tona çatdırılması nəzərdə tutulur.

"Azərikimya" İstehsalat Birliyinin 2015-2019-cu illər üçün hədəfi mövcud istehsalatı modernləşdirmək, yeni tikiləcək polipropilen və yüksək sıxlıqlı polietilen istehsalatlarını tələb olunan miqdarda və keyfiyyətdə xammalla təmin etmək və "EP-300" istehsalatının səmərəliliyini artırmaqdır.

Beləliklə, Azərbaycanda yeni zavod, fabrik, istehsalat sahələrinin yaradılması, mövcud müəssisələrin daha müasir qurğularla təchiz edilməsi bütövlükdə ölkə iqtisadiyyatının inkişafına töhfəsini verir. Bütün bu addımlar bir daha göstərir ki, dünyada hökm sürən iqtisadi böhrana baxmayaraq, Azərbaycanda başlanılan bütün layihələr uğurla icra edilir, yeni-yeni müəssisələr, istehsalat sahələri açılır.

AZƏRTAC
25 oktyabr 2015-ci il

Azərbaycan Prezidenti İlham Əliyev Sumqayıt şəhərinə səfərə gəlib
(27 sentyabr 2016-cı il)

Sentyabrın 27-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Sumqayıt şəhərinə səfərə gəlib.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı əvvəlcə ümummilli lider Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək önünə gül dəstəsi qoydu.

Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı Zakir Fərəcov Prezident İlham Əliyevə abidənin yerləşdiyi Heydər Əliyev parkında və ümumiyyətlə, şəhərdə görülən işlər barədə ətraflı məlumat verdi. Bildirildi ki, burada şəhər sakinlərinin və qonaqların istirahəti üçün hər cür şərait yaradılıb. Heydər Əliyev Mərkəzinin, Şahmat Məktəbinin, Uşaq İncəsənət Məktəbinin, balacalar üçün əyləncə və istirahət guşələrinin burada inşa edilməsi ərazini daha da cəlbedici məkana çevirib.

AZƏRTAC
2016, 27 sentyabr

Sumqayıtdakı Sülh küçəsi əsaslı təmir və yenidənqurmadan sonra istifadəyə verilib
(27 sentyabr 2016-cı il)

Sentyabrın 27-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Sumqayıt şəhərinə əsas giriş yolunda - Sülh küçəsində əsaslı təmir və yenidənqurmadan sonra yaradılan şəraitlə tanış olub.

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev görülən işləri əks etdirən stendə baxdı.

Məlumat verildi ki, bu ilin fevralında başlanılan yenidənqurma işləri sentyabrın əvvəlində yekunlaşıb. Bakı-Quba avtomobil yolundan başlayaraq şəhərdəki "Göyərçin" abidəsinə qədər bu küçənin uzunluğu 5,2 kilometrdir.

Diqqətə çatdırıldı ki, yenidənqurmadan əvvəl burada səki yox idi. Tikinti işləri zamanı yeni səkilər salınıb, yolun hər iki tərəfində yağış sularını axıdan kanalizasiya xətti çəkilib. Yol boyunca yaşıllıqlar salınıb, ağac və gül kolları əkilib, avtomatik suvarma sistemi qurulub. Yeni işıqlandırma sistemi də müasirliyi ilə diqqəti çəkir. Küçə boyunca dekorativ istinad divarları tikilib.

Bildirildi ki, küçəyə 15 santimetr qalınlığında polimer asfalt örtüyü döşənib. Müasir texnologiya əsasında hazırlanan bu asfaltın özəlliyi yükgötürmə qabiliyyətinin yüksəkliyində, elastikliyinin etibarlılığında və uzun müddət davamlı olmasındadır. Eni 14 metr olan küçənin hərəkət hissəsi yenidənqurmadan sonra 22 metrə çatdırılıb. Sülh küçəsinin əsaslı təmiri və yenidən qurulması Bakıdan Sumqayıta və əks istiqamətə nəqliyyatın rahat və maneəsiz hərəkətinə hərtərəfli imkan yaradır.

AZƏRTAC
2016, 27 sentyabr

Sumqayıtda yeni sərnişin avtobusları ilə tanışlıq
(27 sentyabr 2016-cı il)

Sentyabrın 27-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə Sumqayıt şəhərində istifadə ediləcək yeni sərnişin avtobusları təqdim edilib.

AZƏRTAC xəbər verir ki, Türkiyədə istehsal edilən "AKİA" markalı bu avtobuslar 27 oturacaqlıdır. Ümumiyyətlə avtobuslarda 72 sərnişin daşına bilər. Avtobuslarda əlillər üçün yer və onların rahat minib-düşmələrindən ötrü xüsusi qurğu quraşdırılıb. Yüksək texniki göstəricilərə malik avtobuslarda mərkəzləşdirilmiş havalandırma sistemi, həmçinin daxili və xarici müşahidə kameraları var.

Yeni sərnişin nəqliyyat vasitələrinin istifadəyə verilməsi ilə Sumqayıtda sərnişindaşımanın keyfiyyətini daha yüksək səviyyəyə çatdırmaq mümkün olacaq.

AZƏRTAC
2016, 27 sentyabr

Sumqayıt Dövlət Dram Teatrının binası yenidən qurulub
(27 sentyabr 2016-cı il)

Sentyabrın 27-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev əsaslı təmir olunaraq yenidən qurulan Sumqayıt Dövlət Dram Teatrının binasında yaradılan şəraitlə tanış olub.

Dövlətimizin başçısına məlumat verildi ki, bina 1956-cı ildə istifadəyə verilib. Burada yenidənqurma işlərinə ötən ilin dekabrında başlanılıb. Əsaslı təmir və yenidənqurma tədbirləri zamanı binanın bütün mühəndis-texniki qurğuları tamamilə yenidən qurulub. Binanın 500 yerlik tamaşa və 100 yerlik akt salonu ən müasir avadanlıqla təchiz olunub. Burada tamaşaları bədii və texniki cəhətdən yüksək səviyyədə təqdim etmək üçün 360 dərəcə hərəkət edən səhnə, müasir akustika və işıqlandırma sistemləri və digər avadanlıq quraşdırılıb.

Teatrın interyerinin daha cəlbedici görünməsi üçün milli memarlıq ənənələrindən geniş istifadə edilib. Binanın bütün xidməti, dekorasiya və qrim otaqları müasir üslubda tərtib olunub, mebellər tətbiqi sənətin qədim növü olan oyma üsulu ilə işlənib. Teatrın köhnə parket döşəməsi sökülərək monolit dəmir-beton plitələrlə əvəzlənib, binadakı sütunlar isə mərmərlə üzlənib.

Qeyd olundu ki, binanın müasir üslubda yenidən qurulması sakinlərin teatra marağının artmasına, şəhərin mədəni həyatının daha da canlanmasına təkan verəcək. Teatrın qarşısındakı meydanda 15 min kvadratmetr sahəyə mərmər döşənib, iki yeni fəvvarə və monitor quraşdırılıb.

Yenidənqurma işləri Sumqayıt Dövlət Dram Teatrının 150 nəfərlik kollektivinə işlərini günün tələbləri səviyyəsində qurmaq üçün maksimum şərait yaradır. Ümumilikdə, teatrın binasının əsaslı təmiri və yenidən qurulması Azərbaycan dövlətinin mədəniyyət sahəsinin inkişafına göstərdiyi diqqət və qayğını təcəssüm etdirir. Bu layihənin icrası son dövrdə Sumqayıtda gedən sürətli sosial-iqtisadi inkişafa təkan verməklə yanaşı, şəhərin ümumi görünüşünə də əlavə çalarlar qatır.

AZƏRTAC
2016, 27 sentyabr

Prezident İlham Əliyev Sumqayıtda Dənizkənarı bulvarın və şəhər çimərliyinin açılışında iştirak edib

(27 sentyabr 2016-cı il)

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 27-də Sumqayıtda Dənizkənarı bulvarın və şəhər çimərliyinin açılışında iştirak edib.

AZƏRTAC xəbər verir ki, bu gün ölkəmizdə həyata keçirilən sosial-iqtisadi layihələrin tərkib hissələrindən biri də yeni istirahət guşələrinin, park və xiyabanların yaradılmasıdır. Son dövrlərdə Prezident İlham Əliyevin tapşırığına əsasən, Bakı ilə yanaşı, bütün şəhər və rayonlarda yeni parkların, xiyabanların, istirahət guşələrinin yaradılması, mövcudlarının isə əsaslı şəkildə yenidən qurulması istiqamətində olduqca mühüm layihələr icra edilir. Bu məsələyə Sumqayıtda da xüsusi diqqətlə yanaşılır. Burada həmin istiqamətdə reallaşdırılan ən mühüm layihələrdən biri də Sumqayıtda Dənizkənarı bulvarın və şəhər çimərliyinin yaradılmasıdır. Bu kompleksdəki şərait sübut edir ki, Azərbaycan dövləti vətəndaşların istirahətlərini mənalı təşkil etmək, asudə vaxtlarını səmərəli keçirmək üçün bütün zəruri addımları atır. Bu, həm də dünyada hökm sürən iqtisadi böhran dövründə ölkəmizdə sosial layihələrin ardıcıl və məqsədyönlü şəkildə həyata keçirildiyini nümayiş etdirir. Xəzərin sahilindəki bu kompleks Sumqayıt şəhərinin simasının daha da gözəlləşdirilməsi baxımından da olduqca əhəmiyyətlidir. Bu cür layihələrin icrası bir daha sübut edir ki, Sumqayıtın abadlaşdırılması istiqamətində görülən işlər davamlıdır, onlar yüksək keyfiyyətlə və vaxtında yerinə yetirilir. Bir sözlə, müasir üslubda, orijinal dizaynda yaradılan həmin istirahət məkanı Sumqayıtın görməli yerlərinə daha bir ünvanın da əlavə edilməsi deməkdir.

Dövlətimizin başçısı Dənizkənarı bulvarın və şəhər çimərliyinin rəmzi açılışını bildirən lenti kəsdi.

Məlumat verildi ki, Xəzər dənizinin sahili boyunca 4 kilometr uzunluğu olan bulvar kompleksinin ümumi sahəsi 106 hektardır. Bu istirahət məkanının tikintisinə ötən ilin oktyabrında başlanılıb.

Dövlətimizin başçısı elektromobillə bulvarın ərazisini gəzdi.

Sumqayıt bulvarı və dənizkənarı parkı həm ərazisinə, həm də landşaftına görə ölkəmizdə mövcud olan əksər parklardan seçilir. Bu parkın çimərliyə birbaşa çıxışının olması onu digər bulvarlardan fərqləndirir. Sahəsi 12 hektar olan çimərlik zonasında şəhər sakinlərinin və qonaqların istirahəti üçün zəruri şərait var.

Bulvarda Bayraq Meydanı inşa olunub. Azərbaycan Respublikasının dövlət bayrağı meydanda 42 metr hündürlüyündəki bayraq dirəyi üzərində dalğalanır.

Bildirildi ki, burada 100 min ağac, 500 mindən çox müxtəlif gül kolu əkilib, 60 min kvadratmetr sahədə çəmənlik salınıb, işıqlandırma sistemi qurulub. Park-bulvar kompleksində 10 min oturacaq qoyulub. Beş yerdə böyük fəvvarə kompleksi tikilib, su təchizatı və kanalizasiya şəbəkəsi yaradılıb. Kompleks boyunca 12 min poqonmetr uzunluğunda piyada yolu salınıb, mühafizə kameraları, monitorlar quraşdırılıb.

Qeyd olundu ki, bulvarda kiçik ölçülü gəzinti avtobusları və avtomobil yolu ilə yanaşı, velosiped idmanı ilə məşğul olmaq istəyənlər üçün də 3 metr enində xüsusi hərəkət zolağı salınıb. Bununla yanaşı, 3 kafe-çay evi, istirahət obyektləri, attraksionlar, kinoteatr, tennis kortu, futbol meydançaları, yay musiqi səhnəsi, ticarət və uşaqlar üçün əyləncə mərkəzləri yaradılıb. Ərazidə 2 yay uşaq-əyləncə mərkəzi tikilib, balacalar üçün 10 attraksion quraşdırılıb.

Diqqətə çatdırıldı ki, sahil hissədə estakada qurulub və şəhərin akvatoriyasında gəzinti gəmilərinin hərəkətinin təmin olunması üçün işlər aparılır. Burada 500-dən çox yeni iş yeri açılacaq.

Bulvarın ərazisində 4,2 kilometr uzunluğunda yeni yol çəkilib.

Prezident İlham Əliyev yolun rəmzi açılışını bildirən lenti kəsdi.

Bulvar boyunca salınan yeni asfalt yolun eni 16 metrdir. Bundan başqa, 4,2 kilometr uzunluğunda istinad divarı tikilib, mərmərlə üzlənib. Müasir səviyyədə salınan yolda işıqlandırma sistemi də quraşdırılıb.

Sonra dövlətimizin başçısına bulvar ərazisində inşa edilən "Kristal Abşeron" yaşayış kompleksi barədə də məlumat verildi.

Bildirildi ki, bu kompleksdə ehtiyacı olan sakinlər mənzilləri 20 illik ipoteka yolu ilə də ala bilərlər. Beləliklə, kompleks sürətlə dəyişən Sumqayıtda əhalinin mənzil probleminin həllində mühüm rol oynayacaq.

AZƏRTAC
2016, 27 sentyabr

Sahil küçəsində yenidənqurmadan sonra görülən işlərlə tanışlıq
(27 sentyabr 2016-cı il)

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 27-də Sumqayıtın Sahil küçəsində yenidənqurmadan sonra görülən işlərlə tanış olub.

AZƏRTAC xəbər verir ki, Sahil küçəsinin yenidən qurulması son illərdə Sumqayıtda yol-nəqliyyat infrastrukturunun müasirləşdirilməsi istiqamətində görülən işlərin ardıcıl xarakter aldığını göstərir. Yenidən qurulan Sahil küçəsi Sumqayıtın yol-nəqliyyat infrastrukturunun inkişafı baxımından mühüm əhəmiyyət daşıyır.

Prezident İlham Əliyevə küçənin yenidən qurulması çərçivəsində görülən işlər barədə məlumat verildi.

Bildirildi ki, burada yenidənqurma işləri müasir səviyyədə və qısa vaxtda aparılıb. Küçənin uzunluğu 7,5 kilometrdir. Mövcud yol 1980-ci illərin əvvəllərində salınıb. Burada təmir-tikinti işlərinə ötən ilin noyabrında başlanılıb. Yolun eni orta hesabla 8 metrdən 13 metrə qədər genişləndirilib. Yolun 4 min metrinə "Azəryoltikinti" ASC, 3500 metrinə isə daxili imkanlar hesabına asfalt örtüyü döşənib.

Yolboyu hər iki tərəfdə əhalinin sərbəst hərəkəti üçün səkilər salınıb, bir çox yerlərdə istirahət guşələri yaradılıb, dekorativ ağac və gül kolları əkilib. Təhlükəsizlik məqsədilə istinad divarları, hasarlar yenidən tikilərək aqlay daşlarla üzlənib. Küçədə yerləşən obyektlər təmir olunub, yolboyu işıqlandırma sistemi yenidən qurulub. Bu yolda Sumqayıt şəhərində ilk dəfə olaraq, velosiped sürmək üçün xüsusi hərəkət zolağı salınıb. Sahil küçəsində aparılan yenidənqurma işləri həm avtomobillərin rahat hərəkətini, həm də piyadaların təhlükəsiz gediş-gəlişini təmin edəcək.

AZƏRTAC
2016, 27 sentyabr

Yenidən qurulan Heydər Əliyev parkı sumqayıtlıların sevimli istirahət məkanıdır
(27 sentyabr 2016-cı il)

Sentyabrın 27-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Sumqayıtda əsaslı təmir edilərək yenidən qurulan Heydər Əliyev parkında yaradılan şəraitlə tanış olub.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı elektromobillə parkın ərazisini gəzdi.

Məlumat verildi ki, son dövrlərdə Sumqayıtda əsaslı təmir olunaraq yenidən qurulan istirahət məkanlarından biri də Heydər Əliyev parkıdır. Parkın ümumi sahəsi 8 hektardır. Bu park 1995-1996-cı illərdə salınıb. Ötən ildən başlayan əsaslı təmir və yenidənqurma işlərindən sonra parkın ərazisi genişləndirilərək 15 min kvadratmetrə çatdırılıb. Görülən işlər çərçivəsində parkın girişi və saat qülləsi yenidən qurulub. Burada Bayraq Meydanı da yaradılıb. Buradakı bayraq dirəyinin hündürlüyü 67 metrdir.

Qeyd edildi ki, parkın ərazisində aparılan geniş abadlıq işləri çərçivəsində 5 mindən çox ağac əkilib, 25 min kvadratmetr ərazi yaşıllaşdırılıb. Şəhər sakinlərinin və qonaqların istirahəti üçün parkda hər cür şərait yaradılıb. Heydər Əliyev Mərkəzi, Şahmat Məktəbi, Uşaq İncəsənət Məktəbi bu parkın ərazisində yerləşir.

AZƏRTAC
2016, 27 sentyabr

Sumqayıtda Uşaq İncəsənət Məktəbinin açılışı olub
(27 sentyabr 2016-cı il)

Sentyabrın 27-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Səid Rüstəmov adına Sumqayıt şəhər 3 saylı Uşaq İncəsənət Məktəbinin açılışında iştirak edib.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı məktəb binasının rəmzi açılışını bildirən lenti kəsdi.

Prezident İlham Əliyev məktəblə tanış oldu.

Bildirildi ki, məktəb əvvəllər doqquzmərtəbəli yaşayış binasının birinci mərtəbəsində və əlavə tikilmiş qeyri-yaşayış sahəsində yerləşirdi. Məktəbdənkənar tədris üçün uyğunlaşdırılmış binada fəaliyyət göstərən məktəbin zamanın tələbinə uyğun daha müasir və geniş binada yerləşdirilməsi yüksək səviyyədə həyata keçirilib. Yeni binanın inşasına keçən ilin noyabrında başlanılıb. Tikinti işləri bu ilin sentyabrında başa çatdırılıb.

Binanın foyesində ulu öndər Heydər Əliyevin və Prezident İlham Əliyevin Sumqayıta səfərlərini əks etdirən fotoguşələr yaradılıb. Ümumi sahəsi 2950 kvadratmetr olan bina üçmərtəbəlidir. Buradakı 27 sinif otağının hamısı müasir avadanlıqla, təlim-tədris ləvazimatları ilə təchiz olunub. Yüz iyirmi yerlik akt zalında müxtəlif tədbirlərin keçirilməsi üçün hər cür şərait yaradılıb. Kitabxana, rəsm otağı və emalatxanalarda dərslərin keçirilməsi üçün bütün imkanlar nəzərə alınıb. Hazırda Uşaq İncəsənət Məktəbində 730 şagird təhsil alır. Onların təlim-tərbiyəsi ilə 217 müəllim məşğuldur.

Prezident İlham Əliyev məktəbin xor kollektivinin ifasını dinlədi.

Sonra xatirə şəkli çəkdirildi.

AZƏRTAC
2016, 27 sentyabr

Sumqayıtda Şahmat Məktəbi istifadəyə verilib
(27 sentyabr 2016-cı il)

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 27-də Sumqayıtda Şahmat Məktəbinin açılışında iştirak edib.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı əvvəlcə Şahmat Məktəbinin binasının rəmzi açılışını bildirən lenti kəsdi.

Azərbaycan Prezidentinə məlumat verildi ki, tikintisinə ötən ilin dekabrında başlanılan ikimərtəbəli binanın sahəsi min kvadratmetrdir.

Prezident İlham Əliyev Şahmat Məktəbində yaradılan şəraitlə tanış oldu.

Uşaqların və yeniyetmələrin idmanın bu qədim növünün sirlərinə dərindən yiyələnmələrini təmin etmək üçün məktəbdə hər cür şərait yaradılıb. Burada dərslərin yüksək səviyyədə keçirilməsinə imkan verən əsas yarış zalı, altı tədris sinfi, müəllimlər otağı və xidməti otaqlar var.

Dövlətimizin başçısı burada bu məktəbin yetirmələri olan Azərbaycanın qadınlardan ibarət milli komandasının üzvləri Zeynəb və Türkan Məmmədyarova bacıları ilə görüşdü.

Azərbaycan Prezidenti balaca şahmatçılara da uğurlar arzuladı.

Qeyd edildi ki, burada şahmatla bağlı biliklərin əldə olunması və müasir yeniliklərin qavranılması üçün ayrıca kompyuter guşəsi də mövcuddur. Bu da dərslərin innovativ vasitələrin köməyi ilə keçirilməsinə və ən son yeniliklərin qısa müddətdə öyrənilməsinə şərait yaradır. Şahmat Məktəbi bir sıra respublika səviyyəli yarışlara da ev sahibliyi etməyə hazırdır. Məktəbdə şahmat üzrə 43 dərnək fəaliyyət göstərəcək. Həmin dərnəklərdə 520 nəfərin məşğul olması üçün hərtərəfli imkan yaradılıb.

Sonda xatirə şəkli çəkdirildi.

AZƏRTAC
2016, 27 sentyabr

Sumqayıtda Heydər Əliyev Mərkəzinin yeni binasında şəhər ictimaiyyətinin nümayəndələri ilə görüş

(*27 sentyabr 2016-cı il)*

Sentyabrın 27-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Sumqayıt şəhərinə səfəri çərçivəsində Heydər Əliyev Mərkəzinin yeni binasının açılışında iştirak edib.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı binanın rəmzi açılışını bildirən lenti kəsdi, burada yaradılan şəraitlə tanış oldu.

Binanın foyesində ümummilli lider Heydər Əliyevin büstü ucaldılıb. Foyedə, həmçinin ulu öndər Heydər Əliyevin və Prezident İlham Əliyevin ölkəmizdə gənclərə göstərdikləri yüksək diqqət və qayğını əks etdirən fotolardan ibarət guşələr yaradılıb.

Məlumat verildi ki, Heydər Əliyev parkında inşa olunan Mərkəzin binasının tikintisinə ötən ilin noyabrında başlanılıb. Üç mərtəbədən və mansarddan ibarət olan binanın ümumi sahəsi 5 min kvadratmetrdir. Mərkəzdə Ulu Öndərin həyatının və çoxşaxəli dövlətçilik fəaliyyətinin müxtəlif dövrlərini əks etdirən materiallar nümayiş etdirilir. Ümummilli lider Heydər Əliyevin ölkəmizdə, o cümlədən Sumqayıtda müxtəlif obyektlərin açılışında iştirakının, ictimaiyyətin nümayəndələri ilə görüşlərinin əks olunduğu fotolar da böyük maraq doğurur. Heydər Əliyev Mərkəzində müxtəlif tədbirlərin keçirilməsi üçün 420 yerlik böyük konfrans zalı yaradılıb. Mərkəzdə kompyuter və digər ən müasir avadanlıqla təchiz olunan xidməti otaqlar var. Müxtəlif təyinatlı bölmələrdən ibarət olan mərkəzdə sərgi zalı, xalçaçılıq dərnəyi, 40 nəfərlik iclas zalı, smart sinif, rəsm və foto studiyaları, elektron kitabxana, kompyuter, rəqs, intellektual oyun dərnəkləri fəaliyyət göstərəcək. Son illər respublikamızda fəaliyyət göstərən Heydər Əliyev mərkəzlərində yeni ailə quran gənclərin nikah mərasimlərinin təşkili kimi xoşməramlı tədbirlər də keçirilir. Sumqayıtdakı Heydər Əliyev Mərkəzində də bu məqsədlə müvafiq şərait yaradılıb.

Bina ilə tanışlıqdan sonra Prezident İlham Əliyev Mərkəzin iclas zalında şəhər ictimaiyyətinin nümayəndələri ilə görüşdü.

Dövlətimizin başçısı görüşdə çıxış etdi.

Azərbaycan Prezidenti İlham Əliyevin
çıxışı

-Əziz sumqayıtlılar, əziz dostlar, mən sizin hamınızı ürəkdən salamlayıram. Mən yenidən Sumqayıtda olmağımdan çox məmnunam. Əvvəlki illərdə dəfələrlə Sumqayıtda olmuşam. Sumqayıtın inkişafı daim diqqət mərkəzindədir. Biz bu gün Sumqayıtda bir çox gözəl obyektlərin açılışını qeyd edirik. Onların arasında əlbəttə ki, öz əzəməti, möhtəşəmliyi ilə seçilən Heydər Əliyev Mərkəzidir. Bu Mərkəz həm memarlıq, həm də funksionallığı baxımından çox gözəl abidədir, Ulu Öndərin adına yaraşan bir Mərkəzdir.

Heydər Əliyev müstəqil Azərbaycan dövlətinin banisidir. Məhz onun rəhbərliyi ilə Azərbaycan inamla müstəqillik həyatına qədəm qoyub. Əgər 1991-ci ildə Heydər Əliyev hakimiyyətdə olsaydı, heç vaxt Azərbaycan problemlərlə üzləşməzdi, heç vaxt bizdə vətəndaş müharibəsi olmazdı, heç vaxt torpaqlarımız işğal altına düşməzdi. Bizim xoşbəxtliyimiz isə ondan ibarətdir ki, 1993-cü ildə xalqın tələbi ilə Heydər Əliyev hakimiyyətə gəldi və ondan sonrakı müstəqillik dövrü sabitlik, tərəqqi və inkişaf dövrüdür. O ağır illərdə Azərbaycanda aparılan islahatlar, təhlükəsizliyin təmin edilməsi, neft kontraktının imzalanması, dövlətçiliyin möhkəmləndirilməsi, yeni Konstitusiyanın qəbulu ölkəmizin gələcək inkişafını müəyyən etmişdir. O vaxt ölkəmizin gələcək inkişafı ilə bağlı strateji seçim edilmişdir ki, Azərbaycan dövləti müstəqil həyatını qoruyacaq, ölkədə Azərbaycançılıq məfkurəsi təmin ediləcək, Azərbaycan öz beynəlxalq əlaqələrini qarşılıqlı hörmət əsasında quracaq, dərin iqtisadi-sosial islahatlar həyata keçiriləcək və Azərbaycan xarici investorlar üçün açıq qapılar siyasəti aparacaq. Bu strateji seçim özünü doğrultdu. Biz bu gün bunu bir daha əyani şəkildə görürük. Bu gün Azərbaycan dünya miqyasında çox böyük hörmətə malik olan bir ölkədir. Bizimlə hesablaşırlar, bizim fikrimiz, rəyimiz nəinki regional müstəvidə, dünya miqyasında böyük önəm daşıyır.

Gələn ay biz müstəqilliyimizin bərpasının 25 illiyini qeyd edəcəyik. Bu 25 ilin 23 ili inkişaf, tərəqqi və dirçəliş illəri olmuşdur. 1991-ci ildə Azərbaycan müstəqilliyə qovuşanda digər müttəfiq respublikalar da müstəqillik əldə etmişdi və ilk iki il xalqımız üçün, dövlətimiz üçün çox ağır, faciəvi illər olmuşdur. O vaxt hakimiyyəti zəbt edən antimilli qüvvələr ölkəmizi faktiki olaraq dağıdırdılar və Azərbaycan xalqı

böyük əziyyət içində, narahatlıq içində yaşayırdı. Azərbaycan xalqı cəmi bir il AXC-Müsavat cütlüyünün hakimiyyətinə dözərək bu mənfur ünsürləri tarixin arxivinə göndərdi. Bu gün Azərbaycanda gedən proseslər, ölkəmizin inkişafı və dünən keçirilmiş referendum bir daha xalqımızın iradəsini göstərdi. Bir daha göstərdi ki, Azərbaycan xalqı aparılan siyasətə öz dəstəyini verir. Bir daha onu göstərdi ki, Azərbaycan xalqı təhlükəsizliyi, sabitliyi, inkişafı, ləyaqəti və müstəqilliyi seçir.

Dünən keçirilən referendum bir daha bizim siyasətimizə xalq tərəfindən böyük etimadın göstəricisidir. Bu etimad bizə güc verir. Bu etimad olmasaydı, ölkəmizin milli maraqlarını beynəlxalq müstəvidə müdafiə etmək çətin olardı. Bizim siyasətimiz milli maraqlar üzərində qurulub. Bizim siyasətimizin təməlində Azərbaycan xalqının maraqları, milli dəyərlər durur. Bu gün istənilən beynəlxalq forumda Azərbaycan öz sözünü deyir, öz yolu ilə gedir, müstəqillik, ləyaqət yolu ilə gedir, heç kimin qarşısında gözükölgəli deyil, heç kimin diktəsi ilə oturub-duran deyil. Bu siyasət xalq tərəfindən dəstəklənir, bəyənilir və beynəlxalq aləmdə bizə çox böyük şöhrət qazandırıb.

Dünən keçirilən referendum ölkəmizin gələcək inkişafını müəyyən edir. Azərbaycan xalqının mütləq əksəriyyəti referenduma birmənalı şəkildə "hə" deyib, bizim təkliflərimizi dəstəkləyib, bəyənib. Buna görə mən bir daha bütün Azərbaycan xalqına dərin minnətdarlığımı bildirmək istəyirəm.

Mən son 13 il ərzində çalışmışam ki, bu yüksək etimadı öz işimlə, fəaliyyətimlə doğruldum. Şadam ki, bu gün Azərbaycan doğrudan da dünyada seçilən ölkələrdəndir. Təhlükəsizlik təmin edilir, Azərbaycan xalqı sülh, əmin-amanlıq şəraitində yaşayır, beynəlxalq nüfuz artır, ordu quruculuğu uğurla gedir. Aprel döyüşləri bir daha Azərbaycan Ordusunun gücünü göstərdi. Baxmayaraq ki, dünyada iqtisadi böhran davam edir, Azərbaycan iqtisadi sahədə inamla inkişaf edir, bütün sosial layihələr icra olunur. Enerji siyasətimiz nəinki ölkəmiz üçün, regionumuz, dünya üçün böyük əhəmiyyət daşıyır. Azərbaycan enerji təhlükəsizliyinin təmin edilməsində lider dövlətdir. Biz nəhəng sənaye layihələrini icra edirik.

Bildiyiniz kimi, Azərbaycanda bu il "Multikulturalizm ili" elan edilib. Ölkəmizdə bütün xalqların, dinlərin nümayəndələri bir ailə kimi yaşayırlar. Bax, budur bu gün Azərbaycan reallıqları. Xalq bu reallıqları yüksək qiymətləndirir və referendumun nəticələri məhz buna əsaslanır. Bizə gələcəkdə kimsə xaricdən nə isə diktə etmək istəyəndə iki dəfə fikirləşməlidir. Birincisi, biz heç kimlə diktat dili ilə danışmırıq. Bu yanaşmanı qəbul etmirik. İkincisi və ən önəmlisi, biz heç kimdən asılı deyilik. Bizim apardığımız siyasət bundan ibarətdir ki, ancaq öz gücümüzə arxalanaq, nə siyasi cəhətdən, nə maliyyə cəhətdən heç kimdən asılı olmayaq, heç kimə borclu olmayaq və öz taleyimizi özümüz həll edək.

Bu gün Azərbaycan reallıqları göstərir ki, müstəqillik illəri bizim üçün nə qədər qiymətlidir və nə qədər böyük xeyir gətirir. Heç vaxt tarixdə Azərbaycan indiki qədər güclü, indiki qədər azad və müstəqil olmamışdır. Biz tarixi yaxşı bilirik, müxtəlif dövrlərdə Azərbaycan ərazisində dövlətlər, müxtəlif ictimai idarəetmə formaları olub. Ancaq bugünkü dövr əsl müstəqillik dövrüdür. Heç kimdən asılı deyilik, öz taleyimiz öz əlimizdədir, inamla irəliyə gedirik və perspektivlər də çox açıqdır, aydındır. Biz bilirik nə istəyirik. Cəmiyyətdə Azərbaycanın inkişafı ilə bağlı fikir ayrılığı yoxdur və dünənki referendum bunu bir daha təsdiq etdi.

Azərbaycan regionlarının inkişafı prioritet məsələ olaraq qalır. Bu təşəbbüsü 2004-cü ildə mən irəli sürmüşdüm və o gündən bu günə qədər bütün şəhərlər, rayonlar inkişaf edir, abadlaşır. Regional inkişaf proqramımız bizə imkan verir ki, ölkəmiz həm iqtisadi, həm coğrafi baxımdan çoxşaxəli şəkildə inkişaf etsin.

Sumqayıtın bu proqramın icrasında xüsusi yeri var. Sumqayıt böyük sənaye şəhəridir. Sumqayıtın əhalisi də kifayət qədər böyükdür. Sumqayıt Bakıdan sonra Azərbaycanın ikinci şəhəridir. Sumqayıtın inkişafına daim böyük diqqət göstərilib. Əminəm ki, Sumqayıtın bugünkü vəziyyəti, bugünkü görkəmi həm şəhər sakinlərini, həm də bütün Azərbaycan xalqını sevindirir. Son illər ərzində Sumqayıtda çox böyük işlər görülüb. Bu gün iştirak etdiyim açılışlar onu əyani şəkildə göstərir. Cəmi 8-9 ay ərzində belə möhtəşəm Heydər Əliyev Mərkəzi yaradılıb. Bu gün Şahmat Məktəbinin, Uşaq İncəsənət Məktəbinin açılışını qeyd etdik. Gözəl, əzəmətli binalardır və bu binalarda uşaqlar oxuyur, dərs alır. Sumqayıt bulvarı isə hesab edirəm ki, bir möcüzədir. Sumqayıt bulvarının yaradılması ilə bağlı mən hələ bir neçə il bundan əvvəl şəhər rəhbərliyi qarşısında vəzifə qoymuşdum. Sumqayıtlılar yəqin ki, xatırlayırlar, hətta bir neçə il bundan əvvəl mənim üçün təqdimat da keçirilmişdi.

Hər zaman maraqlanırdım ki, işlər necə gedir. Məlumat verilirdi ki, orada çətinlik, burada çətinlik var. Ancaq bu gün Sumqayıt bulvarı artıq açılıb. Bu bulvarın yaradılmasında şəhər rəhbərliyinin xüsusi rolu, Sumqayıt sakinlərinin böyük rolu var. Mən çox istəyirdim ki, Sumqayıtda Bakı bulvarına bənzər bir bulvar olsun. Bu gün biz buna nail olduq. Sumqayıt bulvarı cəmi bir il ərzində, bəlkə də ondan da az bir

vaxtda yaradılıb. Məsafəsi dörd kilometrdən çox olan bu bulvar göz oxşayır. Burada həm plyaj, həm də bulvar hissələri var, yol çəkilib və bütün infrastruktur, istirahət zonaları yaradılıb. Əminəm ki, bulvar Sumqayıt sakinlərini və şəhərin qonaqlarını sevindirəcək. Bu, nəyi göstərir? Bu, onu göstərir ki, biz Azərbaycanda istənilən işi görə bilərik. Sumqayıt sovet vaxtında kimya sənayesi mərkəzi idi. Kimin ağlına gələ bilərdi ki, Sumqayıt belə gözəl, ekoloji cəhətdən təmiz şəhərə çevriləcək. İndi Sumqayıtın havası çox təmizdir. Sumqayıtda ekoloji problemlər öz həllini tapıb. Şəhərin abadlaşdırılması işi böyük zövqlə və böyük məhəbbətlə aparılır. Küçələr salınır, Sumqayıta giriş küçəsində abadlıq işləri aparılır, yaşıllıq zolaqları yaradılır, ağaclar əkilir. Yəni, bunu ancaq öz şəhərini, öz xalqını sevən insanlar edə bilər.

Mən çox şadam ki, bizim siyasətimizdə qarşıya qoyulan vəzifələr icra edilir. Bizim problemlərimizdən biri də ondan ibarətdir ki, qarşıya qoyulan vəzifələr bəzi hallarda icra edilmir, yaxud da ki səhlənkarlıq edilir, yarımçıq icra olunur. Mən dövlət işində işləyənləri məcbur edirəm ki, bu işləri görsünlər. Ancaq Sumqayıtda siz özünüz təşəbbüslər göstərirsiniz. Özünüz istəyirsiniz ki, Sumqayıt daha da gözəl şəhərə çevrilsin, daha da abadlaşsın.

Onu da qeyd etməliyəm ki, mən dəfələrlə bəyan etmişəm bizim paytaxtımız Bakı şəhəri dünyanın ən gözəl şəhərlərindən biridir. Çalışmaq lazımdır ki, bütün şəhərlər Bakıya oxşasın. Yəni, memarlığa görə yox, çünki hər bir şəhərin öz tarixi, öz siması var. Ancaq abadlıq, rahatlıq, insanların yaşayış səviyyəsi baxımından hər bir şəhər çalışmalıdır ki, Bakıya yaxınlaşsın. Hesab edirəm ki, Sumqayıt artıq Bakının səviyyəsinə gəlib çatıb. Bu münasibətlə mən sizi ürəkdən təbrik edirəm.

Sumqayıtda infrastruktur layihələri uğurla icra edilir. Mənə verilən məlumata görə, qazlaşmanın səviyyəsi təqribən 100 faizə yaxındır. Şəhər əhalisinin 80 faizini fasiləsiz içməli su təminatı əhatə edir. Çalışmalıyıq ki, bu, 100 faizə çatsın. Elektrik enerjisi ilə bağlı heç bir problem yoxdur. Çünki mənim təşəbbüsümlə birinci böyük elektrik stansiyası Sumqayıtda tikilmişdir və biz onun açılışını qeyd etdik. Gücü 525 meqavat olan bir stansiya o vaxt ona görə tikildi ki, mən Sumqayıtın uğurlu inkişafını görürdüm, buna əmin idim və bilirdim ki, Sumqayıta daha böyük həcmdə elektrik enerjisi lazım olacaq.

Sumqayıtda yolların salınması işi gedir, sosial infrastruktur yeniləşir, Olimpiya, Paralimpiya kompleksləri, "ASAN xidmət" mərkəzi yaradılıb, xəstəxana təmir olunub. Yəni, şəhər hərtərəfli inkişaf edir və bu, əlbəttə, məni və əminəm ki, sizi çox sevindirir.

Sumqayıt tarixən kimyaçılar şəhəri kimi salınmışdır, Sovet İttifaqının kimya sənayesinin mərkəzi olmuşdur. Bu gün isə Sumqayıt müasir, dünya səviyyəli sənaye mərkəzinə çevrilib. Qarşıya məhz belə vəzifə qoyulub ki, Sumqayıtda ən müasir sənaye müəssisələri yaradılmalıdır. Bu, bizim ümumi sənaye potensialımızı gücləndirəcək, minlərlə, on minlərlə yeni iş yeri yaradacaq. Mən çox şadam ki, bu gün Sumqayıtda artıq icra edilmiş və icrada olan sahələr bu məqsədi təmin edib.

Son illər ərzində Sumqayıtın sənaye potensialı böyük dərəcədə artıb və əsas məsələ ondan ibarətdir ki, ekoloji məsələlərə çox böyük diqqət göstərilir. Sumqayıt sovet vaxtında həmişə ekoloji problemlərlə dolu bir şəhər kimi təqdim edilirdi və xarici mətbuatda da ekoloji cəhətdən çətin şəhərlərin sırasına həmişə Sumqayıtı da salırdılar. Müəyyən həqiqət var idi. Siz sumqayıtlılar bunu yaxşı bilirsiniz. Amma bu gün Sumqayıt dünya miqyasında ən ekoloji təmiz şəhərlərdən biridir. Bu gün bulvarda, şəhərdə gəzərkən həm gözəlliyi görürsən, həm də görürsən ki, hava da çox təmizdir. Yəni, Sumqayıtın havası kurort havasına yaxınlaşır.

Əminəm ki, Sumqayıtın gələcək inkişafında turizm sektoru da öz rolunu oynayacaq. Bunu bir neçə il bundan əvvəl təsəvvür etmək çətin idi ki, biz Sumqayıtı, eyni zamanda, turizm mərkəzi kimi görmək istəyirik. Bu gün bu, reallıqdır - gözəl sahil zonası, plyaj, təmiz hava, parklar, ictimai zonalar, istirahət zonaları. İndi Sumqayıt parklar şəhəridir. Mənə bu gün məlumat verildi ki, yeni inşaat layihələri icra ediləcək, bulvara yaxın yerdə yeni yaşayış binaları, otellər tikiləcək. Ona görə, Sumqayıt gələcəkdə Azərbaycanın turizm zonası kimi də özünü göstərməlidir.

Yeni inşa olunan sənaye müəssisələrində əsas şərt ondan ibarətdir ki, ekologiyaya tam riayət edilsin və ekoloji təmiz sənaye müəssisələri yaradılsın.

Sumqayıtın sənaye potensialı ölkəmizi gücləndirir. Sumqayıt artıq bu gün nəinki Azərbaycanın, Cənubi Qafqazın ikinci böyük sənaye mərkəzidir. Bu gün çıxışlarda həm görülən, həm də görüləcək işlər haqqında məruzələr səslənəcək. Mən xüsusi göstəriş vermişəm ki, bu məruzələrdə həm sumqayıtlılara, həm də respublika əhalisinə görülən və görüləcək işlər haqqında hesabat verilsin. Çünki əlbəttə, siz yaxşı bilirsiniz ki, şəhərinizdə hansı işlər görülüb. Ancaq bu təqdimatlar bu gün daha da geniş formada veriləcək. Hər kəs görəcək ki, Sumqayıt bu gün əgər Cənubi Qafqazın ikinci sənaye şəhəridirsə, bu şərəfli adı daim

daşıyacaq. Çünki Sumqayıtda təməlini qoyduğumuz böyük sənaye layihələri, müəssisələr dünya səviyyəli layihələrdir.

Sumqayıt Texnologiyalar Parkı artıq neçə ildir ki, fəaliyyət göstərir. Sumqayıtda Kimya Sənaye Parkı yaradılır. Artıq müəssisələr fəaliyyətə başlayıb, o cümlədən boru istehsalı müəssisələri xaricə məhsul ixrac edir. Bu, bizim üçün xüsusilə əhəmiyyətlidir. Çünki biz ixracyönümlü məhsullar istehsal etməliyik.

Polimer zavodu artıq inşa edilir. Onun təməlini şəxsən mən qoymuşam. Təqribən 1 milyard manata yaxın sərmayə qoyuluşu nəzərdə tutulub. Azot gübrələri zavodu yaradılır. Bu da həm ölkə tələbatını ödəyəcək, həm də böyük ixrac potensialı yaradacaq. Yüngül sənaye ilə bağlı olan müəssisələr fəaliyyət göstərir. Qida sənayesi inkişaf edir. Yəni, Sumqayıtın inkişafı hərtərəflidir, ilk növbədə, şəhər infrastrukturu. Çünki nəqliyyatla bağlı yeni layihələr var. Mənə bu gün yeni avtobuslar göstərildi. Bu da çox vacib olan sahədir. İnsanlar şəhər nəqliyyatından razı olsunlar. Abadlıq işləri, ictimai zonalar, istirahət mərkəzləri, sənaye potensialı, bax, budur, əsas vəzifələr.

Hər bir ölkə, hər bir şəhər üçün əsas vəzifələr bundan ibarətdir - iş yerləri olsun, insanlar yaxşı maaş alsınlar, yaxşı məktəblər, uşaq bağçaları, tibb xidməti olsun, təhlükəsizlik təmin edilsin, şəhər nəqliyyatı yaxşı işləsin, ədalət həmişə zəfər çalsın. Bax, biz bu gün bu yolla gedirik və son illər ölkəmizdə qazandığımız nailiyyətləri, həyata keçirdiyimiz siyasəti Sumqayıtın timsalında əyani şəkildə görürük.

Mən on altıncı dəfədir ki, Sumqayıta gəlirəm və bundan sonra da gələcəyəm. Sumqayıtın inkişafı daim diqqət mərkəzində olacaq. Bu gün isə sumqayıtlıları, şəhər rəhbərliyini əldə edilmiş bütün uğurlar münasibətilə bir daha təbrik etmək istəyirəm.

X X X

Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı Zakir FƏRƏCOV çıxış edərək dedi:

- Möhtərəm cənab Prezident!

Hörmətli qonaqlar!

Hər bir sumqayıtlı yaxşı bilir ki, şəhərimizin sosial-iqtisadi inkişafında, əhalinin yaşayışının, güzəranının yaxşılaşmasında ümummilli liderimiz Heydər Əliyevin misilsiz xidmətləri var. Azərbaycana rəhbərliyi dövründə 16 dəfə şəhərimizdə olmuş Ulu Öndərin xeyir-duası ilə iri sənaye müəssisələri, elm, təhsil, mədəniyyət, səhiyyə və digər sosial obyektlər istifadəyə verilib, yeni yaşayış məhəllələri və mikrorayonları salınıb. Sumqayıtın müasir şəhər kimi formalaşması və inkişafı məhz Ulu Öndərin adı ilə bağlıdır.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin şəhərimizə olan həmin münasibəti bu gün, cənab Prezident, Sizin tərəfinizdən də uğurla davam etdirilir. Siz Sumqayıtın əvvəlki şöhrətinin özünə qaytarılmasında və sosial problemlərin həllində bizə yüksək qayğı göstərirsiniz. Qədirbilən Sumqayıt sakinləri yaxşı dərk edirlər ki, şəhərdə gedən quruculuq prosesləri məhz Sizin yüksək diqqətiniz sayəsində həyata keçirilir.

Sizin rəhbərliyinizlə müstəqil Azərbaycanımızın bütün bölgələri kimi, Sumqayıt şəhəri də bu gün öz dinamik inkişaf dövrünü yaşayır. Görülmüş tədbirlər nəticəsində şəhərimizin həyatı yüksək dərəcədə canlanıb, insanların güzəranı yaxşılaşıb, nikbinliyi artıb.

Sizin son illərdə Sumqayıtda açılışını etdiyiniz zavod və fabriklərin, yaratdığınız sənaye parklarının hesabına minlərlə yeni iş yerləri açılıb, təkcə son 6 ay ərzində 6 mindən çox şəhər sakini işlə təmin edilib.

Möhtərəm cənab Prezident, Sizin tapşırığınıza əsasən şəhərin yeni, ümumi inkişaf konsepsiyası hazırlanıb. Tapşırığınıza uyğun olaraq, bütün abadlıq-quruculuq işləri şəhərin Baş Planı və gələcək perspektivi nəzərə alınmaqla aparılır. Məlumat vermək istəyirəm ki, biz bu işlərə ilk olaraq şəhərin hər iki tərəfdən olan giriş yollarından başladıq. Hər iki istiqamətdə yollar genişləndirilərək yenidən qurulub, yaşıllıq zolaqları salınıb, milli memarlıq üslubunda qala divarları çəkilib.

Şəhərin əsas giriş yolu olan Sülh küçəsi 4,2 kilometr məsafədə hər iki tərəfə iki dəfədən artıq genişləndirilib, mövcud yolun asfalt örtüyü 90 min kvadratmetrə çatdırılıb və nəqliyyatın rahat hərəkətinə tam şərait yaradılıb. Yolun hər iki tərəfində ümumi uzunluğu 7 kilometr olan yağış sularının qəbuledicisi, su, kanalizasiya, kommunikasiya xətləri, küvetlər çəkilib, 100 min kvadratmetr sahəyə yaşıl örtük salınıb və təkcə bu ərazidə 120 mindən çox ağac və dekorativ kollar əkilib. 16 min kvadratmetr hasar çəkilib, gecə işıqlandırma sistemi, 110 ədəd müasir işıq dirəkləri quraşdırılıb. Yolun giriş hissəsində Bayraq Meydanı tikilib.

Sumqayıtın ikinci giriş yolu hesab olunan Sahil küçəsi də yenidən qurulub, dəniz kənarı ilə Novxanı istiqamətində 7,5 kilometr uzunluğunda yol əsaslı təmir olunub. Yolun eni iki dəfə genişləndirilərək 13 metrə çatdırılıb, 112 min kvadratmetr sahəyə asfalt döşənib. Yol boyu hər iki tərəfdə əhalinin sərbəst hərəkəti üçün piyada yolu çəkilib və 7000 kvadratmetr səki daşları düzülüb. Elə bu küçədə kommunikasiya xətləri çəkilib, bir çox yerlərdə istirahət guşələri yaradılıb, dekorativ ağaclar, kollar, güllər əkilib və yaşıllıqlar salınıb. Yol boyu 5 kilometr uzunluğunda istinad divarları çəkilib, hasarlar aqlay daşı ilə üzlənib, yolkənarı obyektlər təmir olunub. Yolun Corat qəsəbəsindən keçən hissəsində sakinlərin istirahəti üçün parklar salınıb, işıqlandırma sistemi quraşdırılıb.

Sizə məruzə etmək istəyirəm ki, şəhərin üçüncü giriş qapısı olan Metallurq küçəsinin də abadlaşdırılması işlərinə də başlamışıq. Sizin yüksək diqqət və qayğınız sayəsində şəhərin digər küçələrində də genişmiqyaslı abadlıq işləri aparılıb. Şəhərin mərkəzi yollarında, məhəllə və mikrorayondaxili ərazilərdə, bağlar massivində asfalt işləri görülüb. 1,5 milyon kvadratmetr əraziyə asfalt döşənib ki, bu da 200 kilometrə bərabərdir. Eyni zamanda, 50 min poqonmetr səki daşları dəyişdirilib, 30 kilometr yeni piyada yolları salınıb. Tapşırığınıza uyğun olaraq, şəhərin bütün məhəllə və mikrorayonlarında da küçə və səkilərin, məhəllə daxili ərazilərin abadlaşdırılmasını gələcəkdə mərhələli şəkildə həyata keçirəcəyik.

Möhtərəm cənab Prezident, 2011-ci ilin iyun ayında Siz Sumqayıt şəhərinə növbəti gəlişiniz zamanı dəniz kənarında müasir Bulvar kompleksinin mütləq yaradılmalı olduğunu vurğulamışdınız. Məlumat verirəm ki, bu gün artıq ümumi sahəsi 106 hektar, uzunluğu 4,2 kilometr olan ərazidə müasir Sumqayıt Bulvarı yaradılıb.

Bulvar ərazisinin səviyyəsi dəniz səviyyəsindən 2,5 metr qaldırılıb, təkcə bu işlər üçün 3 milyon kubmetrdən çox torpaq daşınıb, 4,2 kilometr uzunluğunda, özülü 80 santimetr, yer səthindən 1,5 metr hündürlüyündə istinad divarı tikilib. Bulvarda 55 hektar ərazidə yaşıllıq zolağı salınıb, 160 mindən çox ağac və dekorativ kol, 2 milyon ədəd gül və çiçək əkilib, avtomat suvarma sistemi yaradılıb. Həmçinin 76 hektar ərazidə kommunikasiya xətləri çəkilib, 1500 ədəd müxtəlif ölçülü işıq dirəkləri və işıqlandırma sistemi quraşdırılıb. İnsanların rahat istirahəti üçün 600-dən çox oturacaq qoyulub, 50 kölgəlik yaradılıb, 5 ədəd rəngli fontan inşa edilib.

Bulvarın ərazisində velosipedçilər üçün xüsusi hərəkət zolağı və 12 min poqonmetr piyada yolu salınıb, 4,2 kilometr və ya 100 min kvadratmetr asfalt işi görülüb, 30 hektar əraziyə daş döşənib. Ərazidə Bayraq Meydanı tikilib, hazırda isə gəzinti gəmilərinin yan alması üçün dənizin içərisinə doğru 500 metr uzunluğunda tərsanənin tikintisi aparılır.

Möhtərəm cənab Prezident, əhalinin asudə vaxtının səmərəli təşkili, insanların rahat istirahət etmələri üçün demək olar ki, şəhər ərazisində olan bütün park və meydanlar yenidən qurulub. Şəhərdə ekoloji mühitin sağlamlaşdırılması məqsədilə 250 mindən çox ağac, 2 milyona yaxın gül əkilib, küçə və prospektlər boyunca yolların kənarlarına, eləcə də park və xiyabanlara 400 min kvadratmetrdən çox sahədə yaşıllıq zolağı salınıb.

Ulu Öndərimizin adını daşıyan parkda da yenidənqurma işləri aparılıb, ərazisi 8 hektardan 10 hektara qədər genişləndirilib. Parkda 200-dən çox müasir işıq dirəkləri, oturacaqlar quraşdırılıb, 5 mindən çox ağac, dekorativ kol əkilib, 20 min kvadratmetrdən çox sahədə yaşıllıq zolağı salınıb, 30 min kvadratmetr daş döşənib, rəngli fontan kompleksi və Bayraq Meydanı tikilib, uşaqlar üçün əyləncə mərkəzi inşa olunub.

Cənab Prezident, vaxtilə şəhərimiz barədə dediyiniz "Sumqayıt bu gün parklar və bağlar şəhəridir" sözləri həqiqətən də Sizin köməyinizlə görülən işlərin hesabına reallığa çevrilib.

Parkın ərazisində ümumi sahəsi 5 min kvadratmetr olan 4 mərtəbəli, hazırda toplaşdığımız Heydər Əliyev Mərkəzi inşa edilib. Bu möhtəşəm Mərkəz gənclərimizin daim toplaşacağı, öz maraqlarına uyğun məşğuliyyətlərini tapacağı məkana çevriləcək. Eyni zamanda, bu Mərkəz sumqayıtlı gənclərin vətənə sədaqət, torpağa sonsuz məhəbbət və vətənpərvərlik ruhunda tərbiyə olunmalarında müstəsna rol oynayacaq.

Mərkəzdə Ümummilli Liderimizin həyat və fəaliyyətini əks etdirən eksponatlardan ibarət muzey, 400 yerlik iclas, 50 yerlik konfrans, rəqs, sərgi və kompyuter zalları, elektron kitabxana, xalçaçılıq dərnəyi, rəsm və linqafon otaqları, smart sinfi, foto və videostudiya, gənclər üçün diskussiya zalları fəaliyyət göstərəcək. Dərnəklərlə yanaşı, dördüncü mərtəbədə nikah mərasimləri zalı fəaliyyət göstərəcək. Burada ailə quran hər bir sumqayıtlı gənc üçün Ulu Öndərin həyat və fəaliyyəti bir örnək olacaq. Nikah və qeydiyyat idarəsi də bu binada yerləşdirilib və nikah bağlanması üçün bütün şərait yaradılıb.

Parkın ərazisində müasir memarlıq üslubunda Şahmat Məktəbi tikilib. Məktəbdə 25 qrup olmaqla, 550-600 şagirdin dərs keçmələri, həmçinin müxtəlif irimiqyaslı yarışların keçirilməsi üçün lazımi şərait

yaradılıb. Eyni zamanda, parkın ərazisində Uşaq İncəsənət Məktəbi inşa edilib. Məktəbdə 60 sinif otağı fəaliyyət göstərəcək, 700-dən çox şagird təhsil alacaq və 210 müəllim çalışacaq.

Cənab Prezident, Sumqayıt Dövlət Dram Teatrının təmiri ilə bağlı tapşırığınıza uyğun olaraq dərhal işlərə başlanılıb, dörd mərtəbəli, 3 min kvadratmetr sahəsi olan teatr zirzəmidən tutmuş damınadək əsaslı təmir olunub, müasir avadanlıqlarla təchiz edilib. 150 nəfərədək personalı olan teatr binasında 500 yerlik tamaşa, 100 yerlik akt zalları, bütün xidməti, dekorasiya, qrim, iş otaqları əsaslı təmir edilib, işıqlandırma sistemi müasir üslubda yenidən qurulub. Teatrın qarşısındakı meydana 15 min kvadratmetr qranit daş döşənib, iki fontan və monitor quraşdırılıb.

Möhtərəm cənab Prezident, Sizin hər zaman Sumqayıt və sumqayıtlılara göstərdiyiniz köməyin nəticəsi olaraq, ayrılmış vəsait hesabına 323 ədəd çoxmənzilli yaşayış binalarının dam örtükləri yenidən qurulub və hazırda bu işlər davam etdirilir. 200 çoxmənzilli yaşayış binasının isə liftləri dəyişdirilərək yenisi ilə əvəz olunub. Yaşayış binalarının memarlıq və dizayn baxımından müasir görkəminin saxlanması məqsədi ilə 77 binanın fasadı yenidən qurulub, Azərbaycan prospektində 21 bina aqlay daşları ilə üzlənib. Qarşımızda daha 400 binanın təmiri məsələsi dayanır ki, bu işləri də davam etdirəcəyik.

250 çoxmənzilli yaşayış binasının istiliklə təmin olunması üçün müvafiq işlər görülüb, qazanxanalar mövsümə tam hazırlanıb. Hazırda 18-ci mikrorayonda 20 yaşayış binasını istiliklə təmin edəcək yeni qazanxananın tikintisi işləri aparılır. Şəhərdə daha 600 yaşayış binasının istiliklə təchiz olunması üçün də müvafiq tədbirlər görüləcək.

Sizin tapşırığınızla şəhərdaxili avtomobillə sərnişindaşınma xidməti şəhər icra hakimiyyətinin tabeliyinə verilib. Bu iş pilot layihə olaraq əhaliyə nəqliyyat xidmətinin lazımi səviyyədə qurulmasını təmin edəcək. Hazırda bu məqsədlə növbəti il ərzində şəhərimizə 150 ədəd müasir avtobusların gətirilməsi üçün tədbirlər görülür.

Möhtərəm cənab Prezident, şəhərdə məktəb, uşaq bağçaları ilə bağlı problemlərin aradan qaldırılması sahəsində də müəyyən işlər görülüb. Belə ki, 56 uşaq bağçasından 48-nin dam örtüyü dəyişdirilib, istilik sistemi bərpa edilib, 8 uşaq bağçası əsaslı təmir olunub, ərzaq təminatı məsələləri tam qaydaya salınıb. Biz uşaq sıxlığını nəzərə alaraq, Sizə söz veririk ki, növbəti ildə daha 10 uşaq bağçasını tikib istifadəyə verəcəyik.

Ümumtəhsil məktəblərinin maddi-texniki bazasının yaxşılaşdırılması istiqamətində şəhərdə 6 məktəb əsaslı təmir edilib. Qarşımıza məqsəd qoymuşuq ki, şəhərin daxili imkanları hesabına növbəti ildə məktəblərin təmirində əsaslı dönüş yaradaq.

Şəhərin səhiyyə ocaqları da diqqətdən kənarda qalmayıb, cari ildə 5 xəstəxana və poliklinikada təmir işləri aparılıb.

Cənab Prezident, Sizin bilavasitə köməyiniz və dəstəyiniz sayəsində Sumqayıt şəhərində xeyli işlər görülüb. Ancaq qarşımızda hələ həlli vacib olan bir çox məsələlər dayanır ki, onları da ardıcıllıqla həll edəcəyik.

Planlaşdırmışıq ki, əhalinin mənzil-məişət şəraitini yaxşılaşdırmaq üçün yaxın dövrdə Kimyaçılar və İnşaatçılar yaşayış sahəsindəki ötən əsrin 40-50-ci illərində tikilmiş, istismar müddətini başa vurmuş, kommunal şəraiti olmayan və qəzalı vəziyyətdə olan 100-ə yaxın taxta konstruksiyalı yaşayış binalarının sökülməsi və əhalinin köçürülərək yeni mənzillərə yerləşdirilməsi məsələsini həll edək. Həmçinin mərhələli şəkildə 100-dən çox yataqxana binasının əsaslı təmiri, 120 kilometr uzunluğunda şəhərdaxili yolların, 1,5 milyon kvadratmetr məhəllə və mikrorayondaxili sahələrin yenidən qurulması, 40 minə yaxın əhalinin yaşadığı ərazidən keçən, əhalinin və sənaye müəssisələrinin kanalizasiya xətti kimi istifadə etdiyi 7,5 kilometr uzunluğunda Acı Dərə kanalının boruya alınması kimi vacib işləri görməliyik.

Bundan əlavə, sənaye zonasında yerləşən Superfosfat, Alüminium, Kompressorlar zavodlarının, Xovlu İplik Fabrikinin fəaliyyətini bərpa etmək, şəhərin perspektiv inkişafı və genişləndirilməsi, sosial obyektlərin tikintisi üçün şəhər ərazisində fəaliyyətsiz qalmış 10-larla idarə və təşkilatların 100 hektarlarla torpaq sahələrindən səmərəli istifadə etmək istəyirik. Sizi əmin edirik ki, bu işləri də ardıcıllıqla yerinə yetirəcəyik.

Möhtərəm cənab Prezident.

Dünən Azərbaycanda ümumxalq səsverməsi - referendum keçirildi. Bu referendumda insanlar Azərbaycanın sabahına, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə, ölkəmizin Sizinlə birlikdə olan gələcəyinə, həyata keçirəcəyiniz islahatlara səs verdilər. Onlar bir daha təsdiq etdilər ki, Sizin ətrafınızda hamılıqla sıx birləşmişlər.

Müdrik ölkə başçısı kimi, xalqımızın xoşbəxtliyi naminə əzmkar fəaliyyətinizə, insanlara sonsuz məhəbbətinizə cavab olaraq Sumqayıt sakinləri də Sizə hər zaman yüksək məhəbbət və sədaqətini nümayiş etdirəcək, əzmlə çalışacaq və Sizin bizə göstərdiyiniz yüksək diqqət və qayğıya öz əməli fəaliyyətimizlə cavab verəcəyik.

Diqqətinizə görə çox sağ olun.

X X X

İqtisadiyyat naziri Şahin Mustafayev çıxış edərək dedi:

- Möhtərəm cənab Prezident.

Hörmətli tədbir iştirakçıları.

Dünyada mürəkkəb siyasi və iqtisadi proseslərin davam etdiyi hazırkı şəraitdə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin iqtisadi strategiyası çərçivəsində qeyri-neft sektorunun inkişafına yönəlmiş sistemli tədbirlər, aparılan islahatlar ölkənin dayanıqlı inkişafı baxımından strateji əhəmiyyət kəsb edir.

Bu iqtisadi strategiyanın əsas istiqamətlərindən biri rəqabətqabiliyyətli qeyri-neft sənayesinin inkişaf etdirilməsidir. Ümummilli lider Heydər Əliyevin rəhbərliyi dövründə ölkəmizdə ciddi sənaye potensialı formalaşdırılıb, Bakı ilə yanaşı, Sumqayıt, Gəncə və Mingəçevir də sənaye mərkəzlərinə çevrilib.

Prezident İlham Əliyevin iqtisadi siyasətinin mühüm tərkib hissəsi olan sənayeləşmənin həyata keçirilməsi nəticəsində son illərdə yüzlərlə müasir sənaye müəssisəsi fəaliyyətə başlayıb, yeni sənaye sahələri yaradılıb, tələbatın ödənilməsində yerli məhsulların payı əhəmiyyətli dərəcədə artıb, idxaldan asılılıq azalıb, ixrac potensialı yüksəlib və beləliklə, sənaye yeni inkişaf mərhələsinə qədəm qoyub. Ümumilikdə, görülən işlər nəticəsində qeyri-neft sənayesində məhsul istehsalı 2014-cü ildə 6,9 faiz, 2015-ci ildə 8,4 faiz, cari ilin yanvar–avqust aylarında isə 3,3 faiz artıb.

2014-cü ilin "Sənaye ili" elan edilməsi, sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramının qəbul edilməsi bu sahədə işlərin kompleks şəkildə ardıcıllıqla aparılmasını təmin edir. Proqramın icrası məqsədilə biznes və investisiya mühitinin davamlı olaraq təkmilləşdirilməsi, sənayenin rəqabət qabiliyyətinin artırılması, sənaye sahəsində fəaliyyət göstərən sahibkarlara dövlət dəstəyinin göstərilməsi, bu sahəyə yerli və xarici investisiyaların cəlb edilməsi və infrastruktur təminatının yaxşılaşdırılması istiqamətlərində tədbirlər həyata keçirilib.

Xüsusilə də investisiya fəaliyyətinin genişləndirilməsi məqsədi ilə investisiya təşviqi mexanizmi yaradılıb və qısa müddətdə ümumi dəyəri təxminən yarım milyard manat olan 58 layihəyə investisiya təşviqi sənədi verilib. Qeyd olunan layihələr çərçivəsində 4000-dən çox yeni iş yerləri açılacaq. Hazırda investisiya təşviqi sənədinin alınması məqsədilə təqdim olunmuş ümumi dəyəri 200 milyon manatdan çox olan investisiya layihələrinin qiymətləndirilməsi aparılır. Bununla yanaşı, istehsalı stimullaşdırmaq məqsədilə yerli istehsalçılar tərəfindən təklif edilən mal və xidmətlərə xarici istehsalçılarla müqayisədə 20 faiz qiymət güzəşti tətbiq edilib.

Qeyd etmək lazımdır ki, dövlətimizin başçısının sentyabrın 15-də imzaladığı Fərmana əsasən, icra hakimiyyəti orqanları və dövlət büdcəsindən maliyyələşən təşkilatlar tərəfindən satınalmalar zamanı idxal mallarının alınmasına yalnız zərurət olduğu təqdirdə razılıq veriləcək ki, bu da yerli məhsulların istehsalının artırılmasına və müəssisələrin inkişafına əlavə stimul verəcək.

Sənayenin inkişafına yönəlmiş mexanizmlərdən biri də sənaye parkları və sənaye məhəllələrinin yaradılmasıdır. Son dövrlər ölkəmizdə bu istiqamətdə real addımlar atılıb. Neftçala rayonunda yaradılmış ilk sənaye məhəlləsində bütün zəruri infrastruktur qurulub, 6 rezident qeydiyyatdan keçib və bunlardan 3-ü ilin sonunadək, digərləri isə gələn il fəaliyyətə başlayacaq. Layihələrin icrası nəticəsində 40 milyondan yuxarı investisiya qoyulacaq və 500-dən çox iş yeri açılacaq.

Növbəti sənaye məhəlləsinin Masallı rayonunda yaradılması istiqamətində işlər davam edir. Sənaye məhəlləsində fəaliyyət göstərmək istəyən sahibkarlar tərəfindən ümumi dəyəri 31 milyon manatdan çox olan 33 layihə təklifi daxil olub.

Sənaye parklarının qurulmasına isə daha əvvəl başlanılıb. Belə ki, tullantıların təkrar emalı sahəsində ixtisaslaşan Balaxanı Sənaye Parkında ümumi dəyəri 23 milyon manat olan və 300 iş yerinin açılmasını nəzərdə tutan layihələrin icrası məqsədilə 5 rezident qeydiyyatdan keçib. Gələn ilin ilk yarısında parkda infrastruktur işlərinin tamamlanması və bütün müəssisələrin fəaliyyətə başlaması planlaşdırılır.

Gəmiqayırma sahəsində ixtisaslaşan Qaradağ Sənaye Parkında həyata keçirilən investisiya layihəsinin dəyəri 470 milyon ABŞ dolları təşkil edir. Park 2000 nəfərin işlə təmin olunmasına imkan verir.

Yeni yaradılmış Pirallahı Sənaye Parkı əczaçılıq məhsullarının istehsalının təşkili və bu sahədə idxaldan asılılığın azaldılması baxımından əhəmiyyətlidir. Parkda Rusiya və İran şirkətləri ilə birgə həyata keçiriləcək dərman vasitələrinin istehsalı üzrə ilk iki layihə çərçivəsində 90 milyon dollara yaxın investisiya qoyulacaq və 300-dək iş yeri yaradılacaq. Bu ilin sonunadək müəssisələrin tikintisinə başlanacaq.

Bir neçə gün əvvəl, dövlət başçısının təməlqoyma mərasimində iştirak etdiyi Mingəçevir Sənaye Parkında yüngül sənaye məhsulları, o cümlədən iplik, parça, ayaqqabı və geyim istehsalı üzrə 9 fabrikin yaradılması ilə 200 milyon dollardan çox investisiya qoyuluşu və 5500-dən çox iş yerinin açılması nəzərdə tutulur.

Vacib amillərdən biri də odur ki, yaradılacaq müəssisələr əsasən yerli xammalla təmin olunacaq. Pambıqçılığa göstərilən dövlət dəstəyi istehsalın xammala tələbatını ödəməklə, xammaldan son məhsuladək sənaye klasterinin yaradılmasına xidmət edir.

Məlum olduğu kimi, Sumqayıt şəhərinin olduqca zəngin sənaye ənənələri var. Təsadüfi deyildir ki, ilk sənaye parkı da, cənab Prezident, Sizin Fərmanınızla 5 il əvvəl məhz Sumqayıtda yaradılıb.

Sumqayıt Kimya Sənaye Parkı ərazisinin genişliyinə, rezidentlərin sayına, investisiya qoyuluşuna, istehsal ediləcək məhsulun çeşidi və həcminə görə ölkədə ən böyük sənaye parkıdır. Parkda yüksək səviyyəli infrastruktur təminatı həyata keçirilir. İlk növbədə buradan 1,9 milyon kubmetr torpaq tullantı, o cümlədən 41 min kubmetr təhlükəli tullantı çıxarılıb, parkın ərazisi ekoloji tələblərə cavab verən vəziyyətə gətirilib.

Artıq parkın 168 hektar ərazisində xarici elektrik verilişi və bütün yeraltı kommunikasiya xətlərinin tikinti-quraşdırma işləri tamamlanıb, 128 hektar ərazidə isə söküntü və düzənlənmə işləri başa çatdırılıb. Hazırda parkın daxili avtomobil yollarının, Peşə Tədris Mərkəzinin, ərazidaxili elektrik xətlərinin və yarımstansiyanın tikinti-quraşdırma işləri davam etdirilir.

Parkın ilk rezidenti olan, boru və hidrotexniki avadanlıq istehsalçısı "Azərtexnolayn" MMC-də 700 nəfər işləyir. Müəssisədə cari ilin səkkiz ayı ərzində istehsal edilmiş 55 milyon manatlıq məhsulun 85 faizi ixrac olunub.

Növbəti rezident "SOCAR Polimer" MMC-nin istehsalı olan polipropilen və yüksək sıxlıqlı polietilen ixrac olunmaqla yanaşı, yerli müəssisələrin, kiçik və orta sahibkarlığın xammala olan tələbatını ödəyəcək və onların inkişafına stimul verəcək. Nəticədə hazırda idxal olunan yüzlərlə adda məhsul ölkə daxilində istehsal ediləcək.

"MST Engineering" MMC tərəfindən yüksək təzyiqədavamlı xortumların və fitinqlərin istehsalı layihəsi üzrə 40 nəfər daimi iş yeri ilə təmin olunacaq.

"Aqrokimya Azərbaycan" MMC tərəfindən aqrokimyəvi məhsulların, o cümlədən pestisidlərin istehsalı layihəsi üzrə 100 nəfər daimi iş yeri ilə təmin ediləcək. Layihənin icrası nəticəsində bu sahədə idxaldan asılılıq aradan qaldırılacaq, ixrac potensialı yaranacaq.

"Alco Lubricant Company" MMC tərəfindən yüksək keyfiyyətli sintetik və yarı-sintetik sürtkü yağlarının istehsalı layihəsi üzrə 100 daimi iş yeri açılacaq.

İsveçrənin tanınmış "SİKA" şirkəti tərəfindən müxtəlif tipli tikinti məhsullarının istehsalı layihəsi üzrə (5,3 milyon manat) 60 nəfər daimi iş yeri ilə təmin olunacaq.

Bu dörd layihənin hamısı 2017-ci ildə fəaliyyətə başlayacaq.

Bakı ferroərintilər zavodu tərəfindən metallurgiya sənayesində istifadə olunan ferroərintilərin istehsalı layihəsi üzrə 70 daimi iş yeri yaradılacaq. Bu layihənin isə 2018-ci ildə fəaliyyətə başlaması nəzərdə tutulur.

Parkın digər rezidentləri "Azerbaijan Fibro Cement" MMC və "Azerfloat" QSC tərəfindən müvafiq olaraq fibro-sement lövhələrin və şüşə vərəqələrin istehsalı planlaşdırılır.

Qeyd olunan layihələrin icrası nəticəsində Parkın 9 rezidenti tərəfindən qoyulan investisiyaların həcminin 1,1 milyard ABŞ dollarını keçəcəyi və 2000-dən çox yeni iş yerinin açılacağı gözlənilir.

Həmçinin Sumqayıt Texnologiyalar Parkında emal sənayesinin müxtəlif sahələri, o cümlədən elektrotexniki avadanlıqlar, yüksək gərginlikli elektrik kabelləri, maşın və avadanlıqlar, polietilen borular, alüminium və PVC profillər, sendviç panellər və polikarbonat lövhələr istehsalı üzrə 17 zavod fəaliyyət göstərir. Bununla yanaşı, Karbamid zavodunun tikintisi davam edir.

Qeyd olunan layihələrin icrası idxaldan asılılığın əhəmiyyətli dərəcədə azaldılmasına və ixrac potensialının artırılmasına xidmət edəcək.

Möhtərəm cənab Prezident.

Qeyd olunanlar Sizin rəhbərliyiniz altında həyata keçirilən islahatlar kursunun qarşıdakı illərdə də iqtisadiyyatın dayanıqlı və davamlı inkişafının təminatçısı olduğunu bir daha əyani şəkildə göstərir.

Diqqətinizə görə minnətdaram.

X X X

"**Azərikimya" İstehsalat Birliyinin Müşahidə Şurasının sədri Muxtar BABAYEV çıxış edərək dedi:**

- Möhtərəm cənab Prezident.

Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş yeni neft strategiyasının bu gün Sizin rəhbərliyinizlə uğurla davam etdirilməsi ölkəmizdə neft-kimya sənayesinin dinamik inkişafı üçün böyük perspektivlər açıb. Sizin Azərbaycan neft-kimya sənayesinin tarixində yeni bir mərhələ açmış 2010-cu il 2 aprel tarixli Sərəncamınız kimya sənayesində SOCAR-ın əsas fəaliyyət proqramıdır. Tövsiyə və tapşırıqlarınıza uyğun olaraq, "Azərikimya"nın SOCAR-ın tərkibinə verildiyi ilk gündən insan amili, kimyaçıların və bütövlükdə sumqayıtlıların sağlamlığı prioritet təşkil edib, fiziki və mənəvi cəhətdən köhnəlmiş, zərərli qurğular istismardan çıxarılıb, istehsalat sahələrində əsaslı təmir və yenidənqurma işləri aparılıb. Qeyd etmək lazımdır ki, "Azərikimya"nın əsas istehsal sahəsi olan "EP-300" qurğusunun inşasına 1981-ci ildə başlanılmışdı. O dövrdə bu istehsalat kompleksinin əhəmiyyətini və perspektivini düzgün qiymətləndirən ulu öndər Heydər Əliyevin rəhbər qətiyyəti və prinsipiallığı sayəsində qurğunun Sumqayıtda tikintisinə nail olundu. Əslində sovet rəhbərliyi bu qurğunun tikintisini İttifaqın başqa bir şəhərində planlaşdırmışdı.

Ötən altı il ərzində etilen-polietilen zavodunda yeni azot-oksigen kompleksi, susoyutma kompleksi, mütləqləşdirilmiş izopropil spirti qurğusu, İstehsalata və keyfiyyətə nəzarət laboratoriyası tikilib. Həmçinin ötən il oktyabrın 25-də Sizin iştirakınızla propan-propilen fraksiyasının təmizlənməsi və butan-butilen fraksiyasının hidrogenləşməsi qurğuları istismara verilib. Xüsusən qeyd etmək lazımdır ki, əgər əvvəllər istehsalatlarımızda xammal kimi yalnız naftadan istifadə olunurdusa, bu gün dörd növdə xammaldan istifadə edilir və bunun üçün neft emalı zavodundan ayrıca boru kəmərləri çəkilib.

Kimyaçılarımızın iş və məişət şəraiti yaxşılaşdırılıb, istehsalatda onların əməyinin və sağlamlığının mühafizəsi sahəsində də ciddi dəyişikliklərə nail olunub. Müasir tibbi avadanlıqla təmin edilmiş "Kimyaçı" poliklinikası və təcili yardım mərkəzi istifadəyə verilib. SOCAR-ın tibbi sığorta proqramı çərçivəsində hər bir kimyaçı sığortalanıb.

"Azərikimya"da ixtisaslı gənc fəhlə kadrların hazırlanması da diqqət mərkəzindədir. Sizin göstərişiniz əsasında 2012-ci ildə Sumqayıtda müasir tipli Təlim-Tədris Mərkəzi yaradılıb. Mərkəz həm "Azərikimya", həm də SOCAR-ın digər zavodları üçün beynəlxalq təhsil standartlarına uyğun yüksək ixtisaslı fəhlə kadrları hazırlayır. Artıq Mərkəzi bitirmiş 500-ə yaxın gənc kadr SOCAR-ın müəssisələrində işlə təmin olunub. Hər il burada 1000 nəfərə yaxın əməkdaşımız müxtəlif kurs və təlimlərdə iştirak edir.

Aparılmış yenidənqurma işləri nəticəsində istehsal edilən məhsullar üzrə göstəricilər xeyli yaxşılaşıb və bütün sahələr üzrə dinamik artım müşahidə olunmaqdadır. Əmtəəlik məhsul istehsalı 2010-cu illə müqayisədə 64 faiz artıb. Son altı il ərzində orta aylıq əməkhaqqı 3 dəfədən çox artaraq 205 manatdan 626 manata yüksəlib. "Azərikimya" Dövlət Şirkətinin 2010-cu ilə qədər yığılıb qalmış bütün yerli və xarici kreditor borcları qısa zamanda tərəfimizdən ödənilib. Müəssisəmiz 2013-cü ildən başlayaraq mənfəətlə işləyir və bu artan dinamika davam etməkdədir.

2015-ci ildə istehsal edilən kimya məhsullarının 88 faizi ixrac olunub, daxili bazar isə 12 faiz təşkil edib. İxracdan söz düşmüşkən qeyd edim ki, Türkiyənin "Petkim" şirkəti ilə inteqrasiya əlaqələrinin qurulması nəticəsində istehsal etdiyimiz kimyəvi məhsulların xarici bazarlarda, xüsusilə də Avropa ölkələrində satış şəbəkəsi getdikcə genişlənməkdədir. Bu məqsədlə son illərdə kimya məhsullarımızın dünya bazarına əsas ixrac istiqamətlərindən biri kimi Gürcüstanın Kulevi terminalından istifadə edilir. Orada qaz məhsullarının gəmilərə yüklənməsi üçün yeni terminal 2013-cü ildə istismara verilib.

Bakı-Tbilisi-Qars dəmir yolu da neft-kimya məhsullarının Türkiyəyə, oradan da Avropa və dünya bazarına çıxarılmasında mühüm rol oynayacaq.

Neft emalı və neft-kimya zavodlarında modernləşmə işləri çərçivəsində 2015-2019-cu illər ərzində önəmli layihələr həyata keçiriləcək. Hədəfimiz mövcud istehsalat gücünün artırılması, yeni bir neçə qurğunun tikintisi, hazır məhsul parkının yenidən qurulması və "EP-300" istehsalatının effektliliyinin

artırılmasıdır. Bu da imkan verəcək ki, "SOCAR-Polimer" layihəsi çərçivəsində Kimya Sənaye Parkında inşa olunan polipropilen və polietilen zavodlarını lazım olan miqdarda yüksək keyfiyyətli xammalla təmin edə bilək. Bu zavodlar "Azərikimya" tərəfindən propilen, etilen, hidrogen, buxar və digər xammal ilə təmin olunacaq.

Kimya Sənaye Parkının 30 hektarlıq ərazisində həyata keçirilən "SOCAR-Polimer" layihəsi öz növünə və miqyasına görə son dövrdə Azərbaycanın neft-kimya sənayesində həyata keçirilən ilk layihədir. Bir məqama toxunum ki, bu qurğuların əvvəlcə "Azərikimya"nın tərkibində tikilməsi nəzərdə tutulmuşdu. Lakin Kimya Sənaye Parkının rezidenti statusu bu qurğuların Parkın ərazisində inşa olunmasını daha cəlbedici etdi. Hazırda layihə üzrə tikinti işləri tam sürətlə gedir. 2018-ci ilin birinci rübündə polipropilen qurğusunun, son rübündə isə polietilen qurğusunun istismara verilməsi üçün bütün qüvvələr səfərbər olunub.

EP zavodunda icra olunan layihələrdən biri də 15 il bundan öncə yapon texnologiyası ilə tikilib istifadəyə verilmiş buxar-generator kompleksinin modernləşdirilməsidir. Bu nadir qurğunun tikintisi də ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Bu dahi insanın uzaqgörənliyi sayəsində buxar-generator kompleksi nəinki kimya sənayesini tənəzzüldən xilas edib, hətta "Azərikimya"nın bu günü üçün etibarlı enerji təminatının yaradılmasına bir vasitə olub. Bu il isə SOCAR və Almaniyanın EON-UNIPER şirkətləri arasında enerji və buxar istehsalı sahəsində fəaliyyət göstərəcək birgə müəssisə yaradılıb. Yeni buxar turbininin tikintisi nəticəsində enerji istehsalının iki dəfə artırılması nəzərdə tutulur.

Diqqətçəkən layihələrdən biri də istehsalat tullantı sularının təmizlənməsi qurğusunun tikintisidir. Xəzər dənizinə atılan suların maksimal təmizlik həddi təmin ediləcək və təmizlənmiş suyun bir hissəsi suvarma sahəsində istifadə olunacaq. Qurğunun 2017-ci ildə istifadəyə verilməsi planlaşdırılır. Hazırda istehsalatda istismar olunan qurğular ekoloji tələblərə cavab verir, zərərli tullantılar və havaya atılmalar minimuma endirilib.

SOCAR-ın Sumqayıtda icra etdiyi böyük layihələrdən biri də karbamid zavodudur. Bu zavodun 2018-ci ildə istismara verilməsi nəzərdə tutulur.

Möhtərəm cənab Prezident, biz Sumqayıt kimyaçıları Sizin diqqət və qayğınızı həmişə öz üzərimizdə hiss etmişik. Keçən il Sizin xeyir-duanızla Sumqayıt kimya sənayesinin 70 illik yubileyini təntənəli şəkildə qeyd etdik. Uzun illər kimya sənayesində çalışmış, səmərəli fəaliyyətləri ilə kimya sənayesini şöhrətləndirmiş insanlar Sizin sərəncamlarınızla müxtəlif dövlət mükafatları ilə təltif olundular.

Siz, sözün həqiqi mənasında, bu çətin və şərəfli peşə sahiblərinə əsl bayram sevinci yaşatdınız. İcazə verin, bütün kimyaçılarımızın dərin minnətdarlığını, sevgi və sayğılarını Sizə çatdırım.

Möhtərəm cənab Prezident, Sizin rəhbərliyiniz altında Sumqayıt böyüyür və inkişaf edir, aparılan misli görünməmiş abadlıq və quruculuq işləri bizim gözlərimiz önündə icra olunur. SOCAR da bu inkişafa töhfələrini verməklə bundan sonra da Sumqayıtda perspektivli layihələr həyata keçirməkdə davam edəcək. Şəhərimiz regionda aparıcı sənaye, ələlxüsus kimya sənayesi mərkəzi olmaqla, ekoloji cəhətdən təmiz və gözəl şəhərlərdən birinə çevriləcək.

Diqqətinizə görə minnətdaram.

X X X

"SOCAR Polimer" MMC-nin direktoru Fərid CƏFƏROV çıxış edərək dedi:

- Möhtərəm cənab Prezident.

Sumqayıtın keçmiş Sovet İttifaqı məkanında aparıcı sənaye mərkəzlərindən birinə çevrilməsi ümummilli lider Heydər Əliyevin adı və fəaliyyəti, müstəqil Azərbaycan Sumqayıtının iri və müasir sənaye mərkəzinə çevrilməsi isə Sizin uzaqgörən siyasətinizlə bağlıdır. Sumqayıt Kimya Sənaye Parkı, Sumqayıt Texnologiyalar Parkı, "SOCAR Polimer", gübrə zavodları və bu kimi digər iri və müasir sənaye obyektlərinin yaradılması şəhərimizi daha müasir sənaye mərkəzinə çevirəcək.

İcazənizlə, "SOCAR Polimer" layihəsinin gedişi, layihə çərçivəsində insan resurslarının inkişaf etdirilməsi, bu təşəbbüsün ümumi məşğulluğa və gözlənilən multiplikativ amilə təsiri haqqında məlumat vermək istəyirəm.

Bu günə qədər "SOCAR Polimer" layihəsinin icrası qrafikə uyğun və təsdiq olunmuş büdcə çərçivəsində həyata keçirilir. Polipropilen zavodunun sınaq işlərinin aparılması gələn ilin noyabrına və istismara verilməsi isə 2018-ci ilin fevralına planlaşdırılır. YSPE zavodunun istismara verilməsi isə 2018-ci ilin avqustuna nəzərdə tutulur. Bu zavodların ümumi istehsal gücü ildə 300 min ton təşkil edəcək.

Layihənin xammalla vaxtında təmin edilməsi çox əhəmiyyətlidir. Hazırda neft emalı zavodunda və "Azərikimya"da görülən modernləşmə işləri nəticəsində "SOCAR Polimer" xammal ilə təmin ediləcək. Bunun sayəsində ölkədə neft-kimya məhsullarının istehsalı təqribən üç dəfə artacaq.

Qeyd etmək istəyirəm ki, bu istehsal əsasən ixracyönümlü olacaq və müəssisənin fəaliyyəti nəticəsində ölkəyə ildə təqribən 400 milyon dollar həcmində valyuta axını təmin olunacaq. Layihənin icra statusuna gəldikdə isə bildirmək istərdim ki, nəzərdə tutulan 750 milyon dollar büdcənin bu günə qədər 325 milyon dolları artıq investisiya olunub. Bu məbləğin 197 milyon dolları kredit, 128 milyon dolları isə səhmdar kapitalından maliyyələşdirilib.

Xüsusi olaraq vurğulamaq istərdik ki, bu layihə ölkəmizin dövlət və özəl sektorlarının uğurlu əməkdaşlığı əsasında icra olunur və özəl sektorun investisiyaları ölkənin uzunmüddətli sənaye layihəsinə yatırılır. Layihəyə cəlb olunmuş yerli səhmdarlarla işbirliyi güclü müsbət təsir göstərir.

Layihə çərçivəsində ən yüksək təhlükəsizlik və sağlamlıq standartları tətbiq olunur. Sentyabrın 15-də layihə çərçivəsində istehsalat qəzası baş vermədən bir milyon adam-saatını qeyd etdik. Bununla yanaşı, şirkətimiz kollektiv üzvlərinin peşəkar potensialının inkişaf etdirilməsinə böyük əhəmiyyət verir.

Bu günə qədər şirkətin işçiləri 3500 saatdan çox müxtəlif beynəlxalq təlimlərdə iştirak ediblər. Gələcək operator və texniklərin 50 faizindən çoxu artıq indidən işə götürülüb və hazırda təlimlərini SOCAR-ın Sumqayıtda və Qobustanda yerləşən təlim mərkəzlərində keçirlər.

Əlavə olaraq, istedadlı gənclərin layihəyə cəlb edilməsinə və onların inkişafına böyük əhəmiyyət veririk. Bu yay "SOCAR Polimer" 13 nəfərlik yay təcrübə proqramını həyata keçirib. Proqram Azərbaycanda və xaricdə təhsil alan tələbələr arasında geniş marağa səbəb olub və nəticədə ayrılmış hər bir yerə 24 namizəd sənəd verib. Təcrübə proqramını keçmiş tələbələrin böyük hissəsinin gələcəkdə işə və gözlənilən layihələrə cəlb olunması nəzərdə tutulur.

Hazırda ümumi olaraq layihədə mindən çox insan çalışır. Gələn ilin ikinci rübündə bu rəqəmin 2500-ə çatması gözlənilir. "SOCAR Polimer" şirkətinin hazırda 198 əməkdaşı var. Layihə istismara verildikdən sonra bu müəssisədə 400 daimi iş yerinin yaradılması gözlənilir.

Layihənin icrası ölkə iqtisadiyyatına güclü multiplikativ təsir göstərəcək, eyni zamanda, polimer qranullarının istehsalı çox sayda kiçik və orta miqyaslı istehsalat müəssisəsinin yaradılmasına imkan verəcək. Bu müəssisələr Sumqayıt Kimya Sənaye Parkında yaradılmış əlverişli investisiya mühitindən və müasir infrastrukturdan istifadə edəcək.

Artıq indidən bizə polimer qranulları əsasında müxtəlif növ plastik məhsulların istehsalçılarından çox sayda müraciətlər gəlir. Bir daha qeyd etmək istərdik ki, bu müəssisələrin açılması böyük həcmdə yeni iş yerlərinin yaradılmasına səbəb olacaq. Belə ki, "SOCAR Polimer"də qranul istehsalı zamanı hər bir nəfərin cəlb olunması plastik istehsal müəssisələrində 25 nəfərin cəlb edilməsinə səbəb olacaq.

Diqqətinizə görə təşəkkür edirəm.

X X X

"SOCAR Karbamid" zavodunun direktoru Xəyal CƏFƏROV çıxış edərək dedi:

- Möhtərəm cənab Prezident.

"SOCAR Karbamid" zavodu layihəsi "Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı"nda və "Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı"nda əksini tapıb.

Zavodun rəmzi təməli 2011-ci ildə məhz Sizin tərəfinizdən qoyulub və sonrakı illərdə həmişə bu layihənin gedişi ali diqqətinizdə olub. Layihənin mühəndislik, satınalma və tikinti podratçısı beynəlxalq açıq tenderlərlə seçilib. Tender təkliflərinin qiymətləndirilməsi nəticəsində 2013-cü il martın 13-də açar təhvili şərti ilə Koreya Respublikasının "Samsung Engineering" şirkəti ilə müqavilə imzalanıb. Bundan sonra beynəlxalq nüfuzlu ammonyak və karbamid texnologiya şirkətləri ilə lisenziya müqavilələri bağlanıb, 2013-cü ildə layihə üzrə işlər başlanıb. Zavodun tikintisinin 2017-ci ilin sonunda yekunlaşması, 2018-ci ilin əvvəlində istismara verilməsi planlaşdırılır.

Zavod ammonyak, karbamid istehsalı və karbamidin qranulyasiyası sahələrindən ibarət olacaq. Azot gübrələrinin istehsalı üçün əsas xammal qismində təbii qazdan istifadə ediləcək. Zavod gündəlik 1200 ton ammonyak və 2000 ton karbamid istehsal edəcək. Bu layihənin icra edilməsi dövlət iqtisadiyyatının əsas sektorlarından biri olan kənd təsərrüfatına böyük dəstək verəcək. Bununla yanaşı, zavodda istehsal edilən

azot gübrələri (illik təxminən 650 min ton) daxili tələbatı tam ödəyəcək və izafi məhsul dəmir yolu vasitəsilə Türkiyəyə, habelə Qara dəniz limanları vasitəsilə dünya bazarlarına ixrac olunacaq.

Qeyd etmək istəyirəm ki, layihənin həyata keçirilməsi prosesində nəzərdə tutulmamış bir sıra əlavə işlərlə qarşılaşmışıq. Layihənin ümumi dəyəri 750 milyon avro təşkil edir. Layihənin maliyyələşdirilməsi ilkin dövrdə dövlət büdcəsindən ayrılan vəsaitlər hesabına həyata keçirilib. Bu məqsədlə dövlət büdcəsindən 205 milyon manat vəsait ayrılıb. Daha sonra maliyyələşdirmə mənbəyinin dəyişdirilməsi ilə bağlı qərar qəbul edilib və beynəlxalq kommersiya bankları ilə danışıqlar aparılaraq aralıq maliyyələşdirmənin cəlb edilməsinə nail olunub. Layihənin uzunmüddətli maliyyələşdirilməsi məqsədilə hazırda Koreya Respublikasının İxrac-İdxal Bankı (KEXIM) və Avropanın tanınmış və nüfuzlu üç beynəlxalq bankı ilə aparılan danışıqlar artıq tamamlanmaq üzrədir. 500 milyon avro məbləğində maliyyələşdirmənin cəlb olunması layihənin tamamlanmasını təmin edəcək.

Möhtərəm cənab Prezident, bu gün artıq layihənin təxminən 80 faizi icra edilib. Əsaslı layihələndirmə və satınalma işləri tamamlanıb, tikinti işlərinin 45 faizi həyata keçirilib. 2017-ci ilin ikinci yarısından etibarən zavodda mərhələli surətdə buraxılış-sınaq işlərinə başlanacaq.

Hazırda zavodun tikinti işlərində 2200 nəfər çalışır və tikintinin pik dövründə təxminən 3 min işçi cəlb ediləcək. Zavodun istismarı dövründə isə 400 nəfər daimi iş yeri ilə təmin olunacaq. Elə bu səbəbdən zavodun tikintisi dövründən etibarən gələcək kadrların hazırlığına və xüsusi treninq keçmələri məsələsinə xüsusi önəm veririk. Buraxılış-sazlama və sınaq dövründən başlayaraq gələcək istismarçıların iştirakının təmin edilməsi çox vacib şərtdir. Bu məqsədlə SOCAR-ın təlim-tədris mərkəzlərində artıq 80 nəfər ixtisaslı və texniki ingilis dilli fəhlə kadr hazırlanaraq işə götürülüb. Növbəti mərhələdə bu il təlim keçmiş 70 nəfərin də işə qəbul edilməsi gözlənilir. Zavodda işçilərin aylıq orta əməkhaqqı təxminən 650 manat təşkil edir.

Möhtərəm cənab Prezident, Sizin rəhbərliyinizlə Azərbaycan gündən-günə inkişaf edir, gözəlləşir, iqtisadiyyatımız möhkəmlənir, ordumuz güclənir və xalqımızın həyat şəraiti yaxşılaşır. Biz Sumqayıt şəhərinin də son zamanlar xüsusi zövqlə gözəlləşməsinin və inkişafının canlı şahidləriyik. Sizi əmin etmək istəyirəm ki, "Karbamid zavodu" layihəsi də vaxtında və keyfiyyətlə istismara veriləcək, Sumqayıtımızın və Azərbaycanımızın uğurlarına uğur qatacaq.

Diqqətinizə görə təşəkkür edirəm.

X X X

Sumqayıt Texnologiyalar Parkının istehsalat üzrə icraçı direktoru Sahib MUSAYEV çıxış edərək dedi:

- Möhtərəm cənab Prezident.

Hörmətli görüş iştirakçıları.

Cənab Prezident, Sumqayıt Texnologiyalar Parkı (STP) 2009-cu il dekabrın 22-də Sizin iştirakınızla açılıb. O vaxt Siz həm də yüksək gərginlikli kabel qülləsinin təməlini qoydunuz.

Siz STP-yə ikinci dəfə 2011-ci il iyulun 7-də, üçüncü dəfə isə 2012-ci il aprelin 24-də gəldiniz və bizə öz dəyərli tövsiyələrinizi verdiniz. Bu diqqət və qayğıya görə Sizə kollektivimiz adından minnətdarlığımızı bildiririk.

O vaxt STP-nin ərazisi 38,4 hektar, ümumi örtülü istehsal sahələri 170 min kvadratmetr idi. Hazırda ərazi 200 hektaradək genişlənib. Qapalı istehsal sahələri isə 500 min kvadratmetrdən çoxdur. Ərazidə olan zavodların əksəriyyəti genişləndirilib və onların istehsal etdikləri məhsulların çeşidləri çoxaldılıb.

Hazırda STP-nin 1750 nəfər daimi işçisi var. Müvəqqəti əmək müqavilələri ilə işləyənlərin sayı 250-350 nəfər arasında dəyişir. Bütün işçilər sosial qayğı ilə əhatə olunub, onlara isti günorta yeməyi verilir. İşçilərin hamısı xüsusi geyimlə təmin olunub və onları iş yerlərinə STP-nin nəqliyyat vasitələri aparıb gətirir. Hər bir işçi bədbəxt hadisələrə görə sığortalanıb. STP-də orta aylıq əməkhaqqı 565 manatdır.

Sumqayıt Texnologiyalar Parkı Azərbaycan bazarını daim yeni məhsullarla təmin etməkdə davam edir. Belə ki, Kabel zavodunda regionda yeganə olan kabel istehsal qülləsi işə salınıb. Bu texnoloji qüllədə ifrat yüksək (220-500 kV-a qədər) gərginlikli plastmas XLPE izolyasiyalı güc kabelləri istehsal olunur. 220 kV-luq kabellərimizdən respublikamızın enerji təminatında geniş istifadə edilir. Kabel zavodunda yeni məhsullar istehsal olunmağa başlayıb. Bunlar nəzarət, idarəetmə, koaksial, telefon, rabitə, şəbəkə LAN, optik və yüksək temperatura davamlı (2 saat müddətində 1000 dərəcə istiliyə tab gətirən) güc kabelləridir, gəmi və neft quyularında istifadə olunur. Neft quyuları üçün nəzərdə tutulan güc kabelləri "Azneft" İstehsalat Birliyinin 37 quyusunda sınaqdan çıxarılıb və müsbət nəticələr alınıb.

Rusiyanin "Navante Services Ltd" şirkətinin 1000 metrə qədər dərinliyi olan neft quyularında da bu kabellərin sınağı uğurla gedir.

STP-nin ağır maşınqayırma zavodunda yük götürmə qabiliyyəti 200 tona qədər olan elektrikli körpülü kranlar istehsal olunmağa başlanıb və bu məhsul istehsalına dair lisenziya yalnız ona məxsusdur. Bu zavodda olan avadanlıqların köməyi ilə əlavə sərmayə qoymadan istənilən texnika, o cümlədən ağır tonnajlı xüsusi təyinatlı texnika, kənd təsərrüfatı maşınları (o cümlədən pambıqçılıqda istifadə olunan maşınlar), suvarma qurğuları istehsal etmək mümkündür.

Elektron cihazlar zavodunda "Smart" tipli elektron elektrik sayğaclarından başqa, ödəniş terminallarının istehsalı təşkil olunub. Sifarişçilər banklar, Dövlət Gömrük Komitəsi, Milli Bank və digər qurumlardır.

Bu yaxınlarda alüminium və mis profilləri zavodu işə salınıb. Həmin zavodda Amerika Birləşmiş Ştatlarının "Vaqstaf" firmasının avadanlığı quraşdırılıb.

Elektrik stansiyaları üçün xaricdən gətirilən ehtiyat hissələrinin bir çoxu artıq STP-də istehsal edilir və müvəffəqiyyətlə istismar olunmaqdadır.

Sumqayıt Texnologiyalar Parkı tikinti sektorunu, kənd təsərrüfatını, yeni açılan texnoparkları elektrik avadanlıqları, kabellər, sinklənmiş metal konstruksiyalar və başqa məmulatlarla təmin etmək qabiliyyətinə malikdir.

STP bir çox elm və təhsil müəssisələri ilə də əməkdaşlıq edir. Hər il 1000-dən çox tələbə burada təcrübə keçir.

Diqqətinizə görə təşəkkür edirəm.

X X X

"**Gilan Tekstil Park" MMC-nin direktor müavini Nadir MƏHƏRRƏMOV çıxış edərək dedi:**

- Möhtərəm cənab Prezident.

Hörmətli tədbir iştirakçıları.

Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafına dair Dövlət proqramlarının uğurlu icrası nəticəsində ölkəmizin regionlarında və əsas sənaye mərkəzlərindən biri olan Sumqayıtda yüngül sənayenin inkişafı üzrə önəmli tədbirlər planlaşdırılaraq həyata keçirilib. Proqramın icrası toxuculuq və tikiş sənayesinin inkişafına müsbət təsir göstərib, regionlarda çoxsaylı sənaye müəssisələri fəaliyyətə başlayıb, bəzi müəssisələrin fəaliyyəti yenidən qurulub.

Həmin dövlət proqramları çərçivəsində qısa müddət ərzində İqtisadiyyat Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondu tərəfindən ayrılan güzəştli kredit və Gilan Holding investisiyaları hesabına Sumqayıt şəhərində Cənubi Qafqazın ən iri tekstil müəssisələrindən biri - "Gilan Tekstil Park" inşa edilib və 2013-cü ilin may ayında cənab Prezidentin iştirakı ilə açılış mərasimi keçirilib.

İyirmi hektar ərazidə inşa edilən "Gilan Tekstil Park"ı 7 fabrik və 3 istehsal xəttindən ibarətdir:

- İplik fabriki (pambıq, pambıq-polyester ipliyin istehsalı, illik istehsal gücü 4000 ton);
- Toxuma fabriki (illik istehsal gücü 18 milyon metr xam parça);
- Boya fabriki (illik gücü 15 milyon metr parçanın boyanması);
- Tikiş fabriki (illik gücü 600 min ədəd geyim dəsti);
- Trikotaj fabriki (illik gücü 1200 ton məhsul);
- Dəsmal və hamam dəstləri istehsalı fabriki (illik gücü 2 milyon 350 min ədəd);
- Jakarlı toxuma fabriki (illik gücü 800 min metr);
- Trikotaj məhsullarının boyanması fabriki (illik gücü 3000 ton).

Bunlardan əlavə, Parkda tam avtomatlaşdırılmış yataq dəsti istehsal xətti (illik gücü 600 min ədəd), yay və qış yorğanları istehsal xətti (illik gücü 300 min ədəd), yastıq istehsalı xətti (illik gücü 250 min ədəd) mövcuddur.

"Gilan Tekstil Park"da yüksək keyfiyyətli Azərbaycan pambığından ən müasir standartlara cavab verən tekstil məhsulları istehsal edilir. Parka daxil olan fabriklərin avadanlıqları ən son Avropa texnologiyası əsasında qurulub. Hazırda burada müxtəlif növ parça, yataq və hamam dəstləri, yorğan, yastıq, trikotaj məhsulları, habelə müxtəlif təyinatlı odadavamlı, sukeçirməz xüsusi formalar, hərbi və xəstəxana geyimləri, idman geyimləri, otellər üçün hamam və yataq dəstləri istehsal edilir. Bu məhsulların istehsalında insan sağlamlığına zərər verəcək heç bir kimyəvi maddədən istifadə olunmur.

"Gilan Tekstil Park"da ümumi sahəsi 6 min kvadratmetr olan, ən son texnoloji avadanlıqla təchiz edilmiş tikiş fabrikində ayda 50 min kişi, qadın və uşaq üst geyimləri, həmçinin NATO standartlarına uyğun hərbi və xüsusi geyimlər istehsal olunur.

Parkda parça toxuma, boyama və tikiş fabriklərinin kompleks formada yaradılması və ən müasir texnologiyaların tətbiq edilməsi yüksək keyfiyyət və rəqabət qabiliyyətli parça və trikotaj məhsullarının istehsalına imkan verir.

"Gilan Tekstil Park" İSO 9001:2008, İSO 14001:2004, OHSAS 18001 standartlarına cavab verir və müəssisənin qeyd olunan Beynəlxalq Sertifikatları mövcuddur.

"Gilan Tekstil Park"ın malik olduğu ən müasir dəzgah parkının istehsal gücü ölkədaxili tələbatdan artıq olduğu üçün fabriklərin tam gücü ilə fəaliyyət göstərməsi məqsədilə xarici bazara çıxmaq istiqamətində müxtəlif tədbirlər görülür. Müəssisə beynəlxalq nüfuzunu artırmaq, yeni tərəfdaşlar tapmaq üçün təkcə 2016-cı ildə ölkə xaricində bir neçə beynəlxalq sərgilərdə iştirak edib. Həmin sərgilərdə yeni ixracat müqavilələri imzaladıqdan sonra şirkətin ixracat potensialı artıb. Artıq bu gün tekstil istehsalçısı olan Türkiyə kimi ölkədə müəssisənin məhsulları yüksək nüfuza malikdir və onlara ciddi tələbat var. Ev tekstili və parça satışı üzrə MDB ölkələri ilə geniş ticarət münasibətləri mövcuddur. Müəssisənin cari satışının 50 faizini ixrac təşkil edir və bunun artırılması məqsədilə iş aparılır.

Hazırda "Gilan Tekstil Park"da 900 nəfərdən artıq işçi çalışır. Onların əksəriyyəti Sumqayıt şəhəri və ətraf qəsəbələrdə yaşayan sakinlərdir. Park üzrə hazırda orta əmək haqqı 350 manatdan çoxdur. Şirkət işçilərini əvəzsiz olaraq keyfiyyətli nahar yeməyi, fərdi mühafizə vasitələri və uniforma ilə təmin edir, onların həyat və sağlamlığının müdafiəsi üçün qanunvericilikdə nəzərdə tutulmuş tədbirlər həyata keçirilir.

Xaricdən dəvət olunan təcrübəli mütəxəssislərin iştirakı ilə işçilərin peşə biliklərini artırmaq məqsədilə daxili təlimlər keçirilir. Bundan əlavə, tekstil sahəsində yerli kadrların inkişafı üçün respublikada fəaliyyət göstərən bir neçə ali təhsil müəssisələri ilə davamlı olaraq tərəfdaşlıq edilir. Tələbələrin istehsalatda təcrübə keçməsi onların inkişafında əvəzolunmaz rol oynayır. Yalnız cari il ərzində müəssisələrimizdə 18 tələbə təcrübə proqramı keçib.

"Gilan Tekstil Park" MMC qısamüddətli və uzunmüddətli inkişaf strategiyalarına malikdir. O, Azərbaycanda və beynəlxalq səviyyədə tekstil sahəsində nümunəvi istehsalçı və ixracatçı şirkət kimi tanınır.

Möhtərəm cənab Prezident, respublikamızda yüngül sənaye sahəsinin inkişafına göstərdiyiniz diqqət və qayğınıza görə Sizə "Gilan Tekstil Park"ın kollektivi və Sumqayıtda fəaliyyət göstərən sənaye müəssisələrinin kollektivləri adından dərin təşəkkürümüzü bildiririk.

X X X

Sumqayıt Dövlət Dram Teatrının aktyoru, Əməkdar Artist Namis ŞİRMƏMMƏDOV çıxış edərək dedi:

- Möhtərəm cənab Prezident,

İcazə verin, sumqayıtlılar adından Sizə ulu öndərimiz Heydər Əliyevin dostluq və həmrəylik şəhəri adlandırdığı Sumqayıta "Xoş gəlmisiniz!" deyim.

Cənab Prezident, son dövrdə şəhərimizdə aparılan abadlıq və quruculuq işləri elə yüksək səviyyədə vüsət alıb ki, bunu sözlə ifadə edə bilmirəm. Siması tanınmaz dərəcədə dəyişən Sumqayıt parklar, xiyabanlar və yaşıllıqlar şəhərinə çevrilib. Küçələr genişlənib, binalar göz oxşayır, hər yerdə insanın ürəyini açan təmizlik, səliqə-sahman var. Sumqayıtın bugünkü mənzərəsi uşaqdan böyüyədək hamımızın əhval-ruhiyyəsini yüksəldib, sabaha olan inamımızı son dərəcə artırıb. Bütün bunlara görə bilmirəm Sizə necə təşəkkür edim. Bircə, onu bilirəm ki, bu inkişafa heyran qalan hər bir sumqayıtlının qəlbindən keçən bir alqış var – sağ olun, cənab Prezident.

Ulu Öndərimiz Sumqayıta, onun zəhmətkeş insanlarına daim xüsusi qayğı ilə yanaşır, şəhərimizin inkişafına çox böyük diqqət yetirirdi. Sumqayıtın müasir bir şəhər kimi formalaşması, inkişafı məhz o böyük insanın adı ilə bağlıdır. Ulu Öndərimizə qədər şəhərimiz çox sönük idi. O böyük şəxsiyyət Sumqayıtı qurub-yaratdı. Sumqayıt ittifaq səviyyəli böyük bir sənaye şəhərinə çevrildi. Onlarla fabrik, zavod açıldı. Dram teatrının fəaliyyətə başlaması, park və istirahət mərkəzlərinin tikintisi şəhərin mədəni həyatında xüsusi canlanma yaratdı. İnsanların rifah halı durmadan yaxşılaşdı. Sumqayıt inamla sabaha addımladı.

Sumqayıtın ikinci inkişaf mərhələsi məhz Sizin adınızla bağlıdır. Siz şəhərimizi möhtəşəm zirvəyə çatdırdınız. Siz bizə həmrəylik, dostluq, qardaşlıq şəhəri olan Sumqayıtı qaytardınız.

Bütün bunlara görə Sizə minnətdarıq, cənab Prezident.

Şəhərimizdə Ulu Öndərin adına layiq möhtəşəm Heydər Əliyev mərkəzi inşa edilib. Mərkəzdə gənc nəslin elmi təfəkküründün və bədii zövqünün formalaşması məqsədilə yaradılan dərnəklər, elektron kitabxana, tətbiqi sənət emalatxanası, həmçinin yeni ailə quran gənclər üçün nikah salonu fəaliyyət göstərir. O cümlədən xüsusi istedadlı gənclər üçün yeni üslubda inşa edilmiş şahmat və musiqi məktəbləri fəaliyyətə başlayıb.

Məhz Sizin diqqət və qayğınız nəticəsində insanların sosial rifah halı yüksəlir, həyat tərzi durmadan yaxşılaşır. Yeni müəssisələrin yaradılması, minlərlə iş yerlərinin açılması insanlarda xoş ovqat və sabaha inam yaradır.

Cənab Prezident, sumqayıtlılar həmişə bir şirin arzunun xəyalı ilə yaşayıblar: nə vaxtsa bizim də dəniz sahilində bulvarımız olacaq, müxtəlif istiqamətlərə gəmilər işləyəcək, gözəl bir istirahət mərkəzi qazanacağıq. Bu gün sumqayıtlıların arzusu Sizin göstərdiyiniz diqqət və qayğı nəticəsində çin olub. Dəniz sahili boyunca nəhəng və möhtəşəm bulvar kompleksi salınıb. Bir vaxt bərbad vəziyyətdə olan sahil zonası indi Sumqayıt sakinlərinin ən çox istirahət etdikləri məkandır.

Məşhur bir şeirdə deyildiyi kimi:

-Canlanır hər qarış çöl Sumqayıtda,

Xariqələr yaradır el Sumqayıtda.

Cənab Prezident, həqiqətən də bu gün Sumqayıtda həyat qaynayır. Şəhərin hər tərəfində tikinti, quruculuq, abadlıq işləri gedir. Demək olar ki, yeni bir Sumqayıt salınır və bu Sumqayıtın memarı Sizsiniz.

Otuz ildən artıqdır ki, mən Sumqayıt Dövlət Dram Teatrında aktyor kimi çalışıram. Çalışdığım bu bina 1957-ci ildə inşa edilib. Açıq deyim ki, inşa olunduğu gündən yaxın vaxtlara qədər əsaslı təmir olunmamışdı. Uzun müddət baxımsız qalan binanın dam örtüyü sınıb-dağılmış, döşəmələri tamamilə çürüyüb sıradan çıxmışdı. Heç bir istilik və hava tənzimləmə sistemi olmayan bu binada aktyorlar uçuq damdan tökülən yağış, qar suları altında məşqlər edib, 200-dən çox tamaşa hazırlayıblar. Qısa bir zaman kəsiyində bu binanın müasir standartlara cavab verən nəfis və estetik baxımdan gözəl təmir edilməsi Sumqayıt Dövlət Dram Teatrının kollektivinə, həmçinin şəhər ictimaiyyətinə müqayisəyə gəlməyən ən böyük bir hədiyyədir.

Biz yaxşı başa düşürük ki, bundan sonra teatrımızın yaradıcı kollektivi bədii cəhətdən elə yüksək tamaşalar hazırlamalıdır ki, bu binanın gözəlliyi fonunda solğun görünməsin.

Teatrımızın 150-yə yaxın işçisi var. Hər birinin adından, cənab Prezident, Sizə təşəkkürümüzü, dərin minnətdarlığımızı bildiririk.

Dünən ölkəmizdə mühüm bir hadisə - ümumxalq referendumu keçirildi. Hər bir Azərbaycan vətəndaşı kimi, sumqayıtlılar da xüsusi fəallıq nümayiş etdirərək, referendumda yekdilliklə iştirak edib, Sizə olan sədaqətini, sevgisini göstərib. Sumqayıtlılar hər zaman Sizin yanınızdadır və Sizi daimi olaraq Prezident görmək arzusundadır.

Bir daha Sizi bütün Sumqayıt sakinləri və mədəniyyət ictimaiyyəti adından salamlayıram, bizə göstərdiyiniz diqqət və qayğıya, heç vaxt sönməyən məhəbbətinizə görə hər birinin adından dərin minnətdarlığımı və təşəkkürümü bildirirəm. Azərbaycanımızın çiçəklənməsində Sizinlə bərabər çalışan, təhsilimizə, mədəniyyətimizə müstəsna xidmət göstərən hörmətli Mehriban xanıma, ailə üzvlərinizin hər birinə möhkəm cansağlığı, uzun ömür, xoşbəxtlik arzulayıram.

Hər arzumuz, istəyimiz sənindədir,
Sənə olan sevgi dəniz, sənindədir,
Şərəfimiz, şöhrətimiz, torpağımız sənindədir,
Ucalarda dalğalanan bayrağımız sənindədir.
Uğrunda tökülən qan, verilən can -
Əbədiyaşar Azərbaycan sənindədir!
Sənindədir Azərbaycan, sənindədir!

Tanrı Sizi qorusun, cənab Prezident.

X X X

Görüşə yekun vuran Prezident İlham ƏLİYEV dedi:

- Xoş sözlərə görə çox sağ olun. Bu gün Sumqayıtın həyatında çox əlamətdar bir gündür. Bir daha demək istəyirəm ki, belə möhtəşəm Heydər Əliyev Mərkəzinin istifadəyə verilməsi çox gözəl tarixi

hadisədir. Sumqayıtın zəngin mədəni həyatı var. Dövlət Dram Teatrı binasının əsaslı təmirdən sonra açılışı da Sumqayıtın mədəni həyatına yeni bir töhfədir. Hamımız yaxşı bilirik ki, Sumqayıt kimyaçılar, gənclər şəhəri kimi salınmışdır. Ona görə gənclər şəhəri ki, Sumqayıtın qurulmasında daha çox gənclər iştirak edirdi. Bu gün Sumqayıt, eyni zamanda, ziyalılar, fəhlələr, mütəxəssislər şəhəridir, müasir sənaye mərkəzidir.

Bir daha qeyd etmək istəyirəm ki, bu gün gördüyüm Sumqayıt bulvarı doğrudan da, məndə ən xoş təəssüratlar yaratdı. Çünki bir daha gördüm ki, qarşıya qoyulan vəzifələr düzgün icra edildikdə doğrudan da möcüzələr yaratmaq mümkündür. Sumqayıt bulvarı əvvəlki Bakı bulvarından məsafə baxımından daha uzundur. Çünki ənənəvi Bakı bulvarının uzunluğu 3,5 kilometr idi. Sonra biz onu böyütdük, uzatdıq, indi 16 kilometrə çatır. Ancaq o 3,5 kilometri çar Rusiyası vaxtında bir neçə il ərzində yaradıblar. Siz isə Sumqayıt bulvarını cəmi bir il, ondan da az vaxtda yaratmısınız.

Bu, doğrudan da bir daha onu göstərir ki, bugünkü Azərbaycan güclü dövlətdir. Baxmayaraq ki, indi dünyada müəyyən iqtisadi çətinliklər var və o, bizdən də yan keçməyib, biz sosial layihələrə, insanların rahatlığına ayrılan vəsaiti təmin edirik. Bütün sosial layihələr 2017-ci ildə də icra ediləcək, ölkəmizdə yeni xəstəxanalar, məktəblər, ictimai yerlər yaradılacaq.

Bu gün burada səslənən məruzələrdə Sumqayıtda görülmüş və görüləcək işlər haqqında məlumat verildi. Bu gün burada çıxış edənlər Sumqayıtın sənaye potensialının əsas seqmentlərini təmsil edirlər. Ancaq Sumqayıtın sənayesi əlbəttə ki, daha da böyükdür. Burada onlarla, yüzlərlə müəssisə fəaliyyət göstərir. Ancaq bugünkü məruzələrdə həm görülmüş, həm də görüləcək işlər sizin diqqətinizə çatdırıldı. Həm Sumqayıt, həm də ölkə üçün əsas iki böyük sənaye layihəsi 2018-ci ildə işə düşəcək. Bunlar "SOCAR Polimer" və "SOCAR Karbamid" zavodlarıdır. Burada da qeyd edildi, bu müəssisələrin işə düşməsi nəticəsində minlərlə iş yeri yaradılacaq, eyni zamanda, bizim ixrac potensialımız artacaq. Çünki biz "SOCAR Polimer" zavodunda istehsal olunacaq məhsulun bir hissəsini ixrac edəcəyik, bir hissəsini isə daxili bazara çıxaracağıq ki, kiçik və orta sahibkarlar o xam məhsuldan istifadə edib öz müəssisələrini qursunlar. Plastik məmulatlar istehsal olunacaq, idxaldan asılılıq azalacaq və biz daxili tələbatı təmin edəcəyik.

Bu gün burada məruzə edilmiş məsələlər Sumqayıtın böyük potensialını göstərir. Növbəti illərdə Sumqayıtda bu potensial artacaq, həm sənayedə, həm xidmət sektorunda, ictimai işlər sahəsində minlərlə yeni iş yeri yaradılacaq. Böyük istirahət zonaları yaradılır. O zonalarda da xidmət göstəriləcək. Beləliklə, Sumqayıtda işsizlik həmişə çox aşağı səviyyədə olmalıdır.

Əminəm ki, növbəti illərdə yeni layihələr icra ediləcək. Həm dövlət şirkətləri, eyni zamanda, özəl sektor da buna böyük maraq göstərir. Biz "SOCAR Polimer" zavodunun timsalında dövlət-özəl sektor tərəfdaşlığını da görürük. Bu da ölkəmiz üçün bir yenilikdir. Bu, çox mütərəqqi bir yanaşmadır, həm özəl sektor, həm də dövlət öz sərmayəsini qoyur və yeni gözəl müəssisələr yaradılır.

Sumqayıt şəhərinin gələcək inkişafı ilə bağlı təkliflər var. Burada istifadə olunmayan, köhnədən qalmış sənaye sahələri var. Əgər onların istifadəsi nəzərdə tutulmayacaqsa, biz onları da şəhər fonduna əlavə etməliyik ki, orada ictimai yerlər salınsın, yeni yaşayış zonaları yaradılsın. Bir sözlə, sahibkarlığın, sənayenin, xidmət sektorunun inkişafı Sumqayıtda çox uğurla gedir və əminəm ki, bundan sonra da uğurla gedəcək.

Bugünkü Sumqayıt müasir şəhərdir, Azərbaycanın gözəl guşələrindən biridir. Mən çox şadam ki, sumqayıtlılar da bu işlərdə çox fəal iştirak edirlər. Sumqayıtlılar öz şəhərinə çox bağlıdırlar. Bu gün Sumqayıtla fəxr etmək üçün bütün əsaslar var. Təsadüfi deyil ki, referendumdan bir gün sonra mənim ilk səfərim də məhz Sumqayıtadır. Mən sumqayıtlıları, onların fədakarlığını, dövlətə, dövlətçiliyimizə, müstəqilliyimizə bağlılıqlarını, ümumi işimizə verdikləri töhfələri yüksək qiymətləndirirəm. Əminəm ki, bizim görüşlərimiz bundan sonra çox olacaq. Çünki Sumqayıtda bundan sonra da açılışlar olacaq. Sizə uğurlar və cansağlığı arzulayıram. Qoy, həmişə Sumqayıt belə gözəl, abad şəhər olsun. Sağ olun.

Xalq qəzeti.-2016.-28 sentyabr.-№ 212.-S.3-6.

Prezident İlham Əliyev Sumqayıt şəhərinə səfərə gəlib
(15 dekabr 2017-ci il)

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 15-də Sumqayıt şəhərinə səfərə gəlib.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı ümummilli lider Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək önünə gül dəstəsi qoydu.

Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı Zakir Fərəcov Prezident İlham Əliyevə abidənin yerləşdiyi Heydər Əliyev parkında və şəhərdə görülən işlər barədə ətraflı məlumat verdi.

AZƏRTAC
2017, 15 dekabr

Prezident İlham Əliyev Sumqayıt Kimya Sənaye Parkında olub
(15 dekabr 2017-ci il)

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 15-də Sumqayıt Kimya Sənaye Parkında görülən işlərlə tanış olub, yeni müəssisələrin təməlqoyma və açılış mərasimlərində iştirak edib.

Bu layihə Prezident İlham Əliyevin 2011-ci il 21 dekabr tarixli Fərmanına uyğun olaraq həyata keçirilib. Fərmana əsəsən Sumqayıt Kimya Sənaye Parkı və İqtisadiyyat Nazirliyinin tabeliyində parkın idarəedici təşkilatı olan "Sumqayıt Kimya Sənaye Parkı" Məhdud Məsuliyyətli Cəmiyyəti yaradılıb. Hazırda Parkda istehsalat və tikintidə 5700 nəfərdən çox işçi çalışır.

İqtisadiyyat naziri Şahin Mustafayev dövlətimizin başçısına burada görülən işlərlə bağlı məlumat verdi.

Bildirildi ki, Sumqayıt Kimya Sənaye Parkının ümumi ərazisi 505,6 hektardır. Ərazidəki köhnə binalar və qurğular sökülüb, parkın müasir tələblərə cavab verən infrastrukturunun birinci mərhələsi üzrə tikinti-quraşdırma işləri başa çatdırılıb. Sumqayıt Kimya Sənaye Parkında, həmçinin inzibati binanın, laboratoriyaların, texniki peşə məktəbinin, işçilər və tələbələr üçün yataqxana binasının, sərgi-konfrans və logistika mərkəzlərinin, gömrük, tibb, dəmir yolu və yanğınsöndürmə məntəqələrinin, anbarların, yükləmə-boşaltma mərkəzlərinin və digər obyektlərin yaradılması işləri davam etdirilir.

Parkın rezidentləri 7 il müddətinə mənfəət, əmlak və torpaq vergilərindən, eləcə də parka istehsal məqsədilə gətirilən texnika, texnoloji avadanlıqlar və qurğulara görə əlavə dəyər vergisindən, həmçinin gömrük rüsumundan azad olunublar. Rezidentlərin qeydiyyatı "bir pəncərə" sistemi ilə həyata keçirilir. Artıq 15 müəssisəyə Sumqayıt Kimya Sənaye Parkının rezidenti statusu verilib.

Diqqətə çatdırıldı ki, 2013-cü ildən fəaliyyətə başlayan "Azertexnolayn" MMC Türkiyə, Almaniya və Çin texnologiyası əsasında polad və polietilen borular, mexaniki və hidrotexniki avadanlıqlar istehsal edilir. Parkın rezidentlərindən biri olan "STP" Məhdud Məsuliyyətli Cəmiyyəti müxtəlif istehsalat sahələri üzrə ixtisaslaşmış zavodlar kompleksidir. "SOCAR Polymer" Məhdud Məsuliyyətli Cəmiyyətinin illik istehsal gücü 180 min ton polipropilen və 120 min ton yüksək sıxlıqlı polietilen təşkil edəcək. Bu, son 40 ildə öz növünə və miqyasına görə Azərbaycanın neft-kimya sənayesində həyata keçirilən ən böyük layihələrdən biridir.

Sumqayıt Kimya Sənaye Parkının rezidentləri arasında "Alco Lubricant Company" Məhdud Məsuliyyətli Cəmiyyəti də var. Bu gündən fəaliyyətə başlayan müəssisədə il ərzində avtomobil, hava və dəniz nəqliyyatında, kənd təsərrüfatı, sənaye və energetika sahələrində istifadə olunan 30 min ton müxtəlif növ yüksək keyfiyyətli sürtkü yağlarının istehsalı nəzərdə tutulub. Almaniya texnologiyası əsasında yaradılan müəssisədə 100 nəfər daimi iş yeri ilə təmin olunacaq. "MST Engineering Services" Məhdud Məsuliyyətli Cəmiyyətində ABŞ-ın Parker texnologiyası əsasında ildə 30 min ədəd yüksək təzyiqə davamlı xortum və fitinq istehsalı nəzərdə tutulur. Bu məhsullara neft-kimya, maşınqayırma və digər sənaye sahələrində böyük tələbat var. Müəssisə bu gündən fəaliyyətə başlayıb.

"Bakı Əlvan Metallar və Ferroərintilər Zavodu" Məhdud Məsuliyyətli Cəmiyyəti İtaliya texnologiyası əsasında yaradılacaq. Burada istehsal olunacaq məhsullar daxili bazarın tələbatını tam ödəməklə yanaşı, xarici bazarlara da ixrac ediləcək.

Silisium və Kalsium İstehsalat Müəssisəsində ildə 5 min ton tikinti qatqıları istehsal olunacaq. "Azerbaijan Fibro Cement" Məhdud Məsuliyyətli Cəmiyyətində ildə 6 milyon kvadratmetr fibro-sement lövhələr istehsal ediləcək. "Tabaterra" Qapalı Səhmdar Cəmiyyətinin tütün fabrikində ildə 7 milyard ədəd siqaret istehsalı nəzərdə tutulub. Dekabrın 15-də fabrikin tikintisinə başlanılıb.

SOCAR karbamid zavodunda ildə 650-660 min ton azot gübrəsi istehsal ediləcək. Hazırda layihə üzrə tikinti-quraşdırma işləri davam etdirilir və bu işlərə 1800 nəfər cəlb edilib. Bu, Sənaye Parkında həyata keçirilən ən iri investisiya layihəsidir. "SumPlast" Məhdud Məsuliyyətli Cəmiyyəti sənayedə istifadə üçün polimerdən beynəlxalq standartlara cavab verən kisə və torbaların istehsalını həyata keçirəcək. Layihənin növbəti mərhələsində polipropilendən böyük ölçülü toxunma torbaların və konteynerlərin istehsalı planlaşdırılır.

Bildirilib ki, Sumqayıt Kimya Sənaye Parkında 67 MVt gücündə 110/35/6.3 kV-luq yarımstansiyanın inşası da başa çatdırılıb. Yarımstansiyanı qidalandırmaq üçün 500 MVa gücündə olan Sumqayıt Elektrik Stansiyasından 110 kV-luq ikidövrəli kabel hava xətti çəkilib, müasir tələblərə cavab verən avadanlıqlar, o cümlədən yerli "ATEF" MMC tərəfindən istehsal olunan 80 MVa-lıq 2 güc transformatoru quraşdırılıb. Parkın kabel şəbəkəsi də "STP" MMC-dən alınmaqla bütünlükdə yerli

məhsullar hesabına təmin edilib. Mərkəzləşdirilmiş SCADA sisteminə qoşulan yarımstansiyanın yaradılmasından əsas məqsəd Sənaye Parkındakı müəssisələrin fasiləsiz və keyfiyyətli elektrik enerjisi ilə təmin etməkdir.

Sonra Prezident İlham Əliyev parkın ərazisində "AzerFloat" Qapalı Səhmdar Cəmiyyətinin termoformasiya metodu ilə şüşə istehsalı zavodunun təməlini qoydu.

Məlumat verildi ki, "AzerFloat" Qapalı Səhmdar Cəmiyyəti Almaniyanın bu sahədə böyük təcrübəsi olan şirkətinin texnologiyası əsasında yaradılacaq. Müəssisədə il ərzində termoformasiya metodu ilə 8 milyon kvadratmetr şüşə istehsal olunacaq. Məhsulların yüksək keyfiyyəti ilə yanaşı, rəqabətqabiliyyətli olmasına da xüsusi diqqət yetiriləcək. Müəssisənin istifadəyə verilməsi ilə Azərbaycanın bu sahədə ixrac potensialı da güclənəcək. Zavodun məhsullarının Rusiya, Gürcüstan və Orta Asiya ölkələrinə ixrac edilməsi planlaşdırılır. Yeni müəssisədə 180 nəfər işlə təmin olunacaq. Zavodun 2019-cu ildə fəaliyyətə başlaması nəzərdə tutulur.

Dövlətimizin başçısı Sumqayıt Kimya Sənaye Parkının ərazisində "Azərxalça" Açıq Səhmdar Cəmiyyətinin yunəyrici-boyaq fabrikinin də təməlini qoydu. Müəssisədə yun ipliklər və təmiz yun istehsal ediləcək. Fabrik İtaliya, Fransa və Türkiyə texnologiyası ilə fəaliyyət göstərəcək. Müəssisədə ildə 370 ton iplik və 195 ton təmiz yun istehsalı nəzərdə tutulur. Burada əhalidən alınan xam yun emal ediləcək, daha sonra onlardan ipliklər və təmiz yun əldə olunacaq. Fabrikdə, həmçinin boya prosesi də həyata keçiriləcək. İdxaldan asılılığı azaldacaq bu fabrikdə 100 nəfər işlə təmin ediləcək.

Daha sonra Prezident İlham Əliyev Sumqayıt Kimya Sənaye Parkında "Gilan Sənaye Qrupu"na daxil olan "Aqrokimya Azərbaycan" Məhdud Məsuliyyətli Cəmiyyətinin pestisidlər istehsalı zavodunun birinci mərhələsinin açılışında iştirak etdi.

Məlumat verildi ki, müasir texnologiyaların tətbiqinə əsaslanan ilk bitki mühafizəsi vasitələri - pestisidlər istehsal edən zavodun yaradılmasında məqsəd aqrar sektorun bu məhsullara olan tələbatını yüksək səviyyədə təmin etməklə idxalın əvəzlənməsinə, eləcə də gələcəkdə ixrac imkanlarına nail olmaqdır.

Ümumi ərazisi 18,3 hektar olan zavodun istehsal sahəsi 21,4 min kvadratmetrdir. Kompleks 5 istehsal, 4 qablaşdırma, 5 məhsul və xammalsaxlama bölmələrindən ibarətdir. Müəssisənin birinci mərhələsinin illik istehsal gücü 10 min tondur, ikinci mərhələdə istehsalın həcmini 20 min tona çatdırmaq nəzərdə tutulub. Burada 145 çeşiddə pestisid istehsal ediləcək və məhsulun keyfiyyəti zavodun daxilində beynəlxalq standartlara uyğun qurulmuş laboratoriyada müəyyənləşdiriləcək. Bu müəssisənin yaradılmasına İqtisadiyyat Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondu tərəfindən 9,5 milyon manat güzəştli kredit verilib. Zavod İtaliya və Türkiyənin aparıcı şirkətlərinin ən son texnologiyalarından istifadə olunmaqla qurulub. İstehsalda gələcəkdə yerli xammaldan daha çox istifadə edilməsi nəzərdə tutulur. İdxal olunan məhsullarla müqayisədə yerli istehsalın üstünlüyü 35-40 faiz təşkil edir. Perspektivdə isə bir sıra məhsul növlərinin xammal təminatı yerli istehsal hesabına təmin olunacaq və ixrac potensialı yaranacaq.

Bunlardan əlavə, zavodun ərazisində inzibati bina, yeməkxana, laboratoriya, qazanxana və su anbarları var. Zavodda 100 yeni iş yeri yaradılıb. Layihənin ikinci mərhələsində bəzi məhsulların xammalının və yarpaq gübrəsi istehsalının təşkil olunması nəzərdə tutulur.

Dövlətimizin başçısı müəssisəni işə saldı.

Prezident İlham Əliyevə zavodda istehsal olunan hazır məhsulların nümunələri təqdim olundu. Dövlətimizin başçısına bu məhsulların kənd təsərrüfatı və digər sahələrdə istifadəsi, eləcə də zavodun istehsal bölmələrinin fəaliyyəti barədə ətraflı məlumat verildi.

Qeyd edildi ki, hazırda ölkənin pestisidlərə olan tələbatı 9,1 min ton təşkil edir. Bununla yanaşı, 182 min hektar ərazidə yaradılmaqda olan aqroparkların, 463 hektar sahədə istixana təsərrüfatlarının və əlavə 36 min hektarda əkilməsi nəzərdə tutulan şəkər çuğunduru sahələrinin pestisidlərə olan tələbatı 681 ton proqnozlaşdırılır. Beləliklə, ölkənin pestisidlərə olan ümumi tələbatı 9,8 min ton təşkil edəcək. Zavodun fəaliyyətə başlaması bu məhsullara olan daxili tələbatın tam ödənilməsinə imkan verəcək.

Beləliklə, Prezident İlham Əliyevin müvafiq tapşırıqlarına uyğun olaraq, aqrar sektorda innovativ texnologiyaların və pestisidlərin tətbiqi kənd təsərrüfatı məhsullarının intensiv metodla yetişdirilməsinə, məhsuldarlığın və keyfiyyətin artırılmasına, eləcə də yüksək rəqabətqabiliyyətliliyin təmin olunmasına imkan verəcək.

Sonra Prezident İlham Əliyev Sumqayıt Kimya Sənaye Parkının rezidenti - "STDC" Məhdud Məsuliyyətli Cəmiyyətinin layihəsi olan məlumatların emalı, qeydə alınması və ötürülməsi mərkəzinin - Data Mərkəzin açılışında iştirak etdi.

"Azərenerji" ASC-nin prezidenti Etibar Pirverdiyev dövlətimizin başçısına mərkəz barədə məlumat verdi.

Bildirildi ki, ümumi investisiya dəyəri 60 milyon ABŞ dolları olan Data Mərkəzdə yüksək gücə malik texnoloji hesablama, kommunikasiya və təhlükəsizlik avadanlıqlarından istifadə edilib. Data Mərkəzin yaradılmasında məqsəd İKT sahəsində istehsalyönümlü fəaliyyəti stimullaşdırmaq, bu sahədə innovasiyaların tətbiqinə, eləcə də tətbiqi elmi tədqiqat işlərinin genişləndirilməsinə, ixracyönümlü layihələrin icrasına nail olmaq və bu sahəyə xarici investisiyaları cəlb etməkdir. Müəssisə müxtəlif tipli informasiyaların emalı, saxlanılması və ötürülməsi, informasiya təhlükəsizliyinin təmin olunması sahəsində beynəlxalq və yerli müştərilərə xidmət göstərəcək. Burada nəzarət və digər sistemlərin idarə edilməsi dördnövbəli iş rejimi ilə bütün sutkanı əhatə edəcək.

Prezident İlham Əliyev Data Mərkəzi işə saldı.

Bu cür Mərkəzin açılması ölkəmizdə yüksək texnologiyaların tətbiqinə, informasiya texnologiyalarının inkişaf etdirilməsinə, yerli yüksək ixtisaslı mütəxəssislərin yetişdirilməsinə və informasiya təhlükəsizliyinin təmin edilməsinə xidmət edəcək. Layihə çərçivəsində gələcəkdə Azərbaycan ərazisindəki müxtəlif mərkəzlərdə yüksək məhsuldarlıqlı hesablama mərkəzlərinin yaradılması planlaşdırılır. Qeyd olunan hesablama mərkəzləri əməliyyatların uçotunun aparılması üçün elektron kitab funksiyasını yerinə yetirən blokçeyn texnologiyaları əsasında istənilən növ paylanmış reyestrlərin tranzaksiyalarının təsdiqi və müdafiəsi əməliyyatları üzrə etibarlı infrastruktur yaradacaq. Blokçeyn sistemi iştirakçılar tərəfindən keçirilmiş bütün tranzaksiyalar haqqında informasiyanı özündə saxlayan şəffaf paylanmış məlumatlar bazasıdır. İndiyədək respublikamızda ölkədaxili blokçeyn tranzaksiyalarının təsdiqi, xarici özəl və publik blokçeyn şəbəkələrlə inteqrasiya üçün nəzərdə tutulmuş infrastruktur mövcud deyildi. Data Mərkəz işə düşdükdən sonra Azərbaycan iqtisadiyyatının müxtəlif sahələri üzrə blokçeyn texnologiyalarının tətbiqi və inkişafı əhəmiyyətli dərəcədə artacaq. Layihə çərçivəsində ilkin mərhələdə 100 nəfər işlə təmin olunub.

Sonra Prezident İlham Əliyev Sumqayıt şəhər ictimaiyyətinin nümayəndələri ilə görüşdü.

Dövlətimizin başçısı görüşdə çıxış etdi.

Prezident İlham Əliyevin
çıxışı

- Bu gün Sumqayıt Kimya Sənaye Parkında bir neçə müəssisə fəaliyyətə başlayır, bir neçə müəssisənin isə təməli qoyulub. Bu, çox gözəl, əlamətdar hadisədir. Bu, bir daha onu göstərir ki, Sumqayıt Kimya Sənaye Parkının yaradılması çox düzgün və vaxtında verilmiş qərardır. Bu gün dörd müəssisənin açılışı qeyd olunur, üç müəssisənin isə təməli qoyulub.

Sumqayıt Kimya Sənaye Parkının yaradılması Azərbaycanda sənaye sahəsində aparılan siyasətin təzahürüdür. Bu ərazidə dövlət tərəfindən bütün lazımi tədbirlər görülmüşdür. Beş yüz hektar sahədə bütün kommunikasiya, rabitə, nəqliyyat, bir sözlə, bütün infrastruktur layihələri dövlət tərəfindən icra edilmişdir. Özəl sektor isə öz növbəsində ölkəmiz üçün vacib olan sahələrə investisiya qoyuluşunu təmin edib. Sumqayıt Kimya Sənaye Parkının timsalında biz dövlət-özəl sektor tərəfdaşlığının gözəl nəticələrini görürük. Bu müəssisələrdə minlərlə insan işlə təmin olunur. Hazırda parkın 15 rezidenti var. Qoyulan və qoyulacaq sərmayələrin məbləği milyardlarla dollar həcmindədir. Əgər biz hələ ki, inşası davam edən bütün layihələri də nəzərə alsaq, 2,7 milyard dollar sərmayə qoyuluşu nəzərdə tutulur.

Bu gün ölkə iqtisadiyyatı, sənaye potensialı üçün vacib olan müəssisələr fəaliyyətə başlayır. O müəssisələr ki, idxaldan asılılığı aradan götürəcək. Bu, məni çox sevindirir. Çünki bizim əsas məqsədlərimizdən biri də odur ki, yerli istehsal artsın, iş yerləri yaradılsın və idxaldan asılılıq azalsın. Bu gün böyük şüşə zavodunun təməli qoyuldu. Bu zavod fəaliyyətə başlayandan sonra artıq Azərbaycanda şüşə idxalı dayandırılacaq. Əksinə, Azərbaycan özü şüşələri ixrac edəcək. Nəzərə alsaq ki, bu gün Bakıda və digər şəhərlərdə yüzlərlə yaşayış binası, müasir göydələnlər tikilir, şüşəyə tələbat çox böyük olacaq.

Siz bilirsiniz ki, biz son vaxtlar xalçaçılığın inkişafına çox böyük diqqət göstəririk və artıq qısa müddət ərzində on xalça fabriki açılıbdır. Gələn il də on fabrik açılacaq və bütövlükdə otuz xalça fabrikinin yaradılması nəzərdə tutulur. Əlbəttə ki, bu fabriklərin uğurlu fəaliyyəti üçün yerli xammal lazımdır və əyirici-boyaq fabrikinin təməli də bu gün qoyulub. Bu, dövlət investisiyası hesabına yaradılacaq müəssisədir. Beləliklə, biz bütün xalçaçıları, həm bu fabriklərdə çalışan, eyni zamanda, fərdi qaydada işləyən xalça ustalarımızı öz xammalımızla təmin edəcəyik.

Bu gün, eyni zamanda, siqaret fabrikinin təməli qoyulubdur. Bu fabrikin də çox böyük əhəmiyyəti var. Biz indi siqaret idxalından asılıyıq. Əlbəttə, biz hamımız istəyirik ki, Azərbaycanda siqaret istehlakı azalsın, insanlar bu pis vərdişdən əl çəksinlər. Ancaq hələ ki, bu, belə deyil. Əlbəttə, daxili istehsal xarici istehsalı əvəzləməlidir. Bu fabrikdə istehsal olunacaq məhsul daxili tələbatın əlli faizini bağlayacaq. Əminəm ki, gələcəkdə biz daxili tələbatımızı 100 faiz ödəyəcəyik və eyni zamanda, xarici bazarlara ixrac edəcəyik. Bu gün Azərbaycanda tütünçülük çox sürətlə inkişaf edir. Əlbəttə ki, tütünçülüyün son məhsulu olan siqaret istehsalı da Azərbaycanda yaradılır.

Pestisid zavodunun tikintisi artıq öz həllini tapıb. Bu da çox vacib sahədir. Mənim göstərişimlə bu sahəyə böyük diqqət ayrılır. Çünki bu günə qədər biz yenə də idxaldan asılıyıq. İndi daxili tələbatı bu parkda yaradılan zavod tam ödəyəcək. Gələcəkdə - növbəti mərhələdə isə ixrac imkanı da yaradılacaq. Bu, kənd təsərrüfatının inkişafına çox böyük təkan verəcək. Çünki kənd təsərrüfatı sənaye istehsalı ilə bərabər, bizim əsas, prioritet istiqamətimizdir. Düzgün aqrotexniki tədbirlərin görülməsi nəticəsində biz məhsuldarlığı böyük dərəcədə artıra bilərik.

Bu müasir və çox böyük imkanlara malik olan Data Mərkəzinin açılması da çox əlamətdar hadisədir. Bu, dünyanın ən son texnologiyalarına əsaslanan mərkəzdir. Azərbaycan bu sahədə də dünya miqyasında liderlik nümayiş etdirir. Bildiyiniz kimi, blokçeyn texnologiyası bu gün dünyada çox böyük diqqətə malik olan bir sahədir. Bir çox ölkələr, şirkətlər bu texnologiyanı öz ölkələrinə gətirmək üçün çalışırlar, fəaliyyət göstərirlər. Burada da Azərbaycan ön sıralardadır. Belə böyük və müasir, bütün dünya standartlarına cavab verən Data Mərkəzinin yaradılması onu göstərir ki, biz gələcəyə baxırıq, biz ölkəmizi dünyada gedən mütərəqqi proseslərə uyğun şəkildə inkişaf etdiririk. Bu, həm elm mərkəzidir, həm sənaye müəssisəsidir və həm də böyük biznes sahəsidir.

Bir sözlə, bir gündə Sumqayıtda, görün, yeddi müəssisəyə təkan verilir, onların fəaliyyəti təmin edilir. Əgər biz Sumqayıt Kimya Parkının digər rezidentlərini də əlavə etsək, görərik ki, bu, doğrudan da dünya miqyasında böyük bir sənaye mərkəzidir. Çünki hazırda "SOCAR Polymer" və karbamid zavodlarının tikintisi davam edir. Bu iki layihənin ümumi sərmayə həcmi 1 milyard 700 milyon dollardır. Bu, bizə imkan verəcək ki, həm yerli istehsalı, yerli xammalı təmin edək, həm də ki, böyük ixrac imkanları yaradılacaq.

Qeyd etdiyim kimi, bu sənaye parkında bütövlükdə 15 rezident var. Həm xarici, həm də daxili investorlar burada fəaliyyət göstərirlər. Əgər biz vaxtında bu qərarı qəbul etməsəydik və dövlət öz tərəfindən bütün lazımi tədbirləri görməsəydi, o cümlədən maliyyə dəstəyini göstərməsəydi, əlbəttə ki, bu gün bu park da olmayacaqdı və biz bu gözəl imkanlardan məhrum ola bilərdik. Əminəm ki, Sumqayıt Kimya Sənaye Parkının fəaliyyəti gələcəkdə daha da genişləndiriləcəkdir. Burada böyük ərazilər var, yeni layihələr təqdim olunur, yeni layihələr nəzərdən keçirilir. Ona görə bu parkın çox böyük gələcəyi var.

Sumqayıt bu gün Cənubi Qafqazda Bakıdan sonra ikinci böyük sənaye şəhəridir. Burada yaradılan sənaye müəssisələri ən yüksək standartlara cavab verir. Bu, yeni iş yerlərinin yaradılması deməkdir. Mənə verilən məlumata görə, hazırda Kimya Sənaye Parkında 8 mindən çox insan işləyir - həm tikintidə, həm də müəssisələrin idarə olunmasında. Gələcəkdə bu rəqəm daha da artacaq. Deməli, Sumqayıtda işsizliklə bağlı bütün məsələlər öz həllini tapacaq. Biz gələcəkdə də Sumqayıtın hərtərəfli inkişafı üçün öz dəstəyimizi verəcəyik.

O ki qaldı, sənaye zonalarının yaradılmasına, bu proses ölkəmizdə geniş vüsət alıb. Neftçala Sənaye Məhəlləsi fəaliyyətə başlayıb, Hacıqabul, Masallı, Sabirabad rayonlarında oxşar zonalar yaradılır. Mingəçevir Yüngül Sənaye Parkında birinci böyük fabrikin açılışı gələn ilin əvvəlində nəzərdə tutulur. Yəni, Azərbaycanda sənayeləşmə prosesi sürətlə gedir. Bunun təməlində bizim siyasətimiz, xarici və yerli investorların inamı dayanır. Çünki ancaq sabit olan ölkələrə investisiya cəlb olunur. Azərbaycan o ölkələrdəndir ki, çox gözəl beynəlxalq nüfuza malikdir, iqtisadi cəhətdən uğurla inkişaf edir. Davos Forumunun hesablamalarına görə, ölkə iqtisadiyyatlarının rəqabətqabiliyyətliliyinə görə biz 35-ci yerdəyik. Bu gün Sumqayıtda bu 7 müəssisənin, bundan əlavə, bu müəssisələri qidalandıran yarımstansiyaların fəaliyyətə başlaması bizim düzgün siyasətimizi bir daha göstərir və biz 2017-ci ili uğurla başa vururuq.

Sumqayıtın ümumi inkişafı məni çox sevindirir. Mən on səkkizinci dəfədir ki, Sumqayıtda səfərdəyəm. Bu il ikinci dəfədir ki, gəlmişəm. Şəhərdə bütün infrastruktur layihələri demək olar ki, başa çatmaq üzrədir. Fasiləsiz içməli su ilə təminat 94 faizə çatıbdır, qazlaşma 100 faizdir, elektrik enerjisi ilə heç bir problem yoxdur, yeni yollar salınır. Biz bu il Bilgəh-Sumqayıt sahilboyu yeni yolun salınmasını təmin etdik. Sosial obyektlər, məktəblər, xəstəxanalar, Olimpiya kompleksi, Paralimpiya mərkəzi, "ASAN xidmət" mərkəzi yaradılıb. Bu gün biz "Kimyaçı" Mədəniyyət Sarayının əsaslı təmirdən sonra açılışını

qeyd edəcəyik. Yəni, həm sosial, həm iqtisadi sahədə, sənaye sahəsində çox böyük inkişaf var. Sumqayıt bulvarı isə, - mən bunu bulvarın açılışında da demişəm", - bir möcüzədir. Çünki qısa müddət ərzində belə bulvarın salınması doğrudan da çox böyük hadisədir. İnsanların rahat yaşaması, işlə təmin olunması üçün bütün işlər görülür. Bir daha demək istəyirəm ki, Sumqayıt dünya miqyasında böyük müasir sənaye mərkəzinə çevrilir. Bir məsələni də qeyd etməliyəm ki, bütün müəssisələr ən yüksək ekoloji standartlara malikdir. Bunu mən xüsusi tapşırmışdım. Çünki bilirsiniz ki, vaxtilə Sumqayıtın ekoloji vəziyyəti çox ağır idi. Hətta bütün beynəlxalq reytinqlərdə dünyanın ekoloji cəhətdən ən problemli şəhərlərindən biri idi. Bu gün isə Sumqayıt ekoloji cəhətdən bəlkə də ən gözəl və təmiz şəhərlərdən biridir. Bax, biz buna nail ola bilmişik. Buna görə Sumqayıtın ekoloji vəziyyətinin daim yaxşılaşdırılması diqqət mərkəzindədir və bu gün buranın təmiz havası, gözəl iqlimi əminəm ki, sumqayıtlılar üçün də çox önəmlidir.

Biz ili uğurla başa vururuq. On bir ayda sənaye istehsalı qeyri-neft sahəsində 3,5 faiz, qeyri-neft iqtisadiyyatımız 2,4 faiz, kənd təsərrüfatı 4 faizdən çox artıbdır. Budur, əsas iqtisadi göstəricilərimiz. Valyuta ehtiyatlarımız da artır, maliyyə vəziyyətimiz də çox sabitdir. Bu gün Azərbaycan belə gözəl əsərlər yaradır və xalqımıza bəxş edir.

Burada, bu görüşdə iştirak edən bütün vətəndaşlar bu gün açılışında və təməlinin qoyuluşunda iştirak etdiyim müəssisələrin nümayəndələridir. Mən sizi təbrik edirəm, sizə uğurlar arzulayıram. Sizi qarşıdan gələn Yeni il və Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə təbrik edirəm. Sağ olun.

X X X

"Azərikimya" İstehsalat Birliyinin əməkdaşı Şəhla ABDULLAYEVA çıxış edərək dedi:

-Möhtərəm cənab Prezident, Sizi əməksevər sumqayıtlılar adından salamlayıram. Bizim gündən-günə gözəlləşən Sumqayıt şəhərimizə gəldiyiniz üçün Sizə minnətdarlığımı bildirirəm. Siz hamıdan yaxşı bilirsiniz ki, Sumqayıt böyük kimya sənayesi şəhəri kimi yenilənib. Sumqayıtın kimya sənayesi mərkəzi kimi formalaşmasında ulu öndərimiz Heydər Əliyevin misilsiz rolu olub. Ulu öndər Heydər Əliyevin hakimiyyətdə olduğu dövrlərdə Sumqayıtda neft-kimya sənayesi yenilənib və müasir texnologiyalara uyğun olaraq yeni müəssisələr yaradılıb. Buna görə də Sumqayıtın adı Ulu Öndərimizin daim diqqət və qayğı göstərdiyi şəhər kimi ölkəmizin şanlı tarixinə yazılıb.

Cənab Prezidentimiz, biz çox sevinirik ki, Siz Ulu Öndərimizin layiqli davamçısı kimi bizim doğma Sumqayıt şəhərimizə daim diqqət və qayğı göstərirsiniz. Buna görə Sizə minnətdarıq. Son zamanlar Sumqayıt Kimya Sənaye Parkının yaradılması bunun bariz nümunələrindən biridir. Burada müxtəlif zavodlar, fabriklər tikilib. Biz dəqiq bilirik ki, insanlar işsiz qalmayacaq. Son zamanlar Cənubi Qafqazın ən iri sənaye şəhərlərindən birinə çevrilən Sumqayıtımız üçün Sizə minnətdarıq. Çox sağ olun, cənab Prezidentimiz.

Hamı yaxşı bilir ki, gənclər şəhəri Sumqayıt gündən-günə gözəlləşir, abadlaşır. Bu, insanlarımızı sevindirir. Biz bunu insanların simasından, çöhrəsindən hiss edirik. Sumqayıta gələn qonaqlar şəhərimizin gözəlliyinə, gözoxşayan bulvara, yeni tikilmiş binalara heyran qalırlar. Biz bilirik ki, onlar şəhərimizə həsəd aparırlar. Bunun üçün biz, cənab Prezidentimiz, Sizə və Sizinlə çiyin-çiyinə böyük əzmlə xalqımıza xidmət göstərən Mehriban xanıma minnətdarıq. Sizdən biz sumqayıtlıların salamlarını Mehriban xanıma çatdırmağı xahiş edirik. Biz sumqayıtlılar həmişə Sizinləyik. Allah Sizi və ailənizi qorusun.

Prezident İlham ƏLİYEV: Çox sağ ol, təşəkkür edirəm.

X X X

"Gilan Sənaye Qrupu"nun baş direktorunun müavini Zaur QASIMOV çıxış edərək dedi:

-Cənab Prezident, bu mürəkkəb zamanda Sizin yürütdüyünüz çevik siyasət nəticəsində iqtisadiyyatın bütün sahələri üzrə məqsədyönlü tədbirlər həyata keçirilir. Respublikamızın şəhərlərində iri sənaye müəssisələri, texnoparklar, regionlarda isə sənaye zonaları yaradılır. Aqrar sahədə intensiv metodlara keçidin və müasir texnologiyaların tətbiqinin təmin olunması üçün "Gilan Sənaye Qrupu" Sizin tapşırığınıza uyğun olaraq "Aqrokimya Azərbaycan" müəssisəsinin yaradılması qərarına gəlib. Sizin tapşırığınıza əsasən bu müəssisə məhz Sumqayıt Kimya Sənaye Parkında yerləşdirilərək rezident statusunu alıb və rezidentlərə verilən dövlət dəstəyi mexanizmlərindən tam faydalanıb. Müəssisəmiz aqrar sahəyə dəstək verməklə yanaşı, bazarın tələbatına uyğun olaraq 10 min ton bitki mühafizə vasitəsi istehsalı gücünə malikdir və bununla da dünya standartlarına uyğun 145 çeşiddə pestisid istehsalı ilə məşğul olacaqdır.

Möhtərəm cənab Prezident, yerli istehsalçılara verdiyiniz dəstəyə görə Sizə dərin təşəkkürümüzü bildiririk. Sizi əmin edirik ki, bizim müəssisə də Sizin rəhbərliyinizlə aqrar sahədə həyata keçirilən siyasətə öz töhfəsini verəcək.

X X X

Sonda xatirə şəkli çəkdirildi.

Xalq qəzeti.- 2017.- 16 dekabr.- № 278.- S.1-2.

Sumqayıtda Bayraq Muzeyinin açılışı olub
(15 dekabr 2017-ci il)

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 15-də Sumqayıtda Bayraq Muzeyinin açılışında iştirak edib.

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev muzeyin rəmzi açılışını bildirən lenti kəsdi.

Muzeylə tanış olan dövlətimizin başçısına məlumat verildi ki, binanın inşasına 2017-ci ilin fevralında başlanılıb və sentyabr ayında tikinti işləri başa çatdırılıb. İnşaat işləri yüksək keyfiyyətlə aparılıb. Ümumi ərazisi 10 min kvadratmetr olan muzeyin üçmərtəbəli binasında iki sərgi zalı, inzibati və yardımçı otaqlar yaradılıb. Sərgi zallarında 6 bölmə fəaliyyət göstərəcək. Burada Azərbaycan xanlıqlar dövrünün xəritəsi, bayraqları, orta əsrlərə aid döyüşçüləri əks etdirən manikenlər nümayiş olunur. Muzeyin eksponatları arasında XIX əsr Azərbaycan şəhərlərinin gerbləri, qədim metal sikkələr, kağız pullar, Azərbaycan Xalq Cümhuriyyəti dövrünə aid sənədlər, keçmiş Azərbaycan SSR-in və müstəqil Azərbaycan Respublikasının konstitusiyaları, gerblər, bayraqlar var. Ekspozisiyalarda müxtəlif illərə aid poçt markaları, orden və medallar da nümayiş olunur.

Bayraq Muzeyi Sumqayıt Dənizkənarı Bulvarın ərazisində yerləşir. Muzeyin məhz bu ərazidə inşa edilməsi şəhər sakinləri ilə yanaşı, qonaqların da buradakı eksponatlarla tanış olmalarına imkan yaradır.

Prezident İlham Əliyevə məlumat verildi ki, bulvarın sahilində gəmilərin yanalması üçün uzunluğu 800 metr olan körpü inşa edilib. Burada 10 metr hündürlüyündə estakada salınıb. Ərazidə müasir işıqlandırma sistemi və oturacaqlar quraşdırılıb.

Qeyd edək ki, bu cür muzeylərin yaradılması gənc nəsildə vətənpərvərlik hisslərinin aşılanması, onların Vətənə, dövlətə məhəbbət ruhunda yetişməsi və bir şəxsiyyət kimi formalaşması məsələsində mühüm rol oynayır.

AZƏRTAC
2017, 15 dekabr

Prezident İlham Əliyev Yeni Azərbaycan Partiyası Sumqayıt şəhər təşkilatının inzibati binasının açılışında iştirak edib

(15 dekabr 2017-ci il)

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 15-də Yeni Azərbaycan Partiyası Sumqayıt şəhər təşkilatının inzibati binasının açılışında iştirak edib.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı binanın rəmzi açılışını bildirən lenti kəsdi.

Azərbaycanda regionların sürətli sosial-iqtisadi inkişafı göstərir ki, Prezident İlham Əliyev ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi strategiyanı uğurla davam etdirir. Paytaxtla yanaşı, bölgələr də inkişaf edir. Regionlarda yeni inzibati binaların tikintisi davam etdirilir. Azərbaycanın aparıcı siyasi qüvvəsi olan və 2017-ci ildə yaranmasının 25 illiyini qeyd edən Yeni Azərbaycan Partiyası ölkə həyatının bütün sahələrində yaxından iştirak edir, respublikamızın tərəqqisinə mühüm töhfələr verir. Sıraları getdikcə genişlənən partiyanın ümumi amallar naminə uğurlu fəaliyyətində rayon təşkilatlarının da böyük rolu var. Yeni Azərbaycan Partiyası rayon təşkilatlarının yeni inşa olunmuş inzibati binaları da müasirliyi ilə seçilir və həmin binalarda səmərəli fəaliyyət üçün hər cür şərait yaradılır.

Son illərdə Sumqayıt şəhərində çoxlu sosial təyinatlı infrastruktur obyektləri tikilib istifadəyə verilib. Bu sırada inzibati binalar da xüsusi əhəmiyyət kəsb edir. Sumqayıt şəhərinin ictimai-siyasi həyatında mühüm rol oynayan partiyanın yeni inzibati binasında yaradılan şərait təsdiqləyir ki, Yeni Azərbaycan Partiyası müstəqil Azərbaycanın daha parlaq gələcəyi naminə fəaliyyətində bundan sonra da səylərini əsirgəməyəcək.

Məlumat verildi ki, üçmərtəbəli binanın foyesində Yeni Azərbaycan Partiyasının yaradıcısı ulu öndər Heydər Əliyevin büstü qoyulub, Heydər Əliyev guşəsi yaradılıb. Binada inzibati otaqlar, həmçinin deputat otağı, 300 yerlik iclas zalı var. İclas zalında Yeni Azərbaycan Partiyasının fəaliyyəti ilə bağlı müxtəlif tədbirlərin, seminarların və konfransların yüksək səviyyədə keçirilməsi mümkündür. Burada, eyni zamanda, şəhərin həyatında baş verən əlamətdar günlərlə bağlı tədbirlər keçiriləcək. Binada müxtəlif xidmət otaqları da fəaliyyət göstərəcək.

Onu da deyək ki, respublikanın hər yerində olduğu kimi, Sumqayıt şəhərində də Yeni Azərbaycan Partiyasının üzvləri fəallıqları ilə seçilirlər. Onlar şəhərin ictimai-siyasi həyatında fəal iştirak edir, Sumqayıtın sosial-iqtisadi inkişafına töhfələrini verirlər. Hazırda Yeni Azərbaycan Partiyası Sumqayıt şəhər təşkilatının 26 min 150 nəfər üzvü var ki, onlardan da 13 min 837-si qadınlar, 14 min 429-u isə gənclərdir.

AZƏRTAC
2017, 15 dekabr

Prezident İlham Əliyev Sumqayıtda "Kimyaçı" Mədəniyyət Sarayında əsaslı təmirdən sonra yaradılan şəraitlə tanış olub

(15 dekabr 2017-ci il)

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 15-də Sumqayıtda Dövlət Neft Şirkətinin "Azərikimya" İstehsalat Birliyinin "Kimyaçı" Mədəniyyət Sarayında əsaslı təmirdən sonra yaradılan şəraitlə tanış olub.

AZƏRTAC xəbər verir ki, Dövlət Neft Şirkətinin "Azərikimya" İstehsalat Birliyinin Müşahidə Şurasının sədri Muxtar Babayev görülən işlərlə bağlı dövlətimizin başçısına ətraflı məlumat verdi.

Bildirildi ki, Sumqayıtda "Kimyaçı" Mədəniyyət Sarayı 1986-cı ildə istifadəyə verilib. 2011-ci ildə Prezident İlham Əliyev Sumqayıt şəhərinə səfəri zamanı "Kimyaçı" Mədəniyyət Sarayının mövcud vəziyyəti ilə tanış olub, bu mədəniyyət ocağının əsaslı şəkildə yenidən qurulması ilə bağlı tapşırıqlar verib. 2013-cü ilin oktyabr ayında isə burada əsaslı təmir işlərinə başlanılıb. Elə həmin il dövlətimizin başçısı Sumqayıta səfəri zamanı Mədəniyyət Sarayında və ətraf ərazidə aparılan abadlıq-quruculuq işləri ilə tanış olub. Yenidənqurma işləri bu ilin sentyabr ayında tam başa çatdırılıb. Sarayın yenidən qurulması işləri yüksək keyfiyyət və müasir dizaynla yerinə yetirilib. Üçmərtəbəli binanın ümumi sahəsi 6900 kvadratmetrdir. Saraydakı 750 tamaşaçı yerlik konsert zalı yüksək səviyyədə qurulub. Zalın yenidən qurulması zamanı müasir akustik sistemlərdən istifadə olunub. Həmçinin binada qonaq, qrim və rejissor otaqları yaradılıb. Sahəsi 270 kvadratmetr olan rəqs zalı, kafe və dərnək otaqları da mədəniyyətsevərlərin ixtiyarına verilib.

"Kimyaçı" Mədəniyyət Sarayında təsviri və tətbiqi incəsənət, əl ilə toxuma dərnəkləri fəaliyyət göstərir.

Dövlətimizin başçısına Mədəniyyət Sarayındakı xalça qobelen haqqında da məlumat verildi. Bildirildi ki, müəllifi Xalidə Seyidova olan bu xalça 1980-ci ildə toxunub. Yun tərkibli xovsuz toxunuşlu, sadə və mürəkkəb keçirtmə əl işi olan xalça bir-birinə birləşdirilmiş altı hissədən ibarətdir. Ara sahənin üzərində Azərbaycanın görkəmli tarixi şəxsiyyətlərinin və mədəniyyət xadimlərinin portretləri, Qobustan qayaüstü təsvirlər, xalça naxışları təsvir olunub.

Prezident İlham Əliyev sumqayıtlı sənətkarların əl işləri ilə tanış oldu.

Sarayda xanəndəlik, zərb alətləri, rəqs, instrumental ifaçılıq dərnəkləri də fəaliyyət göstərir.

Azərbaycan zəngin mədəniyyəti ilə həmişə fəxr edib. Azərbaycanın mədəni dəyərləri dünya mədəniyyətinin ayrılmaz parçasıdır. Son illərdə Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Azərbaycanda mədəniyyət sahəsinin inkişafı istiqamətində çox mühüm və tarixi işlər görüblər. Bu baxımdan yeni mədəniyyət ocaqlarının yaradılması, mövcudlarının isə əsaslı şəkildə yenidən qurulması ilə bağlı layihələrin coğrafiyası son illərdə daha da genişlənib. "Azərikimya" İstehsalat Birliyinin "Kimyaçı" Mədəniyyət Sarayının əsaslı şəkildə yenidən qurulması da bu işlərin ardıcıl surətdə davam etdirilməsini nümayiş etdirir.

Mədəniyyət Sarayının qarşısındakı 5 hektarlıq meydanda geniş abadlıq-quruculuq və yaşıllaşdırma işləri aparılıb, kommunikasiya xətləri və işıqlandırma sistemi yenidən qurulub. Burada fəvvarə və 100 avtomobil yerlik dayanacaq yaradılıb.

AZƏRTAC
2017, 15 dekabr

Sumqayıtda Lüdviqshafen parkında əsaslı təmirdən sonra yaradılan şəraitlə tanışlıq
(15 dekabr 2017-ci il)

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 15-də Sumqayıta səfəri çərçivəsində şəhərin Lüdviqshafen parkında əsaslı təmirdən sonra yaradılan şəraitlə tanış olub.

Son illərdə Azərbaycanda həyata keçirilən sosial-iqtisadi inkişaf strategiyası bölgələrin daha da gözəlləşməsi, regionların simasına yeni elementlərin daxil olması ilə müşayiət olunur. Ölkəmizin bütün bölgələrində müasir səviyyədə ictimai yerlərin, bulvarların, parkların və xiyabanların yaradılması tədbirləri davam etdirilir. Bu proses Sumqayıtda da geniş vüsət alıb. Bu sahədə görülən işlər sakinlərin rahatlığı, asudə vaxtlarının daha da səmərəli təşkili məqsədi daşımaqla yanaşı, müasirləşən Sumqayıtın gözəlliyinə əlavə çalarlar qatır.

AZƏRTAC xəbər verir ki, Sumqayıtın Lüdviqshafen parkında geniş abadlıq-quruculuq işləri aparılıb, yaşıllıq zolaqları salınıb. Burada aparılan yenidənqurma işləri ərazinin gözəlliyini daha da artırır. Görülən bu işlər sakinlərin və şəhərə gələn qonaqların rahatlığı üçün müasir istirahət guşələrinin yaradılması istiqamətində reallaşdırılan layihələrin bir hissəsidir. Yeni parkların, istirahət məkanlarının və guşələrinin yaradılması, əhaliyə xidmət göstərən müasir infrastrukturun qurulması Sumqayıtın daha da gözəlləşməsi işinin davamlı xarakter almasından və ümumilikdə şəhərin sosial-iqtisadi inkişafından xəbər verir.

Şəhərin 9-cu mikrorayonunun ərazisində yerləşən Lüdviqshafen parkı müasir səviyyədə yenidən qurulub. Bu istirahət məkanı Sumqayıt şəhəri ilə qardaşlaşmış Almaniyanın Lüdviqshafen şəhərinin şərəfinə salınıb.

Onu da deyək ki, Lüdviqshafen şəhərində də Sumqayıt parkı mövcuddur. Bu park 1997-ci ildə Sumqayıt-Lüdviqshafen əlaqələrinin 20 illiyi münasibətilə salınıb. Ümumi ərazisi 2 hektar olan parkda sakinlərin istirahəti üçün geniş imkanlar yaradılıb. Yenidənqurma işləri zamanı müasir işıqlandırma sistemi yaradılıb, yaşıllıq zolaqları salınıb, dekorativ ağaclar və gül kolları əkilib. Bu park Sumqayıtın gəzməli yerlərinə daha bir ünvan əlavə edib. Mövcud istirahət mərkəzlərinin, parkların, xiyabanların yenidən qurulması, yeni istirahət guşələrinin açılması, ilk növbədə, sosial layihədir. Bununla yanaşı, belə layihələrin icrası ölkəmizin iqtisadi potensialını nümayiş etdirir.

AZƏRTAC
2017, 15 dekabr

Prezident İlham Əliyev "Baku Steel Company" MMC-nin Sumqayıt boruyayma zavodunun yenidənqurmadan sonra açılışında iştirak edib
(15 dekabr 2017-ci il)

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 15-də "Baku Steel Company" MMC-nin Sumqayıt boruyayma zavodunun yenidənqurmadan sonra açılışında iştirak edib.

Dünyada maliyyə və iqtisadi böhranın davam etdiyi bir dövrdə Azərbaycan iqtisadiyyatı sürətlə inkişaf edir. Prezident İlham Əliyevin tapşırıqlarına uyğun olaraq iqtisadiyyatın şaxələndirilməsi, qeyri-neft sektorunun və sənayenin əsaslı şəkildə inkişafı başlıca prioritetlərdəndir. Qarşıya qoyulan əsas məqsədlərdən biri də ölkəmizin bütün regionlarında sənayeni daha da inkişaf etdirməkdir. Ölkənin qeyri-neft sektoruna yönəldilən investisiyalar Azərbaycan iqtisadiyyatının daha da inkişafına və keyfiyyətli yerli məhsullar istehsalının genişləndirilməsinə hərtərəfli təkan verir. Bu baxımdan "Baku Steel Company" MMC-nin Sumqayıt boruyayma zavodu ölkə iqtisadiyyatına mühüm töhfədir. Bu cür zavodların fəaliyyəti ölkə iqtisadiyyatının sənayeləşdirilməsinin sürətləndirilməsinə, yeni təşəbbüslər nəzərə alınmaqla sənayenin modernləşməsinə, rəqabətqabiliyyətli müasir və prioritet istehsal sahələrinin yaradılmasına, sənayenin innovasiyalar əsasında inkişafının və yeni iş yerlərinin açılmasının təmin edilməsinə xidmət edir. Hazırda enerjidən səmərəli istifadə edilən, yüksək əlavə dəyər yaradan və ən son elmi-texniki yeniliklərə əsaslanan rəqabətqabiliyyətli sənaye istehsalının genişləndirilməsi üçün respublikamızda yenidənqurma tədbirləri ardıcıl xarakter daşıyır. "Baku Steel Company" MMC-nin Sumqayıt boruyayma zavodunda da bu istiqamətdə tədbirlər davam etdirilir.

AZƏRTAC xəbər verir ki, "Baku Steel Company" MMC-nin Müşahidə Şurasının sədri Rasim Məmmədov dövlətimizin başçısına görülən işlərlə bağlı ətraflı məlumat verdi.

Bildirildi ki, Azərbaycan boruyayma zavodu 1947-ci ildə yaradılıb, tam gücü ilə istehsal fəaliyyətinə isə 1952-ci ilin dekabrında başlayıb. Keçmiş SSRİ ərazisində tikişsiz boru istehsal edən 26 müəssisədən biri olan bu zavodda çalışanların sayı 12 min nəfər, onun illik istehsal gücü isə 1 milyon ton məhsul təşkil edib. 1979-cu ildə ulu öndər Heydər Əliyevin tapşırığına əsasən zavodun ərazisində neft sənayesi üçün qazma borularının istehsalı sahəsi yaradılıb. Bununla da zavod keçmiş SSRİ məkanında qazma borusu istehsal edən 3 müəssisədən birinə çevrilib. Zavodda istehsal olunan qazma, qoruyucu, nasos-kompressor, neft-qaz boruları, həmçinin ümumi təyinatlı borular neft və maşınqayırma sənayesində geniş istifadə edilib. 1995-ci ildə zavod fəaliyyətini tamamilə dayandırıb. İstehsal sahələri və qurğuları texniki cəhətdən yararsız hala düşüb. 2016-cı ilin oktyabr ayında "Baku Steel Company" MMC-nin oksigen zavodunun açılışı zamanı Prezident İlham Əliyev Sumqayıt boruyayma zavodunun əsaslı yenidən qurulması və fəaliyyətə başlaması barədə tapşırıqlar verib. Həmin tapşırıqlar əsasında zavod qısa müddət ərzində yenidən qurulub və fəaliyyətə başlaması üçün tam hazır vəziyyətə gətirilib.

Dövlətimizin başçısı zavodu işə saldı.

Məlumat verildi ki, yenidənqurmadan sonra zavodun illik istehsal gücü 90 min tondan 200 min tona çatdırılıb. Müəssisədə quraşdırılan müasir avadanlıq keyfiyyətli məhsul əldə etməyə imkan verir. Quraşdırılan avadanlıq dünyanın bu sahədə aparıcı şirkətlərinin məhsuludur. Müəssisədə 531 nəfər daimi işlə təmin edilib ki, onların da orta aylıq əməkhaqqı 1500 manatdır. Zavodda 3 növbə üzrə 24 saatlıq rejimdə fəaliyyət göstərən 180 yerlik yeməkxana inşa edilib.

Müəssisənin mərkəzi sınaq laboratoriyası ABŞ, Avropa, Çin və Tayvanda istehsal olunan müasir avadanlıqlarla təchiz edilib. Laboratoriyada metalın bərkliyini, möhkəmliyini, axma həddini və nisbi uzanmasını təyin edən avadanlıq quraşdırılıb, mikro və makrostruktur analizlər üçün hər növ mikroskoplar, metalın kimyəvi tərkibini təyin edən spektrometr qoyulub. Azərbaycan istehsalı olan borular daxili bazarda satılmaqla yanaşı, xarici ölkələrə də ixrac ediləcək. Müəssisənin məhsullarının Almaniya, Hollandiya, Belçika, İtaliya, Avstriya, Türkiyə, Rusiya, Qazaxıstan, Litva və Ukraynaya ixracı nəzərdə tutulur.

Zavodun ərazisində geniş abadlıq işləri aparılıb, 38 min kvadratmetr sahədə yaşıllıq sahəsi salınıb.

Sonda xatirə şəkli çəkdirildi.

AZƏRTAC
2017, 15 dekabr

Sumqayıt Kimya Sənaye Parkında "SOCAR Polymer" layihəsi çərçivəsində inşa edilən polipropilen zavodunun açılışı olub
Azərbaycan Prezidenti İlham Əliyev və İtaliya Prezidenti Sercio Mattarella açılışda iştirak ediblər
(18 iyul 2018-ci il)

İyulun 18-də Sumqayıt Kimya Sənaye Parkının ərazisində "SOCAR Polymer" layihəsi çərçivəsində inşa edilən polipropilen zavodunun açılışı olub.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və ölkəmizdə rəsmi səfərdə olan İtaliya Respublikasının Prezidenti Sercio Mattarella açılış mərasimində iştirak ediblər.

Prezident İlham Əliyev və Prezident Sercio Mattarella tədbirdə çıxış etdilər.

Prezident İlham Əliyevin
çıxışı

-Hörmətli İtaliya Prezidenti cənab Sercio Mattarella.

Hörmətli qonaqlar.

Xanımlar və cənablar.

Bu gün ölkəmizin həyatında çox əlamətdar bir gündür. Bu gün Sumqayıtda yeni böyük sənaye müəssisəsinin açılışına toplaşmışıq. Bu münasibətlə sizi və bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm.

Bu mərasimdə bizimlə bərabər İtaliya Prezidenti cənab Sercio Mattarella iştirak edir. Buna görə, cənab Prezident, Sizə minnətdaram. İtaliyanın Prezidentinin bu mərasimdə iştirakı müəssisənin əhəmiyyətini daha da artırır. Eyni zamanda, bu müəssisənin yaradılması İtaliya-Azərbaycan dostluğunun təzahürüdür. Çünki bu böyük sənaye müəssisəsi beynəlxalq əməkdaşlıq nəticəsində yaranmışdır. İtaliya şirkəti "Maire Tecnimont" bütün inşaat işlərini yüksək səviyyədə aparmış və gözəl bir əsər yaratmışdır.

Polipropilen zavodunun istifadəyə verilməsi və ilin sonunda polietilen zavodunun istifadəyə verilməsi nəticəsində Azərbaycanın ixrac potensialı böyük dərəcədə artacaq. Hər iki zavodda hər il 300 min ton məhsul istehsal olunacaq və məhsulun 70 faizi xarici bazarlara ixrac ediləcək. Beləliklə, Azərbaycan idxaldan asılılığı tamamilə aradan götürəcək və ölkəmizin böyük həcmdə qeyri-neft ixracı yaradılacaqdır.

Bizim iqtisadi sahədə və sənaye istehsalı sahəsində məqsədimiz məhz bundan ibarətdir. Biz bu zavodun timsalında Azərbaycanda son illər ərzində aparılan uğurlu iqtisadi və sənaye siyasətini görürük. Ən yüksək texnologiyalara malik olan zavod bu gün fəaliyyət göstərir. Zavodda yüzlərlə iş yeri yaradılır, daha dəqiq desəm, 500-dən çox yeni iş yeri yaradılacaqdır. İdxaldan asılılıq tamamilə aradan götürülür, gözəl ixrac imkanlarımız yaradılır. Kadr hazırlığı çox yüksək səviyyədə öz həllini tapmışdır. Azərbaycanın qeyri-neft sektorunun inkişafına zavodun çox böyük dəstəyi olacaqdır. Əminəm ki, zavodun fəaliyyəti nəticəsində minlərlə, bəlkə də on minlərlə yeni iş yeri yaradılacaq. Çünki bu zavodda buraxılan xammaldan hazır məhsul istehsal olunacaq və Azərbaycan o məhsulun da idxalından asılılığı aradan götürəcək. Yəni, bu böyük sənaye müəssisəsinin timsalında biz siyasətimizi, aparılan işlərin nəticələrini görürük.

2015-ci ildə, - mən o günü yaxşı xatırlayıram, - zavodun təməli qoyulub və qısa müddət ərzində nəhəng sənaye müəssisəsi yaradılıb. Deyə bilərəm ki, Azərbaycanın müasir tarixində bu ölçüdə və bu səviyyədə sənaye müəssisəsi tikilməmişdir. Düzdür, bizim neft-qaz sektorunda böyük inşaat işlərimiz həyata keçirilmişdir - böyük platformalar, qazma qurğuları, ancaq qeyri-neft sektorunda bu, ən böyük sənaye müəssisəsidir və ən son texnologiyalara malik olan müəssisədir.

Mən fürsətdən istifadə edərək italiyalı tərəfdaşlarımıza bir daha öz təşəkkürümü bildirmək istəyirəm. Əminəm ki, onlar bundan sonra da Azərbaycanda uğurla fəaliyyət göstərəcəklər və belə böyük sənaye müəssisələrinin yaradılması gələcəkdə də aparılacaq, çünki buna böyük ehtiyac var.

Azərbaycan öz sənaye potensialını müasirləşdirir, gücləndirir. Azərbaycanda sənayeləşmə siyasəti çox uğurla gedir. Bu ilin altı ayında qeyri-neft sənayemiz 8,8 faiz artmışdır. Bu, görülən işlərin nəticəsidir. Bu zavodun və ilin sonunda polietilen zavodunun istifadəyə verilməsindən sonra bizim sənaye potensialımız daha da artacaqdır.

Azərbaycanda çox gözəl sərmayə iqlimi vardır. Son 15 il ərzində Azərbaycana 250 milyard dollara yaxın sərmayə qoyulub və biz bu zavodun timsalında bunu görürük. Xarici banklar öz maliyyə dəstəyini

göstərmişdir. Bu zavodun fəaliyyətində ən müasir xarici texnologiyalar tətbiq olunacaq. Bu zavodun tikintisini məşhur İtaliya şirkəti təmin edib.

Bu gün Prezident Sercio Mattarellanın Azərbaycana rəsmi səfəri başlamışdır. Bu, tarixi səfərdir, çünki ilk dəfədir ki, İtaliya Prezidenti Azərbaycana səfər edir. Səfər zamanı apardığımız danışıqlar və fikir mübadiləsi İtaliya-Azərbaycan əlaqələrinin nə qədər yüksək səviyyədə olmasını əyani şəkildə sübut edir. Biz, sözün əsl mənasında, strateji tərəfdaşıq. Biz dostuq. Bizi birləşdirən bir çox layihələr, ortaq maraqlar var. Bu gün bütün bu məsələlər müzakirə olundu. Sabah biz cənab Prezident Sercio Mattarella ilə birlikdə İtaliya və Azərbaycan iş adamları ilə görüşəcəyik, onlara da öz sözümüzü deyəcəyik. Əlbəttə, onlar da bütün bu hadisələri izləyir və görürlər ki, siyasi əlaqələr yüksək səviyyədədir. Beləliklə, biznes dairələri üçün çox gözəl imkanlar açılır. Əminəm ki, həm İtaliya, həm Azərbaycan şirkətləri bu imkanlardan istifadə edib bizim ticarət dövriyyəsinin şaxələndirilməsi istiqamətində önəmli addımlar atacaq.

Bu gün mən artıq rəsmi danışıqlar zamanı qeyd etdim ki, İtaliya bizim üçün bir nömrəli ticarət tərəfdaşıdır. Bu, əlbəttə ki, çox müsbət haldır. Amma biz istəyirik ki, bizim ticarət əlaqələrimiz çoxşaxəli olsun, bir çox sahələri əhatə etsin və buna nail olacağıq.

Bizim gələcək sənaye inkişafımızla bağlı planlarımız əminəm ki, həyata keçiriləcək. Bir çox yeni, ən yüksək texnologiyalara cavab verən sənaye müəssisələri yaradılacaqdır. Ona görə, İtaliya şirkətlərinin Azərbaycanda fəaliyyəti üçün gələcəkdə də geniş meydan, geniş imkanlar olacaqdır.

Mən İtaliya Prezidenti cənab Sercio Mattarellanı bir daha salamlayıram. Qeyd etməliyəm ki, bu müəssisə Sumqayıt şəhərində yaradılır. Sumqayıt şəhərinə ilk dəfədir ki, aparıcı Avropa dövlətinin Prezidenti gəlir. Bu, Sumqayıtın tarixi üçün də çox əhəmiyyətli məsələdir. Sumqayıt indi müasir sənaye şəhəridir. Cənubi Qafqazda Bakıdan sonra ikinci sənaye şəhəridir. Sumqayıt sovet vaxtında kimya sənayesi şəhəri kimi yaradılmışdır. Sumqayıtın çox ciddi ekoloji problemləri var idi. Mən cənab Prezidentə bu barədə məlumat verdim. Ekoloji vəziyyət, havanın çirklənməsi insanları çox narahat edirdi. Bütün bunlara son qoyuldu. Bu gün müasir müstəqil Azərbaycanda ən yüksək ekoloji standartlar təmin edilir və Sumqayıt indi ekoloji inkişaf baxımından ölkəmizin ən qabaqcıl yerlərində qərarlaşıb. Bu zavodun sumqayıtlılar üçün də böyük əhəmiyyəti olacaq. Sumqayıtda yaradılacaq böyük sənaye klasterində minlərlə, on minlərlə insan işləyəcək və beləliklə, şəhərin inkişafı da uğurla gedəcək.

İtaliya Prezidentinin bu zavodun açılışında iştirakı bizi fərəhləndirir. Bu, doğrudan da gözəl hadisədir. Bu, əsl dostluq rəmzidir. Mən İtaliya Prezidentini və onunla bərabər mərasimdə iştirak etmək üçün gəlmiş bütün qonaqları salamlayıram. Zavoda uğurlar arzulayıram. Sağ olun.

x x x

Prezident Sercio Mattarellanın çıxışı

-Prezident İlham Əliyevə təşəkkürümü bildirirəm.

Cənab Prezident, bu gün bu tədbirdə Sizinlə bir yerdə olmaqdan çox məmnunluq hissi duyuram. Mən bu rəsmi səfər çərçivəsində bu tədbirə qoşulmaqdan çox məmnunam. Bu cür tədbirlər İtaliya ilə Azərbaycan arasındakı münasibətlərin çox yüksək səviyyədə olduğunu göstərir. Bu, eləcə də dövlətlər və xalqlar arasında dostluğun və səmimiyyətin bir işarəsidir.

Cənab Prezidentin dediyi kimi, sabah Azərbaycan-İtaliya biznes forumu keçiriləcək. Biz ümid edirik ki, bu forum çərçivəsində yeni münasibətlərin əsaslarını qoya biləcəyik. Mən SOCAR-a və "Maire Tecnimont"a təşəkkürümü bildirirəm. Biz bu gün bu zavodun nə dərəcədə yüksək texnologiyaya malik olduğunu görürük. Təbiidir, biz burada görürük ki, texniki imkanlarından əlavə müəssisənin infrastruktur kimi dizaynı da çox gözəldir. Bu, çox əhəmiyyətli bir layihədir. Çünki ölkənin sənaye imkanlarını yüksək əlavə dəyər baxımından möhkəmləndirir. Həmçinin təbii ki, Azərbaycan ilə İtaliya arasında əməkdaşlığın nə dərəcədə yüksək potensiala malik olduğunu bir daha göstərir.

Bu gün səhər Prezidentlə görüşüm zamanı xarici işlər nazirlərimizin və bizi müşayiət edən nümayəndə heyətinin iştirakı ilə ölkələrimiz arasındakı ikitərəfli məhsuldar əməkdaşlıq barədə danışdıq. Bu gün bizim burada olmağımız və əlbəttə, bütün nümayəndə heyətlərinin - İtaliya şirkətlərinin və onların tərəfdaşlarının burada olması bu tədbirin yüksək səviyyəsini göstərir. Təbii ki, biz Sumqayıt şəhərini də qeyd etməliyik. Çünki o, öz potensialı ilə bu tədbirin əhəmiyyətini xüsusi olaraq nümayiş etdirir. Təşəkkür edirəm.

x x x

Müəssisənin tikintisinin yüksək səviyyədə aparıldığını vurğulayan SOCAR-ın prezidenti Rövnəq ABDULLAYEV dedi:

-Azərbaycan Respublikasının Prezidenti möhtərəm cənab İlham Əliyev.

İtaliya Respublikasının Prezidenti möhtərəm cənab Sercio Mattarella.

Hörmətli qonaqlar, dəyərli mərasim iştirakçıları.

Bu tarixi gündə bizlərə şərəf verib bu mərasimdə iştirak edən bütün qonaqlarımızı salamlamaqdan qürur hissi keçiririk.

İcazə verin, Azərbaycanın neft-kimya sənayesi üçün xüsusi əhəmiyyət kəsb edən belə bir gündə yanımızda olduqlarına, sevincimizi paylaşdıqlarına görə Zati-aliləri cənab İlham Əliyevə və Zati-aliləri cənab Sercio Mattarellaya neftçilər adından dərin təşəkkürümüzü, hörmət və ehtiramımızı bildirim.

"SOCAR Polymer" layihəsinin başlanğıcından işlərin gedişini diqqət mərkəzində saxlamış, dəyərli tövsiyələri ilə bizə daim dəstək vermiş möhtərəm Prezidentimiz cənab İlham Əliyevə məruzə etmək istəyirəm: Cənab Prezident, verdiyiniz tapşırıqlar vaxtında, ətraf mühit və təhlükəsizlik standartlarına tam əməl olunmaqla və yüksək keyfiyyətlə yerinə yetirilib.

SOCAR-ın emal zavodları vahid iqtisadi dəyər zəncirində bir-biri ilə sıx bağlıdır. Heydər Əliyev adına neft emalı zavodu, "Azərikimya" İstehsalat Birliyinin Sumqayıtdakı etilen-polietilen zavodu və "SOCAR Polymer" zavodunun bu istehsal prosesində inteqrasiyası nəzərdə tutulur. Sizi əmin etmək istəyirəm ki, bu istehsal zəncirinin genişləndirilməsi kompleksə daxil olan müəssisələrin işini daha da səmərəli edəcək.

Möhtərəm cənab Prezident,

Zati-alinizə məruzə etmək istəyirəm ki, tikintinin pik vaxtında burada 3 min nəfərədək işçi çalışıb. İstismar zamanı isə zavodda 500 nəfər daimi işlə təmin olunacaq. Bu cür layihələrin iqtisadiyyatda xüsusi multiplikativ təsir yaratdığını nəzərə alsaq, deyə bilərik ki, aparılan işlər çox sayda kiçik və orta miqyaslı istehsalat müəssisələrinin, minlərlə yeni iş yerinin açılmasına səbəb olacaq.

"SOCAR Polymer" zavodunun inşası ölkəmizdə ilk dəfə layihə maliyyələşdirilməsi çərçivəsində həyata keçirilib. Mən yerli tərəfdaşlarımızın əməyini qeyd etmək və layihənin səmərəliliyinə inanmış Rusiyanın "Qazprombank"ının rəhbərliyinə təşəkkürümü bildirmək istəyirəm. Layihənin uğurla başa çatdırılması münasibətilə onları təbrik edirəm.

Mən bu gün italiyalı tərəfdaşımıza - layihənin baş podratçısı olan "Maire Tecnimont" şirkətinə, sahə podratçısı olan Türkiyənin "Ustay" şirkətinə, Niderlandın "Fluor" şirkətinə layihənin idarə edilməsində bizə dəstək verdiklərinə görə xüsusi təşəkkür etmək istəyirəm. "Maire Tecnimont" həyata keçirdiyimiz birgə layihələrdə özünü etibarlı tərəfdaş kimi təsdiq edib. Aparılan əməliyyatlarda nümayiş etdirdiyi yüksək peşəkarlıq və işgüzarlığı nəzərə alınaraq, "Maire Tecnimont"a Heydər Əliyev adına neft emalı zavodunda aparılan modernləşdirmə işləri çərçivəsində tikiləcək 14 yeni qurğunun baş EPC Podratçılığı həvalə olunub. "SOCAR Polymer"in əsas xammal təminatçısı olan "Azərikimya"nın yenidənqurma layihəsində də baş EPC Podratçısı - İtaliya şirkəti "Technip İtaly"dir. Əminəm ki, İtaliya şirkətləri ilə əməkdaşlığımız bundan sonra daha da genişlənəcək.

Sonda layihənin həyata keçirilməsində əməyi olan hər kəsə dərin minnətdarlığımı bildirirəm.

Diqqətinizə görə çox sağ olun.

X X X

Zavodun tikintisini birgə əməkdaşlığın yüksək nümunəsi adlandıran İtaliyanın "Maire Tecnimont" şirkətinin prezidenti Fabrizio di AMATO dedi:

-Hamınızı salamlayıram. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə, İtaliya Respublikasının Prezidenti cənab Sercio Mattarellaya, SOCAR-ın prezidenti Rövnəq Abdullayevə çıxışlarına görə təşəkkürümü bildirirəm.

Bu gün biz "Maire Tecnimont" və "SOCAR Polymer" arasında əldə olunmuş əhəmiyyətli bir nəticəni qeyd edirik. Bu münasibətlə hər iki ölkənin yüksək səviyyəli nümayəndələrinin iştirakı ilə bu gün Sumqayıt şəhərində olmaqdan şərəf hissi duyuram.

SOCAR bizim şirkətin ən önəmli tərəfdaşlarından biridir. "SOCAR Polymer" isə şirkətimiz üçün uzunmüddətli əməkdaşlıqda əvəzolunmaz tərəfdaşdır. Biz şirkətimizin imkanları və texnologiyası hesabına Azərbaycanın sənaye sahəsinin inkişafına verdiyimiz töhfədən dərin məmnunluq hissi duyuruq. Biz İtaliya vətəndaşı olaraq dialoqa daim hazır olmalı və insani dəyərləri diqqətdən kənarda qoymamalıyıq. Biz, eləcə də bu layihənin Azərbaycan iqtisadiyyatına verəcəyi töhfəni çox diqqətlə izləyirik. Bilirik ki, bu layihə hesabına "SOCAR Polymer" Azərbaycanda ilk dəfə olaraq polipropilen və polietilen istehsal edəcək. Bu, nəinki neft kimyası sahəsində, digər sahələrdə də əməkdaşlığın başlanğıcıdır. Bu zavodun tikintisində istifadə olunan texnologiyalar İtaliyanın ən müasir texnologiyalarına aid edilir. Bu zavod iqtisadiyyatın inkişafında və Azərbaycanın sənayesində böyük rol oynayacaq. Çünki bu zavod təbii ehtiyatlardan istifadə hesabına fəaliyyət göstərəcək. Bu layihə, bizim fikrimizcə, Azərbaycan hökuməti və eləcə də cəmiyyəti üçün mühüm mexanizmlərdən birini təşkil edir. "Maire Tecnimont" olaraq bizim Azərbaycandakı əsas məqsədimiz digər şirkətləri də buraya cəlb etmək və əməkdaşlığımızı daha da məhsuldar etməkdir.

Biz bu zavodun tikintisində təhlükəsizlik baxımından bütün parametrləri nəzərə almaqla işləri həyata keçirməyə çalışmışıq. Bütün işçi heyətə təşəkkürümü bildirirəm. Həmçinin azərbaycanlı və italiyalı işçilərdən əlavə xarici tərəfdaşlarımıza da xüsusi təşəkkürümü bildirirəm. Çünki onlar bu layihənin reallaşmasında doğrudan da böyük rol oynayıblar. Bu, Azərbaycan ilə İtaliyanın sənaye sahəsində əməkdaşlığında çox böyük addımdır. Xüsusən vurğulamaq istəyirik ki, İtaliya ilə Azərbaycan və "Maire Tecnimont" ilə "SOCAR Polymer" arasında olan əməkdaşlıq başqa sahələrdə də davam edəcək. Bu, zavodun daha da inkişafına kömək göstərəcək. Xüsusi olaraq qeyd etmək istəyirəm ki, bu zavodun tikintisində işləyənlərin çoxu Azərbaycan vətəndaşıdır. Onlar çox gərgin işləyərək bu layihəni həyata keçirmişlər.

Bu, Azərbaycan ilə İtaliya arasında texnologiya sahəsində əməkdaşlığın bir nümunəsidir. Ümid edirik ki, bu əməkdaşlıq uzunmüddətli olacaq. "Maire Tecnimont" "SOCAR Polymer" ilə yanaşı, Azərbaycanda digər tərəfdaşlarla da əməkdaşlıq qurmaqda və bu əməkdaşlığın uzun müddət davam etməsində maraqlıdır. Bu, Azərbaycanın iqtisadiyyatının dayanıqlı şəkildə inkişafında böyük rol oynayacaq. Həmçinin xüsusi olaraq qeyd etmək istəyirəm ki, bizim Azərbaycanla əməkdaşlığımız təkcə sənaye sahəsində deyil, akademik sahədə də mövcuddur. Məsələn, biz Bakı Ali Neft Məktəbi ilə bir sıra təhsil proqramları həyata keçiririk. Bu təhsil proqramları çərçivəsində tələbələri ixtisasartırma kurslarına dəvət edir və yaxud İtaliya şirkətlərində təcrübə keçməyə imkan yaradırıq. Təbii ki, bu yolla biz həm ixtisasını artırmış mühəndislər yetişdiririk, həm də onlar İtaliya təcrübəsindən yararlanmış olurlar. Buna görə mən məmnunluq hissi duyuram. Sağ olun.

X X X

Sonra "SOCAR Polymer" şirkətinin fəaliyyəti və burada həyata keçirilən layihələrdən bəhs edən qısa film nümayiş olundu.

Daha sonra Azərbaycan Prezidenti İlham Əliyev və İtaliya Prezidenti Sercio Mattarella polipropilen zavodunu işə saldılar.

Zavodda görülən işlərlə tanışlıq zamanı bildirildi ki, "SOCAR Polymer" layihəsi son 40 ildə öz növünə və miqyasına görə Azərbaycanın neft-kimya sənayesində həyata keçirilən ilk belə layihədir. "SOCAR Polymer" şirkəti Azərbaycanda kimya sənayesinin inkişafını sürətləndirmək məqsədilə 2013-cü ildə təsis edilib. 2015-ci il oktyabrın 25-də isə Prezident İlham Əliyevin iştirakı ilə ən yüksək standartlara və müasir texnologiyalara əsaslanan "SOCAR Polymer" zavodlarının təməli qoyulub və artıq polipropilen zavodu istismara tam hazırdır. Yüksəksıxlıqlı polietilen istehsal edəcək zavodda isə son tamamlama işləri görülür.

Hazırda ölkəmiz aşağısıxlıqlı polietileni ixrac, yüksəksıxlıqlı polietileni isə idxal edir. Layihənin əsas məqsədi idxalın əvəz olunması və ölkənin ixrac potensialının artırılmasıdır.

"SOCAR Polymer" zavodları ildə 19 növ olmaqla 184 min ton polipropilen və 12 növ olmaqla 120 min ton yüksəksıxlıqlı polietilen istehsal edəcək. Bu məhsullar sahibkarlıq subyektlərinin xammalla təchiz olunmasında əhəmiyyətli rol oynayacaq, respublikanın ixrac potensialının möhkəmlənməsinə əlavə stimul verəcək. İstehsal edilən məhsulun nəql intensivliyi gündə təqribən 60 yük maşını təşkil edəcək.

Polipropilen qablaşdırma materialları, tekstil, dəftərxana ləvazimatı, avtomobil hissələri, elektron və elektrik cihazları və başqa bu kimi sektorlarda geniş çeşidli istehlak mallarının və dəstləşdirmə hissələrinin istehsalında istifadə olunan əsas ilkin materialdır. Polipropilen ticarət həcminə görə də ən vacib plastik

məhsullardan sayılır. "Ekoloji cəhətdən təmiz" plastik adlandırılan polipropilen qida məhsullarının qablaşdırılması və tibb sənayesinə aid bütün sahələrdə istifadə oluna bilər.

"SOCAR Polymer"in polipropilen zavodunda bazar araşdırmasına əsasən 3 növdə - homopolimer, zərbəyə davamlı so-polimer, statistiki so-polimer polipropilen məhsulları istehsal olunacaq. Qeyd edək ki, "Socar Polymer" Azərbaycanın neft-kimya sənayesində dövlət-özəl sektor tərəfdaşlığı üzrə yaradılan ilk şirkətdir. İnvestisiyaların 60 faizi Rusiyanın "Gazprombank", qalan hissəsi isə müvafiq olaraq "SOCAR", "Vitol", "Paşa Holdinq", "Gilan Holdinq" və "Azərsun Holdinq" tərəfindən təmin edilib. "Layihə Maliyyələşdirilməsi" prinsipi əsasında 489 milyon dollar məbləğində əsas səhmdarın təminatı olmadan kredit alınıb. Bu prinsip əsasında maliyyələşdirmə ölkə daxilində birinci dəfədir həyata keçirilir. Ümumi investisiya xərcləri 816 milyon dollar təşkil edir ki, bunun da 768 milyon dolları artıq xərclənib. Zavodların istismar dövründə 6,3 milyard dollar məbləğində gəlir proqnozlaşdırılır ki, bunun 30 faizi şirkətin xalis mənfəəti olacaq. Bu, həmçinin ölkənin ümumi daxili məhsulunun artmasına da kömək edəcək. İlkin qiymətləndirmələrə görə, "SOCAR Polymer" zavodlarının fəaliyyəti Azərbaycanın qeyri-neft sektorunun ixrac gəlirlərini 19 faiz, Abşeron iqtisadi regionunun ümumi daxili məhsulunun həcmini isə 15 faiz artıracaq. İstismar müddətində zavodda 500 nəfər daimi iş yeri ilə təmin olunacaq.

Layihəni həyata keçirmək üçün İtaliyanın "Maire Tecnimont", Niderlandın "Fluor" şirkətləri və digər şirkətlər cəlb edilib. Layihə çərçivəsində milli mühəndis kadrlarının ixtisaslarının artırılması təmin olunacaq. Bu məqsədə çatmaq üçün vahid layihə idarəetmə qrupu yaradılıb. "Fluor" şirkəti milli mühəndis kadrları və digər işçilər üçün Amsterdamda, Milanda və Mumbayda ixtisas kursları təşkil edib. Bundan başqa, ekoloji və sosial təsirlərin minimuma endirilməsi, zərərli maddələrin və maye tullantıların zərərsizləşdirilməsi diqqət mərkəzində saxlanılıb. Odur ki, beynəlxalq lisenziyalardan əldə edilən texnologiya əsasında fəaliyyət göstərəcək bu zavodlar istehsal prosesi və məhsulun keyfiyyəti baxımından ən yüksək beynəlxalq standartlara cavab verəcək.

Biznes proseslərinin mərkəzləşdirilməsi məqsədilə "SOCAR Polymer" kadrların idarə olunması, maliyyə, istehsalat, texniki xidmət, keyfiyyətə nəzarət və təchizat-satınalma daxil olmaqla şirkətin bütün struktur bölmələrini əhatə edən xüsusi sistem tətbiq edib. Personalın bilik və bacarıq səviyyəsini artırmaq məqsədilə ölkə daxilində və xaricdə təlim-hazırlıq kursları təşkil olunub. Bütün bunlar göstərir ki, sənayeləşmə və qeyri-neft sənayesinin inkişafı Prezident İlham Əliyevin iqtisadiyyatın şaxələndirilməsi siyasətinin başlıca istiqamətlərindəndir. Bu baxımdan innovativ və yüksək texnologiyalara əsaslanan rəqabətqabiliyyətli sənayenin tərəqqisinə təkan vermək, qeyri-neft sektorunun davamlı inkişafını təmin etmək və əhalinin istehsal sahəsində məşğulluğunu artırmaq məqsədilə sənaye parklarının və məhəllələrinin qurulması xüsusi əhəmiyyət kəsb edir. Artıq böyük infrastruktur işlərinin həyata keçirildiyi, 17 sahibkarlıq subyektinə rezident statusunun verildiyi Sumqayıt Kimya Sənaye Parkına 2 milyard dollardan artıq investisiya yatırılıb və bu istiqamətdə mühüm tədbirlər görülməkdə davam edir.

AZƏRTAC
2018, 18 iyul

Prezident İlham Əliyev Sumqayıt şəhərinə səfərə gəlib
(16 noyabr 2018-ci il)

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 16-da Sumqayıt şəhərinə səfərə gəlib.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı ümummilli lider Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək önünə gül dəstəsi qoydu.

Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı Zakir Fərəcov şəhərdə görülən işlər haqqında dövlətimizin başçısına məlumat verdi.

Prezident İlham Əliyev müvafiq tapşırıqlarını verdi.

AZƏRTAC
2018, 16 noyabr

Prezident İlham Əliyev Sumqayıt Kimya Sənaye Parkında inşaat kimyəviləri zavodunun açılışında iştirak edib

(16 noyabr 2018-ci il)

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 16-da Sumqayıt Kimya Sənaye Parkının rezidenti inşaat kimyəviləri zavodunun açılışında iştirak edib.

AZƏRTAC xəbər verir ki, əvvəlcə iqtisadiyyat naziri Şahin Mustafayev Prezident İlham Əliyevə Sumqayıt Kimya Sənaye Parkında görülən işlər, parkın rezidentləri barədə məlumat verdi. Bildirildi ki, 2013-cü ildə dövlətimizin başçısının iştirakı ilə təməli qoyulmuş Sumqayıt Kimya Sənaye Parkında ötən müddətdə intensiv tikinti-quraşdırma işləri aparılıb, köhnə bina və qurğular sökülüb, müvafiq infrastruktur yaradılıb.

Zavodun baş direktoru Adəm Yayla Prezident İlham Əliyevə müəssisə haqqında məlumat verdi. İnşaat kimyəviləri zavodu 1910-cu ildə yaradılan və dünyanın 100-ə yaxın ölkəsində müəssisələri fəaliyyət göstərən İsveçrənin şirkətlər qrupuna daxildir. Son 18 ildə şirkətə dünya miqyasında beton konstruksiyalarının təmiri ilə bağlı 100-ə qədər layihənin icrası həvalə olunub. Struktur birləşdirmə, birbaşa şüşələmə, akustik və gücləndirici sistemlər, avtomobillərə xidmət, o cümlədən avtomobil şüşələrinin əvəzlənməsi, avtomobil gövdəsinin təmiri, dəniz gəmiləri, sənaye laminasiyası, texnika, bərpa olunan enerji və fasad mühəndisliyi sahələri bu şirkətin fəaliyyət istiqamətinə daxildir. Şirkətin məhsullarının əsas tətbiq sahələri kommersiya məqsədli nəqliyyat vasitələri sənayesi, məişət cihazları və sənaye komponentləri, sənaye məqsədli laminasiya, bərpa olunan enerji sənayesi, mexaniki emal və kompozitlər, həmçinin dəniz sənayesidir.

Prezident İlham Əliyev zavodu işə saldı.

2016-cı ilin martında rezident kimi qeydiyyata alınan zavod İsveçrə və Türkiyə texnologiyaları əsasında yaradılıb. İlkin mərhələdə müəssisənin illik istehsal həcmi 40 min ton tikinti qatqılarıdır. Zavodun məhsullarının Rusiya, Qazaxıstan, Özbəkistan, Qırğızıstan, Gürcüstan və İrana ixracı nəzərdə tutulur. İnşaat kimyəviləri zavodu beynəlxalq miqyaslı İsveçrə şirkətinin yerli təmsilçisi kimi Sumqayıt Kimya Sənaye Parkının 100 faiz xarici kapitallı rezidentidir. İnvestisiya dəyəri 3,5 milyon dollar olan layihə çərçivəsində 60 nəfər daimi işlə təmin olunacaq. Hazırda tikinti məhsullarının istehsalında xammal kimi istifadə edilən "Sikament 300", "Sikament FF5" və "Sigunit L25" kimi maddələrin Azərbaycana illik idxalı təqribən 800-1000 ton təşkil edir. Bu maddələrin ölkəmizdə istehsal edilməsi idxalı əvəz etməyə imkan yaradacaq, məhsullarda xarici komponentlərdən istifadəni azaldacaq.

X X X

Qeyd edək ki, Prezident İlham Əliyevin 2011-ci il 21 dekabr tarixli Fərmanı ilə yaradılmış Sumqayıt Kimya Sənaye Parkı ölkənin ilk sənaye parkıdır. Parkın idarəedici təşkilatı İqtisadiyyat Nazirliyinin tabeliyində olan "Sumqayıt Kimya Sənaye Parkı" MMC-dir. Sumqayıt Kimya Sənaye Parkının 508 hektarlıq ümumi ərazisinin 450 hektarı sənaye zonasıdır. Artıq burada 74 faiz məskunlaşma qeydə alınıb. İndiyədək 18 sahibkarlıq subyektinə rezident statusu verilib. Sumqayıt Kimya Sənaye Parkının mövcud rezidentlərinin layihələrinin investisiya dəyəri 2,8 milyard dollardır. Bunun da 2,2 milyard dolları artıq layihələrə yatırılıb. Hazırda mövcud layihələr üzrə istehsalatda və tikintidə 7000-dək işçi çalışır.

Sumqayıt Kimya Sənaye Parkında 9 müəssisə fəaliyyət göstərir və bu müəssisələr tərəfindən istehsal olunan məhsullar daxili bazarın tələbatını ödəməklə yanaşı, "Made in Azerbaijan" brendi ilə xarici bazarlara ixrac edilir. Belə ki, sənaye parkının ilk rezidentlərindən olan "Azertexnolayn" zavodu 2013-cü ildən fəaliyyət göstərir və burada polad və polietilen boru, mexaniki və hidrotexniki avadanlıqlar istehsal edilir. Müəssisədə 750-dən çox işçi çalışır. 2017-ci ildə müəssisə üzrə 72 milyon manat dəyərində satış həyata keçirilib ki, bunun təqribən 17 milyon manatı ixracın payına düşür. 2018-ci ilin 9 ayında isə zavod 12,6 milyon manat dəyərində məhsul ixrac edib.

Müxtəlif təyinatlı sənaye məhsullarını istehsal edən "STP" MMC 2014-cü ildən fəaliyyət göstərir və hazırda burada 2000-dən çox işçi çalışır. 2017-ci ildə "STP" tərəfindən 80 milyon manat, bu ilin 9 ayında isə 64,3 milyon manat dəyərində məhsul satışı həyata keçirilib ki, bunun 2,9 milyon manatlıq hissəsi ixrac olunub.

Sumqayıt Kimya Sənaye Parkının bir sıra digər rezidentləri də məhsullarını xarici ölkələrə ixrac edirlər. 2017-ci ildə 4 müəssisə - aşağı, orta və yüksək təzyiqə davamlı xortum və fitinq birləşmələrini

istehsal edən “MST Engineering Services” MMC, yüksək keyfiyyətli sintetik və yarımsintetik sürtkü yağları istehsal edən “Alco” MMC, pestisidlər və aqro-kimyəvi məhsullar istehsal edən “Aqrokimya Azərbaycan” MMC, məlumatların emalı, qeydə alınması və ötürülməsini həyata keçirən “STDC” MMC fəaliyyətə başlayıb. 2018-ci ilin aprelindən elektron təhsil avadanlıqları istehsal edən “Labdisc Azərbaycan” MMC, iyuldan “SOCAR Polymer” MMC-nin polipropilen qurğusu, noyabr ayından şüşə və saxsı məmulatlar istehsal edən “ARCHİ Glass” MMC fəaliyyətdədir. Bu ilin sonunadək daha iki müəssisənin - “SOCAR Polymer” MMC-nin yüksək sıxlıqlı polietilen istehsalı və karbamid zavodlarının fəaliyyətə başlaması gözlənilir. Bu müəssisələrdə 800-ə yaxın yeni iş yerinin açılması nəzərdə tutulur.

Sumqayıt Kimya Sənaye Parkının rezidentləri 7 il müddətinə mənfəət, əmlak və torpaq vergilərindən, eyni zamanda, parka istehsal məqsədilə gətirilən texnika, texnoloji avadanlıqlar və qurğulara görə əlavə dəyər vergisindən və gömrük rüsumundan azad olunur. Bu günədək sənaye parkının rezidentləri artıq 255 milyon manat məbləğində vergi və gömrük rüsumlarından azad olunublar.

AZƏRTAC
2018, 16 noyabr

Sumqayıt Kimya Sənaye Parkında əlvan metallar və ferroərintilər zavodunun açılışı olub
(16 noyabr 2018-ci il)

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 16-da Sumqayıt Kimya Sənaye Parkının rezidenti olan "Baku Non Ferrous and Foundry Company" MMC-nin əlvan metallar və ferroərintilər zavodunun açılışında iştirak edib.

AZƏRTAC xəbər verir ki, "Baku Steel Company" Məhdud Məsuliyyətli Cəmiyyətinin müşahidə şurasının sədri Rasim Məmmədov Prezident İlham Əliyevə əvvəlcə yaxın gələcəkdə inşası planlaşdırılan layihənin üçüncü fazası, yəni fasonlu tökmə zavodunun tikintisi barədə məlumat verdi.

Bildirildi ki, bu zavodda maşınqayırmada, kənd təsərrüfatında, dağ-mədən sənayesində istifadə olunan məhsullar istehsal ediləcək. Bu məhsullar arasında yayma valları, 3D printer vasitəsilə hazırlanan detallar, dəyirman kürələri, müxtəlif növ maşın avadanlıqları üçün detallar var. Zavodun illik istehsal gücünün 12000 ton olması nəzərdə tutulub.

Dövlətimizin başçısına Daşkəsən rayonundakı dəmir-filiz yataqlarından istifadə edilməklə Gəncədə böyük metallurgiya zavodunun tikintisi ilə bağlı da məlumat verildi. Artıq tikinti ilə bağlı texniki işlər yekunlaşıb. Qeyd edildi ki, Daşkəsəndəki yataqlarda yeni geoloji işlər və ehtiyatların qiymətləndirilməsi aparılıb.

Prezident İlham Əliyev əlvan metallar və ferroərintilər zavodunu işə saldı.

Zavodda İtaliya texnologiyası əsasında ildə 50 min ton ferrosilisium və 72 min ton ferrosilikomanqan istehsal ediləcək. Məhsullar daxili bazarın tələbatını tam ödəməklə yanaşı, xaricə də ixrac olunacaq. Bu zavodda Azərbaycan tarixində ilk dəfə olaraq ferrosilisium, ferrosilikomanqan və gələcəkdə ferroxrom da istehsal ediləcək. Bu ferroərintilərin istehsalı yüksək temperaturda manqan filizindən və kvarsitdən karbon tərkibli maddələrin vasitəsilə müvafiq olaraq manqan və silisium elementinin bərpasına və onların dəmirlə birləşmə yaradaraq kristallaşmasına əsaslanır. Ferroərintilərin istehsalı üçün lazım olan komponentlər elektrik qövslü sobada əridilərək çalovlar vasitəsilə konveyerdə qəliblərə tökülür və müvafiq fraksiyalar şəklində hazır məhsul əldə edilir. İstehsal olunmuş məhsul avtomatik paketləmə maşınında 1 tonluq kisələrə qablaşdırılır.

Zavodda ekoloji tələblərə uyğun, mükəmməl konstruksiyalı qaz-toz təmizləyici qurğu işə salınıb. Qaz-toz tutucu qurğuda isə istehsal prosesi zamanı ayrılan uçucu maddələr və qazlar xüsusi filtrlər vasitəsilə tutularaq təmizlənir və bərk hissəciklər islatma üsulu ilə xüsusi konveyerlərdən keçirilərək dənəvarı hala salınır. Bundan sonra həmin maddələr kisələrə yığılaraq qablaşdırılır. Bu məhsul həm satıla, həm də təkrar istehsal prosesinə qaytarıla bilər. Bütün bu maddələrdən təmizlənmiş hava kütləsi filtrlərdən keçdikdən sonra ekoloji normativ tələblərə uyğunlaşdırılır, daha sonra atmosferə buraxılır.

Burada istehsal olunan məhsulun keyfiyyəti bir çox beynəlxalq standartlara, o cümlədən QOST və İSO-ya uyğunlaşdırılıb. Zavodda sınaqlar quru və yaş, spektrometr vasitəsilə müxtəlif üsullarla yoxlanılır. Məhsulun keyfiyyəti spektral təhlil və kimyəvi üsulla analiz olunur. İnvestisiya dəyəri 51 milyon dollar olan zavodda 230 nəfər işlə təmin olunacaq. Zavod 2016-cı ilin fevralında rezident kimi qeydiyyata alınıb. Layihənin əsas təyinatı metallurgiya sənayesində son məhsulun istehsalı üçün tələb olunan ferroərintilərin lazımi səviyyədə təmin edilməsi və həmin sənaye sahəsinin idxaldan asılılığının nisbətən aradan qaldırılmasıdır.

Dövlətimizin başçısı müəssisənin istehsal prosesi ilə tanış oldu.

AZƏRTAC
2018, 16 noyabr

Prezident İlham Əliyev Sumqayıt Dəmir Yolu Vağzalı Kompleksinin açılışında iştirak edib
(16 noyabr 2018-ci il)

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 16-da Sumqayıta səfəri çərçivəsində Dəmir Yolu Vağzalı Kompleksinin açılışında da iştirak edib.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı İlham Əliyev kompleksin rəmzi açılışını bildirən lenti kəsdi.

"Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin sədri Cavid Qurbanov Sumqayıt stansiyasının tikintisi, Bakı dairəvi, Ləki-Qəbələ, Astara-Astara dəmir yolu xətlərinin çəkilişi ilə bağlı indiyədək görülmüş və bundan sonra layihələrdə nəzərdə tutulan işlər barədə dövlətimizin başçısına ətraflı məlumat verdi. Prezident İlham Əliyevin 2018-ci il 22 yanvar tarixli Sərəncamına əsasən yenidən inşa olunan üçmərtəbəli Sumqayıt Dəmir Yolu Vağzalı binasının ümumi sahəsi 5,5 min kvadratmetrdir. Binanın birinci mərtəbəsində gözləmə zalı, bilet kassaları, məlumat bürosu, polis məntəqəsi, server otağı, əşyaların saxlanması kamerası yerləşir. Yaxın günlərdə burada ticarət mərkəzinin istifadəyə verilməsi planlaşdırılır. Müasir dizaynla tərtib olunmuş istirahət guşələri sərnişinlərin rahatlığını təmin etmək məqsədi daşıyır. İkinci mərtəbədə ofis və maşinistlər üçün istirahət otaqları, mətbəx yerləşir. Binada müasir təhlükəsizlik kameraları, yanğınsöndürmə və havalandırma sistemi quraşdırılıb. Vağzalın zirzəmi hissəsində avtomobil dayanacağı yaradılıb. Əlavə olaraq stansiyada turniket binası, ikimərtəbəli rele və işarəvermə qurğuları binası, hündür və alçaq platformalar, elektrik yarımstansiyası, su nasosxanası, qazanxana və yol sahəsinin məntəqə binası fəaliyyət göstərəcək.

Bildirildi ki, stansiyada, ümumilikdə, 7 yol yenidən qurulub və çəkilmiş ümumi dəmir yollarının uzunluğu 5 min 20 poqonmetrdir. Kompleksdə 12 yoldəyişən quraşdırılıb, uzunluğu 43 metr olan yeraltı piyada keçidi və platformaya yeraltı çıxış keçidi inşa edilib. Bütün stansiyaboyu rabitə və işarəvermə işləri tamamilə yenilənib, elektrik dirəkləri, rigelləri və kontakt şəbəkəsi yenidən quraşdırılıb. Vağzal kompleksinin ətrafında yaşıllıq və abadlıq işləri görülüb. Ərazi boyunca müasir işıqlandırma sistemi quraşdırılıb.

Vağzalın belə yüksək səviyyədə yenidən qurulması, ümumilikdə, ölkəmizdə həyata keçirilən sosial-iqtisadi layihələrin uğurla davam etməsinin daha bir nümunəsi olmaqla ölkənin polad magistrallarının inkişafına göstərilən dövlət qayğısının davamlı xarakter aldığını nümayiş etdirir.

Sonra Prezident İlham Əliyev Sumqayıt-Bakı marşrutu ilə hərəkət edən sərnişin qatarı ilə Bakıya yola düşdü.

Son illərdə lokomotiv və vaqon parklarının yenilənməsi və digər sahələrin müasir tələblər səviyyəsinə çatdırılması istiqamətində görülən tədbirlər nəticəsində İsveçrənin "Stadler Rail Group" şirkətindən "KISS" markalı ikimərtəbəli elektrik qatarları alınaraq ölkəmizə gətirilib. Həmin qatarlar 2015-ci il sentyabrın 12-də Bakı-Sumqayıt marşrutu ilə hərəkətə buraxılıb və qatarın yolasalma mərasimində Prezident İlham Əliyev iştirak edib.

"Stadler Rail Group" şirkətindən alınan bu elektrik qatarları sərnişinlərin rahat, sürətli və təhlükəsiz daşınması üçündür. Dörd vaqondan ibarət olan ikisistemli elektrik qatarlarının hər birinin ümumi sərnişin tutumu 700 nəfər, oturacaq yerlərin sayı isə 367-dir. Qatar saatda 160 kilometr sürətlə hərəkət edir.

Sumqayıtdan Bakıya və əks istiqamətə qatarların hərəkəti müxtəlif intervallarla həyata keçirilir. Sərnişinlərin sayından asılı olaraq, hərəkət qrafikinə əlavələr edilə bilər. Bildirildi ki, Bakı-Sumqayıt marşrutu ilə sərnişinlərin yüksək sürətlə və rahatlıqla daşınmasını təmin etmək məqsədilə genişmiqyaslı tikinti-quraşdırma və təmir-bərpa işləri aparılıb. Sahə üzrə yeraltı piyada keçidi, hündür platformalar, müasir keçid postları inşa edilib, dəmir yolları əsaslı təmir olunub.

Prezident İlham Əliyev Bakı Dəmir Yolu Vağzalına gəldi.

Dövlətimizin başçısı "Azərbaycan Dəmir Yolları" QSC tərəfindən 2016-cı ildən bəri alınmış yeni sərnişin qatarları, lokomotivlər və müxtəlif dəmir yolu texnikaları ilə də tanış oldu. Bildirildi ki, dəmir yollarında xidmətin keyfiyyətinin yüksəldilməsi, habelə dəmir yolu xətlərinin inşası, təmiri və istismarına nəzarəti təmin etmək məqsədilə göstərilən dövrdə müasir beynəlxalq standartlara uyğun bir çox yeni sərnişin qatarları, lokomotivlər və müxtəlif dəmir yolu texnikaları alınaraq istismara verilib. "EVOLUTİON" seriyalı teplovoz Qazaxıstan istehsalıdır. Lokomotiv 2015-ci ildə istehsal olunub və saatda 120 kilometr sürətlə hərəkət edir.

Sabit cərəyanla işləyən lokomotiv isə Gürcüstanın "Elektrovozquraşdırma" şirkətində istehsal olunub və sürəti saatda 100 kilometrdir.

Dövlətimizin başçısına "Alstom Transport" ikisistemli sərnişin lokomotivi də təqdim olundu. Fransanın "Alstom Transport" şirkəti tərəfindən istehsal edilən bu lokomotiv sabit, həmçinin dəyişən cərəyanla işləyir və saatda 160 kilometr sürətlə hərəkət edir. Bütövlükdə, Avstriya, Rusiya, Çexiya və digər ölkələrdən alınan yeni lokomotiv və avadanlıqlar təmir-tikinti və istismar proseslərinin tamamilə avtomatlaşdırılmasına və mexanikləşdirilməsinə imkan yaratmaqla əl əməyini tədricən aradan qaldırır. Yeniliklər həm də nəqliyyatın hərəkətini dayandırmadan köhnə relslərin yeniləri ilə əvəz olunması, şpalların dəyişdirilməsi, yol yataqlarının yenidən qurulması, yolların ətrafının təmizlənməsi, elektrik xətlərinin və dirəklərinin əvəzlənməsinə əlverişli şərait yaradır.

Bildirildi ki, alınan yeni sərnişin qatarları, lokomotivlər və müxtəlif texnikalar həm də dəmir yollarında daşımaların təhlükəsizliyini gücləndirəcək, xüsusilə də sərnişinlərə xidmətin keyfiyyətini daha da yüksəldəcək.

Yeni texnikalar dəmir yolu xətlərinin inşasının, təmiri və istismarının müasir standartlara çatdırılmasını təmin edəcək. Bütün bunlar son illərdə ölkəmizdə nəqliyyat infrastrukturunun davamlı inkişafı üzrə dövlət siyasətinin tərkib hissəsidir. Bu gün Azərbaycanda dəmir yolu infrastrukturunun müasirləşdirilməsi, beynəlxalq standartlara uyğun qurulması Prezident İlham Əliyevin həyata keçirdiyi məqsədyönlü iqtisadi inkişaf modelinin bəhrəsidir. Bu model bu gün Azərbaycanı Qərblə Şərq, Şimalla Cənub arasında ən mühüm nəqliyyat qovşağına çevirir.

Sonda xatirə şəkli çəkdirildi.

AZƏRTAC
2018, 16 noyabr

Sumqayıt Kimya Sənaye Parkında tütün məmulatları istehsalı fabriki istifadəyə verilib

(16 noyabr 2018-ci il)

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 16-da Sumqayıt Kimya Sənaye Parkında "Tabaterra" Qapalı Səhmdar Cəmiyyətinin tütün məmulatları istehsalı fabrikinin açılışında iştirak edib.

AZƏRTAC xəbər verir ki, "Tabaterra" QSC-nin direktoru Elman Cavanşir dövlətimizin başçısına burada yaradılan şərait barədə məlumat verdi.

Qeyd olundu ki, zavod ötən il parkda rezident kimi qeydiyyata alınıb. Burada 3 formatda olmaqla beynəlxalq standartlara uyğun siqaret istehsal ediləcək. Fabrik məhsullarını "Made in Azerbaijan" brendi altında istehlakçılara təqdim edəcək. Böyük Britaniya, Almaniya və İtaliya texnologiyaları əsasında qurulan fabrikdə il ərzində 11 milyard ədəd 3 növdə filtrli siqaretlər istehsal ediləcək. Bu isə ölkənin tütün məmulatlarına olan tələbatının 80 faizini ödəyəcək. Ümumilikdə, fabrikdə 13 brendin 80 çeşiddə məhsulunun istehsalı nəzərdə tutulur. Burada "Tabaterra"nın hər biri 6 çeşiddə "Senate", "Kingston", "Argo" adları altında məhsulu istehsal ediləcək. Bundan başqa, "British American Tobacco", "Japan Tobacco International", "Imperial Tobacco" şirkətlərinin məhsulları da lisenziya əsasında müəssisədə istehsal olunacaq. Bu şirkətlərin siqaretləri indiyədək ölkəmizə idxal edilirdi. Beləliklə, bu layihə Azərbaycanda yerli istehsalın inkişafına xüsusi təkan verməklə yanaşı, xaricdən idxalın, eyni zamanda, tütün məhsullarının alınması üçün sərf olunan valyuta axınının azalmasına imkan yaradacaq.

Fabrik beynəlxalq standartlara uyğun istehsal olunacaq məhsullarını müxtəlif formatlarda və qiymət seqmentlərində istehlakçılara təqdim edəcək. Burada istehsal prosesi beynəlxalq keyfiyyət standartlarına tam uyğun olaraq aparılacaq. Ümumi dəyəri 48 milyon dollar olan layihə çərçivəsində 200 yeni iş yeri yaradılıb.

Dövlətimizin başçısı müəssisəni işə saldı.

Sonra Prezident İlham Əliyev Sumqayıt Kimya Sənaye Parkındakı müəssisələrin kollektivlərinin nümayəndələri ilə görüşdü.

Dövlətimizin başçısı görüşdə çıxış etdi.

Prezident İlham Əliyevin
çıxışı

-Bu gün Sumqayıt Kimya Sənaye Parkında üç yeni müəssisə fəaliyyətə başlayır. Mən bu münasibətlə müəssisələrin kollektivlərini salamlayır və təbrik edirəm. Əminəm ki, bu müəssisələr çox səmərəli işləyəcək və ölkə iqtisadiyyatına böyük töhfə verəcəkdir.

Bu müəssisələr ən yüksək standartlara cavab verir və bizim sənaye potensialımızı böyük dərəcədə möhkəmləndirən müəssisələrdir. Ferroərintilər, inşaat kimyəvi qatqılar zavodları, siqaret fabriki bu gün fəaliyyətə başlayır. Birinci mərhələdə bu müəssisələrdə 400-dən çox iş yeri yaradılıb, gələcəkdə isə iş yerlərinin sayı 700-ə çatacaq. Mənə verilən məlumata görə, bugünkü mərhələdə siqaret fabrikinə 35 milyon dollar, ferroərintilər zavoduna 25 milyon dollar və inşaat materialları zavoduna isə 3,5 milyon dollar sərmayə qoyulub. Ancaq indi təqdimatda deyildi ki, siqaret fabrikinə bundan sonra da əlavə vəsait qoyulacaq və investisiya həcmi təxminən 50 milyon dollara çatacaq, ferroərintilər zavoduna isə 100 milyon dollar investisiya qoyulacaqdır. Yəni, bu, onu göstərir ki, vaxtilə Sumqayıt Kimya Sənaye Parkının yaradılması ilə bağlı qərar düzgün və vaxtında qəbul edilmiş qərar idi.

Mən 2011-ci ilin sonunda müvafiq Fərman imzaladım və biz parkın yaradılmasına start verdik. Bu ərazidə vəziyyət çox acınacaqlı idi. Vaxtilə tikilmiş və dağılmış, avadanlığı paslanmış müəssisələrin qalıqlarını təmizləmək, torpaq qatını yaxşılaşdırmaq, rekultivasiya işləri aparmaq böyük səy və vəsait tələb edirdi. Ondan sonra kommunikasiya və infrastruktur layihələri icra edildi, 500 hektardan çox ərazi tamamilə təmizləndi və özəl sektorun sərəncamına verildi. Bu, dövlətin özəl sektora göstərdiyi dəstəyin növbəti təzahürüdür. Bu, onu göstərir ki, dövlət-özəl sektor tərəfdaşlığı Azərbaycanda ən yüksək səviyyədə təşkil edilir.

Hazırda Sumqayıt Kimya Sənaye Parkında 18 rezident var, 9 müəssisə fəaliyyətdədir. Bu il 5 müəssisə fəaliyyətə başlayacaq. Onlardan 3-ü bu gün fəaliyyətə başlayır. Gələn il əlavə 4 müəssisə fəaliyyətə başlayacaq və beləliklə, bu parkda ən müasir standartlara cavab verən 18 müəssisə fəaliyyət göstərəcək.

Sumqayıt Kimya Sənaye Parkı, əslində, şəhər içində bir sənaye şəhəridir. Gələcəkdə parkın hüdudları genişləndiriləcək və təbii ki, yeni rezidentlər qəbul ediləcəkdir. On səkkiz müəssisə tam gücü ilə işləyəndən sonra 6 min iş yeri təmin ediləcəkdir. Əlbəttə ki, Sumqayıt şəhərində işsizliyin bundan sonra da aşağı səviyyədə saxlanması üçün bu parkın çox böyük əhəmiyyəti var. Ümumiyyətlə, bu günə qədər Sumqayıt Kimya Sənaye Parkının yaradılmasına, müəssisələrin fəaliyyətə başlamasına 2,2 milyard dollar sərmayə qoyulub və növbəti dövrdə bu rəqəm təxminən 3 milyard dollara çatacaqdır. Əgər biz bu parkı yaratmasaydıq və sahibkarlara güzəştli şərtlər təqdim etməsəydik, dövlət tərəfindən böyük dəstək göstərməsəydik, bu vəsait də qoyulmayacaqdı və iş yerləri də yaradılmayacaqdı. Ona görə biz Sumqayıt Kimya Sənaye Parkının timsalında uğurlu sənaye siyasətimizi görürük və bu siyasət bundan sonra da davam etdiriləcək.

Təsadüfi deyil ki, bu ilin 10 ayında ölkəmizin qeyri-neft sənayesi 10 faiz artmışdır. Bu, çox gözəl göstəricidir. Kənd təsərrüfatı 5 faiz artmışdır. Sumqayıt Kimya Sənaye Parkında əlbəttə ki, sənaye müəssisələri fəaliyyət göstərir, ancaq onların bəziləri kənd təsərrüfatına sıx bağlı olan müəssisələrdir, o cümlədən siqaret fabriki. Mən əminəm ki, bu fabrikin fəaliyyəti nəticəsində Azərbaycanda tütünçülüyün inkişafı daha yüksək templərlə gedəcək. Biz tütünçülüyü bərpa edirik, əgər keçən il 3 min ton quru tütün yığılmışdısa, bu gün artıq 4500 ton yığılıb və 5 min tonu keçəcək. Əlbəttə ki, gələcəkdə bu fabrikdə bizim yerli tütündən daha da böyük həcmdə istifadə olunacaq. Yəni, bu, kənd təsərrüfatına böyük təkan verir.

Sumqayıt Kimya Sənaye Parkında hazırda əyirici boyaq fabrikinin tikintisi davam edir. Bu da xalçaçılığın inkişafına böyük təkan verəcək. Xalçaçılıq indi inkişaf edir, 30 xalça fabrikinin yaradılması nəzərdə tutulur. Xalçaçılığın əsas xammalı yun və ipəkdir. İndi yun tədarükü mərkəzləri yaradılır, baramaçılığa böyük təkan verilib. Şəki ipək kombinatı böyük həcmlə işləyir, fermerlər baramadan böyük gəlir əldə edirlər. Yəni, sənayenin və kənd təsərrüfatının inkişafı paralel şəkildə getməlidir, bir-birini tamamlamalıdır, bir-birinə dəstək verməlidir və biz bunu görürük. Eyni zamanda, əlbəttə ki, bizim əsas məqsədimiz qeyri-neft sektorunu inkişaf etdirmək, idxaldan asılılığı aradan götürmək və qeyri-neft ixracını artırmaqdır və biz burada bunu görürük. Siqaret fabriki tam gücü ilə işləyəndən sonra burada ildə 11 milyard ədəd siqaret istehsal olunacaqdır. Bu gün verilən məlumata görə, daxili tələbat 14 milyarddır. Əminəm ki, bu fabrik idxalı tam əvəzləyəcək. Çünki hazırda yerli istehsal var və gələcəkdə ixrac imkanları da geniş olacaq. Mən istərdim ki, daxili tələbat sıfır səviyyəsində olsun, insanlar siqaret çəkməsinlər, bu pis vərdişdən uzaq olsunlar. Əminəm ki, görülən tədbirlər, o cümlədən qanunvericilikdə atılan addımlar nəticəsində biz bu məqsədə çatacağıq. İstərdim ki, bu siqaret fabriki 100 faiz ixrac məhsulları istehsal etsin. Ancaq bu, hələ ki, mümkün deyil. Biz vətəndaşları keyfiyyətli yerli siqaretlə təmin etməliyik. Lakin, eyni zamanda, hamı, ilk növbədə, dövlət çalışmalıdır ki, Azərbaycanda siqaret çəkənlərin sayı minimum səviyyəyə ensin. Çünki ixrac bizə əlavə valyuta gətirir, əlavə imkanlar yaradır. O cümlədən ferroərintilər zavodunda istehsal olunacaq məhsulun 90 faizi ixraca gedəcək, 10 faiz isə Azərbaycan müəssisələrində yenidən emal olunaraq hazır məhsula çevriləcəkdir.

Qeyri-neft sektorunun inkişafı, qeyri-neft ixracının artırılması əsas məqsəddir. Bu ilin 10 ayında bizim qeyri-neft ixracımız 12 faiz, ümumi ixracımız isə 37 faiz artıbdır. İxrac artdıqca bizim iqtisadi vəziyyətimiz daha da yaxşılaşır. Bu, makroiqtisadi sabitliyə, manatın məzənnəsinə müsbət təsir göstərir. Təsadüfi deyil ki, Azərbaycanda makroiqtisadi sabitlik çox yaxşı səviyyədədir, inflyasiya on ayda cəmi 2,4 faizdir. Bu müəssisələrin yaradılması yerli və xarici investorlar üçün növbəti bir siqnaldır ki, gəlsinlər Azərbaycana sərmayə qoysunlar. Bu yaxınlarda Dünya Bankının "Doing Business" hesabatında Azərbaycan deyə bilərəm ki, tarixi nailiyyət əldə edib, dünya miqyasında biznes mühitinə görə 25-ci yerdə qərarlaşıb. Keçən il biz 57-ci yerdə idik. Yəni, belə bir böyük irəliləyiş əlbəttə ki, aparılan islahatların məntiqi nəticəsidir. "Doing Business" hər bir yerli və xarici investor üçün əsas amillərdən biridir ki, o ölkəyə pul qoyulsun, yoxsa yox. "Doing Business" hesabatı, belə gözəl müəssisələrin yaradılması, Azərbaycanda ümumi vəziyyət, sabitlik, inkişaf əlbəttə ki, xarici və yerli investorları daha da stimullaşdırır. Təsadüfi deyil ki, son 15 il ərzində ölkə iqtisadiyyatına 250 milyard dollar sərmayə qoyulubdur.

Mən sizi fabriklərin, zavodların açılışı münasibətilə bir daha təbrik etmək istəyirəm. Şadam ki, biz bu gözəl parkı Sumqayıt şəhərində yaratdıq. Sumqayıt ölkəmizin, Cənubi Qafqazın ikinci sənaye şəhəridir. Sumqayıtın inkişafı üçün çox böyük işlər görülür, çox böyük layihələr icra edilir. Sosial layihələr, infrastruktur layihələri, qazlaşdırma demək olar ki, yüz faiz səviyyəsindədir, içməli su 93 faiz səviyyəsindədir, yollar salınır, məktəblər tikilir, gözəl abadlıq işləri aparılır. Sumqayıt bulvarı yaradılıb, sakinlər üçün çox gözəl istirahət zonasıdır, "ASAN xidmət" mərkəzi, Olimpiya Kompleksi, xəstəxana

istifadəyə verilib. Əlbəttə ki, Sumqayıt sənaye şəhəri kimi uğurla inkişaf edəcək. Mən əminəm ki, biz qarşıda duran bütün vəzifələri bundan sonra da uğurla icra edəcəyik.

Bir daha sizi təbrik edirəm, sizə uğurlar arzulayıram. Sağ olun.

X X X

Sonda xatirə şəkli çəkdirildi.

X X X

Beləliklə, bütün bu layihələr bir daha sübut edir ki, Azərbaycan Prezidentinin müəyyənləşdirdiyi kursa uyğun olaraq reallaşdırılan sənayeləşmə siyasəti uğurla davam edir. Qeyri-neft sektorunun mühüm tərkib hissəsi olan sənayenin inkişafı, bu sahədə yeni istiqamətlərin müəyyənləşdirilməsi şübhəsiz ki, ölkə iqtisadiyyatının ümumi inkişafına da mühüm töhfələr verir. Belə layihələrin icrası bir neçə mühüm məqamı özündə ehtiva edir. İlk növbədə, bu cür müəssisələrin yaradılması yeni iş yerlərinin açılmasına, işsizliyin azaldılmasına, əhalinin məşğulluğunun artırılmasına töhfə verir. Eyni zamanda, bu cür layihələrin reallaşdırılmasının idxaldan asılılığı azaltmaqla, ixracyönümlü məhsulların sayının və çeşidinin artırılmasında da böyük rolu var.

AZƏRTAC
2018, 16 noyabr

Prezident İlham Əliyev Sumqayıtda "SOCAR karbamid" zavodunun açılışında iştirak edib
(16 yanvar 2019-cu il)

Yanvarın 16-da Sumqayıt Kimya Sənaye Parkının ərazisində inşa olunmuş "SOCAR karbamid" zavodu istifadəyə verilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

SOCAR-ın prezidenti Rövnəq Abdullayev və zavodun direktoru Xəyal Cəfərov görülən işlərlə bağlı dövlətimizin başçısına məlumat verdilər.

Qeyd edək ki, karbamid zavodunun layihəsi Prezident İlham Əliyevin 2008-ci ilin avqustunda imzaladığı Sərəncamla təsdiq edilmiş "2008-2015-ci illərdə əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı"na və 2014-cü ilin dekabrında imzaladığı Sərəncamla təsdiq edilmiş "Sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı"na əsasən icra edilib. Təməli 2011-ci ildə dövlətimizin başçısı tərəfindən qoyulan zavodun tikintisi ilə əlaqədar elan olunan beynəlxalq açıq tenderin nəticələrinə əsasən 2012-ci ildə Koreya Respublikasının "Samsung Engineering" şirkəti mühəndislik, satınalma və tikinti üzrə podratçı seçilib. Layihənin ammonyak və karbamid istehsalı üzrə texnoloji avadanlığı müvafiq olaraq Danimarka və Hollandiya şirkətləri tərəfindən təmin edilib. Həmçinin layihənin idarə edilməsi və müstəqil təftiş xidmətlərinin həyata keçirilməsi məqsədilə 2015-ci ildə Finlandiya şirkəti ilə müvafiq müqavilə imzalanıb. Tikintinin pik vaxtında zavodun inşasına, ümumilikdə, 3600 nəfərdən artıq işçi cəlb olunub. İnşaat zamanı təhlükəsizlik tələblərinə maksimum dərəcədə riayət edilib, iş həcmi qəzasız şəraitdə yerinə yetirilib.

Məlumat verildi ki, "SOCAR karbamid" zavodunun istehsala başlaması azot gübrəsi idxalına ehtiyacı aradan qaldıracaq, bununla da ölkənin xarici valyuta xərcləri azalacaq. Zavod ildə 435 milyon kubmetr təbii qaz həcmindən xammal kimi istifadə etməklə 650-660 min ton karbamid məhsulu istehsal etmək gücündədir. İstehsal həcminin 70 faizi ixrac üçün nəzərdə tutulur ki, bu da ölkəyə hər il 160 milyon dollara qədər əlavə gəlirin daxil olmasına imkan verəcək. Bu zavodun işə düşməsi Azərbaycanda kənd təsərrüfatının inkişafında mühüm rol oynayacaq. Belə ki, karbamid gübrəsi ən yüksək azot tutumuna malikdir və buna görə də ən keyfiyyətli azot gübrəsi hesab olunur. Suda tez həllolma qabiliyyətinə görə seçilən bu gübrə növü ammonyak və karbon dioksidin sintezi nəticəsində əldə edilir. Karbamidə tələbat onun aşağı maya dəyəri, qənaətcil daşınması, rahat tətbiqi və kənd təsərrüfatında yüksək məhsuldarlığı ilə əlaqədardır. Bu məhsuldan digər kimyəvi maddələrin istehsalında və əczaçılıqda da geniş istifadə olunur.

İndiyədək azot gübrələri Azərbaycana idxal edildiyi halda, yeni zavod həm daxili bazarın tələbatını tam ödəyəcək, həm də istehsal etdiyi məhsulun təxminən 70 faizini ixrac edəcək. Nəticədə, daha əvvəl idxal üçün sərf edilən illik 90 milyon dollara qədər valyuta vəsaitləri ölkədə qalacaq, eyni zamanda, zavod respublikamız üçün əlavə gəlir mənbəyinə çevriləcək.

"SOCAR karbamid" zavodu hazırda ölkədə qeyri-neft sektorunda həyata keçirilmiş ən böyük layihədir və ümumi dəyəri təxminən 800 milyon avro təşkil edir. Layihənin maliyyələşdirilməsi ilkin dövrdə dövlət büdcəsindən ayrılan vəsaitlər hesabına həyata keçirilib. Zavodun inşası zamanı bir sıra beynəlxalq banklardan dövlət zəmanəti əsasında 500 milyon avro məbləğində vəsait cəlb edilib. Zavodda təxminən 500 nəfər daimi işlə təmin ediləcək. Bunun üçün SOCAR təhsil və təqaüd proqramları vasitəsilə ixtisaslı mütəxəssisləri əvvəlcədən hazırlayıb.

Prezident İlham Əliyev zavodu işə saldı.

Sonra Prezident İlham Əliyev Sumqayıt Kimya Sənaye Parkının əsas rezidentlərindən olan "SOCAR karbamid" zavodunun fəaliyyətindən bəhs edən filmə baxdı.

Daha sonra dövlətimizin başçısı müəssisənin kollektivi ilə görüşdü.

Azərbaycan Prezidenti görüşdə çıxış etdi.

Prezident İlham Əliyevin
çıxışı

- Bu gün ölkəmizin tarixində çox əlamətdar hadisə baş verir. Biz Sumqayıt şəhərində karbamid zavodunun açılışını qeyd edirik. Bu münasibətlə sizi ürəkdən təbrik edirəm.

Bu zavodun yaradılması çox əlamətdar, çox önəmli hadisədir. Zavodun tikintisində iştirak etmiş bütün insanlara təşəkkürümü bildirmək istəyirəm. Mənə verilən məlumata görə, burada pik dövrdə üç

mindən çox insan işləyib və onların mütləq əksəriyyəti Azərbaycan vətəndaşlarıdır. Bu, onu göstərir ki, Azərbaycanda çox güclü kadr potensialı yaradılmışdır, həm fəhlə kadrları, həm mütəxəssislər. Bu, son illər ərzində təhsil sahəsinə ayrılan diqqətin bariz nümunəsidir.

Bu zavodun tikintisində xarici tərəfdaşlar iştirak etmişlər. Baş podratçı Koreyanın "Samsung" şirkətidir. Ən müasir avadanlıqlar Danimarka və Hollandiya şirkətləri tərəfindən təchiz edilib. Finlandiya şirkəti bu zavodun fəaliyyəti üçün lazım olan məsləhətləri verib. Yəni, biz burada çox müsbət beynəlxalq əməkdaşlıq nümunəsini görürük. Bu, bir daha onu göstərir ki, Azərbaycan xarici şirkətlər üçün çox cəlbedici ölkədir. Bu gözəl sənaye müəssisəsi birgə səylər nəticəsində yaradılıb.

Onu da bildirməliyəm ki, zavodun ərsəyə gəlməsində xarici bankların da rolu kifayət qədər böyükdür. Biz zavodu tikməyə başlayanda öz vəsaitimizi ilk mərhələdə qoymuşuq. Sonra xarici banklardan da kreditlər verildi. Bizə maliyyə cəhətdən dəstək olan bütün banklara da təşəkkürümü bildirmək istəyirəm.

Beləliklə, ölkəmizdə ən müasir standartlara cavab verən gözəl böyük sənaye müəssisəsi yaradılmışdır. Bu zavod Azərbaycanda qeyri-neft sənayesi sahəsində həyata keçirilən ən böyük layihədir. Mənə verilən məlumata görə, zavodda ildə 650 min ton karbamid istehsal olunacaq. Onun böyük əksəriyyəti ixrac ediləcək. Eyni zamanda, daxili tələbat da ödəniləcək. Çünki biz bu günə qədər gübrələri xaricdən alırıq və bu məqsədlər üçün böyük həcmdə valyuta xərclənir. Azərbaycan dövlətinin fermerlərə verilən gübrələrin 70 faizinin vəsaitini təmin etdiyini nəzərə alsaq, təsəvvür etmək çətin deyil ki, bu, büdcəmiz üçün kifayət qədər maliyyə yüküdür. Amma indi biz özümüz fermerlərimizi ən keyfiyyətli gübrə ilə təmin edəcəyik.

Zavodun özəlliyi həm də ondan ibarətdir ki, burada xammal kimi istifadə olunan məhsul təbii qazdır, yerli məhsuldur. Yəni, karbamidin tərkibində xarici komponent yoxdur. Burada ildə 450 milyon kubmetr təbii qazdan istifadə olunacaq. Əgər biz təbii qazı indi bugünkü qiymətlərlə mövcud xarici bazarlara satsaydıq, bundan təqribən 80 milyon dollar vəsait əldə edə bilərdik. Ancaq karbamid şəklində istehsal olunacaq məhsulun dəyəri 150-160 milyon dollar olacaqdır. Yəni, biz səmərəliliyi demək olar ki, iki dəfə artırmışıq. Ölkəmiz üçün çox gözəl ixrac məhsulu yaratmışıq. Kənd təsərrüfatının inkişafı üçün yerli gübrə yaratmışıq və ölkəmizin qeyri-neft sənayesinə böyük töhfə vermişik. Yəni, zavodun fəaliyyətə başlaması, bax, bu əsas məqsədləri güdür. Biz bütün məqsədlərə çata bilmişik.

Mən çox şadam ki, ölkəmizdə qeyri-neft sənayesi sürətlə artır. Keçən il 9,1 faiz artmışdır. Bu, onu göstərir ki, sənayeləşmə prosesi uğurla gedir. Keçən ilin yayında Sumqayıtda "SOCAR Polymer" müəssisəsinin birinci mərhələsi fəaliyyətə başladı. Bu il onun ikinci mərhələsi fəaliyyətə başlayacaq. Burada da ixracyönümlü çox gözəl məhsul istehsal olunacaq. Eyni zamanda, daxildə polipropilen, polietilendən istehsal olunacaq hazır məhsul da satışa buraxılacaq. Biz yenə də idxaldan asılılığı aradan qaldıracağıq. Bu zavodlarda yüzlərlə yeni iş yeri yaradılır. Mənə verilən məlumata görə, karbamid zavodunda 500 iş yeri yaradılacaq və burada işləyəcək insanların mütləq əksəriyyəti yerli vətəndaşlardır, onların əksəriyyəti gənclərdir. Yəni, orada çalışan insanların orta yaş səviyyəsi təqribən 30-35 arasındadır. Bax, görülən bu işlərin nəticələri budur. Ölkəmizin uğurlu inkişafı üçün belə böyük müəssisələrin çox böyük əhəmiyyəti var. Qeyri-neft sektorunun inkişafı bundan sonra da bizim üçün prioritet olacaq. Qeyd etdiyim kimi, qeyri-neft sənayesində 9,1 faiz artım çox böyük göstəricidir.

Əlbəttə, Azərbaycan bu layihələri xarici tərəfdaşlarla həyata keçirərkən bizim beynəlxalq əlaqələrimiz də möhkəmlənir. Bu gün Azərbaycan o ölkədir ki, bu ölkəyə həm xarici sərmayə qoyulur, həm banklar böyük məmnuniyyətlə vəsait ayırır. Çünki bilirlər ki, onların vəsaiti batmayacaq. Bilirlər ki, Azərbaycanın kifayət qədər böyük maliyyə resursları var. Bizim maliyyə resurslarımız, ehtiyatlarımız xarici borcumuzdan 4,5 dəfə çoxdur. Bax, bu gözəl vəziyyət imkan verir ki, biz tərəfdaşları, xarici bankları cəlb edək. Ancaq, eyni zamanda, bizim siyasətimiz ondan ibarətdir ki, xarici dövlət borcumuzu aşağı salaq. Necə ki, keçən il ərzində xarici dövlət borcu 22,8 faizdən 19 faizə düşübdür və bu il daha da düşəcək.

Mən çox şadam ki, bu gözəl müəssisə Sumqayıt şəhərində yaradılıb. Sumqayıt nəinki Azərbaycanın, Cənubi Qafqazın ikinci böyük sənaye şəhəridir. Sumqayıtın sənaye potensialının möhkəmləndirilməsi üçün çox böyük işlər görülüb. Mənim təşəbbüsümlə Sumqayıt Texnologiyalar Parkı, Sumqayıt Kimya Sənaye Parkı yaradılıb və 2017-ci ildə karbamid zavodu parkın rezidenti olubdur. Hazırda Sumqayıt Kimya Sənaye Parkında 18 rezident var. Onlardan 10-u fəaliyyət göstərir, artıq 11-ci rezident - karbamid zavodu da fəaliyyətə başlamışdır. Sumqayıt Kimya Sənaye Parkına qoyulan və qoyulacaq ümumi sərmayə təqribən 3 milyard dollara yaxındır. Bu, həm Sumqayıtın iqtisadi-sənaye potensialını gücləndirir, həm də iş yerlərinin yaradılmasına xidmət göstərir. Sumqayıtın ümumi inkişafı, o cümlədən ekoloji vəziyyətinin yaxşılaşdırılması üçün çox böyük işlər görülür. Sumqayıt bu gün parklar, bağlar, xiyabanlar şəhəridir, gözəl

bulvar salınıb, binaların dam örtükləri təmir olunur. Ümumiyyətlə, indi Sumqayıtın müasir görkəmi çox müsbətdir. Bu zavod da ekoloji baxımdan çox təmiz bir zavoddur. Mənə verilən məlumata görə, havanı çirkləndirən heç bir maddə olmayacaq.

Beləliklə, bu zavodun yaradılması böyük hadisədir. Mən burada iştirak etmiş bütün vətəndaşları, bu işlərdə fəal rolu olan bütün insanları bir daha həm təbrik edirəm, həm onlara təşəkkürümü bildirirəm.

Onu da bildirməliyəm ki, bu zavodun açılışı Xoşbəxt Yusifzadənin ad gününə təsadüf edir. Mən istəyirəm, Xoşbəxt müəllimi bu gözəl hadisə münasibətilə bütün Azərbaycan vətəndaşları adından təbrik edim. Xoşbəxt müəllim neft sənayesinin canlı əfsanəsidir, neft sənayesinin rəmzidir, Azərbaycan vətəndaşının rəmzidir. Mən xüsusilə xahiş etdim ki, Xoşbəxt müəllim bu gün buraya dəvət olunsun, həm onu təbrik edim, eyni zamanda, bu gözəl hadisəni biz birlikdə qeyd edək.

Sizi bir daha təbrik edirəm, Sizə yeni uğurlar arzulayıram. Sağ olun.

X X X

Prezident İlham Əliyev zavodda istehsal olunacaq məhsullara da baxdı. Zavodda gün ərzində 2000 ton karbamid istehsal ediləcək.

Sonda xatirə şəkli çəkdirildi.

AZƏRTAC
2019, 16 yanvar